MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

BƏKİR ÇOBANZADƏ

Seçilmiş əsərləri

III 163
Ç67

BƏKİR ÇOBANZADƏ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

II CİLD

252430

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Bəkir Çobanzadənin müxtəlif illərdə nəşr olunmuş əsərləri və arxiv materialları əsasında nəşrə hazırlanmışdır

Nəşrə hazırlayan və
ön sözün müəllifi: **Məmməd Adilov**
filologiya elmləri doktoru

Redaktoru: **Adil Babayev**
filologiya elmləri doktoru, professor

ISBN 978-9952-34-185-0

494.3-dc22
1. Türkoloji tədqiqat

Bəkir Çobanzadə. Seçilmiş əsərləri. Beş cilddə, II cild.
Bakı, "Şərq-Qərb", 2007, 368 səh.

Şərq dünyasının XX əsrin 20-30-cu illərində yazıb-yaratmış ən böyük alimlərindən Bəkir Çobanzadənin "Seçilmiş əsərləri"nin II cildinə onun 1928-ci ildə Ağməsciddə əski əlifbada nəşr etdirdiyi "Son dövr Krım-tatar ədəbiyyatı tənqid təcrübələri", arxivdə makina latın çapı və əski əlyazması halında qalmış "İbn Mühənna və onun lüğəti" kitabları, eləcə də elmi dövri mətbuatda Azərbaycan və rus dillərində nəşr edilmiş 27 məqalə və çıxışı daxil edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Nəşr etdirdiyi əsərlərini sadəcə "professor" adı ilə imzalayan akademik Bəkir Çobanzadə (1893-1938) özündən sonra zəngin elmi və bədii irs qoyub getmişdir. Onun elmi və pedaqoji fəaliyyətinin ən coşqun dövrü Azərbaycanda yaşadığı illərə düşür. Kitablarının da, məqalələrinin də böyük bir hissəsi Bakıda nəşr edilmiş, əsərlərinin dili mümkün qədər Azərbaycan dilinə yaxınlaşdırılmışdır.

Bəkir Çobanzadə Azərbaycanda yaşasa da, başqa türk diyarlarını da unutmamış, ölkənin türklər yaşayan hər yerini gəzmiş, yerli ləhcələri və ədəbiyyatları öyrənmiş, onların haqqında zəngin material toplamış və həmin türk dilləri və ədəbiyyatları barəsində də elmi əsərlər yazıb nəşr etdirmişdir. Bu onun ilk növbədə türk xalqları üçün, "dildə birlik, fikirdə birlik, əməldə birlik" ideyasının gerçəkləşdirilməsi üçün necə cəfakeşliklə çalışdığını göstərir.

* * *

Bəkir Çobanzadənin əsərlərinin bir hissəsi əski əlifbada, bir hissəsi o dövrün yeni Azərbaycan əlifbasında, bir hissəsi isə rus dilində nəşr olunmuşdur.

Alimin "Seçilmiş əsərləri"nin II cildinə iki kitabı, məqalələri və məruzələrinin mətni salınmışdır.

1928-ci ildə Ağməsciddə əski əlifbada ayrıca kitab şəklində nəşr etdirdiyi "Son dövr Krım-tatar ədəbiyyatı tənqid təcrübələri" məruzəsində Krım tatarlarının ədəbiyyat tarixinə nəzər salınsa da, əsas etibarilə Rusiyadakı dövlət çevrilişindən sonra yazıb-yaradan Krım şair və yazıçılarının əsərləri ədəbi tənqidə cəlb olunmuşdur. Əsərin mətnindən görünür ki, müəllif doğulub boya-başa çatdığı türk diyarında yetişən gənc ədiblərin yeni ədəbiyyat yaradıcılığında düzgün yol tapmasına çalışır, onların əsərlərinin dil və üslub xüsusiyyətlərinin və bədii keyfiyyətlərinin dövrün tələbinə uyğunlaşdırılması üçün öz məsləhətlərini verirdi.

II cildə daxil edilmiş "İbn Mühənna və onun lüğəti" kitabının makina çapı və əlyazması Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılır. Müəllif XIII-XIV əsrlərin türkoloqu

İbn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan" lüğətini ərəb dilindən tərcümə edərək 74 səhifəlik mətni tədqiqatının sonuna əlavə etmiş, lakin makina çapında əllə əski yazını yazmaq üçün buraxılmış yerləri doldurmağa imkan tapmamışdır. Buna görə də lüğətin 1936-cı ildə hazırlanmış tərcüməsini bu nəşrə daxil etmək mümkün olmamışdır. Kitabın tədqiqat hissəsində İbn Mühənnanın məhz Azərbaycan türkoloqu olduğu bir daha sübuta yetirilir, onun əsərinin müasir elmimiz üçün əhəmiyyətli olduğu və aktuallığı göstərilir.

Bəkir Çobanzadənin elmi məqalələri türk dillərinin və ədəbiyyatlarının ən müxtəlif problemlərinə həsr olunmuşdur. Məlum olduğu kimi, onun yaşayıb-yaratdığı dövrdə bir sıra inqilabi hadisələr baş vermiş, türk xalqlarının uzun illərdən bəri gözlədiyi əlifba dəyişikliyi həyata keçirilmiş, bununla bağlı ortaya çıxan problemləri həll etmək və müasir türkologiya elminin əsaslarını qoymaq üçün Birinci Türkoloji Qurultay, Birinci İmla Konqresi və s. kimi beynəlxalq əhəmiyyətli tədbirlər keçirilmişdi. Bu hərəkatda ən fəal iştirak edən aparıcı alimlərdən biri də Bəkir Çobanzadə olmuşdur. Onun məqalələrinin əksəriyyəti Azərbaycan və başqa türk dillərinin qrammatikasının tədqiqinə, ədəbi dil quruculuğu məsələlərinə, leksikoqrafik problemlərin həllinə, əlifba və orfoqrafiya normalarının, terminologiya məsələlərinin işlənib-hazırlanmasına, mövcud dərsliklərin təhlilinə və elmin təşkili problemlərinə həsr edilmişdir. Alimin bədii dil məsələləri ilə bağlı Nəvainin, Füzulinin, M.F.Axundovun və Simurqun yaradıcılığına həsr edilmiş məqalələri müasir üslubiyyat elminin başlanğıcı sayıla bilər.

* * *

Bəkir Çobanzadənin "Seçilmiş əsərləri" üçün mənbələrin toplanmasında yaxından kömək etmiş Alim Korkmaz və A.Əliyeva-Kəngərliyə minnətdarlığımızı bildiririk.

Məmməd Adilov

SON DÖVR KRIM-TATAR ƏDƏBİYYATI TƏNQİD TƏCRÜBƏLƏRİ

(Professor B.Çobanzadənin məruzəsi)

"İləri" jurnalı idarəsi tərəfindən 1928-ci ildə Ağməsciddə buraxılmış kitab əsasında nəşrə hazırlanmışdır.

BAŞLANĞIC

Bəzi eyhtiyaclar var ki, onları şu dəqiqədə dəf etmək lazım, lakin bunların dəfi üçün lazım gələn hazırlıq, vasitələr əlimizdə yox. Bir Krım-tatar ədəbiyyatı tarixi bu gün, bu dəqiqə lazım olsa da, bu dərəcəyə vara bilmək, böylə ciddi bir əsər meydana qoya bilmək üçün Krımın dörd guşəsini dörd-beş illər daimi surətdə araşdırdıqdan sonra bir o qədər zaman da tışarıda, məsələn, İstanbulda, Leninqrad kibi mədəni mərkəzlərdə keçirmək lazım. Bizim sözlərimizin yekunu yarı tənqid-təhlili, yəni afaqi obyektiv momentləri, cizgiləri göstərməklə bərabər, yarı-yarıya da hissi və şəxsi təəssür və intibahları verəcəkdir. Bir dərəcəyə qədər bugünkü ədəbiyyatımızın bəzi yekunlarını verməklə bərabər, eyni zamanda məruzə sahibinin ədəbi baxışlarını da meydana uracaqdır.

Bizim fikrimizcə, hər iki cəhətdə hazırlıq dövrünü başlamaq üçün kafi və irəlidə daha ciddi araşdırmalar qoyulacaqlar üçün qiymətli əsaslardır.

ƏSKİ ƏDƏBİYYATA ÜMUMİ BİR NƏZƏR

Bir başlanğıc olmaq üzrə yeni Krım-tatar ədəbiyyatının təhlilinə girişmədən əvvəl ədəbi keçmişimizə bir göz atmaq, onun bəzi cizgilərini təsbit edib keçmək zəruridir. İbtidai mədəni söz sənəti dövrünə girmiş olan xalqın yekparə birlik ədəbiyyatı yoxdur. Bir sözlə və bəsit surətdə deyəcək olursaq, ədəbiyyat və sənət məişətin inikası olduğundan bu məişətin qatlarına yükləmələrinə görə ədəbiyyatın da qatları bir-biri üzərinə yüklənmiş təbəqələri olıyor. Türk-tatar dünyasındakı islamdan çox əvvəl ta VII əsrlərdə (miladi) artıq türk-tatar xalqlarının ən azdan iki dürlü ədəbiyyatı vardı. Bunlardan birincisi xaqanların və tekinin (prinsin) ifadə aləti olaraq zamanımıza qədər tikili daşlar üzərində (Orxon kitabələri) qalmışdır. Bunların dili dövlət dili, üslubları da, bu sözü o vaxta tətbiq etmək caiz isə, kasik idi. Bu abidələrin mündəricəsindəki qattı dini məntiqdə yer-yer təkrarlanan müəyyən əfsanəvi adlar və bəglik, artıq açıq bir məna ifadə edəməyən cümlələr bunun şahididir.

Bundan başqa, bir ədəbi üslub, bir ədəbi sistema daha var idi ki, bunu da, bu zamanın təbirincə, "qara kamık – qara xalq" qullanırdı. Bu ədəbiyyatın ideologiyasında Orxon kitabələrinin həman hər sətrində xalqdan şikayət edən xaqan və tekinlərin arzu və ideologiyalarına tərs, zidd nöqtələr çox bulunmalı idi. Bununla bərabər, bugünkü türk-tatar xalqlarının, bilxassə köçəbələrin ağız ədəbiyyatında bunun davamını bulmaq və istənildiyi təqdirdə müqayisə yolilə bu əski ədəbiyyatı gözlərimiz önündə canlandırmaq mümkündür. Hər halda professor Köprülüzadənin bu ədəbiyyat haqqında "xaqandan ən adi nəfərə qədər" duyulan, sevilən bir ədəbiyyat olduğu fikrini yürütməsini qeydsiz və şərtsiz qəbul etmək doğru deyildir. Artıq bu dövrlərdən başlayaraq, xaqan ilə qara kamıkın ədəbi zövqlərini, üslublarını bunların məişətləri və əziyyətlərindəki ayrılıqlara dayanaraq araşdırmaq və bulmaq qabildir. İslamdan sonra bizdə ədəbiyyat, təbir caiz isə, üçqatlı oldu.

SARAY ƏDƏBİYYATI

Saray xanlıq dövründə və bundan bir yarım əsr sonrakı zamanlara qədər bizdə, Krımda da bu üçqatlı ədəbiyyatın əsər və izlərinə rast gəliyoruz.

Krım xanlarından və bunların saraylarında yetişən adamlardan bəzilərinin qəlp məhsullarını birinci növ, saray ədəbiyyatı zümrəsinə soxa bildiyimiz kibi, bu soy əsərləri başqa Şərq saray ədəbiyyatı əsərlərilə müqayisə edə biliriz.

Ərəb və farsi ədəbiyyatının az-çox canlı quyruğundan ibarət olan bu ədəbiyyat saraylarda, mədrəsə hücrələrində, bir sözlə, Şərqin qullandıqları klassik şərtlərə malik mühitində yetişiyordu və tipik Avropa klassik ədəbiyyatı kibi, bunun ədəbi və dəyişməz qaydaları, mövzuları var idi. Bu dövr və bu ədəbi zümrəyə mənsub olan şairlərin mövzuları qullandıqları bədii terminlər yığılıb bir-biri ilə müqayisə edilsə, bunların lüğət, üslub, vəzncə çox zamanlar dəmir çəmbərlər içərisinə qapanmış olduqları görülür. Bu ədəbiyyat və bu güzidə ədəbi zümrə, cəsarətlə deyə biliriz ki, Füzuli və Nəvai kibi bəziləri istisna edilirsə, geniş təbəqələr arasında bilinməmiş, yəni xatiri sayılacaq ictimai rol oynayamamışdır.

DİNİ, YAXUD MÖVLUD ƏDƏBİYYATI

İkinci növ "dini-ərəbi" təbir etdiyimiz ədəbiyyat islamiyyətin təşviqi, agitasiya ədəbiyyatıdır. Şəkli, texniki cəhətdən az-çox xəlqi olan bu ədəbiyyat təşbehləri, mövzuları, epizodları və fabulasilə xalqın öz ədəbiyyatında yaratdığı başlıca əsasları bənimsəyərək, mollalar, seyidlər və dərvişlərin [əlinə] pək qüvvətli, çox əsrlər xalqı istədiyi kibi tərbiyə edən kəskin ədəbi bir silah vermişdir. Qabdulla Tokayın:

Bar min put təəssüb bu meydə,
Bu meydə yüz ləb inad anbarı bar.
Bu meydə min put biranın (pivə) parı bar,
Bu meydə bardır cəhalət on vaqon.
Min biləmlik davası bir min vaqon
Əski-əski fikri bardır on kəlet (kilər)
Hər cədid kafir! İgirmi isklad, –

deyə tərif etdiyi beytlərin ədəbiyyatı iştə bu ədəbiyyatdır. Müsəlman türk-tatar xalqlarının, bilxassə Türküstan, Azərbaycan, Qazan və Krım kibi islam dünyası ilə daha ziyadə mədəni və ədəbi alışveriş olan yerlərdə xalqın zehni, hafizəsi, deyə biliyoruz, başdanbaşa bu soy ədəbiyyatın məhsullarilə dolmuşdur. "Seyid Battal", "Mövlud", "Əhmədiyyə", "Məhəmmədiyyə"lər, "Kəsik baş"lar və hədsiz-hesabsız ilahilər həp bu dövrün meyvələridir. Yeddi yüz yeddi hicri sənəsində yazmağa başlayan Yunus İmrənin "Şol cənnətin irmakları", "Alı almış sancağını əlinə" kibi ilahilərini bilməyən Krımtatar köyü bu gün də yoxdur, – desək mübaliğə etməyiz. Bu ədəbiyyatın meydanı cənazə, zikrli-zikrsiz mövludlar kibi dini məclislər olduğundan biz bin doqquz yüz iyirmi birinci ildə çıxan "Bilgi" jurnalında bu ədəbiyyatın adını "Mövlud ədəbiyyatı" qoymuşduq.

XALQ ƏDƏBİYYATI

Nəhayət, üçüncü növ ədəbiyyatımız həqiqi xalq ədəbiyyatı olub, bunun da iki budaq olduğunu burada qeyd etməliyiz. Birisi Cənubi, birisi də Şimali Krımda özünə yurd-yuva yapmışdır. Birisi:

Cəvun cövsə, qar cövsə,
Car cağlar ak taban.
Kay baban sənin at çapqan,
Al şibirtqi, sür saban, –

şəklində olduğu kibi, o birisi də:

Gedər issək uğrun olsun,
Kimsə yolun bağlamaz.
Atalardan qalma söz
Kəndi düşən ağlamaz, –

şəklindədir. Hər iki tip parçanı bir şəkildən digərinə keçirmək qabil deyildir. Şunu da əlavə etməli ki, Cənubi Krıma mənsub olan xalq ədəbiyyatı az-çox Türkiyə yazılı ədəbiyyatı ilə qüvvətləndiyi halda, Şimali Krım ədəbiyyatı özünün yazılı ədəbiyyatı olan cığatay ədə-

biyyatından ayrılmış və Səadət Gəray zamanından bəri divan dili, yarlıq dili olmaq haqqını qeyd etmişdir.

İştə bunun üçün ən təmiz, bütün zəruri sifətləri daşıyan xalq ədəbiyyatı iştə budur. Hər iki qisim xalq ədəbiyyatı da, sırası gəlmişkən qeyd edəlim, şimdiyə qədər ciddi üsuli bir tədqiqdən keçməmişdir. Olesnitski cənub, akademik Radlov daha ziyadə şimal ədəbiyyatından təsadüfi və qismən o qədər xarakteristik olmayan nümunələr vermişlərdir. Bu dilcə, üslubca, ədəbi baxışca bir-birindən ayrı ədəbi növlərin bir-biri ilə toqquşmasından, heç olmazsa, xarici cəhətlərilə, məsələn, dilcə əvvəlki iki növdən ayrı bir üçüncü növ daha meydana gəlmişdir ki, bəzilərinin "Orta Krım" deyə anladıqları Kefe – Bağçasaray xəttinə məxsusdur. Bəncə, bu soy xalq ədəbiyyatının nümunəsini şu şərqidə bula biliyoruz:

Ay mal tabar, mal tabar,
Altun yüzün qulda bar.
Gözüni sevəyim qazi bəyim
Qarangıda yol tabar.

Yaxud:

Kaya kayaya bakar,
Kayadan sellər akar.
Əski Krım yaş kızları
Çıkmış qaziyə bakar.

Məlum olduğu üzrə, toylarda-ciyinlərdə hər iki tərəfin türkü şərqiləri eyni dərəcədə məqbuldur. Hətta çalğıçılar dinləyənlərin cənublu, yaxud şimallı olmalarına görə eyni şərqini gah cənub, gah şimal ləhcələrində söyləyə biliyorlar. Məsələn, şu aşağıdakı manini ölçü və ahənginə heç zərər gəlməksizin iki dürlü də deyə biliriz:

1) cənubca:

Dərya dibi saz olur,
Gül açılsa, yaz olur.
Bən sana gül deyəməm,
Gülün ömrü az bolur.

2) şimalca:

Dərya tübü saz olur,
Gül açılsa, yaz bolur.
Mən sana gül deyəlməm,
Gülün ömrü az bolur.

Təbii, böylə çevirmələr yalnız mani kibi dürlü namlar altında, ümum türk-tatar xalqlarına məxsus olan ədəbi parçalar arasında mümkün olıyor.

Krımın tarixi həyatına mərkəzi-siqlət daha ziyadə çöl – şimal tərəfi olduğundan bundan başqa, çöl tərəfi xalq ədəbiyyatına da daha ziyadə müsaid məişət şəkli olan köçəbəlik dövründə yalı boyu – cənuba görə daha gec çıxdığından, nəhayət, yazılı ədəbiyyatla ərəb-farsi təsirilə meydana gələn ədəbiyyatla daha az, daha zəngin, daha təmiz, vəlhasil, ifadəcə daha qüvvətlidir.

On doqquzuncu əsrin başlarından sonlarına qədər bizdə yazılı ədəbiyyat, təsadüfi şeir parçaları, süxtə cünglərində rast gətirdiyimiz bir kaç şərqi, qəzəl, ilahi çıxarılacaq olursa, dur idi, – demək mümkündür. "Tərcüman"la başlayan yeni ədəbiyyat bin doqquz yüz beşə qədər gərək mündəricə, gərəksə dil və şəkil etibarilə bizdə İstanbulun peşində getdi.

1905 bizə Şamil Tuxtar qazi [şəxsiyyətində] cənub, Həsən Çərkiyev şəxsiyyətində şimal şivələrinin şairlərini verdi.

Şamilin şeirlərində nisbətən inqilabi məzac daha qüvvətli isə, Çərkiyevdə şeiri qüvvət daha ziyadə idi. Türkcə cənubi yazan şairlərimizin pişdarı Şamil isə, tatarca-şimalca yazanlarının pişdarı Çərkiyev idi. Çərkiyev ideologiyası etibarilə bin doqquz yüz beş islahçılarının şairi olduğu halda, Şamilin şeirlərində daha ziyadə sosial-revolyusioner əməllərinin, ictimai inqilab tellərinin titrədiyini seziyoruz.

1917 ilə təqribən iyirmi dörd arasında keçən müddətdə adları onlara baliğ olacaq şair və ədiblərimizin şəkli və müncəricəvi cəhətdən Şamil və Çərkiyev simalarının daha ziyadə təbəllür, təkamül etməsindən başqa bir şey bulamıyoruz.

Bu məruzəmizdən məqsədimiz bir məruzədə qeyri-mümkün olduğundan yeni ədəbiyyatımızın bütün təkamül səhifələrini, mənzillərini gözdən keçirmək olmayıb, daha ziyadə qarşımızda duran növbəti vəzifələrə mümkün olan təbii yol və yanaşma ilə gələ bilmək üçün bir dərəcəyə qədər mənşələrdən bəhs eləmək idi. Buraya qədər söylədiklərimizdən son dövr ədib və şairlərimizin nə kibi və nə qədər bir mirasa qonduqlarını kəsdirmək mümkündür.

SON DÖVR ƏDƏBİYYATI

Son dövrdəki məişət və təsərrüfatımızın xarakteristik nöqtələri nədir? Bizdə şimdiyə qədər yalnız köy təsərrüfü var. Bu köy xanlıq dövrünün başlıca maldarlıq, heyvanasar ovçuluq üstünə qurulan yarım köçəbə deyil. Bu köy böyük bir qismində daha ziyadə bağçılıq, bağçaçılıq, bostançılıq... və qalan qisimlərində əkinçilik ilə uğraşan çalışma üsulu ilə olsa belə, çalışma mövzusu etibarilə həqiqi, təməlli, sağlam köy. Bu köylərin Dərəköy, Üsküt, Aluşta, Alupka... kibi yerlərində biz artıq şəhər olmaq istedadı duyuyoruz. Digər tərəfdən, inqilabda gərəyi kibi iştirak edəməsək belə, inqilabı yapıcılıqda öz payımıza düşən vəzifəni yapmaya uğraşdığımız görülüyor. Köylülərimiz bu sayədə daha ziyadə texnikaya, dəmirə, kömürə, elektrikə doğru gediyor. Krım köylüsü özü bilsin-bilməsin qayət qüvvətli bağlarla Moskva, Xarkov, yəni böyük Rusiya, Ukrayna bazarlarına bağlı bulınıyor və işini bu bazarların tələbinə uydurmağa çalışıyor, yəni istehsal alətlərini, üsullarını avropalılaşdırmağa çalışıyor. İştə bunun üçün Krım-tatar köylülərinin əksəriyyəti "ən böyük dinsizliyi", dürlü rəngdə, qüvvətdə məqbul, məşhur Krım şərabını yapıyor.

Bundan başqa, artmaqda, böyüməkdə, yüksəlməkdə olan Krım köylüsü Bağçasaray, Karasu kibi bütün əsnaf mərkəzlərində azçox xəyalçı əsnaf ideoloqlarımızın verdiyi təsəlliyə baxmayaraq, iqtisadın, iqtisadi qanunların bükülməz əlini, rəhbərliyini duyan əsnaf xalqımız fabrikaya qoşuyor, fabrika istiyor və bu surətlə öz miqyasımızda bir tatar proletar qismi, işçi sinfi çıxmaq üzrə bulınıyor. Tonğanından deyil, onğanından tatar köylüsü işçi olıyor pavperizm, fəqirlik dövründən keçərək deyil. Məlum olduğu üzrə, bu dövr, yəni çarizm vaxtında yaşadığımız pavperizm dövrü, torpaqsız köylülərin köydən qaçması bizə iki şey verdi: 1) ondan ziyadə mühacirət; 2) bir sürü arabaçı, qəhvəçi, çibərəkçi.

Bu gün təbii axınla fabrikalara yüksəlmək, artmaq istəyən əsnaf və köylü yaşlarımızın dolduğunu görüyoruz. Təbii, bütün bu şeylər qələmin yazdığı kibi birdən-birə, düz yoldan getmiyor. Əski aləm yaşamaq istəyir, tutunıyor, uruşıyor, çapalanıyor, bütün bu hərəkəti durdurmaq, geriyə çəkmək istəyir.

İştə bugünkü şairimiz xronolojik cəhətdən böylə bir dövrün şairidir. Şairimiz, əcəba, fəaliyyəti, əsərlərilə də bu dövrü təmsil edə biliyormu? Bu dövrün ana cizgisini, təzadlarını, bu təzadlar arasındakı mücadilələri də görə biliyormu? Nəhayət, onun qarşısında nə kibi vəzifələr durıyor? İştə bu məruzəmiz qısadan da olsa, bu suallara cavab verməyə çalışacağız.

Tatar ədəbiyyatının son dövrünü tədqiq edərkən şimdilik, yəni bugünkü inkişaf dövründə ayrı-ayrı cərəyanlar və məsləklərə bölməyəcəyiz. Çünki bu qədər geniş xalq ədəbiyyatında, bu qədər yaxın bir ədəbi nəsildə daha böylə ayrılıqlar görmək, bulmaq mümkün deyildir.

Yalnız Krımda deyil, ədəbiyyatda bizim səfimizdə duran başqa türk-tatar cümhuriyyətlərində də, məsələn, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Dağıstan... kibi yerlərdə də bizim şairlərimizə bənzər şairlər görüyoruz. Bunların ümumi xarakterisitik cizgiləri vardır:

1. Dil və texnika etibarilə xalq dilindən, xalq ədəbiyyatının dilindən tamamilə ayrılmamışlardır. Çox az mücərrəd ümumi təbir qullanıyorlar.

2. Həyat və ümumu biləmiyorlar, bunun üçün əsərlərində məsələlər yerinə lövhələr, təhlillər yerinə təfsillər, canlı tiplər yerinə Şərq, Qərb kibi geniş aləmlər bulınıyor.

3. Daha ziyadə mənzumələr yazıyorlar, çünki nəsr təhlil və psixolojik yanaşma istiyor. Roman, hekayə, pyes yazanları pək az.

4. Həman həpisi şövq və həyəcan hissi ilə mütəhəssis bulınıyorlar, həyatın nöqsanlarını deyil, daima ümid verən, gülgülü tərəflərini görüyor və bunun üçün ömrümüzün hankı acıyan tərəfindən yazsalar yazsınlar, şeirləri daima ümidlə bitiyor.

5. Şərq şairlərindən, ədəbiyyatından ziyadə Qərb ədəbiyyatına meyl etdikləri görülüyor. İçlərində bəziləri artıq son rus ədəbi simaları ilə ədəbi təmasda bulunmağa başlıyorlar.

6. Bu şair və ədiblərin çoxusu hənuz təhsilini bitirməmiş gənclər olduğu kibi, bunların oxuyucuları da yüzdə doxsan məktəb tələbələridir.

7. İçlərində daimi surətdə yazanlar pək az bulınıyor.

8. Həman daima qəzetə və məktəb jurnalları üçün yazıyorlar. Bu sonuncu iki cəhət, bir tərəfdən, onların şeiri səviyyəsini, digər tərəfdən, mühüm dərəcədə onlar şeirlərin mahiyyət və keyfiyyətini təyin ediyor.

9. Bunların heç birisi şair olaraq keçinmiyor, yəni həyatını qazanmıyor.

İştə bu qeyd etdiyimiz nöqtələr bu şairlərin, yaxud gənc ədiblərin təhlili üçün kafidir. "İləri" məcmuəsində bugünkü şairlərimizin əsərlərini təhlil etmək üçün "Ayn. Sin." arkadaş tərəfindən "Bizdə şeir texnikası" namilə bir kaç məqalə yazıldı. Lakin bu məqalələrə gərək "Yaş qüvvət" qəzetəsində "İndeməz" bir arkadaş tərəfindən yapılan qeydlər, gərəksə yenə "İləri" səhifələrində verilən cavablar nəzəri-etibara alınacaq olursa, "Ayn. Sin." arkadaşın əsas yanlışı göstərildi, – demək mümkündür. Çünki bir kərə gənc inqilabi, ədəbi bir dövr başlarkən forma, şəkil üzərində durmaq qabil olamaz. Şəkilçilik – formalizm, rus ədəbiyyatında pək gözəl göstərildiyi kibi, ideyasız, mündəricəsiz şairlərin yoludur. Bizim gənc, həyəcanla dolu şairlərimizi yalnız şəkil üzərində düşündürmək bu gün hənuz qabil deyildir. İkinci tərəfdən, şəkil, texnika məsələsi, "Ayn. Sin." arkadaşın yazdığı kibi, yalnız ölçü və qafiyədən ibarət deyildir. Şəkil məsələsi, üslub, yazış məsələsi olaraq qonulmalıdır ki, təhlil etdiyimiz şairin yazdığı vaxt dilə, sözlərə nə qədər hakim ola bildiyi meydana çıxsın.

262430

Yeni ömür şairinə iki yeni şey lazım idi: 1) yeni mündəricə; 2) yeni şəkil.

Xalq ədəbiyyatı müəyyən mövzu və mündəricəyə malik deyildir. Əski ədəbiyyatımız da "gül", "bülbül", "Fərhad və Şirin", "Leyla və Məcnun" kibi bir kaç əsr içində beş-on başlıca mövzudan ziyadəyə malik deyildi. Bizdə üsuli-cədid dövrü şairlərinin başlıca mövzusu oxumaq, təhsili-elm və mərifət, bir də mübhəm mənasında çalışmaq idi. "Tərcüman" və "Vətən xadimi"ndə çıxan şeirlər oxunursa, bu cəhət olduqca açıq görülür. Təbii, yuxarıda kəndilərindən bəhs etdiyimiz Çərkiyev, Şamil kibi şairlər bir dərəcəyə qədər müstəsna sayıla biliyor.

Bizim yeni dövr ədəbiyyatımızı, fikrimizcə, üç parçaya ayırmaq mümkündür: 1-ci dövr 1905 sənəsindən başlayaraq, məruzəmizin

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

başında söylədiyimiz kibi, Həsən Çərkiyev, Şamil Tuxtar qazi kibi şairlərimiz tərəfindən təmsil olınıyor. Bunlardan Çərkiyev liberalizm, tərəqqiçilik darını tərənnüm ediyor. Şamil Tuxtar qazi isə 1905 inqilabının ictimai ünsürlərini əks etdirməyə çalışıyor. Məruzəmizə yapdığımız müqəddimədə söylədiyimiz kibi, bir dövrdə bir kaç xalq təbəqə, qruppasının bir kaç dürlü ədəbiyyatı ola biliyor. Bizdə həm Çərkiyev, həm Şamil yeni şairlər idilər. Bununla bərabər, xalq ədəbiyyatımız, dini ədəbiyyatımız öz həyatilə yaşaya gəldi. Binaən əleyh bunlar əski, bu qədər mövcud olan ədəbiyyatımıza ancaq ən yeni, ən tazə bir qatlav təbəqə olaraq əlavə olundular.

Hər hankı bir ədəbi dövrü tədqiq edərkən qarşımızda duracaq məsələlərdən birisi də dövrün hakim sinfini və bunun şairini tapmaqdır.

1905-dən 1917-yə qədər bizdə və Tatarıstan, Azərbaycan kibi ileri gələn əski Rusiya türk-tatar ölkələrində yeni yetişməkdə olan tatar, yaxud türk burjuasilə daha əski məişət üsullarının böhrana, sarsıntıya uğradığı, gərəyi kibi doymayan kiçik burjuaziyanın, tatar əsnaf təbəqəsinin mübarizəsi vardı. Tatar burjuaziyası içinə bəzi liberal pomeşçikləri də əlavə eləmək lazım gəlir. Bizdə Krımda bu iqisadi, sinfi nöqtələr lüzumi dərəcədə tədqiq olunmamışdır, hətta ibtidai tədqiqatı götürmək üçün lazım gələn statistik məlumatı əldə etmək pək ziyadə gücdür.

Halbuki Tatarıstan və Azərbaycanda bu xüsusdakı tədqiqlər olduqca qəti nəticələr vermişdir. Məsələn, professor Ranqauzer "Bakıda inqilab və vətəndaş müharibəsi" namilə bu sənə nəşr etdiyi əsərində Azərbaycandakı müsavatçılıq, daşnak mübarizələrinin Azərbaycan türk liberal pomeşçikləri ilə erməni burjuaziyası arasındakı rəqabətdən doğduğunu pək açıq və olduqca qəti surətdə göstərməkdədir. Əlbəttə, Ranqauzer gənc və ermeniyə görə daha ziyadə zəif olan türk burjuaziyasının rolunu da unutmuş deyildir. Çünki bizdə bu xüsusda yazı yazanlar daha vaqeələrin xronologiyasından o taya keçəmədilər.

Volqaboyu türk-tatar xalqları arasındakı ictimai təbəqələşmə, sinfi mübarizə və bunun ədəbiyyatdakı əksi Qalimcan İbrahimov, Qubaydullin Qaziz, Qabdurəhman Səidi, Camal Vəlidi kibi ədəbiyyatçı və tarixçilər tərəfindən əllərində olan materialın müsaidəsinə görə iqnaedici faktlar və misallarla təsvir olunmuşdur. İştə bu sayda islahçı Mərcani, sərfçi və kalendarçı Kayum Nasiri, xalq şairi Qabdulla

Tokay üsuli-cədidin və islahat fikirlərinin əleyhdarı Halimov, "Nur" qəzetəsi, "Din və məişət" jurnalı öz məna və mündəricəsini qazanıyor. İslahçı mollanı, liberal şairi, qaragüruh mütəəssibini Piçen bazarını, tatar burjuaziyasının inkişafını bilmədən anlamaq, içərisinə nə qədər beyin doldursalar-doldursunlar, heç bir zəkaya nəsib olamaz. Piçen bazarı Qazanda, məlum olduğu üzrə, kiçik burjuaziyanın, əsnaf xalqının və eyni zamanda qaragüruh mollalığın durağı kibi alınır. Qabdulla Tokay "Piçen bazarı" kibi bir çox şeirlərində bu qaragüruhun təəssübünü gərəyi kibi təsvir etmişdir.

Krıma gəlincə, dediyimiz kibi, ictimai dinamika məsələləri burada o qədər də açıq deyildir. Mənim zənnimcə, bizdə ictimai qüvvət olaraq bəhs edəcəyimiz dövrdə üç təbəqə vardır: 1) liberal pomeşçik, yaxud kulak; buna daha zəif olan tatar burjuaziyasını da əlavə etməli; 2) əsnaf, kiçik burjua; 3) köylü.

Liberal pomeşçik, liberal tatar mirzəsi kimlərdi? Əksəriyyət etibarilə qazanlıların "çabatalı mirzə" dedikləri bizim "suma mirzələr" idi.

Bunların böyük bir qismi məmurluğa, müəllimliyə getmiş, bir qismi də, işsiz-gücsüz qisim əqrəba arasında dolaşır, zəngin mirzələrin müsafir odalarında ömürlərini keçirirlərdi. İçlərində yaxşı səsi olanlar türki söylər, musiqi ilə uğraşır, onu da bacarmayanlar qudalıq yaparlardı. İştə Çərkiyev böylə suma mirzələrdən idi. O, müəllimliyə verilmiş mirzəlik soyunu Krımda bəkləyən, ictimai-iqtisadi böhranı görən, öz sinfindən inkisari-xəyala gəlmiş idi. Onun "Təqdir" namındakı şeiri oxunursa, orada "cahil və bay mirzənin tənqidi" görülür. Bu səs liberal və müflis pomeşçikin ibrət səsidir.

Bundan sonra Çərkiyev şeirlərində inkisari-xəyalın son dərəcəsi olan qeydsizliyə verilmiş, nəhayət, kosmopolitik və xəfif bəla ədəbiyyatına keçmişdir.

Şamil Tuxtar qazi tatar ictimai həyatına tənqidlə yanaşmış idi. Onun "Nalei-Krım"dakı şeirlərindən bir çoxu bunun şahididir. Bununla bərabər, şair olaraq, əlbəttə, Çərkiyevdən aşağıdadır. Çərkiyevdə olan şeiri zövq Şamildə yoxdur.

1905-1917 dövründə meydana çıxan şairlərimiz içində Çərkiyevə bənzəyənlər çox, Şamilə bənzəyənlər həman yox kibidir. Şamil kimin şairi idi, yaxud olacaqdı? Şübhəsiz, köylü şairi. Lakin o vaxtlarda köylü içində oxuyucu yoxdu. Köy müəllimləri də pək azdı. Binaən əleyh Şamil və şamillər üçün yol yoxdu.

"Tərcüman" və "Vətən xadimi" səhifələri qarışdırılsa, qaragüruh şairlərinə, əsnaf şairlərinə də rast gəlinir. Bunların çoxusu soktalar, yaxalı-sarıqlı mollalar idi.

Bunların babası Türkiyə şairlərindən Məhəmməd Akifdir. 1913-14-cü illərdən bizdə milli şairlər də görünməyə başlıyor. Romaniya tatarları arasından Nüman Bayburu, Məhəmməd Niyazi, Krımdan Çələbi Ceyhan, H.Odabaş və bu sətirləri yazan bu milli şairlərin birinci qruppasını təşkil ediyorlar. Lakin bu qrup ancaq 1917-dən sonra mətbuatda və xalq arasında görünə biliyor. Qasprinskinin qeyri-siyasi simasına, duxovnı pravleniyası ətrafında toplanan qaragüruh mollalığa, Çərkiyevin kosmopolit yazılarına görə bu qrupun şeiri və ədəbi fəaliyyəti bir kaç addım ileri demək idi. Bunlar şeirlərini şəkli cəhətdən xalq ədəbiyyatilə, köylü ədəbiyyatilə bağlamaqla bərabər, mündəricəsində türkçü şairlərdən, məsələn, Məhəmməd Əmindən olduqca qüvvətli təsirlər aldı. Bu qrup müharibə əsnasında qüvvətlənən tatar burjuaziyasına, liberal kulaklara arxa veriyor, əsnaf təbəqəsinin bir qismini də qavraya biliyordu.

1917-dən sonra bunlara Cəmil Kərmənçikli, Ömər İpçi, "Ayn." Lətifzadə, Şövqi Bəkturə, daha sonra Hamidi Gəray bay iltihaq etdilər. Məruzəmiz ən son dövrə aid olduğundan bu milli şairlər üzərində uzun müddət durmaq niyyətində deyiliz. Yalnız şunu əlavə etməli ki, bugünkü Krım oxuyucusunun bildiyi kibi, bunlar içərisindən bir çoxu bu gün artıq inqilabi ruhu bənimsəmiş və inqilabçı şairlər arasında gözə görünür mövqeyi işğal etməkdədirlər. Bunların fəaliyyəti son nəslə dil, mündəricə və şeiri ənənə cəhətindən olduqca qəvi təməllər vermişdir.

Nəhayət, əsl məruzəmiz olan 1922-1927 arasında törəmiş olan son ədəbi dövrümüzə gələlim. Söylədiyimiz kibi, bu dövrdə bir az əvvəlki dövrdən qalmış şairlərimizin bir çoxu yazmaqda davam ediyorlar. Bunlardan əvvəl biz ən yeni, ən gənc şairlərimiz üzərində durmalıyız. Bunlar da Ziyəddin Cavtobalı, Krim Rəşid Camanaqlı, Fevzi Abdulhayy, M.Nüzhət, Cəmil Gəncə, Əşrəf Şəmizadə və sairələridir.

Məruzəmizin başında bunları öz aralarında birləşdirən cizgiləri qeyd elədik. Şimdi bunların ədəbi yaradıcılığına bir az daha yaxınlaşmalıyız. Burada da təbii yol ilə tışdan içə doğru. Bunlar hankı dil ilə yazıyorlar? Ömər İpçi ilə Odabaşdan başqa, cümləsi şimal şivəsi

ilə yazıyorlar, – denilə bilər. Zatən bu şairlərin həman həpisi Kefe, Kezlev, Bağçasaray, Karasubazar, Kerç... kibi şimali, yaxud orta məntəqələrdəndir. Yalıboyunun şairi yoxdur! Eyni zamanda yalıboylu şair də yox! Bunun səbəbi nədir? Əcəba, nə kibi şərtlər yalıboyundan şairlər çıxmasına mane olıyor? Halbuki burada bilxassə mani ədəbiyyatında xalq, yalıboyu qızları pək ziyadə mahir olıyorlar. Digər tərəfdən, başqa mədəni sahələrdə yalıboyu az fəaliyyət göstərmədi. Bir vaxtlar üsuli-cədidin, yeni mədəni hərəkətlərin yuvaları Dərəköy, Alupka, Aluşta, Korbek... kibi yalıboyu köyləri idi. Bunun səbəbi, bəncə, şeiri yaradıcılığın cənub şivəsində şimaldakı qədər olmamasıdır. Bu məsələ üzərində gənclərimizin fikrini bilmək pək maraqlı olur idi. Hər halda bən zənn ediyorum ki, yalıboyundan şair çıxacaqdır, həm də gözəl. Yalıboyunun şairi, yəni böyük şair...

Dil məsələsinə dönəlim. Ömər İpçi Bağçasaray şivəsilə yazmağa çalışıyor. Odabaşa gəlincə, onun dili planla qurulmuş, süni, qeyritəbii. Qasprinski mərhum da şeir yazsaydı, Odabaş kibi yazardı. Bənə öylə gəliyor ki, Odabaş sözləri gurultularına görə seçiyor və onların dimağda, başda oyandırdıqları lövhələr (**образ**) ilə qətiyyən məşğul olmıyor:

1) Qış gəldi, qış, qış babay,
   Qarlar yağa toktamay.
2) Qarlar sanki yorğanday?
   Yer yüzini çormalay,
   Çormalay, qarmalay.
3) Getmə, bahar, sən tezdən,
   Getmə, mayıs, sən bizdən.
   Yürəgimizgə nur sərəpkən,
   Ayırma bu cənnətdən.
4) Böylə qaranlıq gecənin
   Heç qorkmayıb tinçliğin.
   Tək bir kor davuş timalay,
   Şay tirmalay, qarmalay, qarmalay...
5) Batır yüksək səslərinən,
   Şay bağırıb ürəgən, ürəgən.
6) Amma aqku qarmalay,
   Bir-ikisini yakalay.

Şu bir kaç parçanı gözdən keçirirsək, yuxarıda Odabaşın "dilsizliyi" haqqında söylədiyimiz sözlərin doğruluğu meydana çıxar. Şair qüvvətsiz təkrarlar və bir-birinə yapışmayan sözlərlə şeirlərinin bütün qüvvətini qaib etmiş olıyor. "Ayırma bu cənnətdən" sözü sizə hankı sözləri xatırladıyor? Bənə, məsələn, kartların: "Əcəl versən, imandan ayırma!" – dediklərini. Demək ki, şair öz sözlərinin oxuyucusunun dimağında oyandıracaq xatirə və təsirlərini iyicə düşünməmişdir. Qarların "yorğan kimi olması", "kor davuşun tincliği tirmalaması", "mayısın yürəgimizgə nur səpməsi" də eyni hökm altına alına bilir.

Bundan başqa, Odabaşın "qarmalay, tirmalay, çurmalay" kibi sözləri təbii, üzvi, ruhi bütün hadisələrin təsvirində qullanması, onun bu sözlərə qarşı bəslədiyi zövqi zəifliyi göstəriyor. Hər şairin böylə hər zaman təkrar olunan sevimli sözləri olur. Buna söz-yoz yox. Lakin bunlardan daha mənasız və şeir üçün gəlişiksizini tapmaq qabil deyildir. Odabaşın şeirinə düşən hər şey – qar olsun, köpək olsun, aqku olsun – qarmalı, tirmalı... Korlarla uzun müddət ömür keçirən adamda ancaq böylə dünyaya baxış ola bilir. Yoxsa, haşa biz bu şeylərin qarmalandığını heç də görməmişiz. Odabaşın dilsizliyinə səbəb olan nöqsanlardan birisi də onun söz uydurmasıdır. Onun istilahçılığına nə qədər müvəffəqiyyətsiz olursa-olsun, ümumiyyət və prinsip etibarilə bən daima müsbət gözlə baxa gəlim. Lakin şeirdə söz uydurmağa heç kimsənin haqqı yoxdur. Məlum bir sözə yeni bir məna verə bilmək! İştə şairin haqqı, hətta yaxşı şairin borcu. Çünki dil ancaq bu surətlə ədəbi bir mahiyyət qazanır, zənginləşir. Odabaş "ürəgən, ürəgən!" diyor. Böylə təkrarların qiyməti haqqında söylədik.

Lakin "ürəgən" deyən söz bizdə, bizim ləhcələrdə varmı? Bən Krımda olduğum zaman bütün bənim bildiklərim "ürmək" və "ürgən" diyorlardı... Ola bilsin ki, Krımın hər hansı bir köyündə böylə diyorlar, lakin bu ümumi tələffüzü pozmağa səbəb olamaz.

Dəvədən qulaq qəbilindən göstərdiyimiz bu cəhətləri xatırlayaraq oxuyucu Odabaşın şeirlərini əlinə alsa, şairin bütün bədii yaradıcılığını qavraya bilir.

Əlbəttə, Odabaş nəsri yazıları şeirlərinə görə qiyas qəbul etməyəcək dərəcədə yüksəkdir. Gələlim bizim az-çox təmiz tatarca düzgün dil ilə yazan şairlərimizə.

Məsələn, gözəllik, müsbət cəhətləri göstərmək üçün Cavtubəlini alalım. Bu şairin qafiyələri haqqında Ömər Sami arkadaş öz fikirlərini yazdı. Təbii, şeirin xarici cəhətində qafiyənin də əhəmiyyəti var. Lakin şairin bütün söz texnikasına görə bu cəhət üçüncü dərəcədə qalır. Cavtobəlinin xarici cəhətdən olduqca gözəl parçaları var, məsələn:

Türlü əski yalanğa aldanasız,
Alevsiz utka töşədə lav yanasız.
Bunday ömür, kömürdür, bulmaz bulay,
Qaçırıb əldən fürsətini cürməniz cilay.
Dövranınız, qalmanız əndidə artda,
Tüşiniz bilgi coluna qıyqını tartda.

Bu parça bir çox cəhətlərdən diqqətəlayiqdir.

Əvvəla, vəzni, qafiyəsi düzgün, sözləri, tərkibləri bir-birinə pək ziyadə uyğundur. Lakin gözəl bir parça üçün bu qədəri kaf deyildir. Burada biz qiymətli, bədii, orijinal təbirlər göriyoruz.

"Alevsiz utka töşədə lav yanasız", "Tüşiniz bilgi coluna qıyqını tartda" cümlələri bu fikirlərimizə dəlildir. "Kıyqını tartıb bilgi yoluna" düşən tatar qızları bizim üçün nə qədər qiymətli lövhə. Bu sözdə hərəkət, iradə, qüvvət var. Tatar qadınının azim etdiyi, qərar verdiyi dəqiqələrdəki sevimli hərəkətini, "qıyqını tartması"nı göstərən həyati, etnoqrafik nöqtə.

"Alevsiz od" təbirilə şair özünün mücərrəd düşüncəsinə sağlam, konkret şəkil veriyor.

Bunun yanında "Əlif". Əzizova arkadaşın eyni mövzu üzərinə yazılmış şu parçası nə qədər zəif!

Tatar qızı heç çalışmay degenler,
Bu gün qara yer tübüne girsinler.
Haqqımızğa aytıladır bu laflar,
Keyfimizi heç bozmayaq biz, qızlar.

Vəznindən, qafiyəsindən vaz keçdik. Burada iki söz bir-birinə doğru surətdə məntiqi bağla bağlanmamış. "Tatar qızı çalışmay!"

– demək həm doğru, həm yanlış laf. Hankı tatar qızından bəhs olınıyor? Sonra arkadaşın "Keyfimizi heç bozmayaq biz, qızlar!" – şüarını ortaya atması "veçerinka məntiqi"ni xatırladıyor. Qalanı da "apaqay qarğışı", vəssalam. Halbuki həqiqi şair daha doğru, daha faydalı surətdə qadın məsələsini çöziyor və doğru yolu göstəriyor:

Dövranınız, qalmanız əndidə artda,
Tüşiniz bilgi coluna qıyqını tartda.

İştə bu! Bu gün də, yarın da "keyfini pozmaq istəməyən" tatar qızlarına şairin ən münasib sözü budur; həm böylə, tatarca, şircə.

Cavtubəlinin daha böylə parçaları çox var.

Lakin məruzəmizi dinləyən arkadaşlar böylə parçaları özləri tapmalıdır. Bununla bərabər, Cavtubəlinin şeirdən, şairlikdən aşağıda qalan yerləri də çox. Bunu da sırasında göstəririz.

Şəkli və texniki gözəllikləri araşdıraraq, başqa şairlərimizin əsərlərinə də müraciət etməliyiz.

İnsan eşsiz olmaz imiş. Şeirdə gənclər arasında Kərim Camanaqlı ilə Cavtubəli əkizdir. İkisi də köylü balası, ikisi də noqay, nəhayət, ikisi də texnikum tələbəsi və komsomol. Bundan başqa, bir-birilərinin yazdıqlarını əzbərdən bilmiş kibi yazıyorlar. Bu ümumilik və təbir cayizsə, şeiri əkizliyi irəlidə bəzi misallarla təqviyə edəriz. Camanaqlı xalq sözlərindən, Cavtubəlinin qolaylıqla qullandığı xalq ədəbiyyatı istilahlarından uzaqlaşmağa çalışa, o yeni təbirlər arıyor:

Hər tərəf durğunlab, nəfəssiz qalsa,
Məxluqat uyuşub uyquğa dalsa,
Tək şair bunlarçün kəmanın çalsa,
Şəfqətlər sezdirir qələmim derdi.

* * *

Yercilər yer toplap manesini qursa,
Qayğılı bəlanən qəlbin ursa,
Cilalı gözünə munlu yaş tolsa,
Bunlara gülük der qələmim derdi.

Əlbəttə, bu parçalarda ahəng və ölçü, qafiyə cəhətlərindən düşüklüklər var. Sonra bu sətirlərin mənalarını, şairin nə demək istədiyini açıqca anlamaq bir dərəcə qədər güc. Lakin mənim fikrimcə, bu dil tutuqluğu yuxarıda bəhs etdiyimiz "dilsizlik"dən daha ümidli, daha müsbət bir hadisə sayılmalıdır.

Camanaqlı ilərdə inkişaf edərsə, özünəməxsus bir üslub sahibi ola bilir, lakin böylə qalırsa, sözləri bir-birini tutmayan, dili pozuq əcəmi bir kedaydan başqa bir şey olmaz.

Çox yazıq ki, "Yeni dünya" və "Yaş qüvvət" qəzetələrində nəşr olunan şeirlər toplu surətdə əlimizdə yoxdur. Bununçün də İrğad Qadir, Altəkli, Dərviş kibi arkadaşların şeiri əsərləri haqqında təhlilə girişmək imkanından məhrumuz.

Eyni surətlə Fevzi Abdulhayy, Cəmil Gəncə və Əşrəf Şəmizadə. Mehmed Nüzhət arkadaşların şeirlərindən də əlimizdə pək az nümunələr var.

Əşrəf Şəmizadənin şair siması mənim üçün pək o qədər aydın olmamaqla bərabər, şimdiyə qədər gözümə ilişən bəzi parçalarına dayanaraq, yuxarıda bəhs elədiyimiz gənc şairlərin şeiri texnikası dərəcəsinə vardığını söyləmək mümkündür. Hətta onların bir çoxlarından daha qüvvətli olacağı açıqca seziliyor. Məsələn, "Leninge" namilə yazdığı şeirin şu parçalarını dinləyiniz:

Okunuz! Okunuz! Okunuz! – dedin,
Özündə okun birisi edin.
Milyonğa işanub qurdun bir üsul,
Kitayğa buddasın, arabqa rəsul.
V.K.P.
Göstərgən colınqdan kete.

Şairin bu bir kaç sətirində belə açıqlıq, qüvvət və mətanətdən ibarət bir üsluba malik olacağı görüliyor.

Cəmil Gəncə arkadaşın da istedadlı və ümidli şairlərimiz arasında adı çəkilməlidir. Onun bilxassə "Bala şeirləri" namilə nəşr elədiyi kitabçasında verdiyi parçalar bu sözlərimizi təsdiq eləyir. Şeirlərində maddi həyatın və texnikanın yerləşməsi böyüklər üçün yazan şairlərimizə də mövzu cəhətindən nümunə olaraq göstərilə bilir.

Mehmed Nüzhət arkadaşa gəlincə, o "keday" ilə "şair" arasında bulunur. Bununçün mövzu cəhətindən təsvirçi və dil cəhətindən olduqca təmizdir, yəni bu söyləb keçdiyimiz şairlərdən ziyadə xalq dilinə yaxındır. Onun "Noqayın adağı", "Qaltım əkən, ya rəbbim" şeirləri oxunursa, bəhs etdiyimiz cəhətlər açıqca görüniyor. Mündəricə cəhətindən bir az daha qoyurur və yüksəlirsə, xalq dilində müvəffəqiyyətlə yazan Şevqi Bekturəyə yaklaşacaqdır.

Şairlərimiz içərisində sevgi haqqında yazanlar pək az. Bu xüsusda Fevzi Abdulhayy arkadaşın çalışdığını görüyoruz. Bu şair birinci aşiq dövrünü yaşıyor. Onunçün gözəllərin və gözəlliyin yalnız bəzi zahiri və cüzi nöqtələri üzərində bulınıyor. Onun şeirlərində sevdiyinin siması, xasiyyətləri, təbiəti, nəhayət, sevgisinin səbəblərindən ziyadə "səlbiday boyu", "ergin-ergin cürüşü", "ağ köksü" və "qolları"nın şairə yapdığı ani və keçici təsirlərinə onun "yürəgi tutduğunu", "meyinə urduğunu" göriyoruz. Bununla bərabər, bu sözləri şairə qarşı mənfi tənqid kibi alınmamalıdır, çünki sevgi müsbət və qüvvətli şairin duyğusudur və birinci dəfə sevgi haqqında yazan şair, əlbəttə, yuxarıda göstərdiyimiz kibi, olduqca xarici və ibtidai duyğulardan ilərıyə gedəməyəcəkdir. Birinci addımında da Fevzi Abdulhayyın səmimi və cəsur bir surətdə mövzusuna yanaşdığını da inkar etmək olmaz. Yetər ki, sevgisi ümumiyyətlə bizim Krım tatarında olduğu kibi, bahara nişan və küzdə toy ilə bitib getməsin. Biləks, başqa Avropa xalqlarının şeir və ədəbiyyatlarında gördüyümüz kibi, dürlü-dürlü vəziyyətlərdə sinfi həyat və mübarizənin sakin və həyəcanlı dəqiqələrində bu sevginin oynadığı rolu, aldığı şəkilləri, tabe olduğu əbədi qanunları Krım toprağı üzərində də göstərə bilsin.

Bir sözlə, gənc şairlərimiz haqqında bizim bəslədiyimiz ümidlərdən ibarət olan bu sözlərdən sonra bir az da onların bişkinliyinə və möhtərəm dinləyicilərimizin müsaidə və səbrinə dayanaraq, bəzi nöqsanlar haqqında da dərdləşməliyiz.

Bu nöqsanları ikiyə bölmək lazım gəlir: mündəricə və şəkil qisimlərinə.

Mündəricə cəhətindən də şairlərimizi ikiyə ayırmaq mümkündür. Bir qismi bugünkü ictimai həyatda iştirak edən, bugünkü cəmiyyətin havasilə ciyərlərini şişirərək nəfəs alan şən, ümidli şairlərdir. Bunların şeirlərindəki başlıca mövzular 1925 sənəsində nəşr olan

"İnqilabi şeirlər məcmuəsi", yaxud müxtəlif jurnal və qəzetələrimizi gözdən keçirənlər üçün məlumdur. Əcəba, bunlara mövzu cəhətindən "proletar şairi", "inqilab şairləri" denilə bilirmi? Bəncə, xayır! Bunlar daha ziyadə inqilabçı şairlərdir. Aradakı fərq, zənn edirəm ki, hər kəs üçün aydındır.

Bu şairlərdən heç birisi proletar həyatını, sənaye mərkəzlərini, fabrika içərisini görmüş və bilmiş deyillərdir. Onlar proletar bayramlarının şairləridir. Onlar işçiləri daha həyat içində, dəzgah başlarında deyil, bəlkə, yalnız inqilabi bayramlarda sokaklarda görə biliyorlar. Bununla bərabər, onların könülləri inqilabi duyğular, inqilabi ümidləri atəşlər ilə dolu bulunıyor. Onlar, heç olmazsa, yeni tatar köyünün övladları. Onlar ortada bir əllərilə köylərini şəhərə, digər əllərilə şəhəri köyə doğru çəkiyorlar. Bir sözlə, köylüdən doğmuş, proletarca tərbiyə görməkdə olan gənclər. Proletar tərbiyəsi sayəsində onlar bu proletar həyatı ilə ilərıdə doğrudan-doğruya tanış olacaqlardır ki, onların daimi şair olaraq qalacaqlarını bəkləyən parlaq gələcək, iştə bu proletar şairliyi istiqbalıdır ki, bunun içində həm inqilabi, həm də mədəni, həm yüksək və böyük şair fikir və məfhumları gizlidir.

Lakin bugünkü bizim gənc şairlərimiz mündəricə cəhətindən köylü şairləridir? Onların xəyallarında, lövhələrində, təsəvvürlərində köylü həyatından ünsürlər yaşıyor. Köylü həyatı, köylü təbiəti onların bütün şeiri, həyati aləmlərini təyin ediyor. Hətta mücərrəd fikirlər, təsəvvürlər belə onlarda köylü təbiəti qucağında, köylü həyatının bala yatağında doğuyor.

Mavi göydə yıldızlar nur saçqanda,
Cürəgimdə bir duyğu sezə idim.
Quy çiçəklər, lalələr gül açqanda
Bin bir oylar çölündə gəzə idim.

Bu qitəni diqqətlə dinləyən arkadaşlar köylü şairin nə demək olduğunu pək gözəl anlarlar. Şairin "Bin bir oylar çölündə" gəzməsi, yaxud öz qəhrəmanını gəzdirməsi və bu gəzintini "mavi göydəki yıldızlar", "quy çiçəklər, lalələrin gül açması" ilə yaraşdırması heç də gəlişigözəl, təsadüfi deyildir.

Şairlərimiz daha şəhərin fərqində deyildirlər. Şəhər şairi olaraq onlarda biz ancaq məktəb və yuxarıda dediyimiz proletar inqilabı həyatının xarici, səthi, tışqı nöqtələrinin əks etdirildiyini görüyoruz. Bu qədər. Yuxarıda dediyimiz kibi, onlar maşınların nəfəs almasını, çelik ilə kömürün danslarını, kart sözimən ayıtacaq olsaq, dünyanın kaç bucaq olduğunu bilmiyorlar. Şəhərin ulitsaları, bu ulitsalardan axan dürlü boya və sürətdəki sellər onlara daha heç bir şey söyləmiyor. Onlar daha şəhərlə söyləşəmiyorlar.

Köydə də, bənə qalırsa, onların daha omuzlarına basan bəzi duyğular, əskidən qalma bəzi qeyri-şüuri təsəvvürlər, lövhələr var. Bu da, bir tərəfdən, köy təbiətinin gecəsi, səhəri, quşçuqları, laləsi, gülü, sünbülü... kibi durğun, meşçan köylülüyə məxsus zinətləri, digər tərəfdən, patriarxalizm ruhu, zehniyyəti...

Yaş şairlərimiz arasında çoxca yazan ikisi – Cavtobəli və Camanaqlı – yeni köyün qurucusu, qəhrəmanı olaraq daima "kurti kart" tipini irəli sürüyorlar. Əcəba, "kurti kart" canlı bir tipmi? Kurti kart şairlərimizin sevdiyi və tanıdığı yeganə maşinaya, traktora nasıl baxıyor? Odabaşın da "Millət" qəzetəsi dövründə bir "Qızıl qubalı canay kartı" var idi. Bu kartlar nə milli, nə də inqilabi dövrləri, mənim fikrimcə, gərəyi kibi, şairlərin zənn etdikləri kibi anlamadılar. Bu gün qarçığadan durub, ocaq başından çıxıb ictimai axıntıya doğru gedən qəhrəman kartlarımız yox. Yeni köy, yeni ömür kartlarının üstündə qurulmıyor və qurulmayacaq. Ən yaxşı kart yaşlara gərək yerində çin könüldən bir "afərin!" deyən kartdır və onun rolu bundan ötəyə keçəməz. Bizim "qırcıman"ları [...] vaxtilə bir hərəkətə gətirdik, lakin kartların hər hankı bir cərəyanı təmsil etdiklərini görmədik. Halbuki gərək Camanaqlı, gərəksə Cavtobəlinin köylü istiqbalına məxsus şeirlərinin baş təsəvvürü olaraq "kurti kart" duruyor. "Kurti kart" tatar köylülüyünün də mücərrəd simvolu, rəmzi olamaz, çünki tatar köylülüyü, hər kəsə məlum olduğu üzrə, bilxassə Krımda, bilxassə Sabancılıq yolunda çox-çox gənc... Əsas etibarilə söylədiyimiz şairlərdə kart köylülük deyil, köylünün timsalı, yəni mücərrəd deyil, konkret bir şəxs. Camanaqlı da "kurti kart", "Cal! Tuş!.. Dey saban ayday...", yəni çalışqır tirnəkli kart. Cavtobəli bu karta daha böyük rollar veriyor. Traktor kart gətiriyor, əsri, mədəni məişət qurmaq yoluna kart düşüyor, ilax. Bunlar həqiqətə uyğun olmayan şeylər: Krım şərtləri içində həqiqi, təbii şəkillər,

təsəvvürlər deyildir. Halbuki yanlış təsəvvür qullanman şeirdə əsas qüsurlardan birisidir. Şeirin ruhu, lövhələrin doğruluğu, kəskinliyi, dərinliyi və qüvvətindədir. Bir sözlə, lövhə və təsəvvür (**образ**)dadır. Təsəvvür yanlışı demək şeir əsas etibarilə ölümə məhkum deməkdir. Təsəvvürləri zəif, punarlı olan şeirləri heç bir mərifət, sənətkarlıq – qafiyə, vəzn və sairə – unudulub getməkdən alıqoyamaz. Yanlış təsəvvürə bir misal olaraq aldığımız bu "kart" təsəvvürü şairlərimizdə eyni zamanda patriarxalizm zehniyyətinin az-çox daha canlı olduğunu da göstəriyor.

Təsəvvür məsələsi şeirin ruhu demək. Nasıl elm fikirlərdən tərəkküb ediyorsa, şeir də təsəvvürlərdən uruluyor. Bu cəhətdən bizim şair arkadaşlarımız olduqca zəif. Bir çox şeirlərində canlı, qarşınıza əyan-bəyan deniləcək lövhə yox. Sətir-sətir-sətir, tıq-taq-tıq, qafiyə-mafiyə. Həpsi var, lakin yüz kərə də oxusanız, gözünüzün önünə müəyyən bir şey, məsələn, bir qara mışıq şəkli belə gəlmiyor. Demək ki, sizin oxuduğunuz şey şeir deyildir. Məsələn:

Həqiqət dünyası – yigitlik yolu,
Şən bağlar-bağçanın qatmarlı gülü.
Bənimlə sirdaşıb-söyləşən günü
Qayğımı ölçəyən qələmim dərdi.

(Camanaqlı)

Bu sözlərdən gözünüzün önünə, xəyal və xatirənizə bir şey doğdumu? Heç bir şey doğamaz. Çünki yazıçı, şair burada açıqca bir şey söyləməmişdir. "Şən bağlar-bağçanın qatmarlı gülü" kim? "Şən bağlar-bağça" yalı boyu olsun, "qatmarlı gül" də dolğunca bir qızcıq! Nə üçün bu qatmarlı gül şairimizlə sirdaşdıqdan sonra: "Qayğımı ölçəyən qələmim dərdi" – kibi tatarca olsa da, ərəbcədən də qarışıq bir cümlə meydana gəliyor? Buna, bəlkə, şair özü də cavab verəməz. Şair hər şeydən əvvəl doğru, səmimi olmalı. "Şən" dediyi zaman şən, "qayğılı" dediyi zaman yalansız-yanlışsız böylə də duymalı, bunu duydurmalı. Sonra oxuyucudan sirr saxlamaq, o da şair şəninə yaxşımaz. Nə üçün qayğırdığınızı, nə sirdaşdığınızı oxuyucular bilməlidir. Çünki bütün məsələ də bunun üstündədir. "Şairin ruhu" dediyimiz şey burada özünü göstərəcəkdir. Yaş şairlərimizin karatları da şuya... Hankı şeirlərini alsaq, bu nöqsanla qarşılaşırız.

Ömürlər dövrdür çarkdayın aylanır,
Gah qısar parmağın qanlı yaş tökərsin.
O da bir atdayın qazıqqa baylanır,
Görəksənq şübhəsiz onu da görərsin.

(Cavtobəli)

Burada könülə, xəyala, bir sözlə, insan xitab edəcək bir təsəvvür parçası, bir şəkil, bir hikmət yox. Halbuki şair böyük fəlsəfə satdığını zənn ediyor. "At aylanır-aylanır qazığına baylanır" atalar sözünün üzərinə qurulmuş və əski ədəbiyyatın çərxi-fələk məfhumu ilə tamamlanmaq istənilmiş bu qitə quru, əski və cansız lövhələrə misal ola bilir. Yaş şair həyatı böylə təsəvvür edəməz və etməməlidir. Üçüncü bir tip qitə daha alalım:

Gecələr, gecələr, uzaq gecələr,
Xəyalğa, uylarğa tuzaq gecələr.
Yıldızsız bir yolda məni də tutdunuz,
Calamay, calmamay qarınğa tıktınız...

Bizim "bulutlar, bulutlar!" ahəngi üzərinə qurulmuş olan bu şeirin də son iki misrasındakı qabalıq və bilxassə son misrasındakı adilik bütün qitənin əhəmiyyətini qaib ediyor. Bu iki sətir dəyişdirilsə, gözəl bir qitə meydana gətirmək mümkündür. Şairlərimizin üzərinə də bu cəhətlər olduqca məlum olsa gərəkdir. Bu xüsusda bütün qüsurları göstərmək, həm hər kəsə göstərmək qail deyildir. Bu qüsurları görə bilmək üçün az-çox şeirdən, şeirin daxili cəhətindən anlamalıdır.

Şairlərimiz görmədikləri, bilmədikləri şeylərdən heç zəhmətsiz yazıyorlar. Məsələn, həm Camanaqlı, həm Cavtobəli də bir taşsa "Dunayday taşa".

1) Əlbəttə, bu dəxi Dunayday taşıb,
Cavlarğa dəhşətli son sözün ayta.

2) Köpürə pışqıra, Dunaydan taşa,
Əlburuz, Himalay, Qab dağın aşa.

Dunayın nasıl daşdığı bizdə heç məlum deyil. Sonra Dunay öylə çox daşqan nəhrlərdən də deyil. Dunayın yatağından çıxdığını pək az eşitmişsinizdir. Öylə isə şair nərədən aldı?

Bənim "Dunay taşa" deyən şeirimin sərpintisi. Halbuki bu kafi səbəb təşkil etməz. Sən Dunayın taşdığını gördünmü? – desələr. "sorun filancaya" – deyə cavab vermək doğru deyil. Şair hər təşbehi, hər sözünü yaxşı ölçmək gərək. Gətirdiyimiz misallarda "Dunayday taşa" həyati bir lövhə, canlı bir təsəvvür deyil, bəlkə, doğrudan-doğruya kitabdan alınma cansız, mündəricəsiz bir təşbeh. Qoca bir şeiri böylə iki cansız, həyatdan uzaq təşbeh öldürə bilir. Cansız yaş şairlərimizin önündə, mənim fikrimcə, Yaqub Şakir Alı arkadaş gediyor. Onun hankı şeirini oxusam, məndə məzahi şeir, yaxud birisinə [...] yapılmış nəzirə, təqlid təsirini buraxıyor. Bu cəhətdən onun şeirləri bir-birindən maraqlı:

Colqıldı qartalın tüyləri, qanadı.
Quzğunlar hələ də edərlər inadı.
Bülbüllər dünyasın şahinlər sınadı,
Qabaq baş bayquşu kənarğa taşlamam.

Türk-tatar dilində yazılmış bu şeirdən nə "qabaq baş bayquşu", nə də başqa bu kibi heyvanlar haqqında qəti bir təsir almaq mümkün deyil. "Qartal və yırtıcı quşlar" mövzusu açıq, mənası bəlli, lakin şairin öz mövzusuna yanaşması pək bəsit, pək səthi. Bu şairin siyasi şeiri. "Yıldızlar" haqqında yazdığı şeir də qiymətcə, daxili cəhətcə bunun eyni:

Parıldarlar akşam üstü
Gög yüzində yıldızlar.
Rəsədlərdə heyətçilər
Bunları pək izlərlər.
Zü əznabdan qalaya da
Qalmaz bundan aşağı
Züxəl həlqə içində... ilax.

Arkadaş nərəyə gediyor? Yoxsa mənzum heyət, kosmoqrafiya dərsliyimi hazırlamaq istəyir? Bu mövzuların hər biri şeir üçün əsas

ola biliyor, ilham verə bilirlər, lakin böylə qələmə sarılan şeyi kağıza tökməmək şərtilə. Yaşkart bütün şairlərimiz şunu bilməlilər ki, şairlik, duyuculuq, şeir həyəcan, xəyali təsəvvür kibi daxili, dimağı fəaliyyət deməkdir. Özü duymadığı, özünün anlamadığı şeyi adam məqalə edib yazamadığı kibi, şeir edib də düzəməz. Tatar şairlərinin ən böyük qüsurlarından birisi şeirlərində canlı lövhələr, qüvvətli təsəvvürlərin, dərin, səmimi duyğuların olmaması, yəni şair olmamaları. Lakin bu halının birinci baxışda əhəmiyyətsiz kibi görünən bəzi konkret, müəyyən səbəbləri var ki, şimdi birər-birər onları gözdən keçirəlim.

Şeir, yaxud ümumiyyətlə ədəbiyyat tədqiq olunurkən tışarıdan içəriyə doğru hərəkət oluna bilir: şəkildən mündəricəyə varılır. Lakin şeir, ədəbiyyat doğarkən əks hadisə olur: başda fikir, sonra onun ifadə şəkli – ağac, boya, daş, söz, qaval, kamanə...

Sənətin hər hankı bir sahəsində yapılacaq tənqid hər şeydən ziyadə sənətkarın başına, fikrinə aiddir. Bu fikir nə qədər əsli, orijinal, yeni olursa, şəkil də o qədər yeni olur.

Şəkil ilə mündəricənin üç dürlü münasibəti olur: 1) mündəricə ilə şəkil bir-birinə uyğun; 2) şəkil mündəricəyə hakim; 3) biləks, mündəricə şəklə hakim.

1. Mündəricə ilə şəklin bir-birinə uyğun olması ictimai həyatın kamal dövrünə rast gəlir. Demək ki, sənətkar ideoloji və hünər cəhətlərindən cəmiyyətinin, öz sinfinin bütün istəklərini qavramışdır, bənimsəmişdir. Böylə şairlər bizdə çıxmamış deyildir, lakin bunlar daha ziyadə adsız xalq ədəbiyyatında özlərini göstərmişlərdir. Məsələn, qırğız və qazax akınlarının (keday) meydana gətirdikləri lirik (Aşiqanə), epik (qəhrəmananə) parçalar həm şəkil, həm də mündəricə cəhətindən o qədər sağlam, o qədər yekparədir ki, bütün-bütünə nümunə, əsas rolunu oynıyorlar. Bunun üçündür ki, akademik Radlov bunları əski qreklər və onların ədəbiyyatilə müqayisə etməkdədir. Şəkli ilə mündəricəsi uyğun əsərlər çox dəfə milli ədəbiyyatın dar çərçivələrindən çıxaraq, beynəlmiləl bir mahiyyət alır. Bu uyğunluq sayəsindədir ki, xalq ədəbiyyatı yazılı ədəbiyyatdan daha ziyadə cahanidir. Xalq ədəbiyyatı parçalarımız bizi, məsələn, Şərq və Qərb millətlərinin pək çoxilə bağlıyor. Hər hankı bir atalar sözünü alınız. Görəcəksiz ki, dünyanın həman bütün ataları bu sözü, bu fikri söyləmişdir. Bizə Şekspir, Bayrondan ziyadə Britaniya adasının köylü

ədəbiyyatı yaxındır. Hinddə "Pançatantra", qrekdə Ezop, bizdə Molla Nəsrəddin, rusda Krılov, fransızda Lafonten həp bu ümumi cəhəti ədəbiyyatın əsas və ünsürləri sayəsində beynəlmiləl intişar və əhəmiyyət qazanmışlardır.

2. Şəklin mündəricəyə hakim olması cəmiyyətin böhranlı zamanlarına məxsusdur. İnqiraza məhkum olan bir qrup, bir sinif daima şəkil üzərində durub, şəkli daha ziyadə mühüm görüb, mündəricəni ikinci dərəcəyə endirir. Qərbin son şüarı olan "Sənət sənət üçündür!" formulu və bu şüarı açıqdan, doğrudan, yaxud gizlidən, əyridən özünə mal edən formalistlər, kubistlər, futuristlər, konstruktivistlər və böylə daha bir taqım ədəbi məxluqlar və canavarlar həp bu böhranın qurbanıdırlar.

Son dövr fars, türk, ərəb ədəbiyyatını alınız: "gül və bülbül", "bahar", "Leyla və Məcnun", "Fərhad və Şirin"... kibi iyirmini keçməyən mövzu içində binlərcə şairlər doğub öldü. Halbuki birinci dövrün yaradıcı şairləri – İbn Faris, Əbu Nüvas, İmruül-Qeys, Xansiya... ərəblərdə, Firdovsi, Hafiz, Xəyyam... farslarda, Yunus İmrə, Nədim türklərdə nə qədər qüvvətli şəxsiyyətlər!.. Bunlar həp müxtəlif dövrlərin kamalında doğan adamlar. Məsələn, Qeys cahiliyyə, Əbu Nüvas Bağdad Abbasi dövrünün kamalında, Yunus İmrə sufi, Nədim saray dövrünün kamal və inkişaf basanağında yetişmiş qüvvətli xəyal və incə sənət sahibləri...

Türkiyədə Kamal və Şünasi dövrləri də az-çox böylə idi. Bu adamların öz fikirləri və öz dilləri vardı...

Lakin "Sərvəti-fünun"dan başlayıb, "Fəcr atı"ndan keçərək "lafla plov bişirən" "türk ocağı"na gələn şəkilçilik, "musiqar, tannan, şellələr kibi axan!" sözlər arayan gurultulu şairlər, köpüklü xətiblər, oratorlar... türk ədəbiyyatına bir zavalı və cilavuq Məhəmməd Əmin bəydən başqa bir şey vermədilər.

Təbii bir sürü... "Kara asyön, əfəndim, enfes, bəyim, enfes!" – deyə qoltuqlarında şeir tümərləri ilə qoşuşan ixtiyar, gəncləri unutmuyoruz... Az-çox qüvvətli şairlər Türkiyədə bu "ocaqlar"dan uzaqda yetişdi.

Son dövrün ərəb və fars ədəbiyyatları eyni çıxmaz yolun içinə saplandılar. Yalnız şeirdə deyil, nəsrdə, hekayədə, pyesdə, mətbuatda da iş böylə...

Fətəli Axundovla boy ölçüşə biləcək bir türk dramaturqu göstərə bilirmisiniz? Bizim maarif, iqtisadi, ictimai ümumimizi əks etdirməyə çalışan mətbuatımızla İstanbulun tərcümə felyetonlarla dolu türk mətbuatını müqayisə ediniz!.. Gurultu, gurultu!.. Bütün ictimai məsələləri, mühümlə ufaq-tufağı bir-birinə qarışdıran bir gurultu!..

İstanbul şəkilçilərinin "Kara asyön icad"ına baxaraq, daha doğrusu, ondan qaçaraq, sağlam və öz ictimai təməllərimizə uyğun bir ədəbiyyat yarada biliriz...

3. Nəhayət, üçüncü münasibət mündəricənin şəklə hakim olmasıdır, – dedik. Bu hal yeni çıxmaqda olan ictimai cərəyanlar, qruplar və siniflərin şairlərində görülür. Yeni fikirlər özlərinə daha yeni şəkillər bulamamışlardır.

Demyan Bednı əski rus ədəbi şəkillərini işlətməklə bərabər, əlbəttə, yeni, pək yeni bir şairdir. Tofiq Fikrət əski əruz vəznilə yazmaqla bərabər, əlbəttə, bir kaç yüz Məhəmməd Əmindən iləridədir... Məruzəmin darlığı, sonra öz mövzumdan uzaqlaşmaq arzusu bütün bu söylədiklərimizi misallarla qəviləşdirməmə mane olıyor.

Biz sonuncu dövrdə bulunıyoruz. Biz ictimai cəhətdən yeni xalqız. Biz köylü balalarıyız. Nə Tukyu, nə Teymur, nə Altun Ordu, nə də Krım xanlığı dövründə bizim əcdadımız əlinə qələm tutmuş deyildir... İnsaniyyət tarixində biz birinci dəfə öz qələmimizlə öz fikir və duyğularımızı söyləməyə, anlamağa girişdik. Biz Şərqin binlərcə illərdən bəri söyləmədiklərini, söyləyəmədiklərini söyləyə biliriz...

Yalnız xəstələnməmək, ədəbi, şeiri, bədii yaradıcılıq üçün lazım gələn, zəruri olan şərtləri unutmamaq, öyrənmək, öz-özümüzü durmadan tədqiq etmək məcburiyyətindəyiz.

Xəstəlik – şəkilçilik, laqeydlik mərəzinə tutulmaqdır. Şəkli cəhətdən hər hankı bir ədəbi cərəyanı bənimsəmək, məsələn, Puşkin, Göte, yaxud Mayakovski, Demyan Bednı kibi yazmaq güc deyildir. Lakin ortaya çıxacaq əsər, heç olmazsa, uzaqdan bunların yaradıcılığını andırmaq üçün bu şəklin içində bir şey olmalıdır. Bu şeyi də şair, yaxud mühərrir hazır olaraq heç bir yerdə bulamaz. Onu özün yaratmaq, özün doğurmaq gərək... Materialı nərədən almalı? Xaricdən, mənsub olduğun cəmiyyət və sinifdən... İştə şairin fikri dediyimiz budur, yəni:

cəmiyyət + mühərrir = əsər.

Bir az əvvəl ayrı-ayrı gənc və ixtiyar şairlərimizin əsərləri üzərində durduğumuz zaman bunlarda fikir, xəyal, bilgi, duyğu... olmadığını söylədik. Təbii, lüzumi dərəcəsində demək. Yoxsa onlar bomboş çuval kibi adamlar demək istəmiyoruz. Biləks, şimdiyə qədər onlar olduqca qiymətli şeylər verdilər, bunların bəzi nöqtələrini göstərdik, bəzilərini də şimdi göstərəcəyiz.

I. Birinci nöqsan şair və mühərrirlərimizdə tematika (**тематика**), mövzuiyyat cəhətindən olan zəiflikdir. Mövzuları ya çox bəsit, yaxud çox dar... Bunlar gözləri daha gərəyi kibi qüvvətli olmadığından yalnız parçalar üzərində qalıyor, yaxud məsələnin yalnız bir-iki bəsit, səthi, tış cizgilərini görüyorlar.

Həyat, təkamül, təxəmmür (**брожение**), proses (**процесс**), mücadilə kibi şeyləri onlar daha fariq edəmiyorlar. "Köy" dedikdə, onlara sənək, tırnavuç, çin, çiçək cımaq, nəhayət, bəzilərinə traktor görüniyor. Məsələn, aeroplan haqqında, bənim bildiyimə görə, yalnız Lətifzadə yazdı (axır zaman qoşu). Əcəba, köy şeirdə yalnız bu qədər cizgi ilə əks etdirilmiş sayılırmı? Köylünü tapmaq lazım! Axşamı, sabahı, gecəni, gündüzü köylü nasıl keçiriyor? Onun xəyal, ümidlərini, fəlsəfəsini, bir-birləri ilə olan münasibətlərini, xəyalqırıcı, ümidverici yerlərini, fəzilət və adiliklərini biliyormusunuz? Köylünün, yaxud köylü balasının ilk dəfə şəhərə gəldiyi zaman nə duyduğu ağlınızdamı? Çünki həman həpiniz böylə köydən şəhərə gətirildiniz, köylünün hər gördüyü yeniliyə birinci həmlədə düşmən olduğunu, sonra nə surətlə bu düşmənlərlə barışdığını tədqiq etdinizmi? Sonra gəlişigözəl köylü yox, filan tərəfdən, filan köydən filanca köylü var! Bunların həpsi tədqiq olunmadıqca şeiriniz, yaxud əsəriniz həqiqi, həyati olamaz. Ümumi cizgilər yanında xüsusi, qayət məhrəm, şəxsi cizgilər də olmalı. Məsələn, Ömər İpçi arkadaşın "Azad xalq" pyesini alınız. Əlbəttə, bu pyesdə bugünkü və dünkü köyümüzün bir çox xarakteristik cizgiləri alınmış, yalnız bütün köylərə məxsus olan ümumi cizgilər. Hacı Həsən, ümumi "Krım Hacı Həsəni" Bilal da, Səttar və Mustafa da öylə... Qızlarla erkəklərin selsovetdə şakalaşması eynən bizim Ağmeçit tatar klubunu andırıyor... Köylülər öylə şakalaşmazlar – desəm, İpçi əksində israr edəməz. Zatən mühərrir əsərinin başında yazıyor: "Oxu yurdunun və köy şurasının içi şu köydəki oxu yurdu və köy şurası kibi donatılmalıdır", yəni şu köyün

selsovetində oynayınız! O halda oynayanlar da şu köyün selsovet rəisi, komsomol serkatibi, Hacı Həsəni olamazmı? Halbuki bu doğru deyil. Mühərririn verdiyi tiplərdə ümumi cizgilər bəyanında xüsusi, şəxsi nöqtələr olmalı. Bunlar canlı olmuş və təkrarı qeyri-qabil şəxsiyyətlər təsirini buraxmalı.

Qorkinin "Konovalov"u, "İzergil"i, "Makar Çudra"sı, "Ana"sı ümumi tiplər deyilmi?.. Lakin bunları əlaladə hər yerdə görülən, hər yerdə tamamilə buluna biləcək adamlar saya bilirmisiniz? Şeirdə, ədəbiyyatda ən güc nöqtə iştə bu ümumi ilə xüsusini birləşdirməkdir. Yalnız ümumi cizgilərlə yazılacaq bir əsər, nəhayət, hökumət sirkulyarı, yaxud dokladı kibi bir şey olur, yalnız xüsusi nöqtələr üzərində qalanda heç kimsə üçün maraqlı olmayan ocaq başı söhbətindən başqa bir şey deyildir. Təkrar ediyorum, bədii əsər ümumi ilə xüsusinin birləşməsidir. Xüsusi – mühərririn aldığı hər tip, hər məsələni arayıb bulması və dibinə qədər tədqiq etməsi sayəsində meydana çıxar. Bu tədqiq mühərrirlərin öz gözü və öz fikir süzgəcilə yapılacağı üçün buraya, bu xüsusiyə onun özü də girər. Bu xüsusidən ürkməməlidir. Bu individualizm deyildir, çünki dediyimiz kibi, möhkəm surətdə ümumi ilə, tip ilə bağlanmışdır.

Bu cəhətlərə əhəmiyyət verilmədiyindəndir ki, İpçinin ədəbiyyatımızda hər halda ciddi addımlar təşkil edən birinci pyesləri canlı və məntiqi tiplərdən məhrumdur. Məsələn, Hacı Həsənin hərəkətləri, sözləri, motivasyonu... gərəyi kibi işlənməmiş. Bütün pyesi boyunca çəkingən, möhtəriz, mütərəddid Nazifə pyesin sonunda birdən-birə camaat hüzurunda Cəfəri qucaqlıyor... Bu heç olmuş və olacaq şey deyil! Mühərrir pyesini sonuna qədər yazıb gəldi, tam pərdəni endirəcəkdə Nazifə ilə Cəfər ağlına gəldi: haydı burada qucaqlaşsınlar!.. İşin içindən çıxayım! – dedi... və Nazifə ilə Cəfəri oynayan artistlər qucaqlaşırlar da... Lakin İpçinin bəhs etdiyi "qaraşkom" rəis müavini Nazifə qucaqlaşmamışdır. Burada var – son qucaqlaşmasın, kimə nə? – demək olmaz... Burada imla yanlışlığından çox böyük bədii, tipoloqiçeski, psixolojik yanlışı var. Bu kibi yanlışlarla əsər bata bilir...

Köy haqqında söylədiklərimizi eynən şəhər və texnika, işçi, kiçik burjua, böyük burjua tiplərinə təxsis edilən əsərlərə də təmim edə biliriz. Burada öyrənmək, tədqiq etmək, araşdırmaq lazımdır. Yalnız

şəhəri dolaşmaq, hər kəsi tanımaq, görmək bilmək deyildir. Ağməscidi, Bağçasaray və Karasubazarı kim tanımıyor? Lakin həman heç kimsə sözün bədii-şeiri mənasında bilmiyor, anlamıyor və görmiyorlar. Çünki gözlər daha qüvvətli deyil və əcnəbi ədəbiyyatları bilinmədən, bunların böyük şair və mühərrirləri ilə, daha doğrusu, onların əsərləri ilə müşavirələşmədən qüvvətlənməzdi...

II. Tematika nöqtəsindən göstəriləcək qüsurlardan birisi də bizim bədii əsərlərimizdə tatarın hər zaman ayrı, öz arasında alınmasıdır. Halbuki Krımda tatarlar heç bir zaman özbaşlarına bulunmamışlar.

On üçüncü əsrdən başlayaraq, burada, Krımda daima qrek, venedik, ceneviz, qot, yəhudi, slav... xalqları var idi. Xanlıq dövründən qalan nadir əsgər dəftərləri gözdən keçirilsə, artıq on yeddinci əsrlərdə tatar köyləri qomşuluğunda bir çox rus köylərinin bulunduğu və bunların tatarlarla alım-satım, dostluq-düşmanlıq münasibətlərində bulunduqları görülür. Bu gün artıq vəziyyət tamamilə başqa. Krımda on beşdən ziyadə gözəgörünür dürlü xalq var. Tatarın yaşayışı bunların qomşuluğunda, bunlarla qurulan dürlü münasibətlərin içində gediyor. Hətta Krım həyatı – siyasi, iqtisadi, ictimai – hər cəhətdən bu millətlər arasında oktyabr inqilabından sonra normal surətdə təsis edilən iş bölümü sayəsində yürüyor. Bunlardan ayrı olaraq tatarı təsəvvür etmək pək ziyadə güc. Halbuki mühərrir və şairlərimiz Əhməddən alıyor, Mehmedə gəliyor. Ortada nə bir Petro, nə Mordoxay, nə Panayot, nə Kosta, nə Marusya, nə də Mariya Petrovna!..

Şairlərimiz içində yalnız Cəmil Gəncə yazıyor:

Kazakdan korkqan tatar balaları
Kazakman bu gün bir yerdə oynaylar.
Əsrlap xorlanğan kadın-kızları
"Azadman bu gün!" – cirini çıraylar.

Bu da pək o qədər xarakteristik deyil.

Bu xüsusda İpçi arkadaşın, şübhəsiz, böyük xidməti var. Onun bədii nöqtədən "Azad xalq" pyesasına görə daha qüvvətli olan "Fahişə"sində bu cəhətə gərəyi qədər əhəmiyyət verildiyini görüyoruz. Burada Daşka, Marusya, Yefet şorbaçı, "Qospodin doktor"... öz rolları ilə qarşımıza çıxıyorlar. Pyesanın adı "Fahişə" olmaqla bə-

rabər, fahişə tipi burada da bütün cizgiləri ilə görünmiyor. "Allahverdi" restoranı, "poçta aralığı" ilə başqasının zülmünə, xəyanətinə uğramış kimsəsiz fəqir rus qızının intiqamı...

Bəkir və Daşka... Birisi daha ətəkləri yerdən qalxmayan rus sərmayədarlıq dövrünün, digəri tatar feodalizmasının, geriliyinin, mollaçılıq sxolastikasının, bu çürük təməllər üzərinə qurulan tatar ailəsinin qurbanı... Sevmədən evlənmiş... çünki özü də sevgisiz bir cütün meyvəsi... Tatar camesinə yardımçı Yefet spekulyant qəraim, mollanın müttəfiqi... Digər tərəfdən, Ənvər, müəllim, doktor, selsovet rəisi, sevilməsə də sevməyə hazır tatar qadını Səlimə, nəhayət, iştə həyata dönmək istəyən Marusya... İştə pyesanın başlıca tipləri, canlı lövhələri...

Yuxarıda dediyimiz kibi, varsın bütün bu tiplər bütün ünsürləri, çılpaqlıqları ilə gözümüz önündə canlanmasın, hər halda mühərrir həyatımızın qaranlıq-aydın bütün guşələrini görə bilmişdir. Bundan başqa, yıxıcı və yapıcı qüvvətlər, Krım şərtləri, Krım ictimai dinamikası içində doğru, pək doğru olaraq alınmışdır. İləridə bu izləri dərinləşdirmək, bu yerləri daha dərindən sürmək lazım.

Bunlar öylə nöqtələr ki, ədəbiyyatımızın böyük addımlarla ilərilədiyini göstəriyor. Ancaq bu yol ilə biz ədəbiyyatımızı geniş beynəlmiləl meydana çıxara biliriz. Ancaq bu kibi ünsürlərə malik olan bir ədəbiyyat başqa millətlərin də marağını cəlb edər, dürlü dillərə tərcüməyə layiq ümumi qiymətlər, qazanclar mahiyyətini qazanır. Bu yol tatarı anlamaq, onun dürlü ictimai yaralarını, əski və yeni darularını tədqiq etmək üçün gediləcək yeganə yoldur. Bunun arxasında daha qarışıq, daha dərin mövzular, məsələlər gələcəkdir.

Bir az əvvəli keçmişimiz: provodniklər, mariyapetrovnalar (arkadaşımızın qarısı, bala evlərinin, məktəblərimizin mürəbbiyəsi), rüstəmlər (Mariya Petrovna ilə doktor Kurtmambetov arkadaşın balaları), uçitelski seminariyalar, gimnaziyalar, Krımı tədqiqə gələn rus professoru, Krıma əylənməyə gəlib-gedən barinalar və əhmədkalar... Uçitel, student, zəmzəmər (zemlemer)lər, vəlhasil, yüzlərcə tiplər...

Bu günümüz: idarələrdə, məktəblərdə, köylərdə, syezdlərdə, kooperativlərdə bərabər çalışdığımız yüzlərcə dürlü millətdən adamlar, əvət, adamlar.

Ədəbiyyatın bütün borcu bu məsələləri görüb, çözüb bizə aşılamaqdır, heç olmazsa, əks etdirməkdir.

Burada daha texnika məsələsini ortaya sürməyə hacət yoxdur. Minarəni çalan qılıfını tapar... Texnika bu yolutucu bir alət, mikroskop, pərtovsuz xidmətini görüyor. Öylə mühərrir vardır ki, heç bir dürlü texnikaya müraciət etmədən gözünə dürtüb göstərir. Halbuki öylələri də var ki, gözünü texnikaya elə boyar və heç bir şey göstərəməz. Bu pyesalar bizim daha bilet alıb teatroya girməsini son illər içində öyrənən camaatımız üçün yazılıyor...

Gördüyünüz kibi, bən pyesaya, ümumiyyətlə teatroya bədii yaradıcılıq növləri içində birinci dərəcədə əhəmiyyət veriyorum. Teatro və mətbuat ədəbiyyatın ən böyük, ən həssas ictimai rola malik şəkilləridir. Lirik bir şairin, yaxud bir romançının kim olduğunu anlamaq üçün bir çox araşdırmalar, tədqiqlər lazımdır. Halbuki bir dramaturqun əsəri dərhal, birinci tamaşadan sonra öz xalqını, öz qiymətini tapar və yapacağı ictimai təsirin dərinlik və genişliyi görünür. Bundan başqa, teatro bir ədəbi, bədii və ictimai məktəbdir ki, buradan xalq fikirlər, duyğular alır, bir-biri ilə görüşməsini, təmiz, gözəl geyinməsini, doğru söyləməsini öyrənir. Professor Uşakov rus ədəbi tələffüzünün, doğru söyləməsinin meyarı Moskvanın klassik teatroları olduğunu söyləməkdə çox haqlıdır. Mövzum xatirinizdə olsa gərəkdir, ədəbiyyatımızın son dövrünə aid mətbu əsərlər olduğundan əski pyeslərdən və basılmamış yenilərindən bəhs edəmiyorum.

III. Tematika məsələsindən bəhs edərək pyeslər, teatro üzərinə düşdük. Burada ümumiyyətlə alındıqda nəsrin şeirdən üstünlüyünü düşünməliyiz. Zamanımızda iş və məsələ dili, şübhəsiz, nəsrdir. Nəsrin də bir şəkli pyesaçılıq olsa, ikinci şəkli hekayəçilik, felyetonçuluq, romançılıqdır. Bunlar arasındakı fərqlər göstərməyə dəyməyəcək qədər azdır.

Oktyabr inqilabına qədər bizdə hekayə yazan pək az idi. Çələbi Cihanın "Qarılğaclar duası", Cəfər Seyidümmətin "Unudulmaz göz yaşları", Odabaşın "Qurbanov", mənim "Nuray" kibi bir kaç hekayələr bu ədəbi növün ədəbiyyatımıza girməsinə qəti səbəb olmadı. Oktyabr inqilabından, daha doğrusu, Krım şuralaşdıqdan sonra gözə görünəcək böyükcə hekayə yenə Odabaşın "Unutmayacaq!" namındakı aclıq və məktəb məsələsi mövzuları üzərinə olduqca sadədil və mühərririn bir az əvvəl bəhs etdiyimiz şeirlərinə görə daha uyğun lövhələri havi hekayəsi sayıla bilir.

Nə "Millət", "Yeşil ada", nə də "Bilgi" və "Yeni çolpa" Krımtatar ədəbiyyatında nəsr və bilxassə hekayə və roman, hətta felyeton növlərinin doğmasına gözəgörünür bir xidmət yapamadı.

Ədəbi həyatımızda çox ciddi bir dövr açan "İləri" məcmuəsi ancaq bu növün təməl daşını qoya bildi və bu məcmuə ətrafında artıq konkret əsərləri, az-çox bəlli və aydın ədəbi simaları ilə hekayəçilər törədilər. Bunlar arasında İpçi, Cəfər Qafarov, Altaylı, Cəmil Seyidümmət, Tanabaylı... kibi arkadaşları zikr edə biliriz.

İpçi arkadaşın gözəl hekayələri də var. Məsələn, "Mirzənin xatirə dəftərindən", "Xatib akay" bunlardan sayıla bilir. İpçi həm artist, həm şair, həm hekayəçi, həm də pyesçi-dramaturq... Sırası gəlmişkən, düşünəlim, əcəba, İpçi hankısında daha ziyadə müvəffəq olıyor. Onun bir kaç rolunu gördüm, bənə pək o qədər təsir buraxmadı. Yalnız qaliba "Çora batır"da Dərviş rolunu olduqca müvəffəqiyyətli oynıyor. Şairliyinə gəldikdə, əlbəttə, gözəl parçaları var. Lakin bu gözəl parçalar onun pyeslərindəki qüvvətli lövhələr ilə qiyas edilməz. Mündəricə və şəkilcə bu şeirlərdə bir çox düşüklüklər var. Misal üçün, "İləri"də çıxmış "Ey yar, ey" və "Şirin gecə" namında şeirlərini oxuyunuz:

İlkidə doğqanda bebeykən ağladım,
Mavi gög yurtında gedeykən ağladım,
Qurumuş salğırdan keçerkən ağladım,
İlkidə doğqanda bebeykən ağladım.

Yaxud:

Məni key xalqımın göz yaşı doğurdu,
O yeşil yurtımı düşmanlar yoğurdu.
Ağlayu qarğadım çərxi-fələgi,
Nə mən gün gördüm, nə də gün məni,
Məni key xalqımın göz yaşı doğurdu.

Bu parçalarda şairin müəyyən bir duyğu, məzac (**настроение**) ilə işlədiyi, daha açıqcası, bir şeylər söyləmək istədiyi anlaşılıyor. Lakin duyğusu qəti, qüvvətli deyil, dili Odabaşvari... "Gedeykən ağladım", "bebeykən ağladım" nə demək?.. "Qurumuş salğırdan keçerkən ağladım"... kibi olduqca qüvvətli bir misranın yanında böylə əcaib

şeylər? "Mavi gög yurtında" – sudan bir təşbeh! Yəni zəif, qüvvətsiz... Şair günü görmədikdən sonra günün də şairi görməməsi heç də əcaib deyil. Sonra:

Məni key xalqımın göz yaşı doğurdu,
O yeşil yurtımı düşmanlar yoğurdu.

Birinci misrada yenə qüvvətli ola biləcək bir duyğu vaxtsız, cılız doğmuş... "Düşmanların yeşil yurtı yoğurması" da yalnız "doğurdu"ya qafiyə aramaq bəxtsizliyilə izah edilə bilir.

Ağlayu qarğadım çərxi-fələgi,
Nə mən gün gördüm, nə də gün məni, –

misrası, daha ziyadə olmasa, hər halda o biriləri qədər zəif bir kərə "qarğanmaq" fikri oxuyanda dərin bir təsir buraxmıyor, qarğamaq nədir? Zəif adamın Tanrını imdada çağırması, duaya müraciət etməsi, vəlhasil, dini bir məfhum, dindar adamın protesti... "Ağlayu" şəkli bizdə, Krım ləhcəsində deyilmiş deyildir. Yalnız "Məhəmmədiyyə", "Əhmədiyyə" kibi dini əsərlərdə, yaxud ilahilərdə xalqımızın qulağına ilişmişdir. "Arayu, arayu!" ilahisini "erayu, erayu!" – deyə oxuyan mollanın bu şəkli pək o qədər açıq bir surətdə anlamadığını görürsünüz. "Çərxi-fələk" də əski, çox əski kosmoqrafiyanın izləri... Xalq təbiri, xalq ədəbiyyatının təsəvvürü olaraq heç bir yerdə görünmiyor. Xalq dönüb patlayan fişənglərə "çərxi-fələk" diyordu!..

"Sabahın səhəri", "Şairlər ilhamı", "Yeşil yurt", "Cəfanın səfası", "Ey yar, ey"... kibi şeiri təşkil edən ünsürlər həp türkilərdə, ilahilərdə, başqa şairlərimizin ağzında çeynələ-çeynələ sararmış saqqızlardan. "Şirin gecə" şeiri də böylə:

Sərin yelləb əsən yellər,
Ay bayılıb tatlı gülər.

Yaxud:

Gög güzgüdü, nurlu ayın,
Şövqi tüşqən sular ayna.
Tal mu kədək kəmərlənkən,
Sevda surət xəyalına.

"Sərin yelləb", "sevda surət xəyalına" nə demək?.. İcad və uydurma. "Sərin yelləb" kibi tərkib burada şairin istədiyi mənada olamaz, böylə tərkib, söz yoxdur. İcadı da güc və faydasız. "Sevda surət xəyalına" isə tatarca bir şeirdə, "kitabi" bir şeirdə yanlış, bəsit. "Güzgü" ilə "ayna" bir şeyin iki adı... Burada həm "göy", həm "su" ayna kibi olmalı, ondan başqa, böylə təşbeh heç də lazım deyil. "Göy su" deməli çıxsın-getsin. Çünki təşbeh əşyanı, hadisələri bir-birindən ayırmaq üçün yazılıyor. "Aləm uyqu, bizlər yav" yenə olmadı... "Gəlin seyran, bir yaşayıq" yenə qarışıq... Bunlar, bir tərəfdən, dil qüsurları, digər tərəfdən, duyğu və təsəvvür əskikliklərı, xəyal darlığı və təsəvvür qısırlığı...

Ev qurayım çıksam yazğa
Əsli kibi dilbər qızğa.
Endi növbət qəmli sazğa,
Çert tellərin desin Kərəm,
Şirin gecə, şirin aləm.

Şeiri başından bəri oxuyub gələn adam şairin yazda, məsələn, iyun-iyul aylarında salğır kənarında, Ağməsciddə bulvarın bir az ötə tərəfində seyrana çıxdığını zənn ediyor. Çünki "sərin yelləb əsən yellər", "ay işığı" zövq veriyor. Qışda "Azov yeli doldağanda" sonra yazıq ayaz gecədə deyil, salğır kənarında oturub "çınqlamaq", Ağməscid xalqının dili ilə desək, bin gümüş versələr, varıb salğırdan abdəst almazsın. Böylə pərdələziz gecəsinə şairin "şirin gecə, şirin aləm" deməyəcəyi meydanda...

Bütün bunlar doğru isə, yenə şairin:

Ev qurayım, çıksam yazğa
Əsli kibi dilbər qızğa –

deyərək sevgilisini aldatmasına nasıl baxıyorsunuz? Təbii, burada namus məsələsi yox, nairlik işi var. Şair şeirini salğır kənarında deyil, evdə, bəlkə də, salğırdan çox uzaq bir yerdə yazdı və şeirinin başında yazdan bəhs etdiyini unutdu. "Ev qurmaq" fikri də zənn etməyiniz şairdə ciddi bir plan. Doğrudan-doğruya:

Yazğa çıxsam, ev salsam, kəbramət cabsam,
Alır edim bir qızcıq burçqa tapsam...

Xalq yerinin vaxtsız və yersiz bir surətdə şairin xatirinə gəlməsi. "Əsli kibi dilbər qız", "Kərəm", "qəmli saz" həp böylə cansız təsəvvürlər. Krımda Əsli kibi dilbər yox, İpçi Kərəm deyil və heç kimsə bizdə saz çalmıyor, ya klarnet, ya truba, ya da zurna... vəssalam. Qeydsiz, üzüntüsüz, zəhmətsiz şeir yazan istedadlı adamın verəcəyi bundan başqa bir şey olamaz. Pyesalarındakı İpçiyə görə şeirlərindəki İpçi çox əcəmi!

Hekayələri şeirlərinə görə çox qüvvətli, pək gözəl işlənmiş. Bu fikir bilxassə "Xatib akay" üçün doğrudur. Burada mühərririn mədrəsə, came həyatını gözəl bildiyini, baylar qulunda işləyən fəqir qadının vəziyyətini bir kaç cizgi ilə təsvir etdiyini görüyoruz. Bu vəziyyətdəki tatar qadını Qazan-tatar ədəbiyyatında da olduqca gözəl işlənmişdir. Molla və xətiblərin, hətta qazı və müftilərin köylərdə, ailələrdə "gizli fahişəliyi" doğurmaqdakı rolları üzərinə barmaq basılmışdır. Bu gizli fahişəliyin bir tərəfi "Xatib akay"dan getsə, digər tərəfi "Tutay anay"dan doğuyor. Sonra "Ev həyatı" irğadların, xidmətçilərinin işi. Bu yolda yazılmış birinci hekayələr üçün doğru, məntiqi, xarakteristik surətdə işlənmiş.

"Mirzənin xatirə dəftərindən" hekayəsində mühərrir krımlılara adı-sanı, "cigitliyi", işləri ilə məlum bir mirzəni almaqla bərabər, onun üzərində bizim zadəgan sinifciyimizə məxsus başlıca cizgiləri göstərə bilmiş. Yalnız "üç gün" alındığından mirzənin daha başqa, maraqlı xatirələri üzərində durulmamış.

Bundan başqa, "Traktor", "Küreş", "Aclıq xatirələrindən", "Qaflıq bazarı" hekayələrində də mühərrir bir çox maraqlı ictimai məsələlərin adını qoymuş və birinci həmlədə başlanğıcda verilə biləcək şeyləri vermişdir.

İpçinin hekayəçiliyi də onun bədii, ədəbi fəaliyyətində son məqsəd, son nöqtə deyildir. Bu hekayələr, pyeslər üçün hazırlıqdır. Yuxarıda bəhs etdiyimiz iki pyesində bütün bu hekayələrin materialı səhnəyə görə işlənmiş və İpçinin əlində son şəklini qazanmışlardır. Bəncə, İpçi, təkrar ediyorum, dramaturqluqda daha ziyadə müvəffəq oluyor və ilərıdə bu yolda inkişaf edəcəkdir.

Hekayəçilərimiz arasında gözə çarpanlardan birisi də Cəfər Qafarov arkadaşdır.

Bu xüsusda onun "Yolçuluqda" hekayəsi, fikrimizcə, birinci dərəcədə duruyor. Bu hekayədə ilərida Qafarovu tatarın ən müvəffəqiyyətli hekayəçisi yapa biləcək ünsürlər vardır. Bu "Yolçuluqda" hekayəsi ilə mühərrir Krımda əsri bir hekayəçinin qarşısında duran bütün məsələləri görmüşdür, – desək də yanılmayız. İlərida Qafarov hekayəçiliyin bütün texnikası, ruhi analizin hər dürlü qaydaları ilə işə yanaşdıqda bu poyezdə bir daha binəcək və orada gördüyü yoldaşlarını dürlü-dürlü tərəfdarlarından bir daha alacaqdır. Hər zaman üçün gözəl və qiymətli qalacaq hekayələr yazmağa lazım təməl Qafarovda var: adi adamların, hər gün görülən simaların sənət, əxlaq və əqidələrini gözlərindən, simalarından oxumaq, tipi, ümumini tapmaq hünəri, mühərririn hər dürlü istəyinə uymağa hazır bir dil, bir üslub, həm kəskin, acı bir dil! Cəfər Qafarovun bütün bu özünün istedadında olan baylıq və qolaylıqlardan istifadə edib-edəməyəcəyini istiqbal, həm yaxın istiqbal göstərəcəkdir. Çünki istedad sahibi olmaq güc, lakin o istedadı yolunda, yerində, vaxtında qullana bilmək daha da güc. Hər halda qısa bir dövrdə Cəfər Qafarov şəxsiyyətində qüvvətli bir hekayəçi qazanmamıza böyük ehtimal vardır.

Bir-iki söz də Altaylı Abdulhəkim Hilmi arkadaşın "Aclıq xatirələri Sundusunun xatirə dəftərindən" ünvanı altında "İləri" jurnalının bir kaç nüsxəsindən bəri davam edə gələn hekayəsi haqqında söyləmək lazım gəlir. Hekayənin sonu nərəyə və nasıl varacağı, dediyim kibi, daha bəlli deyil. Lakin tatar balalarının ruhunu, zehniyyətini, onların mədəniyyəti – şəhər, texnika və sənət qarşısında nələr duyduqlarını, nə kibi ümidlər, arzular bəslədiklərini göstərməyə çalışması etibarilə, arkadaş faydalı və maraqlı bir hekayə başlamışa bənziyor. Təbii, mövzu qolay deyil, bala psixologiyasını bilmək, Sundusu, Qudusu bütün həyat və fəaliyyətlərində təqib etmək lazım gələcəkdir. Burada ən böyük təhlükə mühərririn öz adını "Sundus" qoyub, o fikir və duyğularını balalara isnab eləyə bilməsidir, daha bitmiş əsər deyil. Bunun üçün ikinci bir münasibətlə bu xüsusda daha uzun görüşə biliriz.

Gənc hekayəçilərimiz içində Cəmil, Seyid Əhmət, Tanabaylı arkadaşların da adını çəkdik. Hər ikisinin də maraqlı hekayələr yazmağa istedadları olduğu görüliyor. Bəzi hekayələri nəşr olunmuş isə

də, ədəbi sima və şəxsiyyətləri tamamilə meydana çıxıncaya qədər bu xüsusda da söz söyləməyə əcələ etməyəlim.

IV. Şairin dilə münasibəti. Bir dildə söyləşən, yazan xalqın o dilə yüz dürlü münasibəti ola bilir. Şairin dilə baxışı isə müəyyəndir. Sözlərin, ümumiyyətlə alındıqda, iki cəhəti vardır: 1) məna, fikir; 2) həyəcan və ahəng.

Sözlərin mənaları və ifadə etdikləri fikir və məfhumlar o dili bilən adamlar üçün ümumidir. Məsələn, Krım tatarcasında *ötmək*, *aş*, *taş*, *duyğu*... kibi sözlərin mənaları Orqapurdan Yaltaya qədər birdir. Həyəcan və ahəng isə hər kəsə görə ayrıdır. Hətta bir adamın dürlü zamanlarda, müxtəlif məzaclarda bir sözdən aldığı təsir və həyəcan başqa-başqadır. Məsələn, *aş* kibi mənası bəlli və ümumi bir söz bəzən sevinc, bəzən qayğı və göz yaşı, bəzən də nifrət doğura bilir. Bu sözlə ac bir baxımsız balanın, yaxud aclıq dövründə tatar köylüsünün, daha sonra boğazına qədər doymuş bir adamın münasibətlərini alınız. Burada tədai məsələsi də işə qarışır. Bir söz digər bir sözü, yaxud bir çox sözləri xatırladır. Bu xatırlatma hər kəsdə bir dürlü olamaz. Adamların təbiətinə, mühitinə mənsub olduğu sinif və qruppaya görə bu xatırlar dəyişir. Daha sonra sözlər səs üzərinə qurulduqlarından onlarda bir də ahəng, musiqi cəhəti vardır. Məsələn, *ülgər*, *cətəmən*, *şaplavuz*, *şaqirdavuk*, *qakırdavuk*, *taka-tuka* kibi bir sürü sözləri alıb bir-biri ilə müqayisə ediniz. *Ülgər* sözü, əlbəttə, *taka-tuka* sözündən daha xoş, daha ahəngli. Ayrı-ayrı sözlərin olduğu kibi, bütün cümlələrin də bu kibi özlərinə məxsus ahəngləri vardır. Bunun üçün sözləri gəlişigözəl bir-birisinin yanına düzmək ilə ahəngdar bir nitq, bir cümlə, bir tərkib meydana gəlməz. Ana dili ilə, yəni anasından öyrəndiyi kibi şüursuz bir surətdə söyləyən, yazan, oxuyan adam üçün bu məsələlər mövzu deyildir. "Anlaşmaq" məqsədi üzərinə qurulan əməli dildə bu cəhətə heç də əhəmiyyət verilməz. Halbuki ictimai həyatın hər cəbhəsi, hər meydanı tərbiyə, şüurlu, planlı fəaliyyət, istehsal üzərinə qurulan xalqlarda ayrı bir "dil tərbiyəsi" (**культура языка**) vardır ki, bu vasitə ilə dilin bütün söylədiyimiz və burada sözü uzatmamaq üçün söyləmədiyimiz cəhətlərinə əhəmiyyət verilir, bütün bu nöqtələr daimi surətdə, incədən-incəyə tədqiq olunur.

Bu tərbiyə hər kəsdən ziyadə şair və mühərrirlərin işidir. Ədəbi dil, şeir dili əsas etibarilə mərkəzi canlı şivədir, lakin bir şivənin bu mövqeyi tuta bilməsi üçün yüzlərcə, binlərcə adamların onu işlə-

məsi lazımdır. Bu surətlə meydana gələcək ədəbi dil yalnız söylədiyimiz canlı şivəni söyləyənlərin işi deyildir, bəlkə, hər şivədə, daha doğrusu, hər şivə rayonunda yetişmiş ən güclü, ən qüvvətli başların müştərək məhsuludur.

Krım tatarının ədəbi dili doğmaq üçün böylə müştərək, şüurlu, planlı çalışma, qeyrət gərəkdir. Bu xüsusda birinci və daimi rol yazıçıların, şairlərindir. Halbuki bir az əvvəl məruzəmizin başında söylədiyimiz kibi, yeni tatar şairləri bu cəhətlərə daha gərəyi qədər diqqət vermiyorlar.

Bu yolda çalışan, dilə və sözlərə qarşı müəyyən zövqi-tələb ilə yaxınlaşan başlıca yazıçımız, şarimiz, əlbəttə, Qabdulla Lətifzadə arkadaşdır. Hər qeyrət kibi, Lətifzadənin qeyrəti də boşa getmiyor:

Bir gün sazım qoldan düşər mənim də,
Şu ömürnün güzgüsü göz gumulur.
Topraq geyər, ya toz bulur tənim də,
Bir qarınca, bir böcəgin təni day,
Bir gün gəlir, bu əməldən cüyülür.
Lakin şahid bolsun buğa günəş, ay,
Kölgəmi heç bu yerlərdən salmam mən,
Ölmək üçün tovmadım mən, ölməm mən.

Burada fikir, duyğu qədər söz nə artıq, nə əskik? Sonra heç bir tərkib, heç bir cümlə qeyri-təbii, porezli, süni surətdə düzülmüş, bağlanmış deyil. Olduqca dərin fikirlər qolaylıqla oxunuyor, dərhal başa, dimağa təsir ediyor. Bu sətirlər içində şairin yəmini, vədi var. Bizim tatarın yəmin etməsini xatırlıyormusunuz? Nə qədər ağzı köpürsə, nə qədər çalışsa, yenə yəminində bir qeyri-təbiilik oluyor. Bir taqım şairlərimiz, ədiblərimizdə də bu növ yəminlərə rast gəliyoruz. Lakin heç birisi böyük bir təsir buraxmıyor. Lətifzadədə yuxarıda aldığımız parçasında böyük iddia var:

Kölgəmi heç bu yerlərdən salmam mən,
Ölmək üçün tovmadım mən, ölməm mən.

Ölmək üçün doğduğuna, öləcəyinə heç şübhə yox, təbii. Lakin lövhələrin kəskinlik, dərinliyi sözlərin ahəng və təbiiliyi, şairin bir-

birini tamamlayan təsəvvürləri, sizi düşünməyə buraxmadan sıralaması onun sözünə iştirak etməyə oxuyucunu məcbur ediyor və şair:

Şavləmi bu yüreklərdən silməm mən,
Ölmək üçün tovmadım mən, ölməm mən –

dediyi zaman artıq mən onun səmimiliyinə, qüvvətinə və gerçəkdən də "ölməyəcəyinə" inanıyorum. Burada şeirin içini, mündəricəsindəki əsasi qüvvəti unutmıyoruz. Lakin iqnaedici qüvvətin yarısı gözəl ahəngdar surətdə düzülmüş sözlərdədir. Halbuki eyni məzacdan doğmuş, lakin sözlərin, lövhələrin qiymət və tərtibini daha Lətifzadə qədər fərq edəməyən digər şairimiz Cavtobəlinin şu parçalarını oxuyunuz:

Cilama caş cörək muqsirdəb qızdayın,
Baxtın aydayın qavuşub getsə də.
Sovunma dünyada yaşavdan buzdayın,
Dövranın başından savuşub getsə də.

"Baxtı aydayın qavuşub", "dövranı savuşub getsə" hərifin daha dünyada nə işi var?

Sənin də qanında arslanlıq yata,
Talenin kömürday yüzünə yumruq ura!
Tumanğa qarışup takların ata,
Tarixnin bağrına sən də çadır qur!

Doğru... Doğru... Amma şair inandırmıyor, qandırmıyor. Şairin qələmi, daha bir çırpıda, bir mərtəbədə duramıyor. "Tumanğa qarışub atan taknın" yanında "talenin kömürday bətinə yumruq ura!", "tarixin bağrına çadır qur!" kibi qalabalıklar... Qüvvətli sözlərlə zəiflər daha bir arada.

Lətifzadə, şübhəsiz, müşkülpəsənd çalışır bir sənətkar. O, tatar sözlərini çərtib, yoxlayıb, seçib alıyor. Lakin arayan mövlasını da bulur, beləsini də. Bir çox yerlərdə Lətifzadə də şəkilçilik, tatarca desək, "kərtiklik" (deqadentlik) də urıyor:

Anam yox... mən tovdum binlərcə babadan!
Beşigim tərpətdi hind, Roma, həm İran.
Eşigim açıqdır susağan yigitinə...
Ağarır, mən baksam kararğan hər bətinə...
Günəşinin yurtında gözlərim batini
Tellədim, pulladım, yaşartdım cadığı.

("Ömran mələgi")

Bu parçaya və Lətifzadənin şeirlərində az olmayan bu kibi parçalara bir çox cəhətlərdən qüsurlar göstərilə bilir. "Doğmaq" fikrini "baba" ilə bağlamaqda nə hikmət var? Bundan bir yenilik, yaxud həqiqətən "ömran mələgi"nin hər hankı bir xüsusiyyəti çıxarmı? Xayır! "Babadan doğmaq!" vəhşi, anlaşılmaz bir fikir! Dünya ədəbiyyatında "babanın doğurması" heç də işlədilməmiş bir lövhə... Hətta heç bir təbii, insani qeydlə hesablaşmayan mifologiyada, masallarda belə heç bir baba doğurmiyor. Təbiətdə də pək nadir əhvalatdan. Bir kaç il əvvəl böyük bir qəribə olaraq, yanılmiyorumsa, Serbiyada bir erkək doğurmuşdu. "Mən tovdum binlərcə anadan!" – desə, nə olur? Sonra mədəniyyətin anası yoxmu? Anası da var, babası da. Müxtəlif dərəcədə başqa-başqa... Məsələn, ibtidai mədəniyyətdə təbiət ana, insan baba. Əgər "ömran mələgi" əvvəlcə su kibi bir şeyə bənzətilmiş olsaydı, "susağan yigit" təsəvvürü anlaşılır idi. "Eşigin açıq" olması ilə susuzluq bir-birinə uymıyor. Eşik yolcu, ya açıq olur.

Yuxarıda gətirdiyim parçadakı son iki misrada nə ürəyə, nə də dimağa açıq, qəti bir şey söyləmiyor.

Bütün şeiri oxuyub çıxdıqdan sonra da "ömran mələgi"nin nə canavar olduğu anlaşılmıyor. Əsasən, bir tərəfdən, "al işıq", digər tərəfdən, "mələk" təsəvvürləri üzərinə qurulmaqla şeir öz həyəcanı və məntiqi təməllərindən məhrum bolunıyor. Bununla bərabər, ayrı-ayrı gözəl, ahəngdar, seçmə sözlər bu şeirdə də gözə çarpıyor:

Əlburz, Himalay, Uraldan keçiyim,
Altun top saçımı Edildə çöziyim,
Tibetdə, Kitayda, Moğolda qonayım,
Hind, İran, Əfqanğa al işıq sunayım,

Qaradan, dənizdən Krımğa girəyim,
Gümüşdən qanatım çatırğa gərəyim –

kibi parçalar buna şahid ola bilirlər. "Bahar türkisi", "Axır zaman quşu", "Xayırsız tuş", "Ömür"... kibi şeirlərində də Lətifzadə olduqca qiymətli bir sənətkar olaraq meydana çıxıyor. Burada onun özünəməxsus mövzulara da malik olduğunu əlavə etməliyiz. Lakin az, pək az yazıyor. Bəlkə, çox yazıyor da, az göstəriyor, burası bənə məlum deyil.

V. Krım-tatar ədəbiyyatının gələcəyi, başqa türk-tatar xalqlarının, daha doğrusu, başqa xalqların ədəbiyyatları arasındakı yeri haqqında nə deyə biliriz?

Krım-tatar ədəbiyyatının, məruzəmizin başında da söylədiyimiz kibi, mazisi, keçmişi bizim üçün qaib.

Bizim bugünkü ədəbiyyatımız böyük, aşağı-yuxarı yüz illik bir fasilədən, sükunətdən sonra doğdu. Bunun üçün bizim əski ədəbiyyatını qaib etməyən Anadolu, Azərbaycan, özbək türk-tatarları kibi ədəbi ənənələrimiz yox. Dini islahçılıq dövründən alaraq, bin doqquz yüz beş və oktyabr inqilabları kibi böyük ictimai və siyasi hadisələr ədəbiyyatımızda mövzuiyyat-tematika nöqtəsindən başqa türk-tatar xalqlarının ədəbiyyatilə böyük bir ümumilik doğurdu.

Qırğız şairi Tenistanov, özbək Batı, Çolpan, Fitrət, azəri Süleyman Rüstəmzadə, Əlisəttar İbrahimov, Fövzi, Nazim, qazanlı Burnaşev, başqurd Babiç, kumuk Salavatov, türkmən Qulmühəmmədov kibi şairlərin gənc, oktyabr inqilabından sonra doğmuş, yaxud təkəmmül etmiş mühərrirlərin yazılarına baxsanız, bu sözümüzə qənaət hasil edəcəksiniz. Qırğızdan Krıma qədər əski Şərq təəssübü minarələri, bayları, mollaları, meşçanları ilə urulıyor. Hər şair bir komandaya cavab verir kibi yeni həyata, yeni iqtisadi şəkillərə, yeni ömrə çağırıyor. Hər yerdə dil canlı xalq dilinə uyğun, yaxın. Əski ölü ədəbi dil ortadan qaib oldu. Yeni fikirlər, yeni sözlər arıyor və bulmaqda.

Bu surətlə Krım-tatar ədəbiyyatının mexanizması yeni Şərq ədəbiyyatilə bağlanıyor, deyil Şərq, bütün yeni cahan ədəbiyyatilə... Krım-tatarları kibi kiçik bir xalqın ədəbiyyatındakı qiymətlər nə qədər az olursa-olsun, hər halda Krımın da bütün cahani miqyasındakı inqilabi cərəyanlara olan münasibətini təyin ediyor. Yuxarıda

bəhs etdiyimiz komanda cahan inqilabı bürosunun komandasıdır ki, Krım tatarı da öz şairləri, mühərrirlərinin dili ilə buna ləbbeyk deyir.

Krım kibi dünyanın ən gözəl yerində, sayısı iyirmiyə varan dürlü xalqların vətənində şairin, ədibin alacağı təsirlər, təhlil edə biləcəyi məsələlər pək çoxdur. Krım dünyanın ən maraqlı yerlərindən birisi. Bu Krımı anlab tərənnüm edə biləcək şair də dünyanın ən qiymətli əsərlərini yaza bilir. Gənc Krım şairini böylə parlaq bir istiqbal bəkliyor!

İştə, sevgili arkadaşlar, Krım-tatar ədəbiyyatının səthi, dar bir məruzə, müsahibə içində qeyd oluna biləcək cizgiləri!..

İBN MÜHƏNNA VƏ ONUN LÜĞƏTİ

Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində 171 №-li fondda saxlanılan makina çapı və əlyazması əsasında nəşrə hazırlanmışdır.

[...]

Əs-Seyid Cəmaləddin ibn əl-Mühənna əsərinin birinci dəfə olaraq türk dilinə tərcümə etdiyimiz bu qismi (ikinci, türk dilinə aid qisim) müəllifin كتاب حلية الانسان وحلبة اللسان , yaxud كتاب مجموع ترجمان فارسى و تركى و مغولى namını daşıyan əsərinə daxildir.

Gərək tərcümə və gərəksə təhlil və izahatımızda yuxarıda göstərilən əsərin iki mətbu nüsxəsinə istinad etdik:

1. Professor P.M.Melioranski "Араб-филолог о турецком языке" namı ilə 1900-cü ildə Peterburqda nəşr etdiyi nüsxə.

2. Müəllim Kilisli Rüfətin كتاب حلية الانسان وحلبة اللسان , yaxud "İbn Mühənna lüğəti" adı ilə hicri 1338-1340-da İstanbulda nəşr etdiyi nüsxədir.

Professor Melioranski əsərin yalnız türkcə qismini nəşr etmiş olduğu halda, Müəllim Kilisli Rüfət hər üç qismini ("farsi, türki, moğoli") nəşr etmişdir. Əsər əsasən üç qisimdən ibarətdir:

1) farsi; 2) türki; 3) moğoli.[1]

Bu əsərin bütün məlum olan altı əlyazma nüsxəsi vardır: üçü Oksford şəhərindəki Bodlean Kütübxanəsində, biri Berlin şəhəri Kütübxanəsində, biri Paris şəhərindəki Milli Kütübxanədə, nəhayət, biri də İstanbulda Muzey Kütübxanəsindədir.

Professor Melioranski bunlardan birinci beş nüsxəni görmüşdür. Bu beş nüsxənin heç birində müəllifin adı, əsərin yazıldığı tarix qeyd olunmamışdır. Buna görədir ki, Melioranski əsərin mühərririni "ərəb-filoloq" olaraq qeyd etmişdir. İstanbul nüsxəsində isə müəllifin adı السيد جمال الدين ابن المهنا olaraq göstərilmişdir.

İbn Mühənnanın hansı əsrdə yaşadığı və əsərini hansı tarixdə meydana gətirdiyi, yuxarıda qeyd etdiyimiz kibi, məlum deyildir. Bu xüsusda professor Melioranski aşağıdakı məlumatı verir:

"Bodlean Kütübxanəçisi Heybiver əlyazmasının xəttinə baxaraq, bu əsərin on dördüncü miladi əsrə, Ryö, dö Guye və Houtsma namındakı alimlər bir-birlərindən xəbərsiz olaraq, təqribən 700 hicriyə (yəni yenə XIV miladi əsrin ibtidalarına), nəhayət, Zotenberq və Bozen XV və hətta XVI əsrlərə aid olduğunu zənn etmişlərdir".[2]

---

[1] Əsərin moğolca qismi ayrıca 1903-cü ildə nəşr olunmuşdur.

[2] П.М.Мелиоранский. Араб-филолог о турецком языке. 1900, стр. XIII.

Əsərin ikinci naşiri Kilisli Müəllim Rüfət başqa yolla hərəkət edərək, yəni müəllifin şəcərəsini, hansı sülaləyə mənsub olduğunu araşdıraraq, aşağıdakı nəticəyə gəlir:

"Eyni zamanda عمدة الطالب في انساب آل ابى طالب kitabının müəllifi olan Mühənna bu əsərin 108 [-ci] səhifəsində öz nisbətini şöylə göstərir: احمد بن على بن حسين مهنا بن عنبة الاصفر , kitabın zöhründə isə جمال الدين و الملة təfsiri vardır. Bu halda ismi Əhməd ləqəbi Cəmaləddin olur. Mühənna isə dədəsinin ismidir. Tabe tərəfindən kitabın başına əlavə edilən ifadəyə nəzərən, 828-də (hicri) Kirmanda vəfat edir".[3]

Kilisli Müəllim Rüfətin verdiyi məlumata görə, İbn Mühənna hicri VIII və qismən IX əsrdə (yəni miladi XIV və XV əsrlərdə) yaşamış olur.

Əsərin dili haqqında ilərdə veriləcək məlumat da kitabın təlif və tərtib tarixini təyincə bir dərəcəyə qədər xidmət edə bilər.

Müəllif və əsərinə aid olaraq yuxarıdakı xronoloji məlumatı verdikdən sonra bu əsərin ərəb filoloji məktəbi məhsullarından və türk sistemli dillərin tədqiqinə aid qramer və lüğət silsiləsini təşkil edən halqalardan birisi sifəti ilə işğal etdiyi mövqe haqqında lazımi dərəcədə izahat verməyi münasib görürük.

Türk sistemli dillərin tədqiqində öz dövrünə görə "elmi" adlandırıla biləcək birinci əsərlər ərəb filoloji məktəbinin tədqiq üsulları, metodologiya və terminologiyası ilə meydana gətirildi. "Türkologiya"namı ilə məlum olan tədqiqat serisinin birinci hissəsini bu növ əsərlər təşkil edir.

Ərəb filologiyası öz inkişafında bir neçə mərhələdən keçməklə bərabər, daha birinci təşəkkül dövründə bəzi mühüm xüsusiyyətlərə malik idi ki, bu xüsusiyyətlər tarixi cəhətdən bugünkü lisaniyyatda da hər halda hesaba alınmalıdır.

Professor Melioranski ərəb filologiya və qrammatikasının ümumi prinsiplərini aşağıdakı nöqtələrdə[4] xülasə edir:

1. Ərəb filoloqları ərəb lisaniyyatının birinci inkişaf dövründən başlayaraq, xalqın canlı nitqi üzərində müşahidəyə böyük əhəmiyyət verirlərdi. Binici ərəb lisançıları nəzərində köçəri – bədəvi [ərəb] dili-

[3] Kilisli Müəllim Rüfət. İbn Mühənna lüğəti. İstanbul, 1338-1340. Müqəddimə xülasədən alınmışdır.

[4] Melioranskinin yuxarıda məzkur əsərində bu xüsusda bəyan etdiyi fikirləri ayrı-ayrı nöqtələrdə cəm etməyi münasib gördüm (*B.Ç*).

nin həqiqi və mövsuq bilicisi edd olunurdu. Ərəb lisançıları, ərəb dilçiləri çətin dil məsələlərinin həlli üçün köçərilər – bədəvilərin şəhadətinə müraciət edirlərdi. Bununla əlaqədar olaraq, ayrı-ayrı qəbilə və əyalətlərin şivə və ləhcələri tədqiq olunur və bunların yaşamağa haqları olduğu sanılırdı.

Şübhə yoxdur ki, professor Melioranski burada ancaq bəzi tarixi faktları qeyd etməklə kifayətlənərək, bunların əsas səbəbləri üzərində dayanmır. Bizim fikrimizcə, müəyyən dövrlərdə xalq dilinə verilən bu əhəmiyyət bir neçə səbəbə istinad edirdi:

1) Daha "cahiliyyə", yəni islamdan əvvəlki qəbilə quruluşu və bütpərəstlik, fetişizm, tuteizm... ideologiyası təsiri altında olaraq, islam dini ideologiyasına yabançı olan xalq kütləsi, qəbilələr arasında dini propaqanda aparmaq (Yaxın Şərqdə bu növ propaqanda daima sadə və canlı xalq dilində aparılmışdır);

2) Daima müstəqil və yarımmüstəqil yaşayaraq, mərkəzi hökumətə qarşı əbədi bir inversiya təşkil edən qəbilə və əyalətləri daha möhkəm surətdə Şam və Bağdad kibi xilafət mərkəzlərinə bağlamaq və xüsusən köçəriləri möhkəm inzibat və nizam altında saxlamaq;

3) Əməvilər ilə haşimilər arasında gedən mübarizədə dövrün, xüsusən əməvilərin daha geniş xalq kütləsini öz tərəflərinə cəlb edə bilmək üçün onların öz canlı dillərində danışmağa, yazmağa məcbur olmaları ki, buna daha sonrakı dövrlərdə də, məsələn, Azərbaycan türk dilinin inkişaf prosesində də rast gəlirik. Məsələn, Şah İsmayıl Xətai də həmin analoji faktorların təsiri altında olan XVI miladi əsrdə canlı türk dilində yazırdı, çünki Şah İsmayıl da ətrafına topladığı müxtəlif köçəri, yarımköçəri qəbilələrə və bunların siyasi-əsgəri istinad qüvvəsi olan qızılbaşlara öz ana dillərində xitab etməyə məcbur idi;

4) Nəhayət, ərəb ədəbi və elmi dilinin təşəkkül dövründə istər-istəməz canlı xalq dilinə müraciət etmək zəruri idi.

Zənn edirəm ki, yuxarıda göstərilən əsas momentlər professor Melioranskinin yuxarıda qeyd etdiyi ərəb lisaniyyatındakı xalqçılıq cərəyanını izah etməyə kafidir.

Yenə Melioranskinin fikirlərini qeyd və xilas etməkdə davam edəlim.

2. Ərəb filoloqları yalnız hərflərdən deyil, eyni zamanda səvtlər-[dən] (səslərdən) də bəhs edirlərdi, yəni daha bu zamanlarda hərf ilə səsi bir-birindən ayıra bilirlərdi. Səslərin fiziologiyasını təyin,

səsləri tələffüz üzvlərinə görə təsnif və müxtəlif fonetik-sövti hadisələrin mahiyyət və mənşəyi[ni] izah etmək təcrübəsi ərəb filoloqlarına aiddir. Ərəb filoloqlarının bu növ məsələlər haqqındakı fikir və mülahizələri çox dəfə müasir Avropa (yəni Melioranskiyə müasir burjua) lisançılarının mühakimələrinə yaxın gəlir.

3. Ərəb filoloqları tərəfindən tərtib olunan qrammatika terminologiyası çox maraqlıdır. Qrammatikanın fonetik qismini öz əsərinin[5] axırında ümumi qisim namı ilə cəm etmişdir. Bu qisimdə qramerin hər üç qisminə müştərək olan fonetik xüsusiyyətlər haqqında məlumat verilməkdədir.

Məlum olduğu üzrə, ərəb filoloqları öz dillərini "fel", "isim" və "hərf" namı ilə üç qismə ayırırlardı. "Analogiya" deyilən xüsusiyyət və [kəsrəti-istemal] (çox işlətmə) nəticəsində sözlərin "xarab olduğu", pozulduğu və sairə haqqında bəzi sağlam fikirlər bəyan etmişlərdir.[6]

Professor Melioranski bu axırıncı iki nöqtədə də ərəb filologiya məktəbinin müəyyən konkret xüsusiyyət və müvəffəqiyyətlərini də əsasən doğru olaraq göstərir. Lakin Melioranski yenə bu xüsusiyyətlərin səbəb və mənaları üzərində dayanmır.

Məlum olduğu üzrə, ərəb filologiyası miladi VII-VIII əsrlərdə inkişafa başlayaraq, X-XI əsrlərdə öz inkişafının zirvəsinə vasil olmuş və [...] bütün klassik ərəb filoloqları bu dövrlərdə yetişmişdir.

Ərəblər, başqa sahələrdə olduğu kibi, filologiya sahəsində də qreklərdən, qrek, xüsusən İsgəndəriyyə filoloqlarından bir çox ənənə və prinsiplər iqtibas etməklə bərabər, eyni zamanda ərəb və başqa Şərq dillərinin tədqiqində bəzi orijinal prinsip və nəzəriyyələr ileri sürməyə də müvəffəq olmuşlardır.

İslam dini ideologiyasının Ərəbistan yarımadasından uzaqlarda – Misir, Suriya, Beynənnəhreyn – Mesopotamiya, İran, Qafqaz, Orta Asiya kibi ölkələrdə intişar tapması nəticəsində ərəblər müxtəlif xalqların dillərini öyrənmiş olduqları kibi, bu xalqların ruhani və feodalları da ərəb dilinə aşina olmuşlardır. Ərəb sxolastikası və doqmatikası yuxarıda saydığımız məmləkətlərdə yayılmış və ərəb dilində tədrisat aparan mədrəsələr bu ölkələrdə uzun bir dövr içərisində yeganə təlim müəssisələri rolunu oynamağa başlamışdır.

[5] شرح مفصل الزمخشری G.Qahin tərəfindən Leypziqdə 1876-1886-cı illərdə iki cild halında nəşr edilmişdir.

[6] Араб-филолог, стр. V.

Təqribən IX miladi əsrdən başlayaraq, türklər və farslar və ümumən əcəmlər, yəni qeyri-ərəblər arasında islam propaqandası böyük miqyasda və şiddətlə aparılırdı. Bunun üçün də bu dövrdə minlər ilə islam missionerlərinin müxtəlif ölkələrə yayılmış olduğunu görürük. Eyni zamanda, Mühənnanın təbirincə, türk və əcəm qəbilələrinin ərəblərin yaşadığı ölkələrdə dövlət qurub səltənət sürməyə başlamaları bunların, daha doğrusu, bu qəbilə feodal və aristokratiyasının dilini öyrənməyi zəruri bir hala gətirmişdi. Daha XI miladi əsrdə bu səbəblər türkdilli qəbilələrin və feodalların dilini tədqiqdə tamamilə idrak olunmuşdu. Məsələn, Mahmud Kaşqari öz "Divani-luğatit-türk"ündə bu cəhətləri aydın surətdə göstərmiş olduğu kibi, müxtəlif türk sistemli dilləri tədqiq etmiş olan Əbu Həyyan əl-Qərnati[7] [və] القوانين الكلية[8] əsərinin imdilik məchul müəllifi dəxi eyni səbəblərin təsiri altında yazmış olduqlarını göstərməkdədirlər. Lakin İbn Mühənna türk dilinin tədqiqinə aid olaraq göstərilən səbəblərə – din propaqandası, türk sultanlarına xidmət – daha mühüm bir səbəb əlavə etməkdədir ki, bu da müxtəlif məmləkətlərdə, müxtəlif xalqlar arasında dolaşan tacir və səyyahlara "mənfəət cəlb etmək və zərərdən qacınmaq" yollarını öyrətməkdir.[9]

İbn Mühənna, ümumiyyətlə, dil öyrənmənin fəzilət və faydalarını bu surətlə göstərdikdən sonra nə üçün türk, monqol və fars dillərini öyrənməyi lazım gördüyünü aşağıdakı surətdə izah edir:

الى ذلك تملك قبيلى االترك و العجم قرن الله الفوز و الخير بدولتهم لهذه البلاد
فتاكدت الضرورة اذهم حكام البلاد و العباد و سلاطين الحاضر و البادو وضح معنى
المثل المسلوك من قولهم الناس على دين مليكهم.[10]

[7] كتاب الادراك للسان الاتراك

[8] الفواتين الكلية لضبط اللغة التركية

[9] و بعد فقد كنت استهجن للحفاظ المحصل و التاجر المتوصل ان يعرى كل منهم نفسه في حال حفظه و درسه او حفصه و انسه من تعلم لغة يستعين بها في تغربه و سفره و تطلبه و متجره اما لجلب نفعه او لدفع ضرره Yəni: "Elmə təhsil edənlər və tacirlərin hifz, dərs, ünsiyyət və müaşirət zamanlarında, səyahət və qürbətdə, elm tələb və təhsilində mənfəət cəlb və zərəri dəf etmək üçün yardım edəcək olan lüğət və dili öyrənməkdən qacınmalarını mən çirkin və münasibətsiz gördüm" (İbn Mühənna, İstanbul təbi, səh. 3).

[10] Tərcüməsi: "Buna əlavə olaraq, türk və ərəb qəbilələrinin bu məmləkətləri təmlik etməsi ki, Allah onların dövlətinə xeyir versin – bu zərurəti (türk dilini öyrənmək) daha da artırdı, çünki onlar (türklər) bəldələrin, qulların və həzəri (torpağa yerləşmiş, oturaq) və bədəvi (köçəri) sultanlarının hakimləridirlər və məlum məsəlin hökmü aydın oldu: Xalq öz hakimlərinin dinində olmalıdır" (İbn Mühənna, İstanbul təbi, səh. 3).

Beş-altı əsrlik uzun bir dövr içərisində yetişmiş olan müxtəlif dilçi və qrammatikaçılarda təsadüf etdiyimiz bu növ qeydlər Yaxın Şərq ölkələrində bu dövrlərdə təşəkkül edən dövlətlərdə ərəb, fars və türk dillərinin müxtəlif sahələrdəki rollarını da göstərir. Ərəb-fars dilləri mədrəsələrdə, saraylarda hakim olduğu halda, şəhərlərin bazalarında dayanmış daruğa, "töhfəçi"... kibi məmurlar, qala mühafizləri, köçəri və kəndlilər ilə əlaqədə bulunan tacir və əsnaf, nəhayət, zəkat, sədəqə toplamaq üçün kəndlərə çıxan ruhanilər, tələbələr arasında, əlbəttə, türk dili danışılırdı.

Xüsusən XIV-XV miladi əsrlər türk və monqol qəbilələrinin Suriya, İraq, İran kibi ölkələrdə nüfuz və hakimiyyətə sahib olduqları dövr idi ki, Səlcuqi, Elxani dövlətləri namı ilə məlum olan dövlətlər bu hakimiyyətin nəticələrindəndir. Bu xüsusda professor Melioranskinin aşağıda gətirdiyimiz fikri tarixi faktlara uyğundur:

"Bu dillərin (fars, moğol və türk) bir yerdə tədqiq olunması bu əsərin XIV əsrdə yazılmaq ehtimalını və əsərin təlif məhəlli olaraq İranın şimal tərəfini xatirə gətirir, çünki Hülakü sülaləsi dövründə əsl yerli əhali farsca, elxanların əsgər və idarəsinin əksəriyyəti türkcə və nəhayət, elxanların özləri və əsgərlərin bir qismi moğolca danışırdı".[11]

Əsərin XIV miladi əsrə aid olub, Melioranskinin göstərdiyi kibi, elxanilər dövləti hövzəsinə daxil olan ölkələrdən birində yazıldığına əsərin dil materialını və bu materiallar müəllifin verdiyi dialektoloji xarakteristikanı da vəsiqə olaraq irad etmək mümkündür:

اعلم ان اللغة التركية منشأها بلاصالة عن اهل تركستان كما العربية عن الحجاز

Yaxud:

وقد تجد في اللغة التركستانية لفظا استعمله اهل بلادنا بلفظ آخر [12]

Mühənnanın "türk dilinin Türküstandan törəməsi" haqqındakı fikri əsərdə təhlil və tədqiq olunan dilin Türküstandan xaricdə, Orta Asiyadan başqa bir ölkədə yaşayan xalqa aid olduğunu göstərir.

Bundan başqa, yuxarıda qeyd edilmiş ikinci nöqtədə görüldüyü kibi, Mühənna Türküstan xalqının dili ilə "bizim ölkələr" adlandırdığı xalqın dili arasındakı təfavütü bilir və hətta bu təfavüt əsər daxilində 72 nöqtədə xülasə edilmişdir.[13] Bu nöqtələr aşağıda qeyd və təhlil ediləcəkdir.

Bu xüsusda Melioranski aşağıdakı mütaiəni bəyan edir:

"Türk dilinin tarixi, bu əsərin təlif olunduğu zaman və məkanı dil materialına istinad edərək təyin etmək üçün kafi dərəcədə işlənmiş olmaq ilə bərabər, bu əsərin indiki Azərbaycandan nəşət etməsini göstərən lisani hadisələrin bulunduğunu qeyd etməkdə özümüzü haqlı görürük".[14]

"Ərəb-filoloq" əsərinin başqa bir yerində Melioranski İbn Mühənnanın təhlil mövzusu olaraq aldığı dili doğrudan-doğruya "Azərbaycan dili" adlandırır:

"О различии между диалектами наш автор (т.е. араб-филолог) говорит и далее в различных местах грамматики; он различает вообще диалекты: туркестанский, туркменский и диалект "турок наших стран", т.е. по-моему, "древне-азербайджанский".[15]

Hər iki əlyazmasında (həm Melioranski, həm Müəllim Rüfət tərəfindən nəşr edilmiş nüsxələrdə) iki mühüm nöqtə daha vardır ki, əsərin dili və yazılışı tarixi haqqında yuxarıda qeyd edilmiş fikirləri daha qüvvətləndirir:

1. Müəllif əsərinin moğolca qisminin axırında moğol dilinə türk dilindən bir çox lüğətlərin daxil olduğunu qeyd edərkən aşağıdakı sözləri yazır:

و اعلم ان الاعاجم تأخذ الفاظاً كثيرة من العرب تستعملها في لغتها و الترك
تأخذ من الاعاجم ما تداخله الفاظها اوما لا يكون له مسمى عند هم اومتعذر
الوجود و لسان المغول يتداخله كثير من اللغة التركية و كذى جال الارمن و الكرج فى
استعمالهم الفاظاً كثيرة من الرومية و جميع ذلك اوما يناسبه انماهو لقرب المجاورة
و كثرة المحاورة اجتذاب الاقل في الاكثر طلباً للتمام و الكمال. [16]

[11] Араб-филолог, стр. XVIII.

[12] Yəni: "Türküstan lüğətində (dilində) ləfzlər tapılır ki, bizim ölkələrin xalqı bunların yerində başqa ləfzlər istemal edirlər" (İbn Mühənna, İstanbul təbi, səh. 72).

[13] İbn Mühənna, İstanbul təbi, səh. 78-90.

[14] Араб-филолог, стр. XVIII.

[15] Yenə orada.

[16] Yəni: "Bilmiş ol ki, əcəmlər (farslar) ərəb dilindən bir çox sözlər alırlar. Eyni surət ilə türklər də fars dilində bulunan sözləri alırlar. Çünki onlarda (türklərdə) bu sözlər yoxdur, yaxud nadirdir. Moğol dilinə isə türkcədən bir çox sözlər girir. Ermənı və gürcülərin vəziyyəti də bu cürdür. Bunlar da rum (qrek) dilindən bir çox ləfzlər götürürlər. Bütün bunlar yaxın qomşuluq, çoxlu ünsiyyət nəticəsində daha kasıb olan dilin daha zəngin olan dildən tamamlığa və kamala çatmaq üçün istifadə etmək meylindən ilərı gəlir" (İbn Mühənna, İstanbul təbi, 230).

Bu parçadan müəllifin türklər, moğollar, farslar və ərəblərdən başqa, gürcü və ermənilərin bulunduğu bir ölkə ilə yaxından tanış, hətta gürcü və erməni dillərinin quruluşu və tarixinə az-çox vaqif olması aydın surətdə görülür. Bu ölkənin yuxarıda qeyd edilən xalqların XIII-XIV miladi əsrdə yan-yana yaşadığı Azərbaycan ölkəsi ola biləcəyi, fikrimizcə, şübhə gətirməz.

İkinci, eyni dərəcədə mühüm parça türklərdəki heyvan təqvimi məsələsinə aid olaraq verilən parçadır:

اعلم ان تاريخ الترك كان يجعل كل سنة باسم دابة سنذ كرلك الحان تمضى[17] اثنا عشر (عشرة) سنة باسم اثنا عشر (عشرة) دابة.

مثاله اذا ولد مولود قيل ولد فى سنة الدابة الفلانية فاذا وصل عمره في الاخير[18] صنفه بشرف الزمان. اليها كل اثنا عشر سنة ثم كذلك في كتاب "طبائع الحيوان" الذى الطبيب المروزى و ذكر فيه نواحى الصين وصاحب الترك[19] الى السلطان محمود في سنة ثمان عشر و اربع مائة كتب تاريخها و ذلك في شهر الخامس من سنة الفار وذكر ترتيب السنين و الحيوانات على هذا النسق سجغان ييلى، سفر ييلى، بارس ييلى،[20] تاوشقان ييلى، بالق ييلى،[21] ييلان ييلى، ات ييلى، قوين ييلى، بتجين ييلى، تفوق ييلى،[22] ايت ييلي، تونكز ييلى.[23]

و كثيراً ما ترى تقاويم ملوك الترك هذا وخاصة تاريخ هذه الدولة المغولية القاهرة فانهم يورخون ناقلية عن تواريخ الايغر[24] و كتبهم القديمة.[25]

---

[17] Melioranskidə: بمعنى

[18] Melioranskidə: في الدور الاخير

[19] İstanbul təbində و ترجمة الاسامى كانت كتبها صاحب الصين و صاحب الترك sözləri yoxdur, halbuki Melioranski nüsxələrində bu sözlər vardır ki, bunlar olmadan ibarənin mənası aydınlaşmır.

[20] Melioranskidə: پارس ييلى، قبلان ييلى

[21] Melioranskidə: بالغ

[22] Melioranskidə: تاوق

[23] Melioranskidə: دنغز

[24] Melioranskidə: اغر

[25] Yəni: "Bilmiş ol ki, türklər tarixi hər ili bir heyvanın adı ilə adlandıraraq qeyd edirlər, aşağıda zikr edəcəyimiz kibi, on iki heyvanın adı ilə on iki ilə varıncaya qədər. Məsələn, əgər çocuq doğulsa, deyilir, filan heyvan ilində anadan olmuşdur. Çocuğun yaşı başqa dövrdə (ikinci on iki illikdə) yenə eyni ilə vardıqda, demək ki, uşağın yaşı dolmuşdur. طبائع الحيوان namındakı əsərində [...] müəllif Çin və türk ölkələri və türk və Çin hakimlərinin Sultan Mahmuda yazdıqları məktublar (asami) haqqında xəbər verir. Dörd yüz on səkkizinci (hicri) ildə yazılmış olan bu məktubların tarixləri siçan ilinin beşinci ayı olaraq göstərilmişdir. Eyni müəllif illərin və heyvan adlarının təqsimini aşağıdakı tərtibdə göstərir: siçan ili, səfər ili, bars ili, dovşan ili, balıq ili, ilan ili, [at ili], qoyun ili, biçin ili, tavuq ili, it ili, donuz ili. Bir çox hallarda bunu (yəni bu surət ilə tarix qeyd etməni) sən türk padşahlarının təqvimlərində və xüsusən bu indiki qüvvətli moğol dövlətinin tarixində görə bilərsən. Onlar bu surət ilə tarixi qeyd etməyi uyğur tarixçilərindən və onların (uyğurların) qədim kitablarından nəql edirlər".

Bu parça neçə cəhətdən diqqətə layiqdir. Əvvəla, İbn Mühənna burada müxtəlif tarixi əsər və vəsiqələrdə qeyd edilən heyvan təqviminin bu dövrdə də türklərdə qullandığını və bu surətlə heyvan ilə il və yaş təyin etmənin həyat və məişətdə də bulunduğunu göstərir.

Bu günə qədər müxtəlif köçəri maldar xalqlarda yaşayan və indi belə Azərbaycanın müxtəlif rayonlarında qədim dövrlərin qalığı-bəqiyyəsi kibi təsadüf edilən heyvan təqvimini Mühənnanın yalnız uyğurlara və uyğur kitablarına isnad etməsi, əlbəttə, doğru deyildir.[26]

Yuxarıda qeyd edilmiş olan parçada bizi maraqlandıran məsələyə aid işarə "tarix[i-hazihid-dövlətil-moğoliyyə]"dir. Bu sözlərdən müəllifin, yəni İbn Mühənnanın moğol dövləti idarəsində bulunan bir ölkədə yaşadığı aydın olur. Bu dövlət ancaq o zamanlarda Azərbaycanı dəxi öz əllərində bulunduran İran-moğol dövləti ola bilər. Çünki müəllif burada da Çin və uyğur ölkələrindən uzaq bir ölkə kibi yalnız [تواريخ الايغر] əsərinə istinad edərək danışır.

Nəhayət, ilərdə də görüləcəyi kibi, bu əsərin mövcud olan altı nüsxəsi bir-biri ilə müqayisə edildikdə daima Azərbaycan türk dilinin müxtəlif dövrlərindəki inkişafı ilə müvazi surətdə getməsi də yuxarıda gətirilən momentlərə əlavə ediləcək olarsa, əsərin XIII-XIV əsrlərdəki Azərbaycan ölkəsi və dili ilə doğrudan-doğruya əlaqədar olduğunu göstərir. Lakin bəhsimizin mövzusunu təşkil edən əsər əsasən dilə aid lüğət və qrammatika əsəri olduğundan hər şeydən artıq əsərin dil materialına və Azərbaycan türk dilinin qədim dövrlərinə aid olaraq yazılmış olan başqa əsərlər arasında işğal etdiyi mövqeyə əhəmiyyət vermək lazım gəlir.

---

[26] Ümumən heyvan təqvimi və xüsusən bu təqvimin Azərbaycandakı qalıqları ayrıca tədqiq edilməyə layiq bir mövzudur. Bu il, 1936-cı il avqust ayında Dəstəfur, Gədəbəy ayrımları arasında apardığımız dil və folklor ekspedisiyasında heyvan təqviminin bugünkü vəziyyətinə aid olaraq üç variant, moment qeyd etdik:

1. Bəzi yerlərdə heyvan təqvimi öz tarixi funksiyasını itirərək, yalnız bir [...] mövhumat bəqiyyəsi kibi hazırlanır. Hər il heyvanın, yaxud insanın adı ilə bağlıdır və bu heyvanın xasiyyəti ilin bərəkət və məhsuldarlığında özünü göstərir.

2. İl on bir heyvan və insan başına dönər.

3. İl on iki heyvan başına dönər.

Bu üçüncü variantda müxtəlif dövrlərdə və əsrlərdə görülən heyvan adları vardır. Yalnız çox dəfə meymun (biçin), bars illəri dəyişir və heyvanların tərtibi hər yerdə müxtəlifdir.

İBN MÜHƏNNA ƏSƏRİNİN BAŞQA LİSANİ ƏSƏRLƏR ARASINDAKI MÖVQEYİ

Bu əsərin lüğət və sərf materiallarını az-çox müfəssəl surətdə təhlilə girişmədən əvvəl başqa lisani əsərlər arasında tutduğu yeri təyinə çalışmaq lazımdır. Bu surət ilə İbn Mühənnanın hansı dil materialına istinad etdiyi, öz dövründə mövcud olan dilçilik üsul və terminologiyasından nə cür istifadə etdiyi meydana çıxacaqdır.

Biz burada İbn Mühənnaya qədər, yaxud onun dövründə yazılmış olan bütün lisani əsərlərdən bəhs etmək niyyətində deyilik. Bunun üçün ancaq bir neçə mühüm hesab etdiyimiz əsərin dil materialı və tədqiq üsulları ilə İbn Mühənna əsəri arasında olan əlaqəni meydana çıxarmaq ilə kifayətlənəcəyiz.

Məlum olduğu üzrə, türk sistemli dillərin tədqiqinə aid birinci və ən müfəssəl əsər Mahmud Kaşqarinindir. Kaşqari bu əsərdə 20 türk sistemli dildən bəhs etmək ilə bərabər, üç cildlik əsəri daxilində əsas etibarilə oğuz-qıpçaq dili ilə uyğur dilini müqayisə edir. Kaşqarinin oğuz-qıpçaq dili və "türk" adlandırdığı uyğur, daha doğrusu, "xaqaniyyə dili" arasında göstərdiyi əsas fərqləri[27] mövzumuz üçün çox əhəmiyyətli olmağına görə aşağıda bir neçə nöqtə halında xülasə edirik:

1. Başında [y] olan hər sözü oğuz və qıpçaqlara الف təbdil edirlər. Yəni söz başında bulunan [y] səsləri oğuz və qıpçaqda düşür, məsələn:

xaqaniyyə	oğuz-qıpçaq
يلكن – yelkin	الكن – elkin
يلغ – yılıq	الغ – ılıq[28]

2. Söz başında olan [m] səsini oğuz-qıpçaqlar [b] səsinə təbdil edirlər:

xaqaniyyə	oğuz-qıpçaq
من بردم – mən bardım	بن بردم – ben bardım
من – mun	بون – bun[29]

[27] ديوان لغات الترك, cild I, səh. 31.
[28] Yenə orada.
[29] Yenə orada, səh. 32.

3. Sözdə bulunan hər [t] səsini oğuz dilində [d] səsinə təbdil edirlər:

xaqaniyyə	oğuz-qıpçaq
توقى – töqöy	دوى – dövöy
اوت – ot	اود – od[30]

4. Söz ortasında bulunan [ğ] səsi oğuz-qıpçaq dilində düşər:

xaqaniyyə	oğuz-qıpçaq
چمغق – çumğuq	چمق – çumuq
تمغق – tamğaq	تمق – tamaq
برغان – barğan	بران – baran
ارغان – urağan	اران – uran[31]

Eyni surətlə söz ortasında bulunan yuxarıda göstərilən sözortası [ğ] səsinin mənasını verən [q] səsi dəxi oğuz-qıpçaq dilində düşər.

Əsərin müqəddiməsində verilən bu qısa müqayisədən sonra Mahmud Kaşqari əsərinin hər üç cildində xüsusən oğuz dilinə ayrıca əhəmiyyət verir və çox yerdə onu qıpçaq dilindən ayırır. Bu xüsusda müxtəsər bir fikir verə bilmək üçün Kaşqarinin müfəssəl əsəri daxilində oğuz dilinə aid olaraq göstərdiyi sözü, söz şəkillərindən bir neçəsini aşağıda qeyd edirik:

ابا – *oba* oğuz dilində "qəbilə" deməkdir.[32]

كيب – *kib* oğuz dilində "oxşar" və "misal" deməkdir. Məsələn: بوارانك كيبى[33] yəni "bu kişi (hərkək) onun oxşarıdır".

ايلا – *eylə* oğuzca "elə" deməkdir, məsələn: ايلا قلغل[34] *Elə eylə!*

تينما – oğuzca "danışma, sakit ol" deməkdir. Halbuki türkcə (xaqaniyyə dilində) تن sakit ol deməkdir[35] (dinmə).

كمى – oğuzca "gəmi" deməkdir, türkcə (xaqaniyyə) كمى "kimi"dir.[36]

[30] ديوان لغات الترك, cild I, səh. 32.
[31] Yenə orada, səh. 33.
[32] Yenə orada, səh. 78.
[33] Yenə orada, cild III, səh. 85.
[34] Yenə orada, cild I, səh. 103.
[35] Yenə orada, cild II, səh. 24.
[36] Yenə orada, cild III, səh. 176-78.

كند – oğuzlarda, onlara tabe olanlarda "قريه" ("kənd") deməkdir.[37]

ساغ – oğuzca "sağ tərəf" deməkdir. Türk (xaqaniyyə) bu sözü bilməz.[38]

كجى – oğuzca "kəci" deməkdir. Türkdə (xaqaniyyədə) اجكو-dür.[39]

كجا – oğuzlarda "gecə" deməkdir. Türklərdə (xaqaniyyədə) كزد-dir.[40]

بمق – oğuz dilində "panbuq" deməkdir, türk (xaqaniyyə) dilində كباز ("kəbəz") deyilir.[41]

الك – oğuz dilində "ilik" deməkdir, türk (xaqaniyyə) dilində يلك ("yilik") deyilir.[42]

ایر – "topraq" يره [deyilir].[43]

Qılmaq [oğuz-qıpçaq] dillərində "cinsi əlaqə" mənasına gəldiyi üçün oğuzlar bunun yerinə ايتى *etdi* sözünü işlədirlər.[44] Nəhayət, əsər daxilində oğuz-qıpçaq dilində القاف [k] – الخا [x] səsinə çevrildiyi dəxi qeyd olunmuşdur. Bu xüsusiyyətin də fonetika cəhətindən ilərideki tədqiq və mühakimələrimizdə əhəmiyyəti olduğu üçün Kaşqarinin bu məsələ haqqında verdiyi məlumatı eynən qeyd edirik: قيو sözü bəzən خيو şəklində tələffüz olunur: قاف [k] səsi خاء [x] səsinə təbdil edilmişdir. Oğuz və qıpçaqlar bəzən قاف [k] – خاء [x]-ya təbdil edirlər. Xalacların bir təbəqəsi bunlardandır ki, bunlar türklər (xaqaniyyə) "qızım" deyən yerdə خيزم, قندا اردنك "harda idin" deyən yerdə خندا اردنك deyirlər.[45]

Bütün bu nöqtələr Mahmud Kaşqari tərəfindən oğuz-qıpçaq dilinə verilən xarakteristika haqqında müəyyən təsəvvür əldə etmək üçün kafidir. İlərideki görüləcəyi kibi, sonralar bu xarakteristika türkmən və nəhayət, Azərbaycan türk dilinə verilmişdir. Burada həm müxtəlif qəbilələr arasındakı lisani əlaqələrin sonrakı dövrlərdə dəyişmiş olan ictimai-iqtisadi əlaqələr arasında dəyişməsi, həm də sonrakı dövrlərdə yetişən dilçilərin "türk", "oğuz", "türkmən" kibi ümumi

[37] ديوان لغات الترك, cild I, səh. 288.
[38] Yenə orada, cild III, səh. 114.
[39] Yenə orada, cild III, səh. 165.
[40] Yenə orada.
[41] Yenə orada, cild I, səh. 317.
[42] Yenə orada, səh. 69.
[43] Yenə orada, səh. 47.
[44] Yenə orada, cild II, səh. 21-22.
[45] Yenə orada, cild III, səh. 165-164.

və çox dəfə konkret və hərfi məzmundan məhrum etnonimik sözlər ilə daha yaxından tanış olub müxtəlif ölkələrdə danışılan dillərin spesifikasını verməyə çalışmaları görülür. Nəhayət, müəyyən qrammatik traditsiya nəticəsində, bu nöqtələrin, yəni "oğuz-xaqaniyyə", ilərideki "qıpçaq-türkmən" dillərinin qarşılıqlı əlaqələrini qeyd etməkdə Kaşqari tərəfindən gətirilən xüsusiyyətlərin klassik mahiyyət aldığını da görürük.

Mahmud Kaşqari tərəfindən verilən müqayisəli materiallardakı bir nöqtəyə də diqqət etmək lazımdır. Kaşqari bu növ materiallarda çox dəfə oğuz ilə qıpçağı bir arada, ayırmayaraq götürür, yaxud yalnız oğuz ilə müqayisə edərək, qıpçaq dili üzərində dayanmır. Hətta تراك "terek" – *ağac*[46] və كرتو "kertu" – *gerçək*[47] kibi sonrakı dilçilər tərəfindən yalnız qıpçaq dilinə isnad edilən sözləri belə Kaşqari qeydsiz olaraq götürür. Yalnız bəzi توز *töz* (dözmək)[48] kibi sözlərdə قبچاق qeydini verir, yaxud ايلا – *öylə* kibi sözlərdə qıpçaq variantını bildirir.[49]

XIV miladi əsrdə yazılmış olan Əbu Həyyan əsərində türkmən və qıpçaq dilləri bir-biri ilə müqayisə edilir. Çox maraqlıdır ki, daha sonrakı əsərlərdə olduğu kibi, bu əsərdə də Kaşqarinin qeyd etdiyi xüsusiyyətlər müqayisəyə cəlb edilir, yalnız dil materialı başqadır. Misal olaraq Kitabül-idrakdan da bəzi nöqtələri qeyd edirik:

1. Qıpçaq dilində söz başında bulunan [y] türkmən dilində düşər:

qıpçaq	türkmən
يب	اب[50]
يكرمى	اكرمى[51]
يبك	ابك[52]

2. Qıpçaq dilində söz ortasında bulunan غ və ك hərfi (səsi) türkmən dilində düşür:

[46] ديوان لغات الترك , səh. 345.
[47] Yenə orada, səh. 349.
[48] Yenə orada.
[49] ايلا – الظهر و قفجاق تجعل الياء زايا منقول ازلا (cild I, səh. 103).
[50] كتاب الادراك , II təbi, səh.7.
[51] Əbu Həyyan اكرمى formasını ancaq bir variant olaraq göstərir. Yenə orada, səh. 96.
[52] Bunu da yalnız [bir] variant olaraq göstərir. Yenə orada, səh. 91.

qıpçaq	türkmən
امكك	اَمك[53]
صجغن	صجن[54]
قصقا	قصا[55]
بلغدى	بلدى[56]

3. Qıpçaq dilində söz başında bulunan [m] səsinə qarşılıq türkmən dilində [b] səsi bulunur:

qıpçaq	türkmən
من	بن[57]
مندى	بندى[58]
ممق	بنبق[59]
منجق	بنجق[60]

4. Qıpçaq dilində söz başında və söz ortasında bulunan [t] səsi türkmən dilində [d] səsinə keçir:[61]

qıpçaq	türkmən
اَتك	ادك[62]
تمر	دمر[63]
درك	ترك[64]

[53] كتاب الادراك, səh. 23.
[54] Yenə orada, səh. 56.
[55] Yenə orada, səh. 72.
[56] Yenə orada, səh. 35.
[57] Yenə orada, səh. 7.
[58] Yenə orada, səh. 4.
[59] Yenə orada, səh. 48.
[60] Yenə orada, səh. 49.
[61] Burada ancaq söz ortasındakı [t] səsinin türkmən dilində [d] səsinə intiqal etdiyi üzərində qətiyyətlə dayanmaq mümkündür. Əbu Həyyan söz başındakı [t] səsinin də türkmən dilində [d] səsinə keçməsini ancaq تمر – دمر sözünə aid olaraq qeyd edir və başqa sözlərdə əsas olaraq [d]-lı formanı alır və onun yanında "[t] deyilir" qeydi ilə [t]-lı formanı da verir. Buradan da qıpçaq və türkmənin bu xüsusda qismən-müsmən müştərək olduğu da anlaşılır.
[62] كتاب الادراك, səh. 17.
[63] Yenə orada.
[64] Yenə orada.

Bundan başqa, Əbu Həyyan qıpçaq dilinin Mahmud Kaşqaridə qeyd edilməyən bir neçə xüsusiyyətlərini də göstərir. Məsələn, türkmən dilində söz ortasında bulunan [ğ] səsi (hərfi) qıpçaq dilində [v] səsinə keçir:

qıpçaq	türkmən
اول	اُغُلْ[65]
اَوز	اَغُزْ[66]
اوز	اَغِزْ[67]

5. Aspirasiya hadisəsi Əbu Həyyan əsərində geniş surətdə görülmək ilə bərabər, 96-cı səhifədə يقشى sözünün "x" hərfi ilə də tələffüz edildiyi qeyd edilir ki, buradan bu hadisənin qıpçaq və türkmən dillərində, sporadik şəkildə də olsa, təsadüf etdiyi nəticəsi çıxarıla bilər və Mahmud Kaşqarinin yuxarıda zikr edilmiş جيو - قيو müqabilləri haqqında təbdil edilmiş olur.

Yuxarıda qeyd edilən bu fonetik xüsusiyyətlər Əbu Həyyan əsərinin birinci lüğət qismində dərc edilmiş sözlərdə görülən xüsusiyyətlər olub, müəllif bunları ayrıca qayda şəklində verməmişdir. Lüğət qismində qıpçaq və türkmən dillərinin müqayisə üçün verilən başqa lüğətlərdə mövzumuz üçün qiymətli və xarakteristik materialdır ki, bunlardan da bir neçəsini burada qeyd edirik:

türkmən	qıpçaq
بلدى	طبدى[68]
قرط	برى[69]
كجى	اجكى[70]
پنبوق	ممق[71]

[65] كتاب الادراك, səh. 17.
[66] Yenə orada.
[67] Yenə orada. Bu اغز sözü "heyvan doğandan sonrakı birinci süd" mənasındadır.
[68] كتاب الادراك, səh. 35.
[69] Yenə orada, səh. 70.
[70] Yenə orada, səh. 79.
[71] Yenə orada, səh. 80. Halbuki Kaşqari ancaq بق sözünü qeyd edir (317. I).

يغمر	يمغر[72]
نشا	نلك[73]
قرطلدى	قطلدى[74]
كيش	قيش[75]
صدى	صذرى[76]
سحز	سحز[77]

Əbu Həyyan əsərindən buraya qədər verilən məlumat və material Kaşqaridən alınan materiallarla müqayisə edildikdə XIII əsrin sonları və XIV əsrin başlarında "qıpçaq" və "türkmən" adları altında qeyd edilən dillərə aid olaraq bəzi nəticələri təsbit etmək mümkündür:

1. Mahmud Kaşqarinin "oğuz", Əbu Həyyanın "türkmən" namı altında qeyd etdiyi dillər əsas fonetik və leksik xüsusiyyətlərilə birbirinə sıx surətdə bağlıdır.

2. Kaşqarinin ديوان لغات الترك[78]-ün bir çox yerlərində oğuz-qıpçaq dili üçün müştərək olaraq göstərdiyi xüsusiyyətlər Əbu Həyyan tərəfindən tamamilə ayrılmış şəkildə türkmən ilə qıpçaq dillərinin spesifikasına görə qeyd edilir. Bu ayrılığın qıpçaqda və oğuz dilləri arasında Mahmud Kaşqari dövründə də bulunduğuna şübhə yoxsa da, Kaşqari daha ziyadə uyğur və oğuz dillərinə əhəmiyyət verdiyindən ayrıca qıpçaq dili ilə oğuz dili arasındakı əlaqə və xüsusiyyətlər üzərində dayanmır.

3. "Oğuz" adı XIII miladi əsrdən sonra öz etnik məna və mündəricəsini itirərək, yerini "türkmən" adına tərk edir. Daha ilərıdə bu "türkmən" adının da qeyri-müəyyən və ümumi bir mahiyyət daşıdığı, hər dövr və ölkə üçün bu adın konkret mündəricəsini meydana çıxarmaq lazım gəldiyi görüləcəkdir.

---

[72] Yenə orada, səh. 95. اجكى / كجى sözündə olduğu kibi, burada da metatezis hadisəsi olduğu aydındır.

[73] Yenə orada, səh. 90.

[74] Yenə orada, səh. 85.

[75] Yenə orada, səh. 70.

[76] Yenə orada, səh. 60.

[77] Yenə orada, səh. 53.

[78] Bəzən Mahmud Kaşqari də "oğuz" adını "türkmən" adı ilə bağlı olaraq işlədir: التركمانية الغزيه (cild I, səh. 33).

Əbu Həyyan, çox zəif şəkildə olsa da, uyğur və bulqar dillərinə də müraciət edir. Hətta Kaşqarinin uyğur dilinə aid olaraq verdiyi bəzi xüsusiyyətləri Əbu Həyyan bulqar dilinə isnad edir, məsələn:

Türk dilində ذال [z] səsi yoxdur. Bu səs ancaq bulqar dilində bulunur:

اذى – "Allah", اذق – "ayaq", اذدى – "yuxladı" başqalarının dilində [y] ilə ايق və ايدى[79] olur. Hətta Kaşqari bulqar dilinin də bu xüsusda qıpçaq ilə bərabər olduğunu göstərir.[80]

Demək ki, burada Əbu Həyyan uyğur dili ilə bulqar dilini qarışdırır. Yalnız Əbu Həyyanın uyğur sözü olaraq göstərdiyi "Allah" mənasında بيره [81] sözünü qəbul etmək mümkündür. Bu söz Mahmud Kaşqarinin بذر برخان [82] şəklində və "büt-sənəm" mənasında göstərdiyi söz ilə əlaqədardır.

İlərıdə Mühənna əsərini tədqiq edərkən bu uyğur ünsürlərinin mahiyyətini meydana çıxarmaq çox mümkündür. Çünki müxtəlif türk sistemli dillər haqqında yazan müəlliflər daima uyğur dilinə müraciət etmişlərdir. Bunun səbəbi XIII-XIV miladi əsrlərə qədər uyğur ədəbiyyatının türk sistemli dillərdə ən ziyadə inkişaf etmiş və işlənmiş olmasıdır. Demək ki, bu uyğur ünsürü türk sistemli dillərə aid qrammatikalarda ənənəvi bir mahiyyət daşıyır.

Yenə Mühənnanın dil materialını aydınlaşdırmağa xidmət edəcək əsərlərdən biri də القوانين الكليه لضبط اللغة التركية namındakı müəllifi məchul əsərdir.[83] Bu əsərin də XIV-XV miladi əsrlərə aid olduğu şübhəsizdir. Adı imdilik məchul olan müəllif bu əsəri, özünün də qeyd etdiyi kibi,[84] türk dilində tərcüman olanlara yardım məqsədi ilə yazmışdır.

"Qəvanin" müəllifi əsərinin qrammatika qismində qıpçaq və türkmən dillərini qəti surətdə bir-birindən ayrı olaraq göstərməyə çalışmış isə də, lüğət[ini] qismində Əbu Həyyan kibi, qıpçaq və

---

[79] كتاب الادراك , səh. 9.

[80] وكذلك كل ذال معجمة فى كلام جكل وغيرها فان بعضا من قفجاق وبماك وسوار و بلغار و هو ممتدو، الى الروس و الروم تجعلها زاء (cild I, səh. 33).

[81] كتاب الادراك , səh. 37.

[82] برخان – الصنم والمدمية تسمى بذر برخان (cild I, səh. 364).

[83] القوانين الكلية لضبط اللغة التركية , İstanbul, 1928.

[84] وبعد فقد تكرر سؤال السادة الاخوان. اعزهم الله تعالى فى وضع قواعد كلية اللغة التركية فى معنى الترجمان , səh. 3.

türkmən lüğət[ini] və lüğət şəkillərini bir-birindən ayırmamış, yalnız bəzi yerlərdə sözün hansı dilə, qıpçağamı, türkmənəmi məxsus olduğunu göstərmək ilə kifayətlənmişdir.

Müəllif Misir qıpçaqları arasında yaşamış olduğundan türk dili, yaxud ən fəsih dil olaraq qıpçaq dilini göstərir.

Hətta tərcümanlara nəsihət verir:

"Türkmən dili türkcə deyildir... Bu dil ilə danışma. Çünki onlarda (yəni qıpçaqlarda) bu dili çirkin və bu dildə danışanı həqir hesab edirlər. Mən bəzi yerlərdə buna diqqəti cəlb edirəm.[85]

Qıpçaq və türkmən feodalları arasındakı rəqabət və düşmənçiliyin özünü dildə də göstərdiyi və dilin qəbilə münaizələrində, feodallar arasındakı hakimiyyət mübarizəsində oynadığı siyasi və ictimai rol buradan da çox aydın surətdə görülür. Demək ki, "Qəvanin" müəllifi öz əsərində qıpçaqdan başqa, türkmən dilinə aid qayda və qanunları da qeyd edərsə, bundan məqsədi türkmən dilində danışmaqdan tərcümanları sakındırmaqdır. Lakin çox dəfə "Qəvanin" müəllifi qıpçaq və türkmən sözlərini və söz formalarını qeydsiz olaraq bir-birinə qarışdırır. Bunun iki səbəbi ola bilər:

1. Müəllif özünün qeyd etdiyi kibi, "türk olmadığından və türk ölkələrində bulunmadığından"[86] bu iki dilin xüsusiyyətini bilmirdi.

2. Bu dövrdə, Əbu Həyyanda da görüldüyü kibi, türkmən və qıpçaq dilləri arasında müştərək söz və söz şəkilçiləri var idi. Çünki qıpçaqlar arasında türkmən qəbilələri də yaşayırdı. Burada hər iki momentin təsiri olduğuna şübhə yoxdur. Xülasə, qeydli və qeydsiz şəkildə "Qəvanin"də də Kaşqarinin "oğuz", "uyğur", Əbu Həyyanın "türkmən" və "qıpçaq" təqasimləri olaraq göstərdikləri söz və söz şəkillərinə təsadüf edirik. Bir neçə misal:

[87] اویل – اطن
[88] صشقان – صشان
[89] بلی – اوت

[85] القوانین الکلیه , səh. 3.
[86] فانی لست من الترك ولا من اولادهم و لم ازحلّ الی بلادهم (səh. 3-4).
[87] القوانین الکلیه , səh. 76. Burada birinci sözün qıpçaq, ikincisinin türkmən olduğu göstərilmişdir. Kaşqaridə birincisi türk (uyğur) (cild I, səh. 226), ikincisi (اللغة الغزية), yəni oğuz sözü olaraq göstərilir. (cild I, səh. 173).
[88] Yenə orada, səh. 60. Qeydsiz olaraq يب – الخيط.
[89] القوانین الکلیه səh. 57. Qeydli olaraq.

[90] يب – اب
[91] يمغر – يغمر
[92] اض – اط
[93] يطلق – يطل
[94] اچسن – اچسن
[95] طاو – طاغ

Bütün bu misallar Əbu Həyyanın türkmən və qıpçaq dillərinin qarşılıqlı spesifikasına dair verdiyi xarakteristikanı təsdiq edir. Demək ki, Mahmud Kaşqaridən başlayaraq, "Qəvanin" və ilərdə görəcəyimiz kibi, İbn Mühənnaya qədər oğuz-uyğur, daha sonra türkmən-qıpçaq dillərinin bir-birilə müqayisəsində müəyyən klassik normalar bir növ ənənə törətmişdir.

Yuxarıda Kaşqari, Əbu Həyyan və "Qəvanin" müəllifində müştərək olan lüğət və xüsusiyyətlər bunun şahididir. Bu ənənə Şərq-Qərb türkologiya məktəbində Radlov-Vamberiyə qədər davam etmiş və bundan sonra yerini hinduya və burjua dilçiliyi əsasında törəmiş olan Avropa türkologiya məktəbinə tərk etmişdir. Bu sonuncu məktəbin türk sistemli dillərin təsnifində tutduğu yol və bütün klassifikatorlarda sabit olan xüsusən fonetik xüsusiyyətlər nəzərə alınarsa, bu yeni ənənənin də mahiyyəti asanlıqla kəşf oluna bilər.

Bizim tədqiq mövzumuz olan əsərlərdə bu ənənəvi cəmiyyətin meydana çıxarılması, ilərdə görəcəyimiz kibi, bir çox anlaşmazlıqların qabağını almaq üçün çox mühüm və zəruridir.

[90] Yenə orada, səh. 64. Qeydsiz olaraq. Burada "incə ip" və اب - الحبل "qalın ip" mənasında göstərilmişdir.
[91] يمغر و يغمر – المطر. كلاهما مضيع مستعمل , yenə orada, səh. 57.
[92] مطلق الاسم اض واط بالضاد والطا
[93] وان كان له ولمن معه فالقاعدة فيه ان تزيد على الاس لفظة "ق"... (يطلق) و التركمان يجعلون العلاقه عندهم ميما ساكنة بعد اللام فيطلقا فيقولون "يطلم" ("Qəvanin", səh.8)
[94] وان كان للغائب وحده فالقاعدة فيه ان تزيد على الاس لفظة "سن" "كل سن"، " ارسن" والتركمان يضمون السين مطلقا ("Qəvanin", səh. 7)
[95] الجبل "طاغ، ويقال" طاو" بالواو" ("Qəvanin", səh. 58)

İBN MÜHƏNNANIN MÜQAYİSƏLİ MATERİALI

İbn Mühənna dəxi öz əsərində bir neçə türk sistemli dildən material götürmüşdür. Mühənnanın türk sistemli dillər haqqındakı məlumatı Kaşqari və Əbu Həyyana görə çox dardır. Onu, Mühənnanı bu cəhətdən daha ziyadə "Qəvanin" müəllifi ilə müqayisə etmək mümkündür. "Qəvanin" müəllifi ki, Mühənnada[kı] uyğur və qıpçaq dil elementlərini öz mühitində yaşayan türklərin dil xüsusiyyətləri ilə qarışdırmışdır, bu dillərin (uyğur, qıpçaq, türkmən və "bizim ölkə türkləri") ayrı-ayrı spesifikası Mühənnaya aydın deyildir. Bunun üçün onun əsərində verdiyi dil materialına və ara-sıra nöqsanlı surətdə də olsa, əsərinə əlavə etdiyi qeydlərə istinad edərək, mümkün olduğu qədər bu cəhətləri aydınlaşdırmaq lazım gəlir. Əvvəla bunu qeyd etməlidir ki, Mühənna öz dövründə və mühitində məlum və türk sistemli dillərə aid olan müxtəlif əsərlərdən istifadə etmişdir. Bu əsərlərdən dördünün adını özü də qeyd etməkdədir.[96]

Əsərin bir yerində Mühənna تحفة الملك müəllifinə istinad edərək türk üləmasına müraciət olunduğunu da yazır. Mümkün ki, Mühənna özü də bu üsuldan istifadə etmişdir. Ümumən bu "türk üləmasının" müxtəlif türk sistemli dillərdə danışdığı və müəllifə verəcəkləri dil materialının da müxtəlif dillər və ləhcələrə aid olacağına şübhə yoxdur.

Mühənna öz əsərində "türküstanlı",[97] "türkmən"[98] və "bizim ölkə türkləri"[99] dillərindən bəhs edir. Lakin bu xüsusda verdiyi məlumat keçmiş dilçilərə, xüsusən Kaşqari və Əbu Həyyana görə çox az və əsasən qrammatika sahəsinə aiddir. Kaşqari və Əbu Həyyanda gördüyümüz kibi, lüğət materialı qeydsiz olaraq verilir. Bunun üçün müxtəlif türk sistemli dillərə aid məlumata istinad edərək, bu materialı konkretləşdirmək tədqiqçinin vəzifəsidir.

---

[96] كتاب نادر الدهر على لغة ملك العصر
كتاب تحفة الملك
كتاب يحيى (حلى yaxud) الملك
Məhəmməd bin Qeysin Cəlaləddin Xarəzmşah üçün təlif etdiyi əsər.

[97] تركستا نيون

[98] تركمان

[99] ترك بلادنا

Mühənnanın əsərində ayrıca qeyd edilən müqayisəli nöqtələr aşağıdakılardan ibarətdir:

1. Türküstanlıların dilində bulunan [ذ-z] və [d] səsi "bizim ölkə türkləri"ndə [t] və [y]-ya çevrilir. Məsələn, türküstanlı اتكو (اذكو), اداق (اذاق), ايدى (ايذى) dediyi halda, "bizim ölkələrin türkü" اتكو, اياق, ايتى deyir.

Mühənnanın ümumən "türküstanlı dili"nin xüsusiyyəti olaraq qeyd etdiyi lisani hadisə Kaşqari və Əbu Həyyanda çox aydın surətdə görüldüyü kibi, əsasən uyğur dilinə məxsusdur. Nəinki Mühənnanın əsərini təlif etdiyi XIV miladi əsrdə, hətta X-XI miladi əsrlərdə də bu xüsusiyyətin bütün Orta Asiya türk sistemli dilləri üçün ümumi olmadığı məlumdur. Demək ki, İbn Mühənnanın bu qeydi hərfi və qəti deyildir. Burada onun "türküstanlı dili" namı altında yürütdüyü dil əsasən uyğur-xaqaniyyə dilidir.

Lakin bu qeydin eyni zamanda böyük əhəmiyyəti burasındadır ki, Mühənna "bizim ölkə türkləri"nin dilini "türküstanlı" (uyğur) dilindən ayırmaqla özünün Türküstan-uyğur dilindən tamamilə başqa bir dil haqqında yazdığını göstərir. "Bizim ölkə türkü"nün dilində [...] [ذ-z], [d] səsinə qarşılıq [y], [t] olması, vaxtilə Kaşqari və Əbu Həyyanın çox doğru olaraq göstərdikləri kibi, yalnız oğuz, yaxud türkmən dilinə məxsus bir hadisə deyildir. Bu xüsusiyyət, yəni [ذ-z], [d] yerinə [y], [t] işlətmək hər halda qıpçaq dilinə də aiddir. Demək ki, Mühənna bu cəhəti də nəzərə almamışdır.

Nəhayət, Mühənnanın lüğət qismində qeydsiz olaraq dərc edilən [ذ-z], [d] səsinə malik sözlərin "bizim ölkə türkləri"nin dilinə deyil, uyğur, yaxud müəllifin öz təbirilə "Türküstan dili"nə aid olduğu da meydana çıxır:

يداغ – الراجل[100]
اوديدى – نام[101]
اذرلادى – اسرج العابة[102]

---

[100] كتاب حلية الانسان, İstanbul təbi, səh. 146; Melioranski: يباغ , səh. 50; يطى , səh. 31; ايرلمق , səh. 39.

[101] Yenə orada, səh. 115.

[102] Yenə orada, səh. 103. İstanbul nüsxəsində də, mətndə ايرلادى olub, ancaq haşiyədə اذرلادى yazılmışdır.

ادناتی – تغیر لونه[103]
اذیکدی – جاد[104]

Bütün bu və bunun kibi misallar Mühənnanın da özündən əvvəlki türkoloqların ənənəsinə tabe olduğunu göstərir. Bu da çox təbiidir, çünki XIV miladi əsrə qədər zəngin ədəbiyyata malik və işlənmiş dil uyğur dili idi. Moğol istilası dövründə bu dilin Moğol İmperiyasında müəyyən dərəcədə dövləti-rəsmi mahiyyət qazandığı da məlumdur.

2. "Türküstan" dilində bulunan [t] səsi, "bizim ölkə türkləri"nin dilində [d] səsinə çevrilir: دريك – تريك , ديش – تيش , ديل – تيل

Mühənnanın qeyd etdiyi bu xüsusiyyətin də böyük əhəmiyyəti vardır. Əgər yuxarıda qeyd edilən د - ذ - ى xüsusiyyəti türkmən və qıpçaq dillərilə uyğur-xaqaniyyə və Kaşqariyə görə, eyni zamanda جكل dili arasındakı fərqi, xüsusiyyəti göstərirsə, bu ikinci nöqtədə qeyd edilən xüsusiyyət "bizim ölkə türkləri"nin dilini qıpçaq dilindən də ayırır. Çünki yuxarıda gördüyümüz kibi, Əbu Həyyan bu xüsusda çox açıq misallar vermişdir. Demək ki, Mühənnanın əsərində başında د hərfi ([d] səsi) ilə qeyd edilən sözlər müəllifin öz tələqqisinə görə də "bizim ölkə türkləri"nin dilinə aiddir:

ديرتى – جمع[105]
داراتى – ضيق[106]

[103] كتاب حلية الانسان , səh. 106. Bu söz Melioranskidə yoxdur.

[104] Bu söz ümumən uyğur dilində təsadüf etdiyi kibi, Mahmud Kaşqaridə də qeyd edilmişdir: كوركلوك تنوغ اوزنك كا تتليغ اشيغ اذينقا "Gözəl geyim özünə, şirin xörək özgəsinə" beytindəki اذينقا sözü لغيرك mənasında tərcümə edilmişdir (cild I, 47). "Özgə" sözündə bunun qalığı olsa gərəkdir. Lakin ذرى dəyişməsi başqa dillərdə də vardır. Məsələn, Azərbaycan türk dilində xəstənin rəngi dəyişib yaxşılaşana "aynadı" deyirlər; ادناتى sözü ilə olan əlaqəsi meydandadır. Eyni surətlə özbək dilində həmin mənada bulunduğu kibi, bundan "yoldan çıxmaq, azmaq" mənasında, ətin pozulub rəngi dəyişməsində "aynadı" – أيناندى deyilir. اذيكدى – "eyniləşdi", اوديدى – "uydu", اذرلادى – "yəhərlədi, eyərlədi", يداغ – "yayaq" şəkillərində. Qalan sözlər də başqa türk sistemli dillərdə vardır. Bunların bəziləri *qadın*, *adaq*, *quduq* sözlərində gördüyümüz kibi, arxaizm olaraq qıpçaq və türkmən dillərində öz əski şəkillərində XIII-XIV miladi əsrlərdə vardı. Lakin nüsxələrdə يلياق (İstanbul nüsxəsi, 153) və يلياغ (Melioranski, 55) sözünün də bulunması İbn Mühənnanın dövründə bu formanın daha da yayılmış olduğunu göstərir. Eyni surətlə İstanbul nüsxəsində اذرلادى sözilə bərabər ايز (səh. 175) sözü də vardır.

[105] كتاب حلية الانسان , səh. 107; Melioranski nüs.: ديردى , səh. 25.

[106] Yenə orada, səh. 111; yenə orada: دارانى , səh. 28.

دشدى – وقع[107]
دندى – تقلب[108]
درناق – الظفره[109]

Bu növ misallar əsərin lüğət qismində də [...] yoxdur, lakin burasını da qeyd etməlidir ki, Mühənna burada da sonorizasiya hadisəsində, axıra qədər getməyir, bəzi yerlərdə [t]-li sözlərə də təsadüf edirik:

توتاق – الشفة[110]
تيلادم – اردت[111]
يترى – الجلد[112]
تره – العرق[113]

Bu halın iki səbəbi ola bilər:

1) Müəllif, başqa nöqtələrdə olduğu kibi, burada da qıpçaq və "bizim ölkə türkləri"nin dilini bir-birinə qarışdırır.

2) Yaxud bu dövrdə hələ sonorizasiya – cingiltiləşmə hadisəsi tamamilə, məsələn, bugünkü Azərbaycan türk dilində olduğu dərəcədə inkişaf etməmişdir. Əsasən bu gün də Azərbaycan türk dilində bu hadisə, ümumən başqa lisani hadisələr kibi, yüz faiz həyata keçməmişdir və dilin dialektik inkişafında bu hal çox təbiidir. Məsələn, bugünkü Azərbaycan dilində *tək // dək*, *dikmək // tikmək* kibi formaların paralel surətdə mövcud olması bunu təsdiq edir.

Hər halda bu xüsusiyyət İstanbul nüsxəsindən başqa nüsxələrə doğru enildikcə inkişaf edir və ən qədim nüsxə olduğunu görəcəyiz İstanbul nüsxəsində də bulunması müəllifin sonorizasiya xüsusiyyətinə malik olan dilə, Əbu Həyyan və "Qəvanin"in şəhadətinə görə, türkmən dilinə öz lüğət və qrammatikasında əsas yer verdiyini göstərir.

Mühənnanın altıncı, yeddinci və doqquzuncu maddələrdə qeyd etdiyi غ – ق və ق – غ[114] dəyişmələri həmin sonorizasiya hadisəsinin

[107] كتاب حلية الانسان , səh. 116; Melioranski nüs.: دشتى , səh. 32.

[108] İstanbul nüs., səh. 106; Melioranski nüs., səh. 24.

[109] Yenə orada, səh. 141; yenə orada, səh. 17.

[110] Yenə orada, səh. 92; yenə orada: توداق , səh. 77.

[111] Yenə orada, səh. 140; yenə orada: دلرمن , səh. 15.

[112] Yenə orada, səh. 139; yenə orada, درى , səh. 45.

[113] Yenə orada, səh. 139; yenə orada, دير , səh. 45.

[114] Yenə orada, səh. 80; yenə orada, səh. 8.

başqa səslərdə də özünü göstərdiyini isbat edir: ناغلدنك – ناقلدنك , ناقلور – ناغلر ,[115] سقتار – سغتار , سقتادی – سغتادی təqabülləri yenə həmin prosesin təzahürlərindəndir.

3. "Türküstan dili"ndə bulunan [ق] səsi "bizim ölkə türkləri"nin dilində [خ] səsinə keçir: توخلی – توقلی , اخروا – اقرو , سختادی – سقتادی .[116] Aspirasiya təbir etdiyimiz bu hadisə, yuxarıda görüldüyü kibi, Mahmud Kaşqaridən başlayaraq, bütün ərəb türkoloqlarında qeyd edilmişdir.[117]

Bu xüsusiyyət İbn Mühənnanın lüğət materialında da geniş surətdə əks etdirilmişdir:

ساخلدی – اضمر[118]
اخسوردی – عطس[119]
اخترلدی – انقلب[120]
اخصمق – العرج[121]
اخشمق – السبه[122]
سختادی – ناح وندب[123]
اخساق – الاعرج[124]
اخشق – ولد الزنا[125]

Bu hadisə Mühənna əsərinin başqa, Melioranski tərəfindən tədqiq və nəşr edilmiş nüsxələrində daha aydın və qüvvətli surətdə özünü göstərir:

Melioranski nüsxələrində	**İstanbul nüsxəsində**
ارخا – الظهر[126]	ارقا – الظهر[127]
اکری ارخا – الاحدب[128]	اکری ارقا – الاحدب[129]

[115] İstanbul nüs., səh. 80; Melioranski nüs., səh. 8.
[116] Yenə orada.
[117] Kaşqari, III, səh. 164-165; Əbu Həyyan, səh. 96; "Qəvanin", səh. 24.
[118] İstanbul nüs., səh. 103; Melioranski nüs.; ساغندی – اضمر , səh. 23.
[119] Yenə orada, səh. 104; yenə orada: انقلب – اجترلدی , səh. 23.
[120] Yenə orada, səh. 113; yenə orada: عطس – اخسردی , səh. 29.
[121] Yenə orada, səh. 122; yenə orada: البرج – اخمردی , səh. 36.
[122] Yenə orada, səh. 122; yenə orada: اخشامق , səh. 36.
[123] Yenə orada, səh. 115; yenə orada: سقتادی , səh. 31.
[124] Yenə orada, səh. 142; yenə orada: اخسخ , اخسق , səh. 48.
[125] Yenə orada, səh. 149; yenə orada: حرام دغقان – حرام زاده , səh. 52.
[126] İstanbul nüs., səh. 141.
[127] Melioranski nüs., 47.
[128] Yenə orada.
[129] Yenə orada, 141.

يل خجی – راعی[130]
اخنچی – رکابدار[132]

قویمانجی – راعی[131]
قسجی – رکاب دار[133]

Bu cədvəldən də görüldüyü kibi, Melioranski nüsxələrində bulunan [خ] səsinə qarşılıq İstanbul nüsxəsində ya [ق]-lı şəkil, yaxud tamamilə başqa söz vardır. Buradan çıxarılacaq nəticə aydındır: aspirasiya hadisəsi İstanbul nüsxəsində də gərək qrammatik, gərəksə leksik-lüğəvi qisimdə mühüm yer tutmaqla bərabər, Melioranski nüsxələrində daha artıq inkişaf edir, hətta bəzi سختادی – سقتادی misalında olduğu kibi, Melioranski nüsxələrindəki [ق] səsinə qarşılıq İstanbul nüsxəsində [خ] səsinin bulunması vəziyyəti dəyişdirməyir.

Kaşqari tərəfindən oğuz-qıpçaq[134] dilinin bir xüsusiyyəti kibi, Əbu Həyyan tərəfindən qıpçaq və türkmən dilləri üçün müştərək olaraq,[135] nəhayət, "Qəvanin" müəllifi tərəfindən yenə konkret olmayaraq, yəni türkmən və qıpçaq dilləri üçün ümumi şəkildə qeyd edilən bu hadisə[136] İbn Mühənna tərəfindən daha həqiqi və daha konkret xarakteristikasını qazanır. Yəni bu xüsusiyyət qıpçaq və türkmən dillərinin deyil, bəlkə, "bizim ölkə türkləri"nin lisani xüsusiyyəti olaraq qeyd edilir. Bu xüsusda keçmiş dövrdəki türkoloqların ən ehtiyatlılığından və çox dəfə ən incə məsələləri həll etməyə müvəffəq olanlarından tanılan professor Melioranski aşağıdakı sətirləri yazır:

"Прежде всего отметим присутствие خ – х в многих тех случаях, где ее в большинстве преследованных турецких диалектов является ق – к. О такой замене говорится 8, 7 – 10 (010, 4 снизу), а в глоссарии мы видим целый ряд примеров, а именно آخرون "поти, коноку", اخسر "чихать", اخسغ "хромой", اخشا "походить", ارخا "спина", ترجا "род щелка", ياخن, مسختا "близкий" и др. Правда спорадически такой переход к//х встречается в разных диалектах, но массовый переход наблюдается из исследованных диалектов, опять-таки только в азербайджанском. В настоящее время [х] там совершенно вытеснил [ق -к] в середине слова.[137]

[130] Melioranski nüs., 156.
[131] Yenə orada, 57.
[132] Yenə orada, 156.
[133] Yenə orada, 57.
[134] ديوان لغات الترك , III, səh. 164-165.
[135] كتاب الادراك للسان الاتراك , səh. 96.
[136] القوانين الكليه لضبط اللغة التركية , səh. 23.
[137] Араб-филолог, стр. XXXVIII.

4. "Türküstan dili"ndə söz başında bulunan [m] səsini "bizim ölkə türkləri" [b] səsinə dəyişdirirlər. Məsələn:

بون – مون , بينك – مينك , بن – من [138]

Bu xüsusiyyət də təqribən bütün ərəb türkoloqlarında qeyd edilən klassik momentlərdən biridir. Yuxarıda görüldüyü kibi, Mahmud Kaşqari bu xüsusiyyəti oğuz-qıpçaq[139] dilinə, Əbu Həyyan[140] və "Qəvanin"[141] türkmən dilinə isnad edərək qeyd eləmişlərdi.

Mühənna isə söz başındakı [m] səsini "Türküstan" və [b] səsini "bizim ölkə türkləri"nin dilləri üçün xarakteristik edd edir.

Mühənna əsərinin bu cəhətdən tədqiqi aşağıdakı vəziyyəti göstərir:

İstanbul nüs.	**Melioranski nüs.**
مونكايمق – الفقر [142]	yoxdur
بيغيق – زاوية العين [143]	بيغبق – زاوية العين [144]
بييق – السبال [145]	بييق – السبال [146]
برون – الانف [147]	برون – الانف [148]
منك – الخال [149]	منك – الخال [150]
بوين – العنق [151]	بوين - العنق [152]
مون – العيب [153]	مون – العيب [154]

[138] İstanbul nüs., səh. 80; Melioranski nüs., səh. 8.
[139] ديوان لغات الترك , I, səh. 32.
[140] كتاب الادراك للسان الاتراك , səh. 36.
[141] القوانين الكلية لضبط اللغة التركية , səh. 10, 26 və başqaları.
[142] İstanbul nüs., səh. 125.
[143] Yenə orada, səh. 140.
[144] Melioranski nüs., səh. 46.
[145] İstanbul nüs., səh. 141.
[146] Melioranski nüs., səh. 47.
[147] İstanbul nüs., səh. 140.
[148] Melioranski nüs., səh. 46.
[149] İstanbul nüs., səh. 140.
[150] Melioranski nüs., səh. 46.
[151] İstanbul nüs., səh. 141.
[152] Melioranski nüs., səh. 47.
[153] İstanbul nüs., səh. 148.
[154] Melioranski nüs., səh. 52.

مون لغ – معيوب [156]	مونلغ – معيوب [155]
yoxdur	مونچقچی – خوری [157]
برندق – الزمام [159]	بروندق – الزمام [158]
امكانمق – غمز العين [161]	ابكانمق – غمز العين [160]

Bu cədvəldə gətirilən misallar açıq surətdə göstərir ki, Mühənnanın "Türküstan dili"nə isnad etdiyi [m] və "bizim ölkə türkləri"nin dilinə isnad etdiyi [b] xüsusiyyətinə malik olan sözlər əsər daxilində paralel surətdə yerləşdirilmiş, yəni hər iki söz şəkilləri bu nöqtədə bir-birinə qarışdırılmışdır. Hətta bu xüsusda İstanbul nüsxəsilə başqa nüsxələr arasında fərq yoxdur. Deyilə bilər ki, bütün nüsxələr bu xüsusiyyəti dəyişdirmədən saxlamışdır.

Müəllifin yuxarıda verdiyi izahata görə, əsər daxilində bulunan [m]-lı sözləri "Türküstan" və [b]-lı sözləri "bizim ölkə türkləri"nin dilinə aid formalar edd etməliyik. Gərək müəllifin verdiyi izahat və gərəksə bizim yuxarıdakı cədvəl əsasında yürütdüyümüz mühakimə və gəldiyimiz nəticə əsasən doğrudur. Lakin burasını da unutmamalıdır ki, "bizim ölkə türkləri"nin dilində [m – b] dəyişməsi yüz faiz həyata keçməmişdir. Qədim Azərbaycan türk dilində olduğu kibi, bugünkü dildə də həm [m]-lı, həm [b]-lı sözlərə təsadüf etmək mümkündür. Məsələn, *min*, *mıncıq*, *mən* sözləri yanında *burun*, *boyun*, *buz* ... kibi sözlərin bulunması Azərbaycan türk dilinin bu xüsusda "türkmən" və "qıpçaq" dili tiplərinin calaqlaşması prosesini keçirdiyini göstərir. Lakin buna baxmayaraq, Azərbaycan türk dili əsasən [b] variantını təmsil edən dillərdəndir və İbn Mühənnanın [b] variantını "bizim ölkə türkləri"nin dilinə aid xüsusiyyətlərdən olaraq göstərməsi doğrudur.

Burada oxucunun diqqəti cəlb edilmək lazım gələn məsələlərdən biri də İstanbul nüsxəsində həm [m] və həm [b] variantının qeyd olunmasıdır ki, bu nəticənin ilərida İstanbul nüsxəsinin və ümumiyyətlə, İbn Mühənna əsərinin dil materialı haqqında verəcəyimiz xarakteristika üçün böyük əhəmiyyəti vardır.

[155] İstanbul nüs., səh. 148.
[156] Melioranski nüs., səh. 52.
[157] İstanbul nüs., səh. 155.
[158] Yenə orada, səh. 172.
[159] Melioranski nüs., səh. 70.
[160] İstanbul nüs., səh. 125.
[161] Melioranski nüs., səh. 38.

Yenə bu nöqtəyə aid misalları alaraq Mühənnanı Əbu Həyyan və "Qəvanin" müəllifilə müqayisə etmək çox maraqlıdır. Yuxarıda görüldüyü kibi, Əbu Həyyanın əsəri və "Qəvanin" əsasən qıpçaq dili haqqında yazılmış olub, bəzi nöqtələrdə bu dil müəlliflərin "türkmən" təbir etdikləri dil ilə müqayisə edilir.

Əbu Həyyan müxtəlif yerlərdə [m]-lı formanın qıpçaq və [b]-lı formanın türkmən olduğunu göstərir:

1) میندی – رکب و بالترکمانی (بندی) بالبا[162]
2) می– الدماغ و بالترمکانی (بینی) [163]
3) میز– القرن و بالترکمانی (بیز) [164]

Bundan başqa, İbn Mühənnanın verdiyi misallar eynilə Əbu Həyyanda da vardır: من– بن , مندی– بندی[165]

Demək ki, bu xüsusiyyətin özü kibi, misalları da bu dövrdə müəyyən klassik mahiyyət qazanmışdır.

Nəhayət, [m]-lı sözlər, sonradan olduğu kibi, bu dövrdə qıpçaq, [b]-lı sözlər türkmən və İbn Mühənnaya görə, "bizim ölkə türkləri"nin dilinə məxsusdur.

"Qəvanin" ilə İbn Mühənnanın müqayisəsi də bu vəziyyəti qüvvətləndirir. "Qəvanin"də hətta fars dilindən alınan بانك sözü belə [m]-lı formaya keçir: مفله.[166] Halbuki İbn Mühənnada بانکلادی şəklindədir.

İbn Mühənnanın bütün nüsxələrində الین[167] sözü bulunduğu halda, "Qəvanin"də مفلی[168] sözü bulunur.

Bütün bu faktlar, zənnimizcə, bu xüsusiyyətin dillərlə olan əlaqəsini açıq surətdə göstərməyə kifayət edər. Yalnız burada müəllifin bu xüsusiyyətə bağlı olaraq verdiyi ikinci bir momenti də qeyd etmək lazımdır.

İbn Mühənna həmin maddədə "bizim ölkə türklərinin" bəzən söz başındakı [b] səsini hərf etdiklərini də göstərir. Məsələn: نابولدی yerinə ناولدی, نابولغای yerinə ناولغای.[169]

---

[162] كتاب الادراك , səh. 88.
[163] Yenə orada, səh. 89.
[164] Yenə orada.
[165] Yenə orada, səh. 36.
[166] اذن من الاذان – مفله (القوانين)
[167] İstanbul nüs., səh. 140; Melioranski nüs., səh. 46.
[168] Yenə orada, səh. 60.
[169] İstanbul nüs., səh. 80.

Bu hadisənin də "bizim ölkə türkləri"nin və ümumən türk sistemli dillərin cənub qrupuna daxil olanları üçün böyük əhəmiyyəti vardır. Demək ki, *bol – ol* təqabülü XIV miladi əsrdə başlamış və əvvəla cümlə daxilində müxtəlif söz kombinasiyalarında özünü göstərmişdir.

Nəhayət, müəllifin X maddədə qeyd etdiyi [z] – [s] təqabülü də sonorizasiya xüsusiyyətinə daxil olan fonetik momentlərdən olub, [z] xüsusiyyəti "bizim ölkə türkləri"nin və [s] xüsusiyyəti isə "Türküstan", yaxud qıpçaq dilinin malı olur:

یراماز – یراماس , کلماز – کلماس , ایزدار – ایستار[170]

Bu müqayisəli fonetik momentlərdən başqa, İbn Mühənna əsərinin bir neçə yerində yenə "türkmən", "Türküstan" və "bizim ölkə türkləri"nin dili arasındakı əlaqə və ayrılıqlar üzərində dayanır.

5. "Təsğir" – kiçiltmə forması Türküstan[171] dilində كنا, yaxud قنا ləfzi ilə təşkil olunduğu halda, türkmənlərdə جغ vasitəsilə təşkil olunur. Məsələn:

سرای قنا , اوکنا ,اکزقنا , سرای جغ , اکزجغ[172]

Bu xüsusiyyət də Mühənnadan qabaqkı dilçilər tərəfindən qeyd edilə gəlmişdir. Məsələn, Əbu Həyyan كنا və جق , جك qoşmalarını qeyd edir və birinci[nin] qıpçaq, ikincilərin isə türkmən dilinə məxsus olduğunu göstərir.[173]

"Qəvanin" isə hər iki əlavənin (غنا və جق) ayrı-ayrı dillərə məxsus olduğunu göstərmədən, bir-birinin variantı olaraq qeyd edir.[174]

Hər halda Mühənnanın qabaqkı, yaxud onunla müasir olan lisançıların, ərəb türkoloqlarının şəhadəti ilə də كنا qoşmasının qıpçaq, جق və جك şəkillərinin türkmən, yaxud "bizim ölkə türkləri"nin dilinə məxsus olduğu aydındır.

---

[170] İstanbul nüs., səh. 80.
[171] Müəllif "Türküstan" sözünü yazmamışsa da, ümumən əsər daxilindəki müqayisənin gedişindən və Mühənnadan başqa əsərlərin göstərişindən burası aydın surətdə görülür. Necə ki, Melioranski nüsxələrində اللغة التركستانية sözləri vardır (səh. 10).
[172] İstanbul nüs., səh. 82-83; Melioranski nüs., səh. 10.
[173] علامة " كنا "في اللغة القبجاقيه و" "جق"، "جك" في اللغة التركمانية و تلحق في آخر الاسماء مفردة و مجموعة نحو "اق كنا" و "اللر كنا" و نحو "جغن جق" و "كججك" و الخ.
[174] ... احدهما "غنا" و قد تبدل الغين كاخا و الثانية "جق" بجيم مششنة بعدها قاف ساكنة: اطغنا، اطلار غنا، الوغنا، سودون جك و الخ (القوانين, səh. 56).

6. İbn Mühənna öz əsərinin başqa yerlərində də türkmən və "Türküstan" dillərindən bəhs edir və bunları bir-birilə müqayisə etməyə çalışırsa da, bu nöqtələr, müəllifin yuxarıda verdiyi müqayisəli qeydlər xarakteristik deyildir. Buna baxmayaraq, xülasən bu nöqtələri də qeyd etməyi lazım bilirik:

a) Türklər – "bizim ölkə türkləri" "gəlməz" mənasına كلماس , "varmaz" mənasına بارماس [175] dedikləri halda, türküstanlılar eyni mənada بارماس, كلوارماس deyirlər.[176]

İbn Mühənnanın bu qeydi də tarixi faktlara uyğundur. Doğrudan da, Şərq və Orta Asiya türk sistemli dillərinin ədəbiyyatında bu forma daima təsadüf edir.

بارارا یردی , بارر ایرمش , حاضر ایرمش , تورور ایردوك[177]

b) "Gəlmədi" mənasına كلماين , "varmadı" mənasına بارماين[178] formalarındakı [ى – y] səsini türküstanlılar [د – d] səsinə çevirirlər. "Gəlmədin" mənasına: كلمادين , "varmadın" mənasına بارمادن .[179] Bəzən [ن – n] – [ق – q], yaxud [ك – k]-ya çevrilir. "Eyləmədi" mənasına قلماديق , yaxud قلمايق , "bilmədi" mənasına بلمدك , "görmədi" mənasına كور ماديك .[180]

Bu nöqtədə ən maraqlı məsələ türk sistemli dillərdə keçmiş zaman felinin birinci şəxsi forması olaraq qullanılan "-dıq" və "-dik"lı sözlərin İbn Mühənna tərəfindən üçüncü şəxs kibi كورمادك *görmədi*, بيلماديك , yaxud بلمدك *O bilmədi* şəklində tərcümə edilməsidir.

Professor Melioranski bu nöqtə haqqında aşağıdakı qeydi vermişdir:

"По-видимому речь идет о формах для второго лица ед. числа и следует читать "ты не делал" قلمدق и т.д. Причем ق и ك в этих формах имеют носовое произношение نغ и نك. Впрочем орфография ق или ك вместо نغ и نك в высшей степени странно, так что возможна какая-нибудь порча текста".[181]

[175] İstanbul nüs., səh. 136; Melioranski nüs., səh. 43.
[176] Yenə orada 137; yenə orada, səh. 44.
[177] Bu misallar Əbülqazi Bahadır xanın شجره تراكمه adlı əsərinin əlyazmasındandır.
[178] İstanbul nüs., səh. 135; Melioranski nüs., səh. 43.
[179] Yenə orada; yenə orada.
[180] Yenə orada; yenə orada.
[181] Араб-филолог, стр. 38.

Demək ki, Melioranski İbn Mühənnanın bu sözlərdə həm imlasını, həm də ərəbcəyə tərcüməsini səhv hesab edir və yuxarıdakı formaları ikinci şəxs formalarının قلمدنغ , كلمدنك təhrif edilməsindən ileri gəlmiş zənn edir.

Professor Malov isə İbn Mühənna əsərinə təxsis edilmiş məqaləsində bu nöqtə üzərində dayanmadan keçir.[182] Başqa nöqtələrin izahında Mahmud Kaşqaridən istifadə etdiyi halda, burada nədənsə Kaşqarinin və Kaşqaridən sonra gələn ərəb türkoloqlarının bu xüsusda verdiyi materialı görməmişdir.

Professor Melioranski başqa bir münasibətlə keçmiş zaman felinin tərkibini meydana çıxarmaq məqsədilə yazmış olduğu sətirlərdə türkologiya sahəsində müəyyən ədəbiyyata malik olan bu məsələ üzərində dayanır[183] və burada professor Kazım bəy[184] və akademik Bötlinqin[185] bu xüsusdakı fikirlərini irad edir.

Kazım bəy [...] دك , دم və i.a. şəkilçilərini ايمك yardımçı felindən ixtisar edilmiş keçmiş zaman formaları olaraq izah etmək istəmişdir. Halbuki professor Melioranskinin haqlı olaraq göstərdiyi kibi, bu fikir doğru belə olsa, yenə ايمك felinin "-dim", "-dik" kibi formalarının haradan nəşət etdiyi məlum olmayır, yəni əsas məsələ izah edilməmiş olur.

Akademik Bötlinqin fikrincə, keçmiş zaman forması دك və دق şəkilçilərilə tərtib edilən feli isimlərlə (**отглагол. имена**) zəmir şəkilçilərinin birləşməsindən əmələ gəlmişdir. Yəni əvvəla قيلدير + م kibi formalar olub, sonraları ق -nın düşməsilə قيلدم forması təşəkkül etmişdir. Professor Melioranski [yazır]:

"Между тем никаких следов подобного процесса ни в одном турецком языке и ни в одном турецком письменном памятнике не сохранилось".[186]

Halbuki müxtəlif dilçilik abidələrinin tədqiqi bu formanın həqiqi və mümkün olduğunu göstərir.

Mahmud Kaşqari bu xüsusda aşağıdakı məlumatı verir (əhəmiyyətinə görə bu məsələyə aid nöqtələri eynən nəql edirik):

[182] Ибн Муханна о турецком языке. Зап. Колл. Вост., т. III, вып. 2, стр. 221.
[183] Араб-филолог, стр. LXIX – LXXII.
[184] А.Казем-бек. Общая грамматика турецко-татарского языка, стр. 181-182.
[185] O.Beothlingk. Jakutische Gram., 305-306.
[186] Араб-филолог, стр. LXIX – LXXII.

و التصريف اتفق اكثر الطوائف نحو يغما و تخسى وجكل و ارغو و ايغر الى الصين في الفصل الماضى ان يكون مقيدا بالدال و الياء في قولهم "بردى" اذا ذهب و خالفهم الغزية و بعض من قفجاق و سوارين. ان يجعل مكان الياء قافاً في الكلمة القافية او الغينية او المشبهة و كافاً مكان القاف فى الكلمة الكافية او الركيكة و يكون الجمع والوحدان في هذه اللغة على نسق واحد لافرق بينها. يقال في الكلمة القافية "يا قردق" اى انه وتر القوس. "من ياقردق" اى انى وترت "بزيا قردق" اى نحن وترنا القوس.
و في الغينية يقال "ال سوت سغدى" (؟) اى انه حلب اللبن ويقال "الار تاغقا اغدق" اى انهم صعدوا الجبل. و كذلك فى فعل النفس "يقال" "بزاغدق" اى نحن صعدنا.
و حرف الاشباع مثل قولهم "ال انى اردق" اى ضربه و كذلك يقال "من مندا تردق" اى انى اقمت ها هنا.
و في الكافية يقال "ال كلدك" اى انه حضر. "بز كلدك" اى نحن حضرنا "الار اڤكا كردك" اى انهم دخلوا البيت. و يقال في حروف الامالة "من انكا تڤار بيردك".
اى انى قد اعطيته المال. "من يرماق تيردك" اى انى جمعت الدرهم و لا يفترق الحكم بين الجمع و الوحدان كما رأيت.[187]

Yəni:

Yağma, tuxsı, çigil, arğu və uyğur kibi Çinə qədər olan tayfa və qəbilələrin əksərisi mazi felinin təhrifini "dal" və "ya" ilə qeyd etməkdə ittifaq etdilər, məsələn, "getdi, vardı" mənasına بردى deyərlər.

Lakin oğuz-qıpçaqdan bəziləri və suvar[lar] "ya" yerinə "qaf"lı, yaxud "ğeyn"li sözlərdə (yəni qalın köklərdə) قاف yaxud "kaf"lı sözlərdə (yəni incə köklərdə) كاف işlətməklə birincilərə müxalif oldular. Bunların dilində cəm və müfrəd bir şəkildə olub, aralarında fərq yoxdur. "Qaf"lı kəlmədə deyilir: ياقردق yəni "O yay qurdu", من ياقردق yəni "Mən yay qurdum", بر ياقردق "Biz yay qurduq" və "غ"lı sözlərdə deyilir: ال سغدى yəni "O süd sağdı", تاغقا اغدق yəni "Olar dağa çıxdılar", بز اغدق yəni "Biz yüksəldik".

"اشباع" hərfilə olan sözlərdə ال انى اردق yəni "O onu vurdu" və eyni surətlə من مندا تردق yəni "Mən burada durdum", "كاف"lı sözlərdə deyilir: ال كلدك yəni "O gəldi", بز كلدك yəni "Biz gəldik", اڤكا كردك yəni "Olar evə girdilər", من انكا تڤار بيردك yəni "Mən ona mal verdim", من يرماق تيردك yəni "Mən dirhəm yığdım".

Gördüyün kibi, cəm ilə müfrəd arasında fərq yoxdur.

Bu xüsusiyyətin qaldığını, izini كتاب الادراك-da da görürük:

[187] ديوان لغات الترك, II, səh. 50-52. 2-ci səhifədə həmin xüsusiyyət mənfi formalarda da təsbit edilir.

في الماضى قلت (كلدم) و (كله من) و في الجمع (كلدك) و (كلدك لر) و (كلد بز) و (كلد مز) با بدال الباء فيما.[188]

Eyni surətlə:

بز كلمدك لر , بز كلمدك[189]

Bu misallar arasında bizi maraqlandıran كلمدك لر və كلدك لر formalarıdır.

Bunlara paralel təşkil edən bir xüsusiyyətə də "Qəvanin"də təsadüf edirik:

اكرسن كتسا ، اكر سز كتسا ، اكر من كتسا ، اكر بز كتسماك ، اكر ازى كتسالار ، كت لارسا - كل ذلك فصيح مستعمل بشايع.[190]

Əgər bu xüsusiyyət Mahmud Kaşqaridə bu qədər aydın və müfəssəl surətdə qeyd edilmiş olmasa idi, كتاب الادراك və "Qəvanin" müəlliflərinin türk dili xüsusiyyətini burada təhrif etdiklərinə, yaxud burada imla, yazı [xətası] bulunduğuna hökm edə bilərdik.

Lakin hər üç mühüm türkologiya əsəri bir-birilə müqayisə edildikdə burada çox maraqlı bir xüsusiyyətin təsbit edildiyi və İbn Mühənnanın da ya bu əsərdən istifadə etdiyi, ya bunlardan tamamilə müstəqil olaraq tədqiq etdiyi dillərdə bulunan həmin xüsusiyyəti qeyd etdiyi şübhəsizdir.

من كتدك , سن كتدك formaları[nın] mövcudiyyəti türk sistemli dillərdə vaxtilə mütabiq yalnız kəmiyyət (müfrəd və cəm) cəhətdən deyil, eyni zamanda şəxs cəhətindən də olmadığını göstərir. Gerundial quruluş və formalarda buna bu gün də təsadüf edirik, məsələn: *biz getdikdə*, *mən getdikdə*, *o getdikdə* və i.a.

Əbu Həyyanın qeyd etdiyi paralel بز كلمدك لر , بز كلدكار , بز كلدك formaları müəyyən dövrdə ك şəkilçisinin həm birinci şəxs cəm məfhumunu ifadə etdiyini, həm sadəcə keçmiş zaman felinin şəkilçisi olaraq qullanıldığını bildirir.

"Qəvanin"də qeyd edilən من كتسا , سن كتسا formaları həmin xüsusiyyətin başqa fel şəkilçilərində təzahür etdiyinə şəhadət edir.

[188] كتاب الادراك, səh. 130.

[189] Yenə orada, səh. 131.

[190] القوانين الكلية لضبط اللغة التركية, səh. 20.

İstanbul nüsxəsinin naşiri Müəllim Kilisli Rüfət İbn Mühənnanın yuxarıda göstərilmiş nöqtəsinə verdiyi haşiyədə (?) əhalisinin dilində bu xüsusiyyətin bulunduğu[nu] qeyd edir.[191] Demək ki, bu xüsusiyyətin izlərini və bəzi canlı dillərdə də tapmaq mümkündür.

Bütün buraya qədər verdiyimiz məlumat İbn Mühənnanın əsasən hansı dillərin xüsusiyyətlərini qeyd və tədqiq etdiyini meydana çıxarmaq məqsədini daşıyır. Professor Melioranski, yuxarıda qeyd edildiyi kibi, bu əsərin əsasən qədim Azərbaycan türk dilinə aid olduğu fikrini yürütmüş və əsas lisani vəsiqə olaraq aspirasiya hadisəsini almışdı.

İbn Mühənna tərəfindən ayrıca qeyd edilmiş olmamaqla bərabər, əsərin lüğət qismində görülüb professor Melioranski tərəfindən dəxi qeyd edilmiş olan xüsusiyyətlərdən biri də söz başındakı [y] səsinin düşməsi hadisəsidir:

İstanbul nüs.	Melioranski nüs.	ərəbcə
ایر (161)	ییر (63)	الغنا
اوزوم (182)	اوزوم دیزم (78)	العنب
اغی (167)	ایك (67)	انثوب الابریسمی
ابلك (154)	ایلك (60)	خیط الابرة
ایر (173)	ایر (71)	السرج

Yuxarıda Mahmud Kaşqari və Əbu Həyyandan bu xüsusiyyətə aid gətirdiyimiz misallar və qeydlər xatırlanırsa, bu momentin də İbn Mühənna əsərinin "bizim ölkə türkləri"nin dili, yəni Azərbaycan türk dili ilə yaxından əlaqədar olduğuna aid sübutlardan birini təşkil etdiyi aydınlaşır.

Bu xüsusiyyət ayrı-ayrı sözlərdə, türk sistemli dillərin əksəriyyətində təsadüf edir. Bu xüsusda akademik Radlov aşağıdakı sözləri yazır:

"Der Abfall oder das Vortreten desmittellingualen jun der ihmentsprechenden Consonanten g, j, ž, z ist eine in allen Dialecten ziemlien haufig auftratende Ersehlinung. Hier nur einige Beispiele: soj. oruq (Weg), yoruq (Reise), yila, kas, uila (weinen) – kırg, ğyla, alt. ügön (Zaun) – Tar yügän, kırg, ğügön, Tar. uzük (Ring) – jüzük, ğüzük, kas,

[191] İstanbul nüs., səh. 135, haşiyə.

jözək, sağ, umag (Märchen) – ğumbaq, numaq, tel, ıq (Spinden) iar, jig, alt, inä, ingä (Nadel) tar. jinnä; dischag, ili (warm) – jyly, alt, jolu, kas, jyrt (zerreissen), jyryg (Spalte) karag, yryg. In den Sudlichen Dialectan und Zum Theil in Mittelasien tritt im Anlaute Sehr haüfig i statt ji der ubrigen Dialecte auf, z. B. ifäk (Seide) – jipak, ilan (Schlange) yilan u.a.m. Alle diese Beispile beweisen, dass j hauptsächlich vor engen Vocalen abfallt oder vortritt".[192]

Demək, akademik Radlov da bu xüsusiyyətin əsasən cənub türk sistemli dilləri üçün daha xarakteristik olduğunu göstərir və bu fikir yuxarıda İbn Mühənna əsərində gördüyümüz misallarda təyid edilir. Gərək Radlov, gərəksə Melioranski tərəfindən bu hadisənin dar saitlərdən əvvəl gələn [y] səsinə aid olduğu göstərilmişdir. Bu surətlə Azərbaycan türk dilində başqa türk sistemli dillərə görə daha ziyadə inkişaf etmiş olan bu xüsusiyyət eyni zamanda müəyyən səs kombinasiyasında, yəni dar saitlərdən əvvəl gələn [y] səsinin [y – i] (*y – igit, yıl, yıldız*), [y – ü] (*y – üz*) düşməsilə xarakterlənir.

Halbuki bəzi türk sistemli dillərdə, məsələn, qaraçay, bulqar dilində [y] səsinin bəzən geniş saitlərdən əvvəl də düşdüyü görülür, məsələn: *aman* (*y – aman*), *axşı* (*y – axşı*), *aşcik* (*y – aşcik*) kibi.

Xülasə, Mahmud Kaşqaridən başlayaraq, Radlov və Melioranskiyə qədər qeyd edilən bu xüsusiyyət əsasən dar saitlərdən qabaqkı [y] səsinin düşməsinə aid olduğu kibi, bu xüsusiyyətin cənub türk sistemli dillərində daha ziyadə inkişaf etdiyini göstərir. Bu xüsusiyyət də, bu gün də olduğu kibi, qədim dövrlərdə də Azərbaycan türk dilinin spesifikasına girən momentlərdən biri olur və Nəsimidən (XIV miladi əsr) Azərbaycan türk ədəbi əsərləri qeyd oluna gəlmişdir.

Professor Malov 1928-ci ildə bu xüsusda yazmış olduğu məqaləsində aşağıdakı nəticəyə gəlir:

"После выше изложенного нужно сказать, что если прав проф. П.М.Мелиоранский, относя описываемый известными ему пятью рукописями язык к языку старо-азербайджанскому, то думаю, что не погрешил и я, если назову теперь тот язык, который так рельефно выступает в шестой рукописи сочинения Ибн Муханны (а не у его переписчиков) восточно-туркестанский, кашгарский".[193]

[192] W.Radloff. Phonetik, II, 168.

[193] С.Е.Малов. Ибн Муханна о турецком языке. Зап. Колл. Вост., III, стр. 247.

Professor Malov İstanbul nüsxəsi, daha doğrusu, İbn Mühənna əsərinin orijinal nüsxəsi haqqındakı bu hökmünü aşağıdakı əsaslara istinad etdirir:

1. İstanbul nüsxəsində bulunub, başqa nüsxələrdə başqa sözlərlə dəyişdirilmiş olan lüğət qisminə. Malovun fikrincə, İstanbul nüsxəsində bulunan lüğətlər ancaq Şərqi Türküstan, uyğur dili abidələri və abidələrə aid dialektik əsərlərlə izah edilə bilər. Daha açıq deyilsə, bu lüğətlər cənub türk sistemli dilləri üçün xarakteristik deyildir.

Professor Malovun lüğətə aid olaraq verdiyi hökm üzərində əsasən İbn Mühənna əsərinin lüğət qisminə aid qeydlərimizdə ayrıca dayanacağımızdan burada izahat verməyə hacət görməyirik. Yalnız burasını qeyd etməlidir ki, İbn Mühənna əsərinin lüğət qismini nəşr etmiş olan Abdulla Battal professor Malovun yuxarıdakı hökmünü şərtsiz olaraq qəbul etmişdir.[194] Halbuki bunun mümkün olmadığını yenə eyni yerdə göstərəcəyiz.

2. Professor Malov bir neçə qrammatik xüsusiyyəti götürmüşdür ki, bu xüsusiyyətlər yalnız İstanbul nüsxəsində olub, qalan beş nüsxədə bulunmadığından və professor Malovun fikrincə, "Orxon" və uyğur dillərinə məxsus olduğundan bu xüsusiyyətlər də İstanbul nüsxəsinin, yaxud İbn Mühənna əsərinin əsasən Şərqi Türküstan dilinə aid olduğunu sübut olaraq götürülür.[195]

Bu qrammatik xüsusiyyətləri bir-bir gözdən keçirmək lazımdır.

a) Əgər "ərəb-filoloq"da[196] (səh. 048) "iqtidarı" felinin mənfi şəklini چدمسمن کلمکله ya کله بیلمسن , بارمغا ya بلمسمن باره şəklində görürsən, İstanbul nüsxəsində (səh. 136) کلومادم , بارومادم şəkillərini, yəni daha əski Türküstan formalarını tapırıq.

Bu forma "u-" ("qadir olmaq" – **мочь**) felinin keçmiş zaman mənfi forması *umadım* ilə saitlə təşkil edilmiş feli zərfdən (**деепричастие**)-dən (کلو , بارو) ibarətdir.

Doğrudur, "ərəb-filoloq"da da (səh. LXI) *kelüdi*, *barudı* formalarına aid qarışıq və mülhəm mətn olub bunlarda hərəkətin vüqu imkanını bildirirsə də, o zaman bu nöqtə o qədər mülhəm və qarışıq idi ki, P.M.Melioranski "u-" felinə aid başqa misallar tapa bilmədiyindən bunları çox əcib və qeyri-həqiqi formalar əddetmişdi.

[194] Aptullah Battal. İbn Mühənna lüğəti. İstanbul, 1934, səh. 2.
[195] Ибн Муханна о турецком языке, стр. 222-224.
[196] Yəni Melioranski nüsxələri.

Bundan başqa, "ərəb-filoloq"da ərəbcə القادر [197] tərcüməsilə *oğan* sözünə təsadüf edir ki, P.M.Melioranski bu sözü özünün birinci lüğətçəsində (səh. 051) şübhəli sözlər arasına idxal etmişdi.

İndi isə, türk-tatar və uyğur abidələrini nəzərə almasaq belə, İbn Mühənnada "u-" felindən təşkil edilmiş bir neçə forma tapmaq mümkündür: *udı*, *uqan*, *un* (məchul-mətavət-qayıdış babı) və başqaları [...].[198]

Professor Melioranski bu formalar haqqında aşağıdakı fikirləri bəyan edir ki, professor Malov bunları nəzərə almışdır:

"Bizim müəllifə (yəni İbn Mühənnaya) görə, iqtidar, yaxud hərəkətin icrasına yaxınlıq göstərən formalara gəlincə, mənim bildiyimə görə, müsbət şəkildə bu formalara təsadüf edilmir. Mənfi şəkildə və hərəkətin icrası mümkün olmadığını bildirmədən formalar olaraq bunlar hamıya məlumdur".[199]

Yaxud:

"Daha qədim cənub türk dilində bu növ formaların təşkili üçün, heç olmazsa, ləhcəvi olaraq, yəni ayrı-ayrı ləhcələrə dar saitlər [i], [ı] qullanılmışdır".[200]

Nəhayət:

"Bütün deyilənlərdən bu nəticəni çıxara bilərik ki, müxtəlif dövrlərdə və müxtəlif ləhcələrdə [a, ə, i, ü] saitləri vasitəsilə təşkil edilən geniş (**распространенный**) formalar yaşamışdır və yaşayır".[201]

Bundan başqa, professor Malovun məqaləsi nəşr edilmədən bir neçə il əvvəl digər rus türkoloqu, professor P.A.Falyov eyni məcmuədə aşağıdakı sözləri yazır:

"Отмечу еще форму невозможности действия دیومدی f. 103 r. بولومدی 24 v и т.д. В старых памятниках эта форма встречается часто. Ср. اولیمادی у Ибн Бибе, واریمدی у Нешри. То же у Бурхан ед-Дина Сивасского и в версии "Юсуф и Зулейха", изданной Т.Хоустма".[202]

[197] Həm Melioranski, həm İstanbul nüs. اوغان sözünün qarşılıqlığında yalnız prof. Malovun göstərdiyi القادر sözü deyil, eyni zamanda القوی sözü durur.
[198] Ибн Муханна о турецком языке, стр. 222-223.
[199] Араб-филолог, стр. LXII.
[200] Yenə orada, səh. LXIII.
[201] Yenə orada.
[202] П.А.Фалев. Старо-османский перевод Крымской поэмы. Записки Коллегии Востоковедов, 1925 г., т. I, стр. 142.

Professor P.A.Falyov tərəfindən nəşr edilən "Yusif və Züleyxa" əsərinin olduğu kibi nəşri [göstərir ki] Qazı Bürhanəddin əsərinin uyğur və Şərqi Türküstan dilində yazıldığına şübhə yoxdur. Misal olmaq üzrə "Yusif və Züleyxa"dan bir-iki beyt alalım:

اویندی , بولومدی — نیدمسن بلیمادی
سرایینی چکزندی — یوسفی بولم دیو[203]

زلیخا راضی اولدی — اویانودور کلدی
صورتی بولیمادی — قالسه آکا بغلنو[204]

Fəzlə olaraq həmin formanı "Kitabi-Dədəm Qorqud"da tapırıq ki, bu əsər də, şübhəsiz, Şərqi Türküstan dilində yazılmış deyildir:

یدی قاتله واردم
اول قلعه یی آلیمادم کرو دوندم[205]

Yaxud:

قره اورن قویدی دپه کوز
عرش یوزنده چوردم الیمادم بساط
قره قپلان قویدی دپه کوز
قره قره طاغلرده چوردم الیمادم بساط[206]

Bütün misallar professor Malovun bu formanın yalnız Şərqi Türküstan türk sistemli dillərinə məxsus olması haqqında əsas fikrini şərh etməyə kafidir. Yəni bu forma Şərqi Türküstanda olduğu qədər cənubi və qərbi türk sistemli dillərdə də intişar tapmışdır.

Burası da əhəmiyyətlidir ki, bu forma ilə paralel olaraq "bilmək" feli vasitəsilə təşkil edilən mənfi forma da qullanılır. Məsələn, yenə "Kitabi-Dədəm Qorqud"da:

صرب یورکن قاضلق آتانا مردیکت بنه بلمز[207]
طلب ایدر نصیبندن ارتوغی یپه بلمز[208]

[203] П.А.Фалев. Старо-османский перевод Крымской поэмы. Записки Коллегии Востоковедов, 1925 г., т. I, стр. 146.
[204] Yenə orada, səh. 147.
[205] Kitabi-Dədəm Qorqud. İstanbul təbi, səh. 116.
[206] Yenə orada, səh. 125.
[207] Yenə orada, səh. 4.
[208] Yenə orada, səh. 3.

Bu paralellik əsasən Azərbaycan türk dilinin xüsusən qədim dövrdəki xüsusiyyətlərindən birini təşkil edir.

Bundan başqa, İstanbul nüsxəsində eyni formanın digər variantı olaraq اجامادم , براامادم , کلامادم[209] sözləri verilir ki, bunların daha ziyadə cənub-şərq dillərinə məxsus olduğu şübhəsizdir.

Hər iki nüsxədə اوغلان[210] sözünün bulunması bu sözün daha sonrakı dövrlərdə məlum olub qullanıldığını göstərir. Necə ki başqa, Şərqi Türküstan dilinə heç bir əlaqəsi olmayan lisani əsərlərdə də bu sözə təsadüf olunur. Məsələn, əsasən qıpçaq və türkmən dillərindən bəhs edən كتاب الادراك-da həmin söz vardır.[211]

İstanbul nüsxəsində قدر واطاق , yəni "qadir oldu" mənasına اودی[212] sözünün, bulunan bu sözün Melioranski nüsxəsində bulunmaması اوغلان sözü kibi bu kökdən gələn اودی formasının da arxaistik olub, bütün dillərdə istemaldan çıxdığını göstərir. Necə ki, həmin kökdən gələn اونمق[213] sözünün yenə hər iki nüsxədə olduğuna baxmayaraq, hətta bu dövr üçün də bu sözün arxaistik olduğuna şübhə yoxdur.

Demək ki, professor Malovun gətirdiyi iqtidari fel forması yalnız Şərqi Türküstan, uyğur dilinə aid olmayıb, eyni zamanda cənub və qərb türk sistemli dillərdə çox işlənən bir formadır və bu formanın davamı şərq və şimal dillərindən artıq cənub və qərb dillərində bulunur: *açamadım*, *açammadım* və i.a.

Həm Melioranski, həm İstanbul nüsxələrində اوغلان və اونمق sözlərinin bulunması اودی felinin Melioranski nüsxəsində düşməsini xarakteristik bir moment olaraq götürməyə və bundan İstanbul nüsxəsinin daha ziyadə Şərqi Türküstan və uyğur dilinə aid olduğu nəticəsini çıxarmağa imkan vermir. Yenə hər iki nüsxədə bulunan ایدی sözü də eyni surətlə arxaistik sözlərdəndir.[214]

b) Keçmiş zaman felinin birinci şəxs cəm şəkli "ərəb-filoloq", yəni Melioranski nüsxələrində *-dıq* ilə verildiyi halda, İbn Mühənnada, yəni İstanbul nüsxəsində daha qədim forma olan *-dımız* ilə verilmişdir;[215] *-dımız* şəkilçisinin *-dıq* şəkilçisinə görə daha qədim olduğu məlumdur.

[209] İstanbul nüs., səh. 136.
[210] Yenə orada, səh. 137; Melioranski nüs., səh. 44.
[211] كتاب الادراك, səh. 15.
[212] İstanbul nüs., səh. 114.
[213] İstanbul nüs., səh. 121; Melioranski nüs., səh. 35.
[214] Yenə orada, səh. 137; yenə orada, səh. 44.
[215] Ибн Муханна о турецком языке, стр. 223.

Lakin bu qədim formaya yalnız Şərqi Türküstan dillərinə aid əsərlərdə deyil, başqa, məsələn, qıpçaq və türkmən dillərinə aid əsərlərdə də təsadüf edir. Məsələn, yuxarıda da qeyd etdiyimiz kibi, كتاب الادراك bu qədim formanı həm *-dımız*, həm daha da qədim olan *-dıbız* variantlarilə verir:

فى الماضى قلت (كلدم) و (كلد من) و في الجمع (كلدك) و (كلدك لر) و (كلد بز) و (كلد مز) بابدال الباء فيما.[216]

Hətta Əbu Həyyan başqa formaları ayrı-ayrı türkmən və qıpçaq dillərinə bağlayaraq göstərdiyi halda, yuxarıdakı formaları hər iki müştərək olaraq göstərir. İbn Mühənnada da ərəbcə مصينا müqabili olaraq باردميز[217] forması bulunmaqla bərabər, əsərin başqa yerlərində, məsələn, قازدق – حفرنا, ايندق – نزلنا, كستك – قطعنا, كلدك – ضحكنا kibi formalara təsadüf edirik.[218]

Demək ki, Əbu Həyyanda olduğu kibi, İbn Mühənnada da bu forma, yəni "dımız"lı forma "dıq"lı forma ilə müvazi olaraq qullanılır. Bugünkü özbək dilində gördüyümüz[219] kibi, bu paralelizmin o dövrdə türkmən, yaxud "bizim ölkə türklərinin" dilində də bulunması çox mümkündür və hər halda burada da Şərqi Türküstan ünsürü deyil, bəlkə, İbn Mühənnanın əsas tədqiq mövzusu olaraq götürdüyü dil, daha doğrusu, dillərin inkişafı və nəhayət, Melioranski nüsxələrinə görə İstanbul nüsxəsinin daha qədim olması nəticəsi təşəbbüs olunur.

c) Türk-runik və uyğur ədəbiyyatında çox təsadüf edilən və bir də "Codex Cumanicus"da görülən "dacı" (hətta "madacı") forması yalnız İbn Mühənnada, yəni İstanbul nüsxəsində görülür və "ərəb-filoloq"da, yəni Melioranski nüsxələrində bu forma yoxdur.[220]

Mahmud Kaşqari də bu formanı əsas etibarilə uyğur dilinə məxsus bir forma olaraq göstərir:

و قد توافق الغزية و من ذكرت معهم الترك الجكلى وغيرهم في هذا الفوع حتى يرتفع الخلاف نحو ما يقول الغزية "يرغجى" للسغير بين الاحماء و الاصهار و لا تقول "ير يدجى" و تقول "ترغجى" للفلاح و لا تقول "تر يدجى" في جميع اللغات.[221]

[216] كتاب الادراك , ikinci təbi, səh. 130.
[217] İstanbul nüs., səh. 86.
[218] Yenə orada, səh. 81.
[219] Bugünkü özbək dilində bu forma əsasən *-dıq* şəkilçisi ilə verildiyi halda, bu dilin Daşkənd ləhcəsində *-dımız* şəkilçisi də vardır.
[220] Ибн Муханна о турецком языке, стр. 223.
[221] ديوان لغات الترك , cild II, səh. 43.

Hətta Mahmud Kaşqarinin oğuz dili üçün xarakteristik olaraq götürdüyü الفلاح – تر غجى (yəni "əkinçi") sözü həm İstanbul nüsxəsində الاكار – تارغجى ("əkinçi")[222] və Melioranski nüsxələrində الاكار – طارغجى şəkil və mənalarında[223] mövcud olduğu kibi, bütün sənət adlarında[224] (125-127 sözdür), *-dacı* şəkilçisinə təsadüf etməyirik. Demək ki, bu cəhətdən də İstanbul nüsxəsilə Melioranski nüsxələrinin morfologiya bazası əsasən sabit və müştərəkdir. Sonra *-dacı* şəkilçisi[nin] yalnız "Codex Cumanicus"da deyil, qıpçaq və türkmən dilinə aid [olması] Əbu Həyyan əsərində də təsadüf edir. Məsələn, Əbu Həyyan öz əsərinin lüğət qismində السنة الاتية ("gələcək sənə") sözünə müqabil كله جيل,[225] yəni كله جى يل formasını verdiyi kibi, eyni əsərin qrammatika qismində gələcək zaman funksiyasını ifadə edən (əlaməti-filmüstəqbəl) ismi fel şəkilçisi olduğu göstərilir və aşağıdakı misal gətirilir:

برجمزاوله جبز – اى كلنا مانتون

(yəni: "Hamımız öləcəyik"). دجى şəkilçisi ilə جى Əbu Həyyan tərəfindən ayrı-ayrı funksiyalara malik şəkilçilər kibi göstərilir. Ona, Əbu Həyyana görə, جى şəkilçisi "daimilik və sənət" göstərir, məsələn: برجى – دايم المجى[226] və دايم الرواح[227], yəni: "daima gəlici", "daima varıcı".

Bu surətlə *-dacı* şəkilçisinin qeydi yalnız İbn Mühənna əsərinin İstanbul nüsxəsinə məxsus olmayıb, bəlkə, uyğur dilindən başqa türk sistemli dillərə dair yazılmış əsərlərdə də vardır və bəlkə, arxaistik bir forma olaraq bu dövrün qıpçaq, türkmən və "bizim ölkə türkləri"nin dilində də var idi. Yanılmırsam, bu *-dacı* şəkilçisi İstanbul nüsxəsində yalnız bir yerdə təsadüf edir ki, bu da bu şəkilçinin ancaq sporadik surətdə işləndiyinə şəhadət edir.

ç) Gələcək zaman forması "ərəb-filoloq"da, yəni Melioranski nüsxəsində *-ası* və *-əsi* şəkilçilərilə (məsələn: *içəsi*) qeyd edildiyi halda, İbn Mühənnada, yəni İstanbul nüsxəsində yalnız *-kü*, *-gü* (*ickü*, *yegü*) şəkilçiləri ilə verilir; *-ası* ilə təşkil edilən forma Mahmud

[222] İstanbul nüs., səh. 154.
[223] Melioranski nüs., səh. 56.
[224] İstanbul nüs., səh. 154-158; Melioranski nüs., səh. 56-58.
[225] كتاب الادراك , str. 83.
[226] Yenə orada, 106.
[227] Yenə orada.

Kaşqari tərəfindən qərb və *-gu* ilə təşkil edilən forma şərq forması olaraq qeyd edilir.[228]

Əvvəla bunu göstərməlidir ki, professor S.Y.Malov İbn Mühənna əsərindəki istiqbal-gələcək zaman formasını o qədər düzgün olaraq verməyir. Çünki gərək İstanbul, gərəksə Melioranski nüsxələrində gələcək zaman forması, əsasən كای (ی ، ا ، ك), yaxud غای (ی ، ا ، غ) və bəzən "r" ilə təşkil olunur [...].[229]

Saniyən Mahmud Kaşqari "ası" və "əsi", "gu" və "gü" şəkilçilərini əsasən gələcək zaman şəkilçiləri olaraq deyil, bəlkə, məkan, zaman və alət məfhumlarını ifadə edən şəkilçilər kibi götürür. Bu nöqtənin çox böyük əhəmiyyəti olduğuna görə eynən nəql edirik:

وكل غين اسماء الزمان و المكان فان الغزية تقلبها الغا
نحو ما تقول الترك "برغو بير" اى موضع الذهاب و الغزية تقلبها و تقول "براسى بير"
الترك تقول "ترغو اغور" اى وقت القيام و الغزية تقول "تراسى اغور".[230]

Yaxud:

و اسماء الزمان و المكان و الالة هوان يزاد على حرف الاصل "الغين و الواو" في الكلمة القافية و المشبعة و "الكاف" محل الغين في الكلمة الكافية او المحالة او الركيكة في لغة جكل و يغما و تخسى وارغو و ايغرالى الصين العليا و في لغات الغزية قفجاق و بجنك و بلغار يزاد على صيغة الامر في هنه الاسامى "السين و الواو" (؟) و الياء. بيانه يقال في اسم الزمان "بويا قرغو اغر ارماس" معناه ليس وقت هذا توتير القوس و يقال "بوترغو بير ارماس" معناه ليس هذا مكان الاقامة و يقال فى لغة الغزية "بويا قراسى اغرتكل" اى ليس هذا زمان توتير القوس و يقال "بوتراسى اغر تكل" اى ليس هذا موضع الاقامة.[231]

Yaxud:

و اسماء الالة من كل جنس تجرى مجرى الاسماء و تؤخذ من الافعال. بيانه يقال "بيكو فانك" اى شئ و مايؤكل فيه هي المنكلة و يقال "ارغو" اى شئ ما يضرب به و يقال "يفاج مجفو" اى الفأس الذى يقطع به الخشب و غيره.[232]
واما الغزية فاسماء الالات عندهم بالسين والياء في جميع الافعال.
كما قالو "يغاج بحاسى نانك" اى شئ به يقطع الخشب و كقولهم للمنكلة "بيكاسى نانك" اى شى يؤكل فيه.[233]

[228] Ибн Муханна о турецком языке, стр. 223-224.
[229] İstanbul nüs., səh. 101, 116-117, 136; Melioranski nüs., səh. 20, 32-33, 43.
[230] Divan, cild I, səh. 34-35.
[231] ديوان لغات الترك, cild II, səh. 56-57.
[232] Yenə orada, səh.58.
[233] Yenə orada.

Bütün bu sitatlar çox aydın göstərir ki, Kaşqari bu şəkilçiləri ismi-zaman, ismi-məkan və ismi-alət [...] və gələcək zaman forması olaraq göstərir. Sonraları, yaxud həmin dövrlərdə bu şəkilçilərin paralel olaraq gələcək zaman funksiyasını da qazandıqları və sonuncu funksiyada birinci funksiyaların tərkibindəki qullanılışın böyük təsiri olduğu şübhəsizdir.

Necə ki, *-acaq // -əcək* şəkilçiləri də ibtidada ismi-məkan olaraq "yer" və اغر sözlərilə qullanılırdı. Həm كتاب الادراك,[234] həm القوانين[235] bunu təyid edirlər.

Eyni surətlə hər iki əsərdə كو və قو şəkilçiləri ismi-alət olaraq qeyd edilmiş olub, hətta misallar belə bir-birinin eynidir.[236]

Demək ki, İbn Mühənnada təsadüf etdiyimiz كو// قو şəkilçilərilə qurulmuş olan formalar əsasən "alət ismi" təşkil edən sözyayıcı şəkilçilər olub, zaman ifadə etmirlər. Bu şəkilçilər əsasən bütün nüsxələr üçün ümumidir. Bir neçə misal:

İstanbul nüs.		Melioranski nüs.	
سبر كو	(170)	سپر كو	(69)
توشانكو	(167)	دوشا نكو	(67)
ايجكو	(189)	ايچكو	(83)
اخشا غو	(188)	اخشاغو	(83)
سوكو	(152)	سوكو	(55)
اجغو	(179)	اچغوا	(76)

Bütün bu misallar غو – كو şəkilçisinin İbn Mühənna lüğətçəsindəki əsas funksiyasını aydın surətdə göstərir.[237] Yəni bu şəkilçilər fel şəkilçiləri olmayıb, əsasən fel köklərindən cürbəcür isimlər təşkil edən şəkilçilərdir. Bugünkü türk sistemli dillərdə də bu şəkilçiyə eyni

[234] القول فى اسم المكان تزيد على فعل الامرمع فتحة ما قبل المزيد "جك" و "جق" على حسب التفخيم و الترفيق (كلجك) طرنجق (طرجق) اى مكان المجىء مكان القيام (كتاب الادراك، 109).
[235] و السابع اسم المكان – و علامته ان تزيد على الاس لفظة "جك" او "حق" – "بواطرجق بردر" – هذا موضع الجلوس (قوانين، 25).
[236] لقول في الألة – الدال على ذلك كاف مضمومة اوقاف مضمومة "كسكو"، "بچقو" (كتاب الادراك، 109). السادس الألة – (كو) او (قو) وتارة يقولوا (كى) او (قى) "كسكو"، "بشقى" (قوانين، 25).
[237] Bu xüsusda P.A.Melioranski aşağıdakı sözləri yazır:
"Но зато несомненно, что аффикс غو употребляется нашим автором для образования отглагольных имен, как اچغو "ключ", اخشاغو "уподобленный" и некоторые другие" (стр. LVIII).

funksiyada təsadüf edilir. Məsələn, Azərbaycan türk dilində *sevgi, seçki, güzgü, bilgi, durğu, vurğu*... kibi sözlər vardır ki, həmin şəkilçinin eyni funksiyanı ifa edən qalıqlarıdır. Demək ki, Kaşqarinin hətta alət ismi təşkil edən şəkilçilər olaraq غو–كو şəkilçilərini يغما , جكل ايغر , ارغو , تخسى dillərinə təxsis etməsi xüsusən İbn Mühənnanın yaşadığı dövr üçün doğru deyildir. Yenə təkrar edirik ki, bu şəkilçi həmin funksiyada professor Malov istilahı ilə, qərb türk sistemli dillərində də vardır, bunun üçün də İbn Mühənna əsərinin bütün nüsxələrində dəyişmədən davam edir.

Doğrudur, bu şəkilçi bir-iki yerdə, sonrakı nüsxələrdə, yəni Melioranski nüsxələrində dəyişdirilmişdir. Hətta professor Malovun qeyd etdiyi kibi, yalnız *-asi* və *-əsi* şəkilçiləri deyil, eyni zamanda *-acaq* və *-əcək* şəkilçilərilə əvəz edilmişdir. Məsələn, İstanbul nüsxəsində تيكو (166), Melioranski nüsxələrində كيجك, كمك (66) və professor Malovun da qeyd etdiyi kibi, Melioranski nüsxələrində yalnız ikicə yerdə *-əsi* şəkilçisi təsadüf edir: İstanbul nüsxəsində بيكو (164), ايچكو (164), Melioranski nüsxələrində بيسى (65), ايچسى (65) formaları ərəbcə المشروب sözünün müqabili olduğu kibi, ikinci ايجكو (189) və ايچكو (83) formaları ərəbcə الشربة sözünün müqabili olaraq götürülmüşdür.

Məlum olduğu üzrə, "yeyəsi" və "içəsi" kibi formalar bugünkü Azərbaycan türk dilində də ərəb الشربة , yaxud المشروب müqabili olaraq, yəni yapma isim olaraq yaşaya bilməmişdir, bunun yerinə *içki, içəcək* və *yeyəcək* formaları qullanılır. Demək ki, Melioranski nüsxələrində görülən və professor Malov tərəfindən qeyd edilən bu formalar həyati və doğru, yəni yerində deyildir və bunun üçün xarakteristik də ola bilməz.

Xülasə, əvvəla, professor Malovun gələcək zaman forması olaraq göstərdiyi bu formalar nə Kaşqaridə və nə də İbn Mühənnada gələcək zaman forması deyildir.

Saniyən, professor Malovun "gü" [və] "ğu"lu formaları şərq və "-ası" və "-əsi"-li formaları qərb türk sistemli dillərinə məxsus olaraq göstərməsi də doğru deyildir. Çünki bu şəkilçilər sözyayıcı isim şəkilçisi olaraq, heç olmazsa, İbn Mühənna dövründə qərb dillərində də vardı və bu günə qədər öz funksiyalarını mühafizə edirlər.

Salisən, yüzlərlə "ğu" və "gü"-lü söz arasında Melioranski nüsxələrində bir-iki sözün "-ası" və "-əsi"-li formalarla əvəz edilməsi xarakteristik olmadığı kibi, əsasən professor Malovun zənn etdiyi kibi,

şərq uyğur dilindən qərb oğuz dilinə doğru inkişaf deyil, bəlkə, eyni dil daxilində bulunan şəkilçilərin bir-biri yerində, hətta bu sözlərdə bir o qədər doğru olmayaraq qullanılmasıdır.

Buraya qədər verilən izahatda göstərildiyi kibi, professor Malov İstanbul nüsxəsini daha qədim olaraq xarakterizə etməkdə haqlı olmaqla bərabər, daha şərqi, yaxud "uyğurca[ya] yaxın" bir əsər olaraq götürməkdə haqlı deyildir.

1936-cı il avqust ayında möhtərəm S.Y.Malov ilə bu xüsusda olan mübahisəmiz nəticəsində professor Sergey Yefimoviçin özü də İstanbul nüsxəsində də əsas tədqiq mövzusu olan dilin qərb, daha konkret olaraq, Azərbaycan türk dili olmasilə razılaşdığını bildirmişdi ki, bu nöqtəni də yenə professor Malovun öz razılığı ilə qeyd edirik.

Yuxarıdakı izahat oxucuya bizim hansı əsaslara istinad etdiyimiz haqqında ətraflı məlumat verir.

Professor Malovun yuxarıdakı tezislərilə razılaşmamaqla bərabər, İbn Mühənna əsərinin müxtəlif dil elementlərini ehtiva etdiyini biz də tanıyırıq və bu əsərin İstanbul nüsxəsindən başlayaraq Melioranski tərəfindən işlənmiş olan beş nüsxədə çox maraqlı dil inkişafı göründüyünü də qeyd edirik. Bu inkişafı lüğət və qrammatika qisimlərində ən mühüm ədd etdiyimiz xüsusiyyətlərilə qeyd etmək fikrindəyik.

FONETİKA VƏ QRAFİKA

İbn Mühənna əsərinin qrafika və fonetika qisminə Əbu Həyyan və "Qəvanin" müəllifinə görə daha çox yer ayırmışdır. İbn Mühənna ərəb hərflərinin türk dili vokalizm və konsonantizmini əks etdirməkdəki nöqsanlarını hiss etdiyindən bir çox diakritik işarətlər düzəltmişdir. Lakin bu işarətlər əsasən qrammatika qismində qullanılıb, lüğət qismində əks etməyir.

Ümumən bu işarətlərin o qədər də aydın və məqsədə müvafiq olduğunu iddia etmək mümkün deyildir. Bu işarətlərə rəğmən müəllifin əmrində vokalizmi qeyd etmək üçün bulunan hərflər məlum ا , و , ى-dan və bəzən hərəkələrdən ibarət olur.

Samitlərə gəlincə, İbn Mühənna [...] türk dilinin ahəng qanununu izah edə bilməyərək, bəzi sözlərin və şəkilçilərin yazılışında [xəta] buraxmış olmaqla bərabər, əsasən qalın مفخم, incə مرقق səsləri paralel surətdə qeyd edə bilmişdir.

Müəllifin fonetika sahəsində bizim üçün maraqlı qeydlərindən biri də Mahmud Kaşqarinin كاف و كيكه dediyi [g] səsini بدوى , yəni köçəri ərəblərin dilində bulunan ك təsviri ilə ڭ şəklində göstərməsidir. Eyni surətlə كاف المیتة , yaxud غين المیتة adları altında müəllif [...] söz axırında (بيليڭ ليڭ) və söz ortasında (توغرا , بوغرا) bulunan گ və غ səslərinin "bizim ölkə türkləri"nin çox zəif tələffüz etdiyini və bəzən heç deyilmədiyini göstərir ki, bu da cənub və xüsusən Azərbaycan türk dilinin fonetik inkişafına uyğundur.

Eyni surətlə ن səsi ilə ڭ səsinin birləşdirilməsi (اوغام) تنڭز , سنڭر kibi sözlərdə eşitdiyimiz səsi meydana gətirir ki, bu da [ŋ] səsinin təsviri, surətdə də olsa, qeyd edilməsidir və "Qəvanin"də bu kibi yerlərdə gördüyümüz [n] səsinə görə tələffüz daha uyğundur.

Müəllifin fonetika və qrafika qismində verdiyi qaydalarda görülməməklə bərabər, lüğət[də] bu misallarda özünü göstərən bəzi fonetik xüsusiyyətlər vardır ki, geniş və sistematik hadisələrdən olmasa belə, İbn Mühənnanın canlı dildə bulunan fonetik təzahürləri mümkün olduğu qədər dolğun surətdə qeyd etməyə çalışdığını göstərmək etibarilə qeydə layiqdir:

a) Bəzən [ç] (چ – ج) səsi [ş] səsi ilə verilir. Sporadik şəkildə, xüsusən kar saitlərdən əvvəl bu hadisəyə Azərbaycan türk dilinin həman

bu dialektlərində təsadüf edildiyi kibi, eyni şəkildə türk sistemli dillərin əksəriyyətində görülür.[238] Lakin bu növ [ç] – [ş] hadisəsi ancaq və ümumən söz daxilində, daxili hecalarda (inlaut) özünü göstərir. Demək ki, bu hadisə, məsələn, qazax dilində gördüyümüz [ç] – [ş] hadisəsindən ayrı bir mahiyyətə malikdir. Qazax dilində [ç] - [ş] təbdili ümumi və sözün bütün hecalarına aid olduğu halda, İbn Mühənnada qeyd etdiyimiz bu hadisə sporadik və dediyimiz kibi, yalnız orta hecalarda görülür. Sistematik [ç] – [ş] təbadülü "القوانين"-də qeyd edilmişdir[239] ki, bu hadisənin Misir qıpçaqlarının dilində XIV miladi əsrdə sistematik və çox inkişaf etmiş şəkildə bulunduğunu göstərir.

Professor Melioranski nədənsə [ç] – [ş] təbdilinin İbn Mühənna əsərində ancaq iki sözdə görüldüyünü qeyd edir və bu hadisənin yalnız [t] səsində vaqe olduğunu yazır.[240]

Əvvəla, aşağıdakı cədvəldə görüldüyü kibi, xüsusən İstanbul nüsxəsində bir neçə sözdə təzahür edir. Saniyən, yuxarıda da qeyd etdiyimiz kibi, bu hadisə əsasən kar samitlərdən əvvəl vaqe olmaqla bərabər, sədalı saitlərdən əvvəl gəldiyi də olur:

İstanbul		Melioranski		ərəbcə
بيشدى	(107)	بيچدى	(25)	حصد
آشتى	(105)	آجتى , آچتى	(23)	اوضح
قوشدى	(112)	قوچدى	(28)	عانق
ششتى	(108)	ششتى	(25)	حل
قجدى	(116)	قاشتى	(32)	هرب
اشماق , اجماق	(138)	اچماق	(44)	الجنة
بشلاق	(166)	yoxdur	-	الجبن
اشتن	(167)	ايش تون , ايس تون	(67)	السراويل , السرابيل
ششمق	(119)	شيشمق , شاشمق	(34)	الحل

[238] Phonetik der nordli Chen Turksprachen, II, 232 və 235.

[239] Məsələn: شقتى – *çıkdı*, شيدى – çeynədi, شق – *çok*, اش شى در – *aşçıdır* və i.a.

[240] "В двух формах قاشتى اشتى , мы находим переход ч//ш (ч//ш) перед "т" "(ت)" (стр. XIII). İbn Mühənna əsərinin müqəddiməsində الشين الى مشمتة بالجيم و - yəni [c] səsinin [ş] səsinə yaxın olaraq tələffüz edildiyini qeyd edir (İstanbul nüsxəsi).

Bütün bu misallardan görüldüyü kibi, [ç] – [ş] təbdili hər iki nüsxədə sporadik mahiyyətə malikdir və bugünkü Azərbaycan türk dili dialektlərində bu xüsusda gördüyümüz vəziyyətə uyğundur.

Bu surətlə, [...] lüğət qismi haqqında verdiyimiz izahatda da qeyd edildiyi kibi, İstanbul nüsxəsində daha ziyadə ج – "c" hərfi qullanıldığı halda, Melioranski nüsxələrində çox dəfə bunun yerini چ –"ç" hərfi tutur. Bu da Azərbaycan türk dilinin və ümumən ərəb qrafikasının inkişafına uyğundur. Kaşqaridə və ümumən qədim əlyazmalarında چ yerinə ج hərfinin işlədildiyi düşünülürsə, İstanbul nüsxəsinin burada da Melioranski nüsxələrindən daha qədim xüsusiyyətlər göstərdiyi meydana çıxar.

Maraqlı qrafik və bəlkə, fonetik xüsusiyyətlərdən biri də, yanılmırsam, yalnız bir yerdə, İstanbul nüsxəsində [n] – ن [səsinin] ərəbcə تنوين işarəti ilə (ـً) verilməsidir, məsələn: منك – "səndən" mənasına سندا (سنداً) , اردت منه – "ondan istədim" mənasına اندا تيلادم.[241] Melioranski nüsxələrində bütün bu misallarda ن durur: سندن – منك.[242]

Bu növ yazılış Mahmud Kaşqaridə də təsadüf edir. Kaşqari *-dən* şəkilçisini üç cür qeyd edir:

1) تَنْ şəkilçisi ilə: ال قلج تن قان يد شدى [243]

Bu misaldakı تَنْ forması[nın] İbn Mühənnanın İstanbul və Melioranski nüsxələrindəki دَن , دِن şəkilçisinin eyni olduğu aydındır.

2) Kaşqari yenə *-dən* şəkilçisini دًا surətində qeyd edir və zənnimcə, ən çox bu formaya təsadüf olunur:[244]

بلمش ياك بلماذك كشيدًا ييك yəni: "Tanış şeytan tanımadığın adamdan yaxşıdır".

Burada كشيدًا sözünün كشيدن yerində bulunduğuna şübhə yoxdur. Dediyimiz kibi, *-dən* şəkilçisinin bu surətdə yazılışı Kaşqaridə çox təsadüf edir:

سندًا قجره سندلاج [245] yəni: "Yund quşu səndən qaçar".

3) Yenə *-dən* şəkilçisi sadəcə دا ilə verilir:

بو ات اندا ييك [246], yəni: "Bu at ondan yaxşı".

---

[241] İstanbul nüs., səh. 91-92.
[242] Melioranski nüs., səh. 15.
[243] ديوان لغات الترك , cild II, səh. 51.
[244] Yenə orada, cild III, səh. 120.
[245] Yenə orada, səh. 134.
[246] Yenə orada, səh. 106.

Kaşqarinin bu cümləyə verdiyi tərcümə və ümumən işarənin quruluşu burada "-da"nın *-dan* yerində işlədildiyində şübhə buraxmır. Bu növ yazılışın da təsadüfi və ya hər hansı bir xəta nəticəsində olmadığı başqa yerlərdə təsadüf etməsindən anlaşılır:

تلدًا جقار انكوسوز [247], yəni: "Dildən çıxart yaxşı söz".

Bütün bu misallar, Orxon kitabələrində olduğu kibi, XI miladi əsrdə bəzi türk sistemli dillərdə -da şəkilçisinin qismən *-dan* funksiyasını ifa etdiyini zənn etdirir. Həm *-da*, həm *-dan* oxuna bilən دًا transkripsiyası bu xüsusda çox uyğundur. Demək ki, İbn Mühənnanın *səndən* yerinə سندا, *andan* yerinə اندًا yazması ilk baxışda zənn edildiyi kibi təsadüfi, yaxud qrafik səhv nəticəsi deyildir. Lisani tərəfdən olmasa belə, orfoqrafik cəhətdən Mahmud Kaşqaridə gördüyümüz bu xüsusiyyətin davamı kibi tələqqi edilə bilər və bəlkə, çıxış halı (**исходный**) ilə yerlik halının (**местный**) eyni şəkilçi ilə ifadə edilməsi dövründən qalmış bir izdir.

Yuxarıdakı bəhslərdə də görüldüyü kibi, söz ortasındakı [ğ – غ] və [k – ق] səsləri bütün nüsxələrdə dəyişmədən qalır, məsələn: – الدجاج داقوق (İstanbul nüs., 176), توق – تفوق (Melioransi, 73), yəni "tovuk", الفار – سجغان (İstanbul, 177), سيچغان (Melioranski, 74) – "siçan".

Lakin bəzən bu [ğ] səsinin dəyişdiyi də görülür, məsələn: يغوق – القرابة (İstanbul, 143), ياوق (Melioranski, 49) – "yavuk"; قسا , قيسقا – القصير (İstanbul, 142), قسغا (Melioranski, 48), yəni "qısa".

XIV miladi əsrdə cənub türk sistemli dillərində söz ortasındakı [ğ - q], [g – k] səslərinin dəyişdiyinə şübhə yoxdur, çünki daha XI miladi əsrdə Mahmud Kaşqari bu xüsusda çox aydın göstərişlər verir. Yuxarıda qeyd etdiyimiz kibi, İbn Mühənna da bu səsləri "ölü", tələffüz edilməyən səslər olaraq xarakterizə edirsə də, Kaşqari kibi, o da əsər daxilində bu səsləri saxlayır.

Maraqlı fonetik hadisələrdən biri də iki sait arasında, yəni intervokal vəziyyətdə bulunduğu zaman بول - *bol* sözünün başındakı [b] səsinin [v] səsinə çevrilməsidir. Bu hadisə də türk sistemli dillərin bir çoxunda, xüsusən canlı dillərdə özünü göstərməklə bərabər, Azərbaycan türk dilinin canlı dialektlərində ümumi bir inkişaf göstərməkdədir: *qurvan (qurban), arava (araba), qavax (qabaq)*.

---

[247] ديوان لغات الترك , səh. 120.

Həm İstanbul (80), həm Melioranski nüsxələrində (8) qeyd edilən bu xüsusiyyət, professor Melioranskinin çox doğru olaraq göstərdiyi kibi, *bol – ol* dəyişməsində orta bir proses təşkil edir, yəni *bol – vol – ol* tədrici dəyişməsini göstərir: *bar – var, barmaq – varmaq* təbdillərinin də eyni surətlə intervokal vəziyyətdə meydana gəldiyi qüvvətli ehtimal daxilindədir. Xülasə, İbn Mühənnanın gərək əsərinin türkcə qisminə aid müqəddiməsində, gərəksə başqa qisimlərində qeyd etdiyi fonetik xüsusiyyətlər qədim uyğur imlasını saxlamaqla bərabər, cənub türk sistemli dillərinin və bunlar arasında xüsusən Azərbaycan türk dilinin fonetik sistemini əks etdirir. Bəzi fonetik xüsusiyyətlər, yuxarılarda qeyd edildiyi kibi, bəziləri də morfologiya bəhsində izah ediləcəyindən bu qədərlə kifayətlənirik.

LÜĞƏT QİSMİ HAQQINDA

Ərəb filoloqları dilin lüğət qismini tədqiqə böyük əhəmiyyət vermişlərdi. Məlum olduğu üzrə, qədim türkoloqların atası Mahmud Kaşqari öz dil tədqiqlərində birinci və rəhbər rolu lüğətə vermiş və başqa [yeri] qrammatika tutmuşdur. Yuxarıda bir neçə dəfə adları keçən Əbu Həyyan və القوانين müəllifi də qrammatik əsərlərində lüğət hissəsinə görkəmli yer vermişlərdir.

İbn Mühənna əsəri də əsasən eyni prinsip üzərində qurulmuşdur. İbn Mühənna əsərində müxtəlif sahələrə aid termin və ifadələri ayrı bir şöbədə toplamış olduğu kibi, əsərin qrammatik qismi daxilində yüzlərcə sözdən ibarət misallar vermişdir. Xüsusən dilin öyrənilməsi nöqteyi-nəzərindən mühüm əhd etdiyi mazi-keçmiş zaman və məsdər formalarına aid olaraq verdiyi misallar çox zəngindir.

Lüğət materialı vaxtındakı maddi və mənəvi həyatın başlıca sahə və xüsusiyyətlərini əks etdirir:

1) Allahın adları, 2) insan əzaları, 3) yaxınlıq və qohumluq, 4) insanların (ictimai) təbəq[ələri], 5) zidd isimlər, 6) sənət və sənətkar adları, 7) dərmanlar və xəstəliklər, 8) yeyəcək və içəcəklər, 9) döşəmə və rənglər, 10) ev əşyası və əmtəə, 11) heyvanlar, 12) silahlar və alətlər, 13) vəhşi və yırtıcı heyvanlar, 14) quşlar, 15) səslərin ixtilafı, 16) həşərat və böcəklər, 17) sular, 18) bitki və ağaclar, 19) yüksəkliklər, 20) zamanlar, 21) hesab və saylar, 22) şaz, yaxud müstəsna olan adlar.

Melioranski nüsxələrində, fəzlə olaraq [...] bina və mənzil adları bəhsi də vardır.[248] İstanbul nüsxəsində bu şöbə kitabın olanında bulunmamaqla bərabər, mündəricəsində mövcuddur.[249] Eyni surətlə Melioranski nüsxələrində bulunan الارضون, yaxud اسماء الارضين yəni "torpaq adları" şöbəsi yenə İstanbul nüsxəsinin planında bulunmamaqla bərabər, kitabın mündəricəsində vardır.[250]

Lüğət qisminin planında olduğu kibi, ayrı-ayrı lüğət şöbələr[inə] daxil olan sözlər İstanbul nüsxəsilə Melioranski nüsxələri [arasında] böyük təfavüt yaradır. Əsərlərin lüğət qismini tədqiqə girişmədən

[248] Араб-филолог, стр. 75.
[249] İstanbul nüs., səh. 175.
[250] Yenə orada, səh. 77.

qabaq nüsxələr arasında lüğət qismində bulunan bu ixtilafların dərəcə, mahiyyət və səbəbləri üzərində dayanmaq lazım gəlir. Bu ixtilafları aşağıdakı nöqtələrdə xülasə edə bilərik:

1. İstanbul nüsxəsində çox dəfə daha arxaistik sözlər bulunduğu halda Melioranskinin nəşr etdiyi və mətnlərini öz nüsxəsilə müqayisə etdiyi başqa nüsxələrdə bugünkü canlı dildə, yaxud o dövrün yazılı ədəbiyyatında daha geniş surətdə işlənən sözlər vardır.

ərəbcə	İstanbul nüs.		Melioranski nüs.	
بغیرادب	او کنام لیك	(148)	أدبسز	(52)
الحلو	سوجو	(151)	داطلغ وسوجو	(54)
الابکم	اغن	(150)	دیلسیز	(53)
الفاسق	اوقلاق	(150)	خیرسیز	(53)
الرطب	باك و اك	(151)	یاش و آل	(51)
العلیل	سکل	(154)	خسته	(56)
الشبکه	اغ التن	(160)	دام	(60)
الصعود	قیراغش	(177)	قیراغش، چقش	(74)
البلا و المحنه	اغیما	(189)	غم و غصه	(83)
الحطاب	اوشکجی	(155)	او دینجی	(57)
راعی	قویما نجی	(156)	یل حچی	(57)
انثوب الابریسمی	أغی	(167)	ابیك	(67)
الاساسی	اول	(178)	اول وتمل	(75)
الشواء	سوکلمش	(164)	سکلمش و کباب	(65)
ولد الزنا	احشق	(149)	حرام دغقان	(52)
الحبس	توناك	(179)	زندان	(76)
السوق	اجر	(179)	بازار	(76)

2. Yuxarıdakı misallarda da görüldüyü kibi, İstanbul nüsxəsinə müqabil Melioranskinin istifadə etdiyi nüsxələrdə ərəb-fars sözləri daha çoxdur. Yəni İstanbul nüsxəsinə görə, Melioranski nüsxələrində ərəb-fars dilinin təsiri daha qüvvətlidir.

ərəbcə	İstanbul nüs.		Melioranski nüs.	
السکران	اسرك	(152)	اسرك، سرخوش	(76)
القبر	سن	(179)	کور	(76)
کورستان	سن لاغ	(179)	کورستان	(76)

اینه جی	(157)	کوز کجی	مراياتی
سوار قوزی، فندق	(183)	سوارقوزی	البندق
دوزخ ، دوجق	(138)	تمغ	جهنم

Bu misallara yuxarıdakı cədvəldən də bir çox sözləri əlavə etmək mümkündür.

İstanbul nüsxəsinə görə Melioranski nüsxələrində lüğətlər daha [...] sərfi şəkillərdə verilmişdir:

ərəbcə	İstanbul nüs.		Melioranski nüs.	
البنا	یابغ	(178)	یابغ و یاپی	(75)
الباب	قپغ	(179)	قپو	(176)
الحاد	یتیك	(173)	یتی	(71)
الملبوس	تیکو	(166)	کیمك ، کیجك	(66)
الدیکدان	صاچ اداقی	(169)	ساچ آیاقی	(68)
المأکول	ییکو	(164)	ییسی	(65)
المشروف	ایچکو	(164)	ایچسی	(65)
المبارک	قتلغ	(153)	اوغرلی، قتلغ	(56)
الکثیر	یکشی	(151)	یکشی ، چوق	(55)
الاخ	قرنتاش	(144)	قرنتاش ، قرداش	(49)
الجزیره	ادغ	(180)	ادغ و آده	(77)

və i.a.

3. İstanbul nüsxəsində başında və bəzən ortasında və axırında [t] səsi olan sözlərə qarşı Melioranski nüsxələrində çox dəfə [d] səsi vardır:

ərəbcə	İstanbul nüs.		Melioranski nüs.	
الدین	اوتنج	(188)	اودنج	(83)
الجبل	تاغ	(178)	داق و داغ	(74)
الحدید	تمر	(160)	دمر	(61)
القریة و البلد	کنت	(179)	کند	(75)
خداد	تمرجي	(155)	دمرجی	(57)
خیاط	طونتکجی	(155)	طون دیکجی	(57)
فراش	توشکجی	(157)	دو شکجی	(58)

(45)	ديشى	(138)	تيشي	الانثى
(18)	دلى قليج دك	(196)	تيلى قليج تك	–
(14)	سن موندا درغل	(91)	سن موندا ترغاى سن	–

və başqaları.

4. İstanbul nüsxəsilə Melioranski nüsxələri arasındakı sistematik ixtilaflardan biri də [ҷ – c] və [ҷ – ç] təqabüllərdir. İstanbul nüsxəsində söz başında, ortasında və axırında bulunan [ҷ – c] səsinə müqabil Melioranski nüsxələrində [ҷ – ç] bulunur. Bu hadisəni qismən qrafik moment, yəni hər iki nüsxənin imla sistemini xarakterizə edən moment olaraq götürmək mümkündür ki, bu təqdirdə İstanbul nüsxəsi, Melioranski nüsxələrinə görə daha qədim qrafik və orfoqrafik sistemi əks etdirmiş olar. Məsələn:

İstanbul nüs.		Melioranski nüs.		ərəbcə
قجغ	(146)	قچُق، قچَق	(50)	الهزيمة
قجغنجى	(146)	قاچغنجى	(50)	المنهزم
اجق	(154)	آچق	(56)	المفتوح
اجماق	(138)	آچماق	(44)	الحبة

Bu və bu kibi sözlərdə təsadüf etdiyimiz [c – ç] qarşılıqları qrafik moment olaraq alına bilər, çünki [ç] səsinin az-çox müntəzəm surətdə imlada qeyd edilməsi daha sonrakı zamanlara aid bir hadisədir ki, bu xüsusda başqa əlyazmaların müqayisəli surətdə tədqiqi də bizə yardım edir.

Lakin bir çox yerlərdə, xüsusən *-ci* şəkilçisinin yazılışında hər iki əlyazması, İstanbul və Melioranski nüsxələri arasında olan ixtilaf yalnız qrafik verforası, İstanbul orfoqrafik əsası [ilə] izah edilə bilməz. Burada eyni zamanda lisani və ləhcəvi-dialektal xüsusiyyətlərin inikasını görürük. Məsələn, İstanbul nüsxəsində *-ci* şəklində yazılan şəkilçi Melioranski nüsxələrində, deyilə bilər ki, istinasız surətdə *-çi* şəklində yazılır:

İstanbul nüs.		Melioranski nüs.		ərəbcə
يكنا جى	(83)	يكناچى	(56)	الابرى
تارغجى	(74)	طارغچى	(56)	الاكار
قوبزجى	(61)	قبز چى	(56)	البربطى

الحلاج	(57)	يمبوقچى	(75)	بموقجى
حداد	(57)	دمرچى	(57)	تمرجى
الجمال	(57)	دوچى	(57)	تواجى

Cənub və qərb türk sistemli dilləri arasında bu şəkilçinin [çi – چى] şəklində tələffüzü əsasən Azərbaycan türk dilinə məxsusdur. Məsələn, دمرچى , اوداچى , يلخچى , دوچى kibi əsasən cənub və yaxud Azərbaycan (məsələn: *yılxı*) fonetik xüsusiyyətlərini daşıyan söz köklərinin axırına *-çi* şəkilçisinin gəlməsi Azərbaycan türk dilinə məxsusdur. Bugünkü Azərbaycan türk dilinin aşağıdakı sözlərilə müqayisə etmək mümkündür: *naxırçı, çayçı, yazıçı, arabaçı* və başqaları.

Bu növ sözlərdə bugünkü Azərbaycan türk dilində də "ci – جى" yerinə "çi – چى" formasının görünməsi öz növbəsində başqa cəhətlərdə də görülən şimal və cənub xüsusiyyətlərinin calaqlaşması prosesinin nəticəsidir və bu hal Azərbaycan türk dilinin mühüm xüsusiyyətlərindən birini təşkil edir.

5. İstanbul nüsxəsilə Melioranski nüsxələri arasında bulunan və əsasən lüğət qismində özünü göstərən mühüm xüsusiyyətlərdən biri olaraq yuxarıda başqa bir münasibətlə [k – ق] – [x–خ] təqabülünü qeyd etmişdik ki, burada təkrarına hacət görməyirik.

6. Yuxarıdakı cədvəllərdə gətirilən misallar bir neçə cəhətdən xarakteristikdir. Bu cədvəllərdəki lüğətlər əvvəla dilin arxaizmlərdə, köhnə sözlər və söz formalarında bugünkü, daha doğrusu, daha sonrakı dövrlərə məxsus Azərbaycan türk dilinə doğru inkişaf etdiyini göstərir. Buna baxmayaraq, daha yeni dövrün dilini və dil xüsusiyyətlərini əks etdirən lüğətlərlə bərabər, Melioranski nüsxələrində də bugünkü dilimiz üçün arxaizm təşkil edən lüğətlər çoxdur, məsələn, "bahalı, baha" mənasına قز (55, 153), "faydalı" mənasına اسغ لغ (52, 148), "canlı" mənasına تيناليغ (45, 139), "peyğəmbər" mənasına يلواچ (45, 138) kibi sözlər bütün nüsxələrdə vardır.

Gərək İstanbul nüsxəsində bulunub da Melioranski nüsxələrindən çıxarılmış olan və gərəksə bütün nüsxələrdə bulunmaqla bərabər, bugünkü Azərbaycan türk dili şivə və ləhcələrində və hətta qədim ədəbi əsərlərdə təsadüf olunmayan sözlərin dilimizdə vaxtilə işlənib-işlədilmədiyi haqqında qəti hökm verməkdə imdilik ehtiyatlı olmalıyıq. Çünki Azərbaycan türk ədəbi və canlı dilinə aid bütün materiallar imdilik toplanıb qurtarmamış olduğu kibi, toplanmış olanlar da hərtərəfli və xüsusən lüğət cəhətdən təqdirə tabe tutulmamışdır.

Azərbaycan türk dilinin tarixi və iştiqaqı lüğətlərinin tərtibinə başlanılmış olmadığı kibi, ləhcələr lüğətinin tərtibi məsələsi də axıra çatdırılmamışdır. İştiqaq və mənşəyi, məna və funksiyası bugünkü Azərbaycan türk ədəbi və canlı dili əsasında izah edilə bilməz kibi görünən bir çox qədim sözlər qədim zamanlardan başlayaraq, Azərbaycan yazılı xalq ədəbiyyatında tapılır. Yuxarılarda qeyd etdiyimiz cədvəllərdən bir-iki sözü misal olaraq ala bilərik.

Ləhcələrdə və ümumən ədəbi əsərlərdə "sərxoş" və "gor", "məzar" sözləri qullanıldığı məlumdur. Bu sözlər Azərbaycan xalq və ədəbi dilində vətəndaşlıq haqqı qazanmışdırlar. Halbuki gərək ədəbi dil, gərəksə folklor materialları tədqiq edildikdə bu sözlərin həm qədim, həm nisbətən daha yeni əsərlərdə, hətta rayon aşıqlarının leksikonunda bulunduğu görülür:

نه میدن اسرومش نرکسلرك کیم
منی اندیشه دمینده قیلدی مخمور
(*Nəsimi*)

اسریب اسریب کوکره یب آقان
آغزی آغ کو پوکلی دیوانه سنبور
(*və ləhü*)[251]

Xalq ədəbiyyatından:

Əziziyəm, nərgizlər,
Sona gözlər nərgizlər.
Əsrimiş maya gördüm,
Qoltuğunda nər gizlər.

Demək ki, اسروك , yaxud اسرمك kökündən gələn sözlər gərək ədəbi dildə, gərəksə xalq ədəbiyyatında olmuşdur və vardır.

سن – كور sözünə aid olaraq daha geniş material göstərə bilərik:

منكر سوزی سؤال سوزی سین سوزی.
سوز بیركرك نه دانیشماق سین سوزی[252]

[251] S.Mümtazın "Beş min söz" lüğətinin əlyazmasından.
[252] Yenə orada.

Mən aşıq, tərsinə qoy,
Tərtənin tər sinə qoy.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy.
(*Aşıq Abdulla*)[253]

Mən aşığam bu sində,
Avçı gəzər busunda.
Bu yaşımda üç meyit
Görməmişdim bir sində.
(*Folklor materiallarından*)

Yaxud Ç.Bağırzadə yoldaş tərəfindən toplanmış olan Azərbaycan folklor materialında:

Oxumuşam əlif-beyin doğrusun,
Bizə gərək doğru turab, doğru sin.

"Fəzilət və məziyyət" mənasına اردام لیك , "bahalı" mənasına قز , "faydalı" mənasına آسغ لغ kibi sözlərə də təsadüf edilir ki, bunlara aid olaraq bir neçə misal:

قومن قیون ویر کل بواوغلانه شیشلیك اولسون اردملی در
آلتون باشلی بان او ویر کل بو اوغلانه کولکه اولسون اردملی در.
(*"Kitabi-Dədəm Qorqud"*)

بونو مصرك بریانی — اوجزلق اولو بنی
قزلق اولدی بریانی — نك خلق یوکلو
(*"Yusif və Züleyxa"*)

یاری بندی آیرن حاجتی حاصل اولمسون
اسی صانان بوایشی کور کیم نه زیان ایچینده در.
(*Nəsimi*)

Bütün bu misallar göstərir ki, İbn Mühənna lüğətində görülən və ilk baxışda Azərbaycan türk dili ilə əlaqəsiz zənn edilən lüğətlərin əksəriyyətini qədim Azərbaycan ədəbi dilində və bəzilərini bugünkü

[253] S.Mümtazın "Beş min söz" lüğətinin əlyazmasından.

folklorda tapmaq mümkündür. Bunun üçün İstanbul əlyazması ilə sonrakı əlyazmalar arasında lüğət tərəfindən olan ayrılığı tədqiq və təftiş etmədən, Azərbaycan dilinə tamamilə yabançı lüğətlər sırasına daxil etmək böyük bir ehtiyatsızlıqdır. İbn Mühənna əsərində verilmiş olan lüğət materialı eyni zamanda bu dövrün iqtisadi-ictimai xarakteristikası üçün də çox qiymətlidir.

1. Əsas mədənlərdən التون , كمش , بقر , قرشن , دمر , كوناسو məlumdur. Mədənlər arasında "neft" mənasına بيرياغى sözü bulunur ki, bu söz bir neçə cəhətdən qiymətlidir. Əvvəla bu söz neftin o dövrdə yaşayan türklərin həyat və məişətində, zəif də olsa, müəyyən rol oynadığını göstərir. Digər tərəfdən, İbn Mühənna əsərinin bütün nüsxələrində bu sözün bulunması müəllifin və onun tədqiq etdiyi dilin Bakı ilə Mosul arasında yaşayan bir xalqa aid olduğunu bir daha təyid edir.

İbn Mühənnadan bir neçə əsr məqdəm Mahmud Kaşqari tərəfindən "neft" sözü قرا ياغ [254] olaraq qeyd edilmişdir ki, bu söz bu gün də İran Azərbaycanında və buradan Orta Asiyada qullanılmaqdadır.

Yenə lüğət qismində verilən bitki adları çox zəngindir. Bu şöbədə həzəf və vəhşi bir çox bitkilərin adlarına təsadüf edilir. Bunlar arasında bağçılıq və bostançılığa aid sözlərin çoxluğu, پنبوق sözü əkinçiliyin bu dövrdə nisbətən yüksək dərəcədə bulunduğunu göstərir.

2. Eyni surətlə lüğət qismində verilən alət və sənətçi adları diqqətə layiqdir. Bu alətlər arasında əkinçilik, dəmirçilik, toxuculuq, məranfozluq alətləri diqqətə layiq olduğu kibi, xüsusən kiçilik alətlərinin isimləri qiymətlidir. Bu kiçikliyin Qara dəniz və Ağ dənizdən artıq Kaspi dənizinə məxsus olması mümkündür. Hərb alətləri arasında, təbii, *ox*, *yay*, *qılıc* və *qalkan* əsas yeri tutur və *tüfəng* sözü yoxdur[255] və ola da bilməzdi.

Tikiliş və bina hissələrinin adlarını da bu kateqoriyaya daxil etmək olar. Bu adlar olduqca inkişaf etmiş feodal şəhərini göstərir. "Qələ" mənasına تورا , "şəhər və kənd" mənasına *kənt*, *kənd*, "küçə, bazar" mənasına اجر , "müstəhkəm mövqe" mənasına كربان ,[256] "məhəllə" mənasına توراغ , "hamam" mənasına *issi su*, "pəncərə" mənasına ديكلك və sairə bu fikri təsdiq edən sözlərdəndir.

[254] ديوان لغات الترك , cild III, səh. 168.

[255] Maraqlıdır ki, Mahmud Kaşqaridə تكّ sözü çocuqların quş vurmaq üçün qamışın içini oyaraq qayırdıqları oyuncağa verilən ad olaraq göstərilir ki, bu Azərbaycanın bəzi rayonlarında, məsələn, Kirovabadda eyni adla məlum imiş (Divan, cild I, səh. 325).

[256] Bu söz qıpçaq كرمن sözü ilə əlaqədar olsa gərəkdir (Əbu Həyyan, səh. 81).

Həmin şöbədə 125-127 sifətçi adı verilir ki, bu sözlər də sifətçiliyin inkişaf dərəcəsini göstərmək etibarilə qiymətlidir. Bu qisimdə تيلماج ("tərcüman") və قام ("kahin")dən başlayaraq feodalizmin təkamül dövründə Yaxın Şərqdə təsadüf etdiyimiz hər növ sənətkarın türklər arasında da bulunduğunu görürük. Bitkilər arasında *pambuq* sözünə təsadüf etdiyimiz kibi, sənətkarlar arasında da *pambuqçu*, *mamuqçılıq* kibi sözlərə təsadüf edirik. "Katib" mənasına bütün nüsxələrdə *bitkiçi* sözünün bulunması yazının məlum olub, divan katiblərinin mövcud olduğunu göstərir.

Sənətkar adları arasında اوتاجى ("təbib") və قام ("kahin") sözləri maraqlıdır.

İstanbul nüsxəsində اوتاجى ("təbib") sözündən başqa املاغجى ("müaliç, tədavi edən") sözü vardır ki, bu söz Melioranski nüsxələrində yoxdur. Mahmud Kaşqaridə hər iki söz, həm "ot" – اتاجى [257], həm امجى – ام [258] sözləri vardır ki, bunu professor Malov nədənsə yuxarıda qeyd edilmiş məqaləsində göstərməmişdir. "Əlac" mənasında ام sözü qədim Azərbaycan şairlərində təsadüf edir:

ديدم لبوكى صورسم و امسم اولامى
بودردمه بنم عجب ام سم اولامى
چوق ايرمز الوم وصلوكه دوشميشم ايراخ
دوشده خيالكك لبن امسم اولامى

(Qazı Bürhanəddin)

İkinci misradakı ام sözünün həmin "əlac" mənasında olduğu aydındır.

قام sözünə gəlincə, bu sözün müxtəlif əsərlərdə məna cəhətindən məruz qaldığı inkişaf maraqlıdır. Bu söz Mahmud Kaşqaridə كاهن [259] və İbn Mühənnanın bütün nüsxələrində عراق olduğu halda, Əbu Həyyanda الطبيب [260] mənasını ifadə etməkdədir.

3. Ticarət həyatına aid sözlər nisbətən az olmaqla bərabər, yenə də Yaxın Şərq həyatına məxsusdur. Ticari istilah və sözlərin mühümləri əsərdə inikas edir:

[257] ديوان لغات الترك , cild I, səh. 38.

[258] Yenə orada, səh. 41.

[259] Yenə orada, cild III, səh. 117.

[260] كتاب الادراك , səh. 75.

اوجوز – الرخيص ، قز – الغال ، آقچه – الدرهم
دوار – المال ؛ ساتقيچى ، صاطچى – البياع ، ساغشچى – الحاسب
اودنج – الدين ، اورنج – الرشوة ، سوريوجى – الدلال ، ارغا – الكفيل

və sairə.

4. İctimai-sinfi əlaqələri göstərən istilah və ifadələr də böyük əhəmiyyətə malikdir. Başqa ərəb filoloqlarında olduğu kibi, İbn Mühənnada da dinə və feodal-ruhani siniflərinə aid olan sözlər lüğət şöbəsinin birinci qismini təşkil edir. Bu hakim feodal-ruhani ideologiyasının lisaniyyat əsərindəki inikasını göstərir. Bunu da qeyd etməlidir ki, bu dövrdə ictimai quruluşa aid olan terminologiya daha tamamilə ərəb-fars təsiri altına düşməməklə bərabər, islam dini məfhumlarını almışdır. İslam ərəb-fars dilinin təsiri prosesində bu hal birinci etapı təşkil edir. Yəni bu birinci dövrdə qədim qeyri-islami türk cəmiyyətinə, ictimai quruluşuna aid olan terminlər olmaqla bərabər, öz funksiya və mənalarını dəyişdirir və ərəb-fars dini istilahlarına paralel təşkil edirlər. Sonrakı dövrdə isə bu istilahlar ya qismən, ya tamamilə istemaldan çıxaraq, onların yerini ərəb-fars dini-ictimai istilah və ifadələri işğal edir. Bu qismə aid bəzi xarakteristik sözləri göstərmək fikrindəyik:

تنكرى – الله ، يلواج – پيغمبر ، اچاق – جنت ، تمغ – جهنم
يبك – شيطان ، اشنوقي آتا – آدم پيغمبر ، اشنوقي آنا – حوا
خاقان – سلطان ، تركان – سلطان آروادى ، تكين – اميرك اوغلانلارى
يارليغ – فرمان ، بك – امير ، جوغا – اشراف و اعيان
توغرا – توقيع ، پادشاه مهدى ؛ تيرك – خراج
باى – دولتو ، چريك – قوشون ، سودامش – عسكرلك يولداشى ، كوز دامچى ، كوز داچى – جاسوس

Hakim dini ideologiya və hakim feodal-ruhani sinfinə və dövlət quruluşuna aid bu kibi lüğətlər yanında məhkum sinfə, istismar, qulluğa aid sözləri də görürük:

جغان ، يوغ سز – فقير ، كاسب ؛ قول – عبد ، ترجى – الاجير ، مزدور ؛
قراباش – قراواش ، كونك – جاريه ، قوما – اسير

Demək ki, bu dövrdə sinfi differensiya çox inkişaf etmiş və sonrakı dövrlərdə daha da inkişaf edəcək olan feodal ictimai institutları artıq təşkil etmiş idi.

Maraqlıdır ki, Mahmud Kaşqari və Əbu Həyyandan fərqli olaraq, İbn Mühənna qəbilə adlarını qeyd etmir. Bu surətlə bu əsərin hansı xalqın dilinə aid olduğunu meydana çıxarmaq yalnız dil materialını təhlil etmək yolu ilə mümkün ola bilər. Qəbilə və yer adlarının İbn Mühənna əsərinə daxil edilməməsi [...] müəllifin bu qəbilə adlarını bilməməsindən ileri gəlmir. Bəlkə, İbn Mühənnanın əsərin lüğət qismi üçün götürdüyü plana bu növ toponimik və etnonimik adlar daxil olmur. Kaşqari və Əbu Həyyan əsərləri daha müfəssəl olduqları kibi, daha ətraflı, çox dəfə lisaniyyat xaricinə çıxan məlumat verməyi öz məqsədləri olaraq götürmüşlərdir. Halbuki İbn Mühənna əsasən əhəmiyyətləri dərəcəsində üç dilin sərf və nəhv və lüğət əsasları haqqında məlumat verməyi məqsəd olaraq qəbul etmişdir. Buna görə də yuxarıda zikr edilmiş əsərlərə görə İbn Mühənna əsəri daha dar mənada qrammatika və dil əsəridir. Nəhayət, müəllif özündən əvvəl keçmiş olan müəlliflərdə təkrar edilən məlumatı və bunlar arasında toponimik və etnonimik sözləri təkrar etmək istəməmişdir. İbn Mühənna əsərinin lüğət şöbəsinə aid olan qeydlərimizi qurtarmadan qabaq bir neçə söz də onun mücərrəd məfhumlara dair verdiyi lüğət materialı üzərində dayanmalıyıq.

Məlum olduğu üzrə, aprel revolyusiyasına qədər Azərbaycan türk dilində bulunan mücərrəd məfhumların adları əsasən ərəb-fars sözləri idi. Burjua dilçiliyində hakim olan cərəyana görə, bunun səbəbi bu növ məfhumların və bu mücərrəd məfhumları ifadə edən adların islama, yəni ərəb-fars xalqlarilə təmas edincəyə qədər türk dilində olmaması idi. Halbuki qədim dilçilik əsərləri bu fikrin əsassız olduğunu göstərir. Nəinki bu gün, hətta İbn Mühənna əsərinin yazılı tarixindən bir az sonra ərəb və fars sözlərilə əvəz edilən mücərrəd məfhumlar bu əsərin yazılışı dövründə daha türk dilində öz ifadələrinə malik idilər və bir neçə müddət yeni islam məfhumlarını daşımağa çalışdılarsa da, sonra öz yerlərini ərəb-fars sözlərinə tərk etməyə məcbur oldular. İslam sxolastika və doqmatikası öz doğma dili olan ərəb-fars dili ilə gələcəkdi və gəldi. Aşağıda gətirdiyimiz misallar bu fikri təsdiq edir:

اوى – وقت ؛ اوزا ، اورا – حين ، آن ؛ سرجال ، سرجاك – حكايه ، اوك – فهم ، خاطر ؛ اسغ – فراست
ارداملى – استعدادلى ، ارداميسز – استعدادسيز ، اقوش ليغ – عقللى ، يازق – كناه ، سخجى – تجر به لى ، شكل – سقط ، عليل

Bu əsər daxilində bunlara oxşar yüzlərlə sözlər vardır ki, bu sözlər oradakı şəkil və mənalarında bugünkü Azərbaycan dilində olmamaqla bərabər, bunların kökləri, yaxud dəyişmiş mənaya malik qalıqları bu gün də təsadüf edir.

Ümumən İbn Mühənna lüğətinin dil tədqiqləri üçün ən böyük əhəmiyyəti də buradadır ki, bu lüğətlərə istinad edərək, bugünkü dildə işlətdiyimiz sözlərin bir çoxunun köklərini, məna və şəkilcə əsrlər müddətində məruz qaldıqları inkişafı, vəlhasil, Azərbaycan türk dilinin tarixinə aid mühüm sahələrdən birini aydınlaşdıra bilərik.

İbn Mühənna əsərinin lüğət qismində xüsusi bir məsələ üzərində də dayanmaq faydalıdır. Bu da barmaqların adlarıdır. Əvvəla bu xüsusda İstanbul və Melioranski nüsxələri arasında bəzi əhəmiyyətli ixtilaflar vardır:

İstanbul nüs.	Melioranski nüs.	ərəbcə
باش برمق	باش برماق	الابهام
سوق برمق	yoxdur	السبابة
اورتا برمق	اورتا برمق	الوسطى
آتاسی	آناسی , اتاسی	البنصر
جیجلاق [261]	جیجلا [262]	الخنصر

"Qəvanin"də barmaqların adı aşağıdakı şəkildədir:

باش (الابهام), شق برمق (السبابة), ارط برمق (الوسطى), اصن سز برمق (البنصر), برمق (الخنصر) شلق برمق [263]

"Kitabül-idrak"da بسبرمق (الابهام) olub bunun "baş barmaq" sözü ilə əlaqədar olduğu şübhəsizdir və bəlkə, bəzi qıpçaq dillərində olduğu [ş – s] dəyişməsinə tabe olmuşdur. İkinci barmağın adını tapmaq mümkün olmadı.

اطصیز برمق (البنصر),[265] ارطا برمق (الاصبع الوسطى),[264]

[261] İstanbul nüsxəsi, səh. 141.
[262] Melioranski, səh. 47.
[263] القوانین , səh. 60-61.
[264] کتاب الادراك , səh. 31.
[265] Yenə orada, səh. 42.

ججا برمق (تورکمنجه) ججلق – (قپچاقجه) (الخنصر),[266]
ججامق (البنصر),[267] ججالق (الخنصر).[268]

Mahmud Kaşqari, yanılmırsam, yalnız iki barmağın adını qeyd edir: ... Ümumən برُمق , yaxud *barmaq* sözü Mahmud Kaşqaridən başqa, bütün yuxarıda göstərilən əsərlərdə vardır. Kaşqaridə isə *barmaq* sözü əvəzində ارنکاك , yaxud ارنك sözü vardır.[269] Həmin söz İbn Mühənna lüğətində dəxi bulunmaqla bərabər, burada برمق yox, "barmaq ucu" mənasını ifadə edir ki, bu söz Melioranski nüsxələrində yoxdur.

Bugünkü Azərbaycan türk dilində barmaqların adları müxtəlif rayonlara görə müxtəlif variantlara malikdir. Biz burada ancaq iki variantı qeyd edirik:

1) baş barmaq, 2) orta barmaq, 3) uzun barmaq, 4) gödək barmaq, 5) sərçələ barmaq.

İkinci variant daha ziyadə zarafat və oyunla işlədilir ki:

1) baş barmaq, 2) baçarat barmaq, 3) uzun hacı, 4) gül turacı, 5) sərçələ barmaq.

Bu adların ətraflı surətdə təhlili başqa türk sistemli dillərə və hətta başqa dil sistemlərinə aid məlumatın yığılmasını tələb etdiyindən biz burada imdilik yalnız müqayisəli materialın qismən təsbitilə kifayətlənirik.

Lüğət qisminə aid qeydlərimizi qurtarmadan əvvəl İbn Mühənnanın müqayisəli dil materialı haqqında yuxarıda bəyan etdiyimiz fikirlər və gəldiyimiz nəticələri xatırlatmaq istərdik.

İbn Mühənna əsərinin xüsusən lüğət qismi monolit və sistematik deyildir. Müəllif əsərinin xüsusən lüğət şöbəsində öz dövrünə qədər yazılmış olan müxtəlif dillərə aid cürbəcür əsərlərdən istifadə etmişdir. Burada uyğur dilinə aid olan sözləri və söz şəkilçilərini ayrıca qeyd etməlidir. Lakin yenə təkrar edirik ki, bu növ lüğət ünsürləri, lüğət şöbəsinin əsas lisani kolorit və bazasını dəyişdirə bilmir. Bütün əsər kibi, lüğət şöbəsi də əsasən Azərbaycan türk dili və onun ilərideki inkişaf dövrləri ilə sıxı surətdə bağlı olaraq qalır.

[266] کتاب الادراك , səh. 42.
[267] دیوان لغات الترك , cild I, səh. 404.
[268] Yenə orada, səh. 95 və başqa yerlərdə.
[269] İstanbul nüs., səh. 141. Burada ارنکاق – راس الاصبع sözləri vardır ki, professor Malovun "большой палец" deyə tərcümə etməsi İbn Mühənnanın tərcüməsinə düz gəlməyir.

Burada uyğur dili və imlasının XIII və XIV miladi əsrlərdə, yəni Azərbaycan feodal klassik ədəbiyyatının yaradılış və inkişaf dövründəki rolunu da nəzərdə tutarsaq, müəllifin xüsusən lüğət şöbəsinə daxil etdiyi uyğurizmləri qiymətləndirməkdə ayrı, tarixi vəziyyətə daha yaxın və daha uyğun nöqteyi-nəzər sahibi ola bilərik.

Məlum olduğu üzrə, uyğur baxışları monqol dövlətində müəyyən rol oynamışdır. Bundan başqa, XIV miladi əsrə qədər müntəzəm, sistematik surətdə inkişaf etmiş ədəbiyyata və ədəbi dilə malik olan türk sistemli dil uyğur dili idi.[270] Bu surətlə uyğur təsiri bu dövrün lisani və ədəbi əsərlərində iki yolla özünü göstərirdi:

1) doğrudan-doğruya uyğur savadlıları və alimləri ilən olan təmas və əlaqə;[271]

2) uyğur klassik ədəbiyyatı ilə olan tanışlıq.

Qədim qıpçaq, Altun Orda yarlıqlarında görülən uyğurizmləri qədim Azərbaycan fərmanlarında da tapmaq mümkündür.

Uyğur klassik ədəbiyyatı və ədəbi dili ilə tanışlıq da bir neçə cəhətdən özünü göstərir.

Cənub türk sistemli dillərin imla sistemində ərəb əlifbasilə düzəlmiş uyğur imla sisteminin təsiri olduğuna dair faktlar bizim başqa bir əsərimizdə[272] daha müfəssəl surətdə göstərildiyindən burada ancaq bir neçə sözlə kifayətlənmək istəyirik. Orada da göstərildiyi kibi, professor Falyov yuxarıda zikr edilmiş əsərində bu məsələyə ancaq qismən yanaşmışdır:

"Второй причиной перехода от обозначения гласных харекетами к обозначению их буквами могло быть влияние средне-азиатской письменности. Следы этого влияния найдем в обозначении "ŋ" в некоторых случаях через ك, в османской через ڭ, а то просто через ك. Но во многих старо-османских памятниках слово *Təŋru* пишется تكرى см. хотя бы у Ибн Биби, 192, 216 и др. Там же найдем تنكسوقلرين (стр. 81) наряду с طڭسوق (стр.2). Влияние средне-

[270] Maraqlıdır ki, "yazı" mənasında olan بيتيك sözü Mahmud Kaşqaridə uyğurca الكتب, yaxud الكتابة mənasında göstərildiyi halda, oğuzca "həmayil, tilsim" mənasında qeyd edilmişdir (cild I, 321). Buradan da aydındır ki, yazı uyğurlarda inkişaf etmiş və oğuzlarda yalnız sehrbazlıq və tilsim olaraq tanılmışdı ki, Azərbaycan türk dilində bu gün də yaşayan *cadu-pitik* sözü bu mənanı daşıyır.

[271] İbn Mühənnanın öz əsəri daxilində qeyd etdiyi türk üləmasının uyğur alimləri olması çox mümkündür.

[272] Xətai dili və ədəbi yaradıcılığı.

азиатской письменности, проявившееся в отношении обозначения согласных еще легче могло проявиться в области гласных".[273]

Professor Falyovun qədim Osmanlı dili üçün yalnız bir xüsusiyyət üçün qeyd etdiyi bu moment qədim Azərbaycan türk dilində sistematik surətdə özünü göstərir və müxtəlif şəkillərdə iyirminci əsrə qədər davam edir. Yalnız XIV miladi əsrdən başlayaraq, Azərbaycan türk dili imlasının ərəb əlifbasının verdiyi imkan daxilində canlı və dəqiq tələffüzə yaxın olan və sözlərin yazılışındakı uyğurizmləri uyğur dilinin təsirindən ziyadə uyğur imla sisteminin təsiri ilə izah etmək daha da münasibdir. اوتغ , تمر , طاغ , سنكا , منكا , كنكل , نيكاغ kibi yazılışlar, hətta قپغ *qapı*, يابغ *tikiliş, yapı*, بيليكليك *bilikli* kibi formalar bu hesaba daxildir. Qrammatika qismində daha aydın surətdə görülməsi kibi, İbn Mühənna əsərinin müqəddiməsi də özünün tədqiq mövzusu olan dildə söz başında və ortasında əsasən [x], [d] səslərinin bulunduğunu qeyd etdiyi halda, klassik imla sisteminə tabe olaraq çox yerdə [d] yerinə "t", [x] yerinə "k" hərflərini işlədir ki, bədii ədəbiyyatda da bu halı görürük.

Yenə İbn Mühənna söz axırında bulunan [ك] səsinin كاف الميته - "ölü kaf" olub, sözdə təsbit edilmədiyini qeyd edir ki, əsərinin çox yerində bu qaydaya əməl etməyərək, bu "kaf"ları yazmışdır.[274] Demək, söz axırında bulunan bu [ك] səsi o dövrdə Azərbaycan türk dilində ya tamamilə yoxdu, yaxud [təşəkkül] etmə prosesini keçirdi. Necə ki, həmin xüsusiyyəti Əbu Həyyan qıpçaq dili daxilində qeyd edir. Məsələn, "qoşun" mənasına جرك sözü qıpçaq dilində جرى şəklinə də malik [olduğu] kibi,[275] بتك sözü بتى şəklinə də malikdir. Yəni qıpçaq dilində hər iki forma işlənir, lakin bunlardan جرك və بتك formaları əsl olub, ك düşməsi sonradan vaqe olduğunu da göstərir.

Əlavə olaraq yenə xüsusən lüğət qismində diqqəti cəlb edən bir xüsusiyyət üzərində dayanmalıdır ki, bu da bir çox sözlərin yazılışında ahəngə – sinharmonizmə diqqət edilməsindədir. Məsələn: يزمق "üzmək", امق "əmmək", اينمق "enmək", اكسرمق "öskürmək", سينكورمق "həzan etmək". Bu misallar İstanbul nüsxəsində lüğət qisminin cüzi bir hissəsini təşkil etməklə bərabər, Melioranski nüsxələrində də eynən mövcuddur:

[273] Старо-османский перевод и т.д., стр. 140.

[274] İstanbul nüs., səh. 77; Melioranski nüs., səh. 6.

[275] كتاب الادراك, II təbi, səh. 42.

İstanbul nüs.		Melioranski nüs.		ərəbcə
ششمق	(119)	شاشمق , شيشمق	(34)	الحل
يزمق	(120)	يزمق	(34)	السباحة
بيرمق	(122)	بيرمق	(36)	العطاء
اكسرمق	(124)	اكسرمق	(37)	السعال, العطس

Bu hadisənin iki səbəbi ola bilər:

1. Ehtimal ki, İbn Mühənna türk dilindəki sinharmonizm hadisəsini qəti şəkildə bilmirdi. Necə ki, əsərinin bir yerində nə üçün bəzi yerdə غل, bəzi yerdə كل və i.a. işlətdiyini "تحفة الملك" sahibi "türk üləmasından sual etmiş isə də, bunlar heç cavab verə bilməmişlərdir",[276] – deyir. Bu da göstərir ki, İbn Mühənna [...], Kaşqaridə, Əbu Həyyanda və "Qəvanin" müəllifində[277] çox aydın surətdə ifadə edilən köklərin qalınlıq və incəlik məsələlərinə əhəmiyyət vermir və bunun üçün də ola bilsin ki, çox dəfə مك yerinə مق yazır.

2. Bu hadisənin dildə bulunub qismən həm İbn Mühənna, həm də onun kopyaçıları tərəfindən əsərdə əks etdirilməsi ehtimalıdır. Bu ikinci ehtimal, bizcə, daha qüvvətlidir. Çünki bu hadisə yalnız مك yerinə مق işlətmək şəklində təzahür edir və bunun əksi, yəni مق yerinə مك işlətmək görülmür. Əgər bu ahəngsizliyin səbəbini yalnız müəllifin, yuxarıda qeyd etdiyimiz kibi, türk sistemli dillərdə bulunan bu qanuna vaqif olmadığından ileri gəlsəydi, مق yerinə مك şəkilçisinin işlədilməsinə təsadüf edəcəkdik. Halbuki bu, dediyimiz kibi, görülmür.

Məsdər formasının qeydindəki qərarsızlığı Melioranski də görmüş, bu xüsusda aşağıdakı fikirləri bəyan etmişdir:

"По всей вероятности дело сводилось к тому, что при корнях с гортанными гласными употреблялось ماق , а при корнях с небными – مك , хотя строгой последовательности в употреблении этих двух окончаний мы вообще не находим. Удивляться этому нечего, так как даже еще в словаре Ценкора встречаются подобные укло-

[276] İstanbul nüs., səh. 139; Melioranski nüs., səh. 40.

[277] Mahmud Kaşqaridə الكلمة القافية ("qaf"lı kəlmə) və الكلمة الكافية ("kaf"lı kəlmə) (cild II, səh. 56-57), Əbu Həyyanda مرقق (incə), مفخم (qalın, səh. 107); "Qəvanin"də حرف مفخم , حرف استعلا qalın hərflərdən birinin olub-olmaması ilə (səh. 22) sinharmonizm xüsusiyyəti qeyd olunur. Bunun üçün professor Melioranski (səh. XXVII) ərəb filoloqlarını sinharmonizmi qeyd etməməkdə təqsirləndirməkdə haqlı deyildir.

нения от обычного (по крайней мере теперь у османцев) начертания формы неопределенного наклонения".[278]

Demək ki, professor Melioranski bu hadisənin səbəbini bir növ etiyadda görərək, izahı cəhətinə yanaşmır və burada təəccüb ediləcək bir şey görmür.

Halbuki yuxarıda da göstərdiyimiz kibi, bu hadisənin kökləri, çox mümkündür ki, bizi canlı dildə bulunan bəzi xüsusiyyətlərin qrammatikada da əks etdiyinə bir çox ləhcə və şivələrdə bu gün də təsadüf edirik. Xüsusən tat, ləzgi, talış və erməni kibi dillərlə Azərbaycan türk dilinin təmas etdiyi, calaqlaşdığı rayonlarda sinharmonizm xüsusən məsdər formasında pozulduğu və daima qalın damaq formasının ümumiləşdiyi görülür: *yemax, sevmak, bilmax, görmax...* kibi formalar bu növ ləhcələrdə adi formalardandır.

İbn Mühənnanın dəxi İran, yaxud Qafqaz Azərbaycanında, yaxud o dövrdə bu rayonlarla sıx surətdə bağlı olan Şərqi Anadoluda gördüyü bu növ formaları öz əsərinin lüğət qismində əks etməsi çox mümkündür ki, əgər bu ehtimal həqiqətə yaxın isə, İbn Mühənna əsərinin bu xüsusiyyətlə müəyyən dövrdə və müəyyən ölkədə danışılan canlı dillə çox yaxından tanış olduğunu bir daha isbat edir. Bu xüsusiyyətin yalnız lüğət qismində görülüb, sərf qismində isə aydın surətdə həm nəzəri-qaidəvi cəhətdən iki ayrı şəkilçinin (مك – ماق) göstərilməsi, həm əməli cəhətdən misalların düzgün surətdə verilməsi bu hadisənin, professor Melioranskinin zənn etdiyi kibi, adi bir hadisə olmayıb, daha ziyadə söz köklərini canlı dildən alan bir dialektal-ləhcəvi xüsusiyyəti təmsil etdiyini göstərməyə kafidir.

Sinharmonizm xüsusiyyətinin yalnız məsdər şəkilçilərinin yazılışında deyil, bəzən başqa şəkilçilərin yazılışında da pozulduğunu görürük. Məsələn, İbn Mühənnanın fikrincə, məsdər təşkil edən لك şəkilçisi yalnız bir formada verilmişdir və İstanbul nüsxəsindəki البلك misalına لك şəkilçisi əlavə edilmişdir.[279] Halbuki Melioranski nüsxələrində birinci misalda البلك, ikinci misalda البلغى,[280] eyni surətlə اينغى, ايندق[281] formalarını görürük.

[278] Араб-филолог, стр. LVIII.

[279] İstanbul nüs., səh. 89.

[280] Melioranski nüs., səh. 13.

[281] İstanbul nüs., səh. 81.

QRAMMATİKA QİSMİ HAQQINDA

Professor P.M.Melioranski yuxarıda qeyd edilmiş əsərində İbn Mühənna kitabının qrammer qisminə ayrı, böyük bir şöbə təxsis etmiş və bəzən tarixi və müqayisəli surətdə əsas qrammatik məsələlər üzərində dayanmışdır. Biz əsərimizin bu qismində Melioranskinin qrammatika şöbəsinə aid izahatından da istifadə etməklə bərabər, əsas etibarilə Mühənnanın verdiyi məlumatdan ən mühüm tapdıqlarımız üzərində dayanmaq istəyirik. Aydınlıq xatiri üçün bu qismə aid izahat və qeydlərimizdə ayrı-ayrı nöqtələr halında veririk.

Ümumi qeydlər

İbn Mühənna əsərinin müqəddiməsində türk dilinin xarakteristikasını verməyə çalışır və bu xüsusa dair aşağıdakı nöqtələri qeyd edir:

a) İbn Mühənna türk dilinin morfologiyasında yalnız son şəkilçilər, suffikslər bulunduğunu göstərir:

"Bilmiş ol ki, türk dili (lüğəti) təsğir (kiçiltmə), cəm və nisbətə dəlalət etmək üzrə isimlərin və mazi, müstəqbəl, məsdər, qail, məful, əmr, nəhy və muxatəsə dəlalət etmək üzrə fellərin axırına əlavə edilən zaiddən (yəni: qoşma, yaxud şəkilçilər) ibarətdir".[282]

Bu qeyd ilə müəllif türk dilinin [iltisaqi] quruluşa malik olduğunu qismən göstərir.

b) Türk dilində, ayrı-ayrı sözlərdə olduğu kibi, sözlərin axırında gələn şəkilçilərdə də ث , ح , خ , ه , ف , ض , ظ hərfləri (səsləri) yoxdur.[283]

Müəllifin bu ikinci qeydində [məsələnin] axıra qədər həll olmadığını göstərməliyik, çünki kitabın dil materialları arasında خ , ط və ص hərflərinə rast gəlinir.

Eyni surətlə türk dilinin xüsusi [...] səsləri vardır ki, bunlar ərəb dilində yoxdur: پ , چ , ژ , ڤ , ڭ [284]

c) Türk dilində مذكر ərəklik, مؤنث dişilik, معرفه müəyyənlik, نكره qeyri-müəyyənlik ifadəsi yoxdur.[285] İbn Mühənna مذكر və مؤنث ifadəsinin türk dilində bulunmadığını göstərməkdə haqlı isə də, معرفه və نكره -nin ifadə edilmədiyini göstərməkdə yanılır. Bu xüsusda ayrı bir əsərimizdə[286] müfəssəl məlumat verdiyimizdən burada bu xüsusiyyət üzərində dayanmağa hacət görməyirik.

ç) "Türk dili (lüğəti), ərəbcə Hicazdan nəşət etdiyi kibi, Türküstandan nəşət etmiş, törəmişdir. Bu dildə danışan adamın xüsusiyyəti tez danışmaq, hərflərin (səslərin) düşürülməsi, mədlərin (uzun saitlərin) azlığı və həzələrin çoxluğudur".[287]

Bu nöqtələrin birinci qismi, yəni "türk dilinin Türküstandan nəşət etməsi" haqqında yuxarıda lazımi dərəcədə məlumat verildiyindən burada təkrarına hacət yoxdur. Yalnız ikinci qisim, yəni türkcə danışan adamın xüsusiyyəti haqqında verilən məlumat üzərində bir neçə sözlə dayanmaq lazım gəlir.

Professor Melioranski bu xüsusda aşağıdakı fikri bəyan edir:

"Эта характеристика едва-ли имеет для лингвиста какое-нибудь значение; здесь сравнивается обычная живая турецкая речь с классически правильным рецитированием Корана – не более".[288]

Demək ki, professor Melioranskiyə görə, bu qeydin heç bir əhəmiyyəti yoxdur. Bizim fikrimizcə, bu qeyddə də bəzi diqqətəlayiq nöqtələr vardır. Birincisi, İbn Mühənna burada canlı türk dilini tədqiq mövzusu olaraq götürdüyünü qeyd edir və bunun üçün tələffüzə əhəmiyyət verir. İkincisi, yenə İbn Mühənna قلة المد təsiri ilə türk sistemli dillərin əksərisində gördüyümüz xarakterli fonetik xüsusiyyəti, yəni saitlərin nisbətən qısa və ya reduksiyalı olmasını göstərir ki, bu nöqtə əhəmiyyətsiz deyildir.

d) Müəllifin Türküstan, "bizim ölkə türkləri"nin və türkmən dili haqqında verdiyi müqayisəli material üzərində yuxarıda müfəssəl surətdə dayandıq.

e) Əsərin quruluşu əsasən başqa ərəb türkoloqlarının əsərlərində gördüyümüz quruluşu xatırladır. İbn Mühənna da öz əsərini, məsələn, Əbu Həyyan kibi üç qisim – تصريف təsrif, lüğət və nəhv qisimləri üzərində qurur. Lakin təsrif – morfologiya İbn Mühənnada

[282] İstanbul nüs., səh. 73; Melioranski nüs., səh. 3-4.
[283] Yenə orada, səh. 72-73; yenə orada, səh. 3.
[284] Yenə orada, səh. 73; yenə orada.
[285] Yenə orada; yenə orada, səh. 4.

[286] Проблема дефинитивности в тюркск. языкс. АзФАН, Лингв. серия, XXXI, Баку, 1936.
[287] İstanbul nüs., səh. 73; Melioranski nüs., səh. 4.
[288] Араб-филолог, стр. 4.

Əbu Həyyana görə daha sıxı surətdə bir-birlərinə bağlanmışdır və bu surətlə əsər əsasən feli surətdə iki qisimdən – qrammatika və lüğətdən ibarət olur. "Qəvanin" müəllifi kibi, İbn Mühənna da ماضی شهودی qəti keçmiş fel formasına çox əhəmiyyət verir və bu formaya misal olaraq yüzlərlə fel sözləri gətirir. İbn Mühənnanın eyni zamanda məsdər (infinitiv) formasına dəxi ayrıca diqqət yetirməsi qeydə layiqdir. Ərəb türkoloqlarının həman hamısı ərəb dilindəki məsdər quruluşu ilə müqayisə edərək, türk sistemli dillərdəki məsdər formasına da ayrıca əhəmiyyət verdikləri məlum olmaqla bərabər, məsdər formalı sözlərə aid ayrıca lüğətçə verən İbn Mühənnanı bu xüsusda hər felin müzare və məsdər formalarını göstərən Mahmud Kaşqari ilə müqayisə etmək mümkündür.

İbn Mühənnada gətirdiyimiz bu iki xüsusiyyət, yəni mazi və məsdər formalarına qrammatikada mərkəzi mövqe verib ayrıca diqqət edilməsi müəllifin yenə canlı danışığı və canlı dili öyrənməkdə tərcümanların təsadüf etdikləri çətinlikləri göz önündə tutmasından ileri gəlir.

Bundan başqa, İbn Mühənna əsərinin qrammatika qismində verilən məlumat və ümumiyyətlə, gətirilmiş plan da başqa əsərlərlə müqayisə edildikdə müəyyən xüsusiyyətlərə malikdir ki, bu xüsusdakı qeydlər ilərida öz yerində veriləcəkdir.

MORFOLOGİYA VƏ SİNTAKSİS

Ümumi qeydlər

Əvvəla morfologiya və sintaksis şöbəsinin məzmunu başqa ərəb türkoloqlarının əsərlərinə nisbətən daha kasıb deyildir. Məsələn, القوانين və كتاب الادراك [-də] olan əsas şöbələr

جمع، تصغير، نسب، اضافة، صفت، فاعل، مفعول، مصدر، حال، ظرف زمان، ظرف مكان، ادوات حرفيه، شرط، استفهام، تعجب، تشبيه، مبالغه، تفصيل، استثنا، فعل ماضی، فعل مستقبل، امرونهی، انفعال و تفعل

namilə verilmişdir. Təbii, qrammatik terminologiyada olduğu kibi, morfologiya və sintaksis şöbəsinin izahında da İbn Mühənna özündən əvvəl keçmiş ərəb türkoloqları [kibi] ərəb qrammatik quruluşunu göz önündə tutur və ərəb qrammatikasından gətirdiyi normaları türk dilinə tətbiq edir.

Bundan başqa, türk dilini öz ana dilləri kibi bilməyən ərəb türkoloqlarının əsərlərində gözə çarpan xüsusiyyətlərdən biri də illüstrativ materialın, xüsusən frazeologiya şəklində verilən materialın kasıblığıdır. Bu xüsusda القوانين , كتاب الادراك və İbn Mühənna əsəri Mahmud Kaşqarinin ديوان لغات-ından əhəmiyyətli surətdə ayrılır. ديوان -da olan zəngin frazeologiya bunlarda yoxdur. Çox dəfə misallar باردی – *vardı* və كلدی – *gəldi* kibi yeknəsəq təkrarlı və yenə ərəb qrammatikalarından tərcümə edilmişə bənzəyən materiallardır.

Çox dəfə xüsusən İbn Mühənna tərəfindən ərəb qrammatikasının klassik şəxsiyyətləri olan زيد və عمرو də türk dili qrammatikasına daxil edilir. Halbuki sonraları olduğu kibi, bu isimlərin bu dövrdə də türklər arasında ya heç olmadığı, yaxud çox az qulanıldığı, hər halda türk dili qrammatikası üçün heç də xarakteristik olmadığı aydındır. Bəzən yenə ərəb qrammatikasının klassik sözlərindən فلان sözünün türkcə qarşılığı olan تاوك qullanılır.[289] Halbuki كتاب الادراك [-da] bir neçə yerdə سنجر və سنقر kibi türkcə adlar işlədilir.[290] Bundan başqa,

[289] Məsələn: زيد بارماغی اسا بيلا بارماغی من (İstanbul, 94; Melioranski 16), عمرونك باشی (İstanbul, 83; Melioranski, 11), بوتون تاوك نيك قور (İstanbul, 85; Melioranski, 11).

[290] Məsələn: سنجر ارلمش (كتاب الادراك , səh. 108), سنقر طردی , سنجر طرجق (səh.153).

bəzi misallar doğrudan-doğruya ərəbcədən türkcəyə mexaniki surətdə tərcümə edilmişə bənzəyir. Məsələn,

قچان قلسان منكا اذكولوك دين سنكا تبوغ قلغای من ابكار یا راشور misalı, əlbəttə, ərəbcə مهما تفعل من الحیز اخدمك بقدره[291] cümləsinin mexaniki surətdə türk dilinə tərcüməsindən başqa bir şey deyildir. Cümlə söz tərtibi [etibarilə] eynən ərəbcədə olduğu kibi saxlanılmış və eyni zamanda cümlə daxilindəki sözlərin bir-birilə olan rabitələri də ərəb cümlə üzvlərinin rabitələrinə uydurularaq alınmışdır.

Melioranski nüsxələrində bu kibi cümlələr az-çox türk dilinin cümlə quruluşuna yaxınlaşdırılaraq aşağıdakı şəklə salınmışdır:

منم بیلا ایبو کلوك ادرسن طا یق اتکمن یخشی لغی قدرنجه [292]

Bu cümlə də tamamilə türkcə olmamaqla bərabər, hər halda burada اذكولوك دین قلسان yerinə ایبوكلوك ادرسن rabitəsi qəbul edilmişdir ki, bu ikinci quruluş türk dilinə daha uyğundur. Halbuki professor Melioranski haqlı olaraq bu sonuncu şəkli də "süni" adlandırır.[293]

Eyni surətlə və eyni səbəbə görə İstanbul nüsxəsində bulunan بارغان لر بكن دان ایروق اونك ایدی [294] ibarəsi sonrakı nüsxələrdə بارغان لر [295] بكلرندن ایروق اون كیشی در şəklinə salınmışdır.

Buna baxmayaraq, öz dövrünə görə mükəmməl ərəb lisaniyyat təhsilinə malik olduğu görülən İbn Mühənna "bizim ölkə türkləri" arasında topladığı canlı danışıq dilinə aid materialı başqa ərəb türkoloqlarının analoji əsərlərindən geridə qalmayan qrammatik təhlilə tabe tutmuş və əsasən türk dilinin öz dövründəki qrammatik quruluşunu düzgün surətdə verməyə müvəffəq olmuşdur. Bu işdə İbn Mühənnanın özündən əvvəl keçmiş müəlliflərin əsərlərindən istifadə etdiyi də mühəqqəqdir.

İsmin halları

İbn Mühənna ismin hallarını sistematik surətdə deyil, əsərinin müxtəlif yerlərində və müxtəlif adlar altında verir.

Akkuzativ halı, "məf'ul bih" adı ilə genetiv halı الاضافة bəhsində verildiyi kibi, qalan hallar da ادوات الحرفیه bəhsində izah edilir. Halbuki

[291] İstanbul nüs., səh. 94.
[292] Melioranski nüs., səh. 16.
[293] Араб-филолог, стр. 22.
[294] İstanbul nüs., səh. 97.
[295] Melioranski nüs., səh. 18.

كتاب الادراك [296] və القوانین-də [297] genetivdən başqa, isim halları "məf'ul" namı altında toplanmışdır.

Məf'ul bih – akkuzativ halı sözün kökünə (hürufi-əsliyyəsinə) *-ni* نون مكسوره əlavəsilə təşkil edilir, məsələn:

زید نی قیلیج بیلا اوردم , اوش تیلا کننی کلترکی من , بونی الغل

Bu dövrdə cənub türk sistemli dillərində akkuzativ halının şəkilçisi olaraq, əsasən *-ı, -i...* işlədildiyi məlumdur. Demək ki, İbn Mühənnanın verdiyi *-ni* şəkilçisi şərq və şimal türk sistemli dillərinin hallanma sistemini əks etdirir. Lakin bunu da unutmamalıdır ki, cənub türk sistemli dillərinə aid müxtəlif əlyazmalarında eyni zamanda *-ni* şəkilçisinə də təsadüf edilir:

باغرمنی دلور تاوك هجران فلانی
قانمنی توکر سحرایله چشمان فلانی

دیر نسیمی نی کورنلر یر یوزنده پایمال
ینه دل شوریده وسرمست شیدادر کلن
(Nəsimi)

Bu növ misalları başqa şair və yazıçılarda da tapmaq mümkündür. Bundan başqa, Azərbaycan türk dilinin akkuzativ halında saitlə qurtaran sözlərdən sonra daima *-ni* şəkilçisi gəlir ki, bu xüsusiyyət Azərbaycan türk dilini başqa cənub dillərindən, məsələn, Osmanlı dilindən ayırır: *ata-nı, qapı-nı, gəmi-ni* və i.a.

Genetiv – "müzafileyh" halının şəkilçisi İbn Mühənnada əsasən نیك-dir.[298] Müəllif müzafileyh şəklini müzaf ilə bağlı surətdə izafət halında verdiyindən اضافت-in iki şəklini də qeyd etmişdir:

بك نیك آتی , بك قماسی

Məlum olduğu üzrə, birinci izafət şəkli qeyri-müəyyənlik, ümumilik bildirdiyi halda, ikincisi müəyyənlik ifadə edir. Lakin müəllif türk dilindəki izafətin bu funksiyaları ilə tanış deyildir.

Demək ki, İbn Mühənna müzafileyh – genetiv şəkilçisini də نن, نك surətində şimal və şərq sistemli dillərdə işlədildiyi kibi qeyd edir. Lakin burada yenə göstərməliyik ki, نك şəkilçisi qədim Azərbaycan türk ədəbi dilinin imlasında uzun müddət bu halın şəkilçisi olaraq qullanıla gəlmişdir, məsələn:

[296] كتاب الادراك , səh. 138-142.
[297] القوانین الكلیه , səh. 31-35.
[298] Melioranski nüsxələrində: نن , نك . Bizim yuxarıda zikr edilmiş "Проблема дефинитивности" sərlövhəli məqaləmizə müraciət oluna.

مكان وكانه صيغمز چون قديمنك ذات بيمثلى
نسيمى كاف ونون اولدى مكانن لامكان ايتدى

"Məf'ulileyh" – dativ halı غا , قا , كا şəkilçiləri vasitəsilə təşkil edilir: اطغا , كشغا , عرق قا , سيزكا.

Bu şəkilçilər də şimal və şərq türk sistemli dillərinə aid olub, Azərbaycan türk ədəbi dilində təsadüf etməz.

Qaydada verilməməklə bərabər, əsər daxilində qədim dativ şəkilçisi olan كار da təsadüf edir.[299] Bu şəkilçi qədim Orxon və uyğur abidə və əsərlərindən başqa, Mahmud Kaşqaridə də görülür:

ال منى انكار سلتردى [300] yəni: "O məni ona saldırdı";

ال انكار يغاج كسترردى [301] yəni: "O ona ağac kəsdirdi".

Bugünkü canlı dillərdən bəzilərində, məsələn, Qazan-tatar [dilində] *aŋar, maŋa* formaları, kumuk dilində *şuğar*,[302] *nəgər* formaları vardır. Bu formaların Qazan-tatar dilində cansızlandığı *aŋartqa, muŋartqa* şəklində əlavə dativ şəkilçisi almasından da görülür. Melioranski nüsxələrində bu şəkilçi yoxdur ki, Azərbaycan türk dilinin bəzi dialektlərində, məsələn, ayrum və Kirovabad ləhcələrində təsadüf edən və akademik Radlov tərəfindən yalnız uyğur ("aŋaru") və cığatay ("aŋarı") dilinə məxsus olaraq göstərilən[303] "aŋarı" ("o tərəfə" mənasına) sözü daha ziyadə *-arı* istiqamət "oriental" şəkilçisi ilə tərtib edilmiş olmaqla bərabər, bu növ qədim formaların qalıq şəklində Azərbaycan türk dilində də bulunduğunu göstərmək etibarilə maraqlıdır.

مفعول فيه – lokativ halının şəkilçisi دا-dır: ساغردا , قاتمدا

مفعول عنه – ekoessiv halının şəkilçisi دن-dir.

Hər iki hal haqqında yuxarıda, fonetikaya aid qisimdə kafi dərəcədə məlumat verilmişdir.

مفعول معه – komitativ halın بيرلا , بيلا [304] qoşmaları vasitəsilə təşkil olunur ki, bunlar da qədim əsərlərdə çox təsadüf edən qoşmalardandır.

مفعول له halı müəllif tərəfindən qeyd edilməyir.

---

[299] İstanbul nüs., səh. 94.

[300] ديوان لغات الترك , cild II, səh. 147.

[301] Yenə orada, cild II, səh. 154.

[302] См.: Чобанзаде. Записки о яз. и словесности кумыков, 1926, стр. 36.

[303] Опыт словаря тюрк. наречий. Bu sözü Radlov doğru olaraq "дальше", "на другой стороне" sözlərilə tərcümə etməkdədir.

[304] Məfulileyhə aid olaraq بيلا qoşması göstərildiyi halda, verilən misallarda تاوك بيرلا بارديم , تاوك نى قيلج بيلا اوردم , تاوك بيلا بارديم qoşmaları görülür (İstanbul, 93). Halbuki Melioranski nüsxələrində yalnız بيلا qoşması vardır (15).

Zəmir

Zəmir sözləri və zəmir şəkilçiləri əsərdə olduqca müfəssəl surətdə verilmişdir. Biz burada yalnız başlıca nöqtələr üzərində dayanırıq.

a) Müstəqil zəmir sözləri aşağıdakılardır:

آن لر, اول , سز , سن , بز ,[305] بن , من

Bunların müzafileyh formaları aşağıdakı şəkildə olar:

منك [306], سننك [307], سنونك [308], انلارننك [309]

Məfulileyh forması: منكا [310], سنكا [311], انكا [312], سيزكا [313]

Birinci və üçüncü şəxsin cəm forması təsadüf etməyir.

Məfulənh formaları: مندن , سندن , آن دن , بزدن , سزدن , آن لاردان

b) zəmir şəkilçiləri. م , نك , سى – ى , ميز , نكز , لرى-dir.

c) işarət zəmirləri: مندا , منكا , بولر , اول , بو-dur.

ç) sual zəmirləri: زقنده , قيو , قجن , نتاز , نچا, نا– نى , كيم , قنجا

Say adları

a) Müstəqil say adları:

يكرمى , اون , توقوز . سكز , يتى , آلتى , بيش , تورت , اوچ , ايكى , بير ,
ميڭ [314] , يوز , تقسان , سكسان , يتمش , التمش , اليك , قرق , اتوز

Melioranski nüsxələrində bu say adlarından bəzilərinin yazılışları arasında müəyyən və bəzən canlı tələffüz xüsusiyyətlərini əks etdirən təfavütlər vardır:

ميڭ [315] , من , بن , دقزان , سكزان , الى , اطز ,(اون دقز) دقز , سكز , بيده , دورد , اكى

---

[305] Əsər daxilində hər yerdə بن forması işlənməməklə bərabər, yuxarıda da görüldüyü kibi, İbn Mühənna kitabın müqəddiməsində بن formasını da verir.

[306] İstanbul nüs., səh. 93. Burada Meloranski nüsxələrində (səh. 16) مناه və سناه formaları vardır ki, Melioranski də göstərdiyi kibi bunlar yanlışdır.

[307] İstanbul nüs., səh. 93.

[308] Yenə orada, səh. 87.

[309] Yenə orada, səh. 86.

[310] Yenə orada, səh. 92.

[311] Yenə orada, səh. 77. Melioranski nüsxələrində (səh. 6) مان və سان formaları bulunur ki, bunların dialektal şəkillər olması möhtəməldir.

[312] İstanbul nüs., səh. 77.

[313] Yenə orada, səh. 92.

[314] İstanbul nüs., səh. 186-187.

Müəyyən adların yazılışını müqayisə etdikdə, dediyimiz kibi, İstanbul nüsxəsilə Melioranski nüsxələri arasında böyük və maraqlı təfavütlər olduğunu görürük.

تورت – دورد , یتی – ییدی , تقوز – دقز kibi say adlarının yazılışı arasında olan təfavüt İbn Mühənnanın İstanbul nüsxəsində, əsərinin müqəddiməsində verdiyi د– ت xüsusiyyətini tətbiq etmədiyini, sözləri daha ziyadə qədim imla sistemilə qeyd etmiş olduğunu göstərdiyi kibi, Melioranski nüsxələrində yalnız nəzəri cəhətdən deyil, əməli cəhətdən də cənub cingiltili formalarına üstünlük verildiyini isbat edir.

اطز – اوتوز , دقز – تقوز , سگز – سکز , اکی – ایکی kibi yazılış təfavütləri daha da maraqlıdır. Yuxarıdakı təfavütlər ümumən cənub türk sistemli dillərinin xüsusiyyətini əks etdirdiyi halda, bunlar daha ziyadə Azərbaycan türk dilinin spesifik bir cizgisini verir.

Doğrudur, bu formalar başqa türk sistemli dillərdə də, məsələn, özbək dilində də təsadüf edir və akademik Radlov öz lüğətində yuxarıdakı formalardan yalnız ikisini – اکی "əkki"[316] və اطز "ottuz"[317] sözlərini qeyd edir. Birincisi, yəni "əkki" formasını Altay, teleut və zəbədin dillərində, ikincisi, yəni "ottuz" formasını yalnız tarançı dilində göstərir. Halbuki bu formalar سگز , دوقوز Azərbaycan, türk, özbək dillərində də təsadüf edir ki, bu surətlə Radlov tərəfindən yalnız Şimal və Şərqi Türküstan dillərinə məxsus olaraq qeyd edilən və professor Melioranski tərəfindən isə bu sözlərin qədim formalarını təsbit etməyə xidmət edəcək maraqlı şəkillər olaraq göstərilən[318] bu formaların yayılış masştabı daha da genişlənmiş və qədim oğuz-qıpçaq, yaxud türkmən-qıpçaq dil qrupları ilə bağlanmış olur.

Bu surətlə cənub qruppasına girən dillər arasında bu xüsusiyyətin əsasən Azərbaycan türk dilində bulunması İbn Mühənnanın Melioranski nüsxələrində qeyd edilən bu xüsusiyyətin də Azərbaycan türk dilinə aid olduğuna şübhə buraxmayır.

الی – الیك təqabüllərini müqayisə etdikdə yenə İstanbul nüsxəsində daha qədim və Melioranski nüsxələrində daha yeni formalarının verildiyi görülür.

[315] Melioranski nüs., səh. 81-82.

[316] Опыт словаря тюркских наречий.

[317] Yenə orada.

[318] "Эти тящиды прольют, быть может, впоследствии некоторый свет на темное пока происхождение турецких числительных" (Араб-филолог, стр. LIII).

سکسان – سکزان , تقسان – دقزان formalarında yenə İstanbul nüsxəsinin kar samitlərinə qarşılığı Melioranski nüsxələrindən cingiltili samitlərin hakim olduğuna təsadüf edirik, yoxsa Melioranskinin zənn etdiyi kibi, burada (yəni سکزان və دقزان formalarında) daha qədim şəkli görmək doğru deyildir. Çünki hər iki forma (سکسان , سکزان – تقسان , دقزان) öz əsl şəklini (دوقوز+اون , سکز+اون) itirib, qoşma mürəkkəb köklər halına gəlmişdir.

b) Sıra sayları şəkilçisi əsasən نجی olmaqla bərabər, bəzən bu şəkilçinin axırındakı "i – ی" həll olunaraq نج şəkilçisi qalır:

بیشنج , تورتنج , اوچنجی , ایکنجی , بیرنجی

Professor Melioranskinin göstərdiyi kibi, bu sonuncu forma (نج) qədim Orxon və uyğur əsərlərində təsadüf edir. Demək ki, bütün nüsxələrdə yeni forma ilə qədim forma biryerdə verilmişdir.

Fel haqqında

a) İbn Mühənna fel əsasları haqqında kafi dərəcədə məlumat vermişdir.

مجهول babı ل ساکن vasitəsilə təşkil olunur:

سندرلدی – سندردی , اجلدی – اجدی , ارلدی – اردی , اللدی – الدی

Bəzən bu ساکن qayıtım – مطاوعت babını meydana gətirir:

تاغیلدی – تغدی , ارپلدی – اردی , اسپلدی – اسدی

Həmin ل -ın حرف المطاوعت , yəni qayıtım babını təşkil edən şəkilçi olduğunu Əbu Həyyan dəxi qeyd edir və aşağıdakı misalları verir:

ازلدو – ازدو , کسلدی – کسدی [319]

Mütavəət (تفعل), İbn Mühənnaya görə, əsasən iki cür təşkil edir:
Birincisi ساکن قاف vasitəsilə, məsələn: سندی – سنقدی
İkincisi ساکن نون vasitəsilə, məsələn: تبراندی – بوندی , تبرادی

[319] کتاب الادراك , səh.110.

Birinci forma, professor Melioranskinin də göstərdiyi kibi, nisbətən daha az təsadüf edir. Mətndə باغدی (yəni: "bağlandı") və iştiqaqları o qədər də aydın olmayan اتیقمق , تیرقمق [320] kibi bir neçə sözə təsadüf edilir və həmin ق ilə təşkil edilən formalarda مطاوعت fikrində ziyadə hərəkətin meyl və istiqaməti ifadə olunur. Məsələn, سنقدی İbn Mühənnanın zənn etdiyi kibi, "sındı" mənasında deyil, "sınmağa meyil etdi", "sınan kibi oldu" mənasındadır. Lakin bəzən bu ق yaxud ك şəkilçisi, professor Melioranskinin şübhə etməsinə rəğmən, mütavəət fikrini açıq şəkildə ifadə edir. Məsələn, bugünkü Azərbaycan türk dilində: *qarıxdı, darıxdı, gördü – görükdü, birikdi* və sairə.

اجباری فعل – kauzativ forması bir neçə cür şəkilçiyə malikdir:

Birincisi, məzmum دال ilə راء yəni *-dur, -dür*, məsələn:

كلدردی , بقدردی , قالدردی

Bəzən bu دال – تا-ya təbdil edilərək كلتردی , بقتردی , قالتردی şəkilləri meydana gəlir.

İkincisi ن - dur:[321]

ایوتی – ایودی , یلاتی – یلادی , یماتی – یمادی
یلیتی – یلیدی , بتیتی – بتیدی , بیوتی - بیودی

Üçüncüsü غ+ر *-ğır*, yaxud غ+ز *-ğız* şəkilçisidir:

یتغر – یت , تویغر – توی , اویانغز – اویان

İbn Mühənna bu misallara əlavə edərək aşağıdakı formaları da qeyd edir: بش – بشر , ام – امیز , تك – تكر [322]

Deməli, İbn Mühənnanın fikrincə, sadəcə ز , yaxud ر icbari formanı meydana gətirir. Tarixi cəhətdən bu ز və ر səslərinin غز və غر ilə əlaqədar olduğu şübhəsizdir.

مشاركت - ortaqlıq forması fel kökünə ساكن شین əlavəsilə meydana gətirilir: اورشدی[323], الشدی , ططاشتی لر , بتشقی , سوزلاشدی , بارلاشقی [324]

[320] İstanbul nüs., səh.124.

[321] Professor Melioranskinin fikrincə, tekstin burasında nöqsan vardır (Араб-филолог, стр. LV). Halbuki İstanbul nüsxəsində də eyni şəkildədir. Demək ki, İbn Mühənna, başqa yerlərdə görüldüyü kibi, əsas qaydanı verə bilməmişdir [...].

[322] Melioranski nüsxələrində bu misallardan ancaq اسغز olub, بشر , بچردی kibi misalları Melioranski lüğət qismindən almışdır.

[323] Melioranski nüsxələrində ورشتی forması vardır ki, Azərbaycan türk dilinə daha uyğundur.

[324] Melioranski nüsxələrində بارلاشتی , بازلاشتی olub, səhvdir. Çünki bu forma *baz* – باز kökündən gəlib, بارشدی formasında bar – بار kökü də görülür.

Bundan başqa, İbn Mühənnaya görə, قاف , لام , شین (قلش) şəkilçisi vasitəsilə də ortaqlıq forması təşkil edilir: سوزلقلشر , صوواقلشتی , ارقلشغی لر

Bu qayda Melioranski nüsxələrində verilmiş olmaqla bərabər, misalların formaları qaydaya uymayır: سوز لشتلر , سواشتی لر , وردی لر

Lakin Melioranski qaydaya istinad edərək, bu qarşılığı müvəffəqiyyətlə həll edə bilmişdir. Professor Melioranskinin də qeyd etdiyi kibi,[325] İbn Mühənna burada iki ayrı şəkilçini bir şəkilçi kibi qəbul edir; bunlardan birincisi غلا , قلا , كلا bəzən لا , له şəklində olan və "təkrar, çoxdəfəlik" (**многократность**) mənasını ifadə edən şəkilçi, ikincisi isə ش ortaqlıq şəkilçisidir.

Şimal və şərq türk sistemli dillərində daha qüvvətli olan bu تكرار "çoxdəfəlilik" formalarının qalıqları bir neçə sözdə, cansızlanmış şəkildə də olsa, vardır:

tapdala ("tapda-" kökündən təkrarlı forma)
qovala ("qov-" kökündən təkrarlı forma).

استفعال - "istək" forması keçmiş zaman دال -ından və fel kökündən sonra غین , سین və ألف , yəni غسا əlavəsilə təşkil olunur. Verilən misallardan həmin şəkilçinin incə variantı "كسا" olduğu görülür. Məsələn:

بارغسادی - *Varmaq istədi.*
كللكسادی - *Gəlmək istədi.*
بارغسار - *Varmaq istər.*
كللكسار - *Gəlmək istər.*

Professor Melioranski bu formanı mütavəət – icbari (**возвратно-понудительный**) adlandırırsa da, bizcə, bu o qədər düz deyildir. Çünki bu felin mənasında mütavəət və icbar ifadəsindən ziyadə, müəllifin də göstərdiyi kibi, iradə və istək ifadəsi vardır və xüsusi bir fel formasıdır.

Mahmud Kaşqaridə həmin ifadəyə malik olan forma غساق mürəkkəb şəkilçisilə verilmişdir, yəni:

ال اقكا بر غساق ال – *O, evə varmaq istəyir.*
ال اقكاكر كساك اردی [326] – *O, evə girmək istəyir.*

Bu misallardan da görüldüyü kibi, bu forma müstəqil fel forması deyil, əsasən sifət formasıdır.

[325] Араб-филолог, стр. LV.

[326] دیوان لغات الترك , cild II, səh.46.

[327] تڤر ساق – *mal sevən*, [328] ار ساك – *ər sevən* kibi misallarda bu cəhət daha açıq görülür ki, bugünkü türk sistemli dillərin bəzilərində qalmışdır. Azərbaycan türk dilində *sağırsaq, sarımsaq, dutsaq (dustax), qurumsaq* kibi sözlərdə bulunan bu şəkilçi cansızlanmışdır. Bundan başqa, *susamaq* sözündə bu "-sa"-nın qalığı aydın surətdə görülür: *susamaq* – "su istəmək". Eyni surətdə *gülümsəmək* – "gülüşə meyl etmək" [felində] bu şəkilçi vardır ki, qədim şəkillərini itirmişlərdir.

Professor Melioranskinin sual şəklində qoyduğu غسار və *-isər, -ısar* (məsələn: *gəlisər, varısar*) şəkilçiləri arasındakı əlaqə funksiyalarının ayrılığına baxmayaraq, mənşə cəhətindən qətidir.[329]

Fellərin təşkili məsələsində, professor Melioranski tərəfindən də göstərildiyi kibi, İbn Mühənna türk-fars dillərində farsca کردن və türkcə ایتمق ("etmək") və آلمق ("almaq") fellərinin bir-birinə müşabeh rola malik olub, mürəkkəb fellər təşkilində yardımçı fel funksiyalarına malik olduqlarını qeyd edir:

طاس ایتمق – [*tas*] *etmək* ("itirmək").
طاط آلمق – *dad almaq*.

(Necə ki, fars dilində فلان نماز کرد , yaxud نماز بکند deyilir).

Lüğət qismində قرقش ایتمق – *qarğış etmək*, القش ایتمك – *alqış etmək* kibi bir-iki söz çıxarılacaq olarsa, bu forma, yəni yardımçı fellərlə təşkil olunmuş mürəkkəb məsdərlər qeyd edilməyir. Fel təşkilində diqqəti cəlb edən nöqtələrdən biri də *-la, -lə* şəkilçisilə yapılan fel köklərinin İbn Mühənnada əvvəlki türkoloqlara nisbətən çoxluğudur. Məsələn:

تسو – fayda, تسولدی – fayda verdi;
اترك – yalan, اترکلادی – yalan söylədi;
کوجلادی – zülm etdi,
یاغرلادی – düşmənlik etdi,
بتك – yazı, بتکلادی – yazdı;
(طاك) طانك – təəccüb, طانکلادی – təəccüb etdi;
میانجی – vasitəçi, میان جلادی – vasitəçilik etdi;
ارینج – rüşvət, ارینج لمق – rüşvət vermək və sairə.

[327] Yenə orada.
[328] Yenə orada.
[329] Çünki *-isər, -ısar* şəkilçiləri gələcək zaman mənasını ifadə edir.

İbn Mühənna türk dilinin isimdən fel təşkilindəki xüsusiyyətini çox gözəl görmüş və bu xüsusda aşağıdakı qeydi vermişdir: "Bilmiş ol ki, kufiyyunun (Kufə şəhəri alimlərinin) fikrincə, ərəb dilindəki məsdər sözləri feldən və bəsriyyunun (Bəsrə şəhəri üləmasının) fikrincə, felin özü məsdərdən nəşət etdiyi halda, türk dilində bəzi məsdərlər feldən yox, isimdən nəşət edir və bunun üsulu söz kökünün axırına məsdər şəkilçisindən (yəni مق və مك-dən) qabaq ساکن لام [330] əlavə etməkdir. Məsələn:

صاغا – sağ əl
صاغالمق – sağa getmək
[331] صولا – sol əl
صولا لمق – sola getmək
یار – müşk, یارلمق – müşklənmək
توتسك – gözəllik, توتسك لمق – iyilənmək
قنق – qonaq, قنق لمق – ziyafət vermək

Professor Melioranski öz qrammatik təhlilində bu nöqtəyə əhəmiyyət verməmiş və əsərinin yalnız tərcümə qismində kiçik bir qeydlə kifayətlənmişdir.[332]

امرونهی şəkilləri haqqında İbn Mühənna əsasən doğru məlumat verir. Felin ikinci şəxsi müfrəd əmr forması felin köküdür və buna cürbəcür şəkilçilərin əlavəsilə başqa formalar təşkil edir. Məsələn: سن *-sun, -sün* şəkilçisinin əlavəsilə əmr siğəsinin üçüncü müfrəd şəkli düzəlir: یاطسون , السن , بارسن , کل سن [333]

İkinci şəxs əmr siğəsinin cəm forması نغز [334] şəkilçisinin əlavəsilə təşkil olunur: ایندنغر , کسْتنغز , قازدنغز

İkinci şəxs müfrəd əmr siğəsinin تأکید و تقویه üçün مکسوره غین -si və لام *-ğıl*, yaxud مکسوره کاف və لام *-kil, -gil* əlavə olunur:

[330] Professor Melioranskinin də tərcümə qismində qeyd etdiyi kibi (səh. 31), burada İbn Mühənna *-al* və *-əl* şəkilçisilə *-la, -lə* şəkilçisini bir-birinə qarışdırır.
[331] Şübhəsiz, bu yazılışlar doğru deyildir, bunun yerinə "sol", "sağ" olmalı idi. Lakin İbn Mühənna "sakin lam"ı tapa bilmək üçün mümkün olan yerdə sözləri süni şəkildə bu cür alır.
[332] İbn Mühənna həmin qaydanı kitabın başqa bir yerində (əmr bəhsində) yenə təkrar edir.
[333] Maraqlıdır ki, ərəb türkoloqlarının əksəriyyəti türk dili şəkilçilərini labializə şəkildə (*o, ö, u, ü* ilə) qeyd edirlər. Bu xüsusda Xətai dili haqqında yazdığımız əsərdə müfəssəl məlumat verildiyindən burada təkrarına həcət görmürik.
[334] Yalnız qalın variantın qeyd edilməsi İbn Mühənnanın çox dəfə sinharmonizmi başa düşmədiyinə dəlildir.

كلكل , بيركل , بارغل

İbn Mühənnadan qabaqkı ərəb türkoloqları tərəfindən də qeyd edilən bu şəkilçi Azərbaycan türk dilində də bulunmuş və XIX əsrin axırlarına qədər müxtəlif şairlərin əsərlərində təsadüf edir. Sonraları *-an* və *-ən* şəkilçiləri ilə birləşərək *-ğılan* və *-gilən* şəklini almışdır və nəhayət, *-ğınan*, *-ginən* şəklində bugünkü canlı dildə yaşayır.

Məsdər forması haqqında yuxarıda kafi dərəcədə məlumat verildiyindən burada təkrarına lüzum yoxdur.

"İsmi-fail" **(nomen actoris)** İbn Mühənnaya görə, غان və كان şəkilçiləri vasitəsilə meydana gətirilir: اغنفان , ينكان , بارغن , اوغان , كولكان

İbn Mühənnada bundan başqa "ismi-fail"in professor Melioranskinin "intensiv forma" adlandırdığı və bizim şərti olaraq "mübaliğəli forma" adlandırdığımız forma haqqında da məlumat vardır. Bu forma *-ağan* və *-əgən* şəkilçiləri vasitəsilə yapılır: آلاغان , بيراكان , كولاكان

Bu formaların آلغان , بيركان , كولكان formalarından fərqi bunların şiddət və mübaliğə ifadə etmələrindədir. Professor Melioranski bu xüsusda lazım gələn bütün misalları çəkmiş və bu formanın mənşəyi haqqında, fikrimizcə, çox müvəffəqiyyətli və ilərideki tədqiqlər üçün çox səmərəli bir nəzəriyyə ileri sürmüşdür. Bizim bildiyimizə görə, professor Melioranski birinci dəfə olaraq türk sistemli dillərin bəzilərində fel köklərinin qısa və geniş (**распространенный**) olmasına diqqəti cəlb etmişdir:

بورمك – بورومك , بورمك – بورومك , اوزمق – اوزاماق , صورمق – صوراماق , صارمق – صاريمق və başqaları.

Doğrudan da bu gün hiss olunmasa belə, hər halda İbn Mühənnanın mübaliğəli ismi-fail forması olaraq qeyd etdiyi forma müxtəlif türk sistemli dillərdə vardır. İbn Mühənnanın verdiyi bu formalar, professor Malovun zənn edə biləcəyi kibi, uyğur və ya Şərqi Türküstan dilinə məxsus deyildir. Bu forma eyni surətdə Azərbaycan türk dilində də vardır: *gəzəgən, yatağan, sevəgən* və sairə.[335]

Ümumən [felin] iqtidari forması haqqında yuxarıda məlumat verildiyindən burada təkrarına hacət yoxdur.

[335] Bu forma Əbu Həyyanda da vardır və "mübaliğəli ismi-fail" namilə qeyd edilmişdir (səh. 107). Həmin forma Mahmud Kaşqaridə də qeyd edilmişdir: برغان - ذهاب yəni "çox yeriyən", ارغان - ضراب yəni "çox vuran" (cild I, səh. 35).

"Fail" forması ilə bağlı olaraq İbn Mühənna كلى , yaxud غلى (عين , يا , لام) şəkilçilərilə meydana gətirilən formaları da verir: بارغلى – "varan", يراتغلى – "yaradan", كولكلى , كلكلى – "gülən".

Professor Melioranski bu formanın deyilişini və əsas funksiyasını təyində tərəddüd etmişdir.

Bu forma Mahmud Kaşqaridə aydın surətdə qeyd edilmişdir:

برلكلى , ترغلى , برغلى [336]

Kaşqariyə görə, bu formanın mənası "bir iş eləmək niyyətinə malik olmaq"la bərabər, bunu "ürəyində gizlətmək"dir, məsələn: من سنكا برغلى من "Mən sənə varıcıyam və bunu özüm də gizlədirəm",[337] – deməkdir.

Yenə Kaşqariyə görə, bu şəkilçi mürəkkəb olub, مضاف مصدرى (المصادر المضافة) olan برغ , كلك üzərinə يا və لام *-li* əlavəsilə təşkil edilmişdir. Bu sifət növü bütün türk təbəqələrində,[338] yəni Mahmud Kaşqariyə məlum olan türk sistemli dillərdə, demək ki, oğuz və qıpçaqda da vardır. Bu surətlə professor Melioranskinin bu formanı yalnız uyğurda axtarması düz deyildir.

Uzaq keçmiş mazinin nəqli formasının مش şəkilçisilə təşkil olunduğu İbn Mühənna tərəfindən əsərinin bir neçə yerində qeyd olunur. İbn Mühənna bu formanı ərəb dilinə قد-lı mazi forması ilə tərcümə edir:

قد اخذ – المش
قد طلع – دغمش
قد مضى – بارمش
قد ركب – اتلانمش
قد جاء – كلمش

Həmin şəkilçi eyni zamanda ismi-fail təşkil edir. Müstəqil mazi fel forması olduğu zaman axırına من , سن (المش من , المش سن) zəmirləri gələrək təhrif olunur.

Mahmud Kaşqari مش şəkilçisinin hər iki funksiyasını qeyd etmişdir.[339] Maraqlıdır ki, Mahmud Kaşqarinin bu şəkilçi haqqında verdiyi

[336] ديوان لغات الترك , cild II, səh. 48-49.
[337] اى انى ذاهب اليك , اضمر الذهاب في نفسى , cild II, səh. 48.
[338] بين جميع طبقات الترك , cild II, səh. 49.
[339] ديوان لغات الترك , cild II, səh. 49-50.

məlumat ilə İbn Mühənnanın qismən Məhəmməd ibn Qeysdən nəqlən verdiyi məlumat bir-birinə çox uyğundur.

Kaşqari də مش şəkilçisi müstəqil keçmiş [zaman] forması təşkil etdikdə onu قد ilə tərcümə edir: اتك برمش – انه قد ذهب الى بيته [340]

Bundan başqa, Məhəmməd ibn Qeys kibi, Kaşqari də مش şəkilçisinin لازم və متعدى **(непереходный и переходный)** fellərdəki rolunu[341] göstərir.

Nəhayət, İbn Mühənna kibi, Kaşqari مش şəkilçisindəki م -in mazi şühudidəki د və ش-in ى yerinə olduğunu göstərir.[342] Bütün bu oxşayışlar təsadüfi olmaqdan ziyadə Mahmud Kaşqaridən gətirilmiş sitata bənzəyir. Lakin Kaşqari eyni zamanda مش ilə دى şəkilçilərinin fel kökünə verdikləri mənalar arasındakı təfavütü də qeyd edir.

كردى "vardı" deyildikdə danışanın varan adamın varışını gördüyü, halbuki برميش "o varmış" deyildikdə danışanın bu hərəkəti görmədiyi anlaşılır.[343]

Mahmud Kaşqariyə görə də, مش eyni zamanda məf'ul forması təşkil edir:

القوس المدكر – قرمش يای "qurulmuş yay",
النهر المحفور – قزمش ارق "qazılmış arık".[344]

Əbu Həyyan bu formanı "ismi-fel" (?) və ismi-məf'ul formaları olaraq göstərir. مش şəkilçisi tam fail təşkil etdikdə mazi mənası verirmiş: الشمس طالعة – كن دغمش [345] "doğan günəş".

Təbii, Əbu Həyyanın bu misalı və burada verdiyi qayda düz deyildir: سنجر ارلمش – سنجر مضروب [346] "Səncər vurulmuş".

"Qəvanin" müəllifi isə مش şəkilçisini "fəsih, məşhur və müstə'məl" mazi şəkilçisi (علامة المضى) olaraq qeyd edir və doğrudan-doğruya ərəbcə mazi şühudi formasilə tərcümə edir:

[340] ديوان لغات الترك , cild II, səh. 49.
[341] Burada həm İbn Mühənna, həm Kaşqari mətnlərini müqayisə etmək maraqlıdır. İbn Mühənnada: قال محمد بن قيس متي كان الفعل لازماً كان علامة امتم فاعله ميماً و شيناً مفخمة و متى كان ن متعدياً كانت هذه الاعلامة لاسم الفاعل واسم المفعول ايضا (İstanbul nüsx., səh.101). Mahmud Kaşqaridə: يقر ابداً حرف الاصل على حاله و يزاد عليه هذان الحرفان في الافعال المتعدية و قد الميم و الشين في الافعال الواجبة اذا كانت الازمة (cild II, səh. 49).
[342] ديوان لغات الترك , cild II, 49.
[343] Yenə orada, səh. 50.
[344] Yenə orada, səh. 49.
[345] Yenə orada, səh. 106
[346] Yenə orada, səh. 108.

برمش – راح "varmış"
اجمش – شرب "içmiş".[347]

Demək ki, القوانين müəllifi *-di* ilə *-miş* arasına təfavüt qoymayır.

Bu xülasədən də görüldüyü bu nöqtədə İbn Mühənna ilə Mahmud Kaşqari arasında müəyyən rabitə vardır.

Mazi şühudi – qəti keçmiş, İbn Mühənnaya görə, [*-dı*] və [*-di*] şəkilçiləri vasitəsilə təşkil olunur. Bu şəklə keçmiş ərəb türkoloqları kibi, İbn Mühənna da çox böyük əhəmiyyət vermiş və mazi şəklindəki fellərə məxsus böyük bir cədvəl tərtib etmişdir. Bunun səbəbi, ərəb türkoloqlarının fikrincə, tərcümanlara yardım olduğunu yuxarılarda qeyd etdik. Eyni surətlə bu bəhsə dair professor Melioranski tərəfindən verilən məlumat haqqında yuxarıdakı bəhslərdə öz fikrimizi və bu xüsusa dair tapdığımız yeni materialları izah elədik.

İndiki zaman – الفعل الحاضر , İbn Mühənnanın fikrincə, ما قبل مفتوح را *-ar*, *-ər* vasitəsilə təşkil olunur. Yenə müəllifin dediyinə görə, türk və türkmənlərin fəsih olmayanları bu formanı yanlış şəkildə gələcək zaman forması yerində qullanırlar və bu növ istemal bunlar arasında yayılmışdır.[348] Demək ki, feli surətdə Melioranskinin doğru olaraq göstərdiyi kibi,[349] "çoxdəfəlilik" **(многократность)** mənasını ifadə edən fel formaları meydana gətiri[li]r:

كان ياخذ – آلراردى , كان يمشى – باررادى , كان يجى – كلرادى [350]

Bu forma qədim ədəbi əsərlərdə *ol* – ول yardımçı feli ilə də təsadüf edir. Məsələn, "Kitabi-Dədəm Qorqud"da:

بابا سنك قرق يكيدن آكمز اولدى [351]
بسلديلر بيودى. كزراولدى. اوغلنجقلر له او ينار اولدى [352]

Bəzən həmin mürəkkəb forma gələcək zaman məfhumunu ifadə edir:

اغ صقللو اتاكى اغ برجكلو اناكى
صوررراو لمسك صاغ در بامسى [353]

[347] القوانين الكلية لضبط اللغة التركية , səh. 10.
[348] İslanbul nüs., səh.101.
[349] Араб-филолог, стр. LXVI.
[350] İstanbul nüs., səh.100.
[351] Yenə orada.
[352] Kitabi-Dədəm Qorqud, səh. 11.
[353] Yenə orada, səh.121.

Bu formanın وارجق اولرسك [354] formasına ifadəcə müsavi olduğu aydındır.

Yenə İbn Mühənnaya görə, bəzən indiki zaman الفعل الحاضر aşağıdakı şəkildə olur: كلويرر , بارويرر , آلويرر.

Bu sözləri İbn Mühənna ərəbcə الذى يجى , الذى يمشى , الذى ياخد [355] "o adam ki gəlir", "o adam ki yürür", "o adam ki alır" şəklində tərcümə edir. Bu tərcümənin doğru olmadığı şübhəsizdir. Bu şəkilləri professor Melioranski haqlı olaraq, Osmanlı *gəliyor* – كلير felinin əski şəkli əddedir. Necə ki, Azərbaycan türk *gəlir* formasının da öz tarixi inkişafında buna oxşar bir formadan nəşət etdiyi şübhəsizdir. Məlum olduğu kibi, osmanlıcada müzare forması olan bu şəkil Azərbaycan türk dilində hal-hazırı ifadə edir. İbn Mühənnanın yuxarıda müzare deyil, hal-hazır şəkli olaraq göstərdiyi forma bu ola bilər. Müzare isə Azərbaycan türk dilində *-ır, -ir* şəkilçilərinə görə daha açıq olan *-ar, -ər* şəkilçilərilə qurulur.

Xülasə, İbn Mühənnanın bu qeydindən də görülür ki, şimal və şərq türk sistemli dillərində indiki zaman forması *-a, -ə* şəkilçilərilə qurulmuş feli zərflərin (məsələn: كله , بارا , يازا , الا , بيله) *turur* feli ilə birləşməsindən əmələ gəldiyi kibi, (كله تورور , بارا تورور , يازا تورور , الا تورور , بيله تورور) cənub türk sistemli dillərinin müəyyən inkişaf dövründə يورور – *yürür*, yaxud *yorur* yardımçı feli vasitəsilə təşəkkül etdiyi görülür. Sonraları şimal və şərq dillərində بارا , كيله دور , بارا تور , كيله تور دور formaları inkişaf etdiyi kibi, cənub türk sistemli dillərinin bəzilərində də كلو feli zərfi ilə *yürür* yardımçı feli birləşərək كلويورور formasını yaratmış, bu da öz inkişafında *gəliyor*, yaxud *gəliyir* formalarını meydana gətirmişdir. Demək ki, mənaca bir-birinin ziddi olan *yürümək* və *durmaq* felləri şimal və cənub dillərində eyni funksiyanı ifa etmişlərdir. Biz bu izahatla, şübhəsiz, müzare, yaxud indiki zaman fellərinin şəkilçiləri olan *-ir, -ar* şəkilçilərinin mənşəyini izah etmək davasında deyilik, çünki *yürür* və *turur* sözlərinin özlərində bu şəkilçi vardır. Bizim verdiyimiz izahat ancaq müəyyən dövrdə dildə əmələ gələn konkret indiki zaman və müzare formalarını izah məqsədi daşıyır.

Gələcək zaman فعل المستقبل İbn Mühənnaya görə غاى , ya كاى şəkilçiləri vasitəsilə təşkil olunur: قونغاى , كلغاى [356] və başqaları.

[354] Kitabi-Dədəm Qorqud, səh. 51.
[355] İstanbul nüs., səh.117.
[356] Yenə orada.

Bəzən غاى və كاى şəkilçiləri ixtisar edilərək غا və كا şəklini alırlar: قونكا , كوجكا [357]. Bu müxtəsər forma كتاب الادراك -da da vardır.[358]

Maraqlıdır ki, Mahmud Kaşqaridən başlayaraq, bütün ərəb türkoloqlarında gələcək zaman formasının şəkilçiləri olaraq həmin şəkilçilər غاى və كاى göstərilir.[359]

Demək ki, *-acaq, -əcək* şəkilçilərilə təşəkkül edən və nisbətən cənub türk sistemli dillərində daha ziyadə inkişaf etmiş olan forma sonradan meydana çıxmışdır. Bu şəkilçi bu dövrdə başqa funksiyaya malikdir. Şərt feli اسا şəkilçisi vasitəsilə qurulur:

زيد بارغى اسا بيلا بارغى من [360]
قچان قلسان منكا لذكولوك دين سنكا تبوغ قلغاى من انكار ياراشو [361]

Bu misallardan da görüldüyü kibi, şərt felinin şəkilçisi yalnız اسا deyil, eyni zamanda سا -dır.

نفى forması tərcümə qismində aydın görüldüyündən və məlum şəkilçilər vasitəsilə tərtib edildiyindən bunun üzərində dayanmağa hacət yoxdur.

استفهام - sorğu forması eyni surətlə tərcümə qismində göstərildiyindən və xüsusi xarakter daşımadığından üzərində dayanmağı lazım bilmirik.

Hal (feli zərf) forması ب , كاج və غاج şəkilçiləri vasitəsilə meydana gətirilir. Məsələn: مونپ , قاچب , منغاج .

غاج və كاج şəkilçiləri qədim Azərbaycan ədəbi dilində də qullanılır. Məsələn, Füzulidə bu şəkilçi geniş surətdə işlədilir. "Kitabi-Dədəm Qorqud"da isə جك şəkilçisi ilə paralel olaraq təsadüf edir: ايشيد جك , ديكج.

ب şəkilçisi İbn Mühənna tərəfindən ancaq feli zərf olaraq gətirilir, Azərbaycan türk dilində olduğu kibi, müstəqil keçmiş zaman feli forması olaraq qeyd edilmir.

Söz təşkili məsələsinə professor Melioranski nisbətən çox yer vermişdir. Biz buna hacət görmürük. Bunun üçün burada mühüm və xarakteristik gördüyümüz bir-iki şəkilçi və söz şəkilləri üzərində dayanmaq istəyirik.

[357] İstanbul nüs., səh.117.
[358] كتاب الادراك , səh.121.
[359] ديوان لغات الترك , cild II, səh. 55; كتاب الادراك , səh. 121; قوانين , səh. 11.
[360] İstanbul nüs., səh. 94.
[361] Yenə orada.

Başqa, İbn Mühənnadan qabaqkı dilçilərdə də olduğu kibi, لى və جى şəkilçiləri "heyət", "nisbət", "sənət" ifadə edən şəkilçilər olaraq göstərilir:

a) heyətə misal: قرصج لى , كوك طون لى

b) nisbətə misal: بغداد لى , موصل لى

c) sənətə misal: دمرجى , ياجى

Demək ki, bu nöqtədə də İbn Mühənna ilə keçmiş ərəb türkoloqları arasındakı əlaqə və ərəb türkologiyasının müəyyən ənənəvi əsaslarından biri meydana çıxır. Digər tərəfdən, başqa ərəb türkoloqları kibi, İbn Mühənna da bunlar və bunlar kibi şəkilçilərin təhlilinə əsasən formal-məntiqi tərəfdən yanaşaraq, yalnız ifadəni nəzərdə tutub, şəkilçinin müxtəlif funksional xüsusiyyətlərinə baxaraq, bunları ayrı-ayrı şəkilçilər (لى) yaxud müxtəlif şəkilçiləri bir kateqoriyaya (جى , لى) mənsub şəkilçilər kibi tələqqi edirlər. لى şəkilçisilə bağlı olaraq, nəzər-diqqəti cəlb edən şəkilçilərdən biri də لغ və لك şəkilçisidir. Bu şəkilçi (لغ , لك), İbn Mühənnaya görə, ərəbcə ذو "sahib, yiyə" mənasını verir: التون لغ – "qızıllı", تون لغ – "donlu", ساج لوك – "saçlı" və s.

İbn Mühənna əsərinin müqəddiməsində bu لك şəkilçisinin axırındakı ك səsini كاف الميته – "ölü kaf" adlandırdığından tələffüzdə لك ilə لى arasında təvafüt olmadığını zənn etməkdə haqlıyız.

Həmin لك və لغ şəkilçisi Əbu Həyyan və "Qəvanin" müəllifində olduğu kibi, "isimdən müştəq" məsdər təşkil edir: البلك kibi. Bu sonuncu nöqtə də klassik ənənəvi momentlərdən biridir. "Qəvanin" müəllifi bu növ məsdəri مصدر المعانى alandırır:

يوق صول لق , يمن لق , يخشى لق [362]

Eyni surətlə Əbu Həyyanda da bu şəkilçi məsdər şəkilçisi olaraq qeyd edilmişdir.[363] Demək ki, bu da ərəb türkologiyasının ənənəvi qrammatik qaydalarından biridir. Lakin İbn Mühənnanın yenə ərəbcə ذو ("sahib") mənasını verən şəkilçilərdən olaraq göstərdiyi ان (اليف و نون); (məsələn: تونان – "donlu", كونان –"günlü", yəni "xoşbəxt"), yaxud həmin mənada مُق (məsələn: تون مق – "donlu", اط مق – "atlı") formaları heç bir dildə, yaxud tarixi əsərdə təsadüf etmədiyindən bu şəkilçiləri İbn Mühənnanın ya başqa şəkilçilərlə qarışdırdığı, yaxud sonrakı kopyaçılar tərəfindən təhrif edildiyi zənn edilə bilər.

[362] القوانين , səh. 23.

[363] كتاب الادراك , səh.108-109.

XÜLASƏ

İbn Mühənna əsərinin müxtəlif cəhətlərdən təhlil və izahına həsr edilmiş bu qismi qurtarmadan əvvəl bir neçə nöqtədə indiyə qədər verilmiş material və məlumata yekun vurmaq faydasız olmaz.

I. İbn Mühənna əsəri XIII-XIV miladi əsrlərdə Azərbaycan və Azərbaycanla qomşu olan məmləkətlərdə danışılan, özünün təbirincə, Türküstan, türkmən və "bizim ölkə türkləri"nin dillərinə aid mühüm qrammatik və leksik xüsusiyyətləri ehtiva edir.

II. İbn Mühənnanın əsəri təsadüfi bir əsər olmayıb, bəlkə, XI miladi əsrdən başlayaraq bu dövrə qədər inkişaf etmiş olan ərəb türkologiyasının başqa əsərlərilə sıxı surətdə əlaqədardır. İbn Mühənna dövründə ərəb türkologiyasının müəyyən ənənə və sistemə malik olduğu görülür. Bu etibarla İbn Mühənna bircə Mahmud Kaşqarinin deyil,[364] eyni zamanda öz zamanına qədər inkişaf etmiş olan bu ərəb türkologiya məktəbinin şagirdidir.

Bu məktəbin ilərıdə türk sistemli dillər haqqında yazılmış olan əməli məktəb qrammatikaları üzərində hətta XIX əsrin axırlarına qədər çox güclü təsiri olduğu kibi, bugünkü qrammatikalarda da bu təsirin qalıqları[nı] tapmaq mümkündür.

Eyni zamanda Avropa burjuaziya türkologiyasının xüsusən özünün birinci inkişaf dövründə ərəb türkologiya məktəbindən çox şeylər iqtibas etdiyi şübhəsizdir.

III. İbn Mühənna əsərinin mövcud olan altı nüsxəsi dil cəhətindən müəyyən inkişafı göstərir. Bu inkişaf yaxından tədqiq edildikdə İstanbul nüsxəsinin daha qədim olduğu meydana çıxır. Ancaq İstanbul nüsxəsinin də orijinal olmayıb, orijinala yaxın əski kopyalardan biri olduğu mühəqqəqdir.

İstanbul nüsxəsi başqa nüsxələrə görə daha qədim olduğundan burada arxaistik söz və söz şəkilləri daha çoxdur. Lakin buna baxmayaraq, bütün nüsxələrdə olduğu kibi, başqa türk sistemli dillərlə müqayisəli surətlə götürülmüş Azərbaycan türk dili xüsusiyyətləri özünü aydın surətdə göstərir.

[364] "Махмуд Кашгарский, быть может, за отсутствием пока других посредствующих звеньев, имеет через большой промежуток лет в лице Ибн Муханны своего продолжателя – ученика" (С.Е.Малов. Ибн Муханна о турецком языке, стр. 248).

Sonrakı kopyaların dilcə Azərbaycan türk dilinin inkişafilə müvazi surətdə dəyişdirilməsi bu fikri daha da qüvvətləndirir. Yoxsa əsərin cığataylaşmış, yaxud tatarlaşmış nüsxələrinə də təsadüf edəcəyik.

Bu surətlə müxtəlif dövrlərdə yazılmış olan altı nüsxədə görülən dil inkişafı Azərbaycan türk dilinin tarixi nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malikdir.

MƏQALƏLƏR

TÜRK ƏDƏBİYYATINDA TƏQLİD VƏ YARADICILIQ

Meyman, Ribo, Lesqaft, Ten, Lazurski, Şpenqler... kibi gərək təcrübəçi və gərəksə nəzəriyyəçi estetlər, psixoloqlar bədii və ruhi yaradıcılığın üç mühüm ünsürü üzərində birləşmişlərdir: 1) duymaq; 2) duyulanı yaşamaq, bənimsəmək; 3) ifadə etmək.

Qədərçilik – fatalizm təsirindən azad qalmayan Şərq əbədiiyyatı da bu nöqtəni ilham və sünuh rümuzunda toplamağa çalışmışdır.

Bütün iradə və xəyali ilham pərisinin əlində olan Şərq, daha doğrusu, türk şairi səbr və təvəkkül ilə ilham dəqiqələrini bəkləmişdir. Halbuki on dördüncü - on beşinci əsrlərdən iyirminciyə qədər keçən dörd-beş əsrlik müddət içərisində bu ilham pərisi tilsimli İrandan, qızğın ərəb çöllərindən keçmədikcə safdil və tənbəl türk şairinin geniş omuzlarına qonmamışdır.

Bu surətlə bizdə bir təqlidçilik və tərcümanlıq dövrü başlamışdır ki, on yeddinci əsrə qədər iki məktəb (İran və ərəb) olaraq davam etdiyi halda, on yeddinci əsrdən etibarən, topdan alındıqda buna üçüncü bir məktəb daha əlavə olunmuşdur: Avropa – Qərb məktəbi.

Təqlid ya elmin, ədəbiyyatın dar bir mühit içində – sarayda, təkyədə, bir kaç şəhərdə sıxışıb qalması və yaxud tamamilə mədəniyyətsiz, irfan və sənətsiz bir xalqın kəndisindən mədəniyyətcə daha yüksək digər bir xalqın içərisinə düşüb əriməsi, kəndi bətliyini və təməlini qayib etməsi zamanlarına məxsus bir hadisədir.

Türklərin əski ədəbiyyatını, hətta bu gün belə heç bir tərbiyə və himayəyə məzhər olmadan yaşayan xalq ədəbiyyatını tədqiq edənlər Kiçik Asiyaya gələn oğuz və səlcuq türklərinin, Orta Asiyada qalan digərlərinin mədəniyyətsizlik və irfansızlıq nəticəsində ədəbi və şeiri təməllərə malik olmadıqlarından dolayı təqlidə yeltəndiklərini iddia edəməz. Ümumiyyətlə, əski şamanizm əqidə və adətlərindən ruhunu almış olan xalq ədəbiyyatı əsasi qüvvət və mahiyyətilə türk aləminin hər tərəfində kül altındakı atəş kibi canlı bulunmaqdadır. Bunun üçün Nəcib Asim bəyin hicrətin 183 sənəsilə 390 tarixi arasında, yəni iki əsr içində səlcuqlar şamanizm denilən bütpərəstlikdən nəsturiliyə və bundan islamiyyətə intiqal eləyərək üç dəfə dini dəyişdirdikləri halda, lisanlarını hifz etmişlərdir, – yolunda sird etdiyi

mütaliat az-çox yanlışdır. Çünki hənuz Avropa mədəniyyəti müəssisələrini keçib makina məişəti və Darvin düşüncəsini əldə etməyən türklər, bilxassə qırğız, özbək, tarançı... kibiləri mənəvi həyatlarında rəsmən olmasa da, felən şamançı qaldıqları kibi ədəbiyyatları da, ümumiyyətlə, alındıqda pək az dəyişmələrə uğramışdır. Bəlkə, dil bir çox cəhətlərdən daha ziyadə təbəddül etmişdir. Çünki bir çox şərqiyyatçıların göstərdiyi kibi, türk qəbilələrinin əksərisində ərəb və fars sözləri altında əski türk fəlsəfi və dini məfhumları hələ yaşamaqdadır.

Bundan maəda, islamiyyətdən sonra türklər gərək Kiçik və gərəksə Orta Asiyada o vaxtın yeni əqidə və ünsürlərini həzm edərək orijinal bir ədəbiyyat meydana gətirə bilmişlərdir ki, zamanımıza qədər xalq arasında qüvvətli inikasları qalan bu dövrə "təsəvvüf-aşiq dövrü" deyiriz.

Bu gün də Mir Əlişir Nəvainin on beşinci əsrdə ortaya sürdüyü fikir və qənaəti kəmali-qətiyyətlə ilərıyə sürmək mümkündür. Bu gün də türk xalq ədəbiyyatı fars xalq ədəbiyyatından nə şəkilcə aşağı, nə də mənaca fəqirdir. Bu həqiqəti doktor Kunoşun cəm etdiyi iki cildlik "Osmanlı xalq ədəbiyyatı nümunələri" ilə Aleksandr Keqelin "Fars xalq ədəbiyyatı nümunələri"ni müqayisə edənlər dərhal təslim etmək məcburiyyətində qalırlar. İstəyənlər eyni müqayisəni Qərb xalq ədəbiyyatlarilə də yapa bilirlər. Burada hətta türk xalq ədəbiyyatı daha zəngin, daha geniş çıxacaqdır. Çünki Avropa [da] şəhər həyatı, ümumi təhsil, teatrolar geniş və inkişaf etmiş dcyi mətbəələri, nəşriyyatı ədəbiyyatdakı xalq yaradıcılığını artıq çoxdan zəiflətmiş və bir çox yerlərdə öldürmüşdür.

Demək ki, türk ədəbiyyatında hər addımda gözümüzə çarpan bu təqlidçilik yalnız ədəbiyyatın dar bir mühitdə təmərküz etməsindən irəli gəlmişdir.

Lomley Devitsin daha 1836-da qeyd etdiyi kibi, "türkcə fellərlə yazılmış olan bu İstanbul ərəb-fars ədəbiyyatı" türk xalq ədəbiyyatı ilə tamamilə əlaqəsini kəsmiş, yüksək məmur, üləma və diplomasi sinfinin, bir sözlə sarayın ədəbiyyatı olmuşdur. Burada Amasiya, Sivas, Bursa, Kütahiyə və digər bir çox vilayət tışra şəhərlərində doğan şair və ədiblərin belə hətta son sənələrə qədər İstanbula can atdıqlarını və gəldikləri yerlərdən nasıl əlbisələrində heç bir yerli nəqş, yaxud biçim buraxmıyorlarsa, eyni surətlə əsərlərinə kəndi məhəlli şivə, ədəbiyyat, psixolojilərindən heç bir şeyi əlavə etmədiklərini söyləmək

lazım gəlir. Çinlilər bir-birlərinə nasıl bənzəyirsə, geniş Türkiyənin şərqindən, qərbindən, şimalından, cənubundan gələn İstanbul şairləri də bir-birinə böylə bənzəyirdi. Qərb təqlid məktəbinə gəlincə, burada təsir ərəb və fars ədəbiyyatınınkı dərəcəsinə varmayaraq, yalnız ən ziyadə Tofiq Fikrət və onun arxadaş və müəqqiblərində nümunəsini gördüyümüz vəchlə bəzi şəkli təbdillərlə daha ziyadə türk ədəbiyyatının ruhunu, mövzularını dəyişdirməyə yaramışdır.

Ərəb-fars məktəbləri mənfi olaraq türk ədəbiyyatının təbii mənbələrindən ayrılmasını, təkamül xəttində geriyə doğru bir taqım dolambaclar, hələzunlar yapmasını icab etdirdiyi halda, müsbət olaraq türk ədəbiyyatı, alim və ədiblərini Yaxın Şərqdə, Müsəlman Şərqində az-çox ümumi nüfuza sahib etmişdir. Türk dilinin islamiyyətə qədər tanılmadığı İran, Hindistan, Suriya, Misir kibi ölkələrə intişarını və buralarda türk şair, ədiblərinin törədiyini nəzəri-etibara alırsaq, qısadan deyə biliriz ki, ərəb-fars təqlid dövrü türk ədəbiyyatını təkamül, inkişafdan, dərinləşməkdən alı qoymuşsa da, genişlənməsinə, intişarına çox yardım etmişdir. Fikrimizdə tənaqüsə düşməmək üçün şurasını da qeyd edəlim ki, bu intişar xalq arasında olmayıb, yuxarıda saydığımız ölkələrin, İstanbulda olduğu kibi, aristokrat, yüksək, güzidə siniflərini əldə edə bilmişdir.

Qərb təqlid məktəbinin də ədəbiyyatımıza müsbət xidmətləri olmuşdur:

1. Türk ədəbiyyatını Avropa ədəbi mənzuməsinə soxmuş və yeni Avropa fikirlərinin Şərqə doğru yapılmasında keçid və süzgəc vəzifəsini görmüşdür. On yeddinci əsrdən başlayaraq, ümumiyyətlə, Avropa və bilxassə renessans təsiratı türk ictimai və ədəbi həyatı üzərində getdikcə təsirini ziyadələşdirməkdə və bu təsir İstanbuldan digər Şərq məmləkətlərinə intişar etməkdədir.

2. Əski, klassik islam ədəbiyyatilə on yeddinci əsrdə ədəbi və elmi rəhbərliyini qaib etməkdə olan İstanbul Avropa ədəbi ünsürlərini kəndi çərçivəsinə idxal emək surətilə bu nüfuzunu daha ziyadə uzada bilmiş və yeni dövrdə də ədəbi mərkəz rolunu oynamışdır. Əski ədəbiyyat sözlərinin yeni fikirləri ifadə etməyə saleh bir hala nə surətlə gəldiyi sərf elmi nöqteyi-nəzərdən tədqiq olunacaq bir məsələdir.

Şünasi – Kamal dövrünün böyük ədəbi işlərindən birisi də lisanı sadələşdirməkdən başqa, türk ədəbi leksikonundakı sözlərə o vaxta qədər ifadə etmədikləri mənaları bəxş etmələridir.

3. Avropa ədəbiyyatının təsiri türk ədəbiyyatını sarayın, güzidələrin malı olmaqdan çıxarıb, daha geniş kütlələrin ifadə aləti yapmışdır. O vaxta qədər "divan lisanı" olan türkcə bu dəfə mətbuat lisanı olmuşdur.

4. Daxili, ruhi cəhətdən təhlil və tənqid fikri oyanmış, safdil dastan üslubu ortadan qalxaraq onun yerini psixolojik və tənqidçi roman üslubu tutmuşdur ki, bu hal əski uzun və hər halda ifadə nöqteyi-nəzərindən naqis cümlələr yerinə hökmə və fikrə az-çox uyğun qısa və mövciz cümlələr iqamə etmişdir.

5. Avropa təsiri dilimizi, ədəbiyyatımızı hər halda ümumi maarif dili, ədəbiyyatı olmağa doğru sövq etmişdir və ediyor. Dilimizi və ədəbiyyatımızı sadələşdirmək, xalqa doğru götürmək cərəyanı hər şeydən əvvəl maarifin ümumiləşməsi ehtiyacından doğduğuna şübhə yoxdur. Həqiqətən nəzəri fəlsəfə, sənayei-nəfisə və şeir əsaslarına istinad edən Şərq ədəbiyyatı daima saray, mədrəsə kibi dar mühitlər aradığı və sevdiyi halda, təbii və üzvi biliklərə istinad edən Avropa ülum və ədəbiyyatı getdikcə genişlənmək ehtiyacını kəndisində gizləməkdədir. Ərəb-fars və ümumiyyətlə, Avropa ədəbiyyatının müsbət təsir və nüfuzu şimdiyə qədər bir kaç sözlə xülasə etdiyimiz nöqtələrdən daha çox və daha dərin isə də, hər halda hər iki təqlid məktəbinin mənfi təsiri bunlardan da çox, bunlardan da dərindir. Bununla bərabər, bu mənfi təsirləri də iki-üç sözlə xülasə etmək mümkündür. Türk şair və mühərrirləri ərəb-fars-Avropa əsli əsərləri qarşısında tərcüman və müfəssir vəziyyətində qalmışlardır. Nə duymaq, nə də duyulanı yaşamaq və ifadə etmək məhsulu olan müstəqil əsərlər bu zümrə ədib və şairlərin əsərləri arasında gözə çarpmaz.

On dördüncü əsrdən iyirminciyə qədər keçən altı əsrlik zaman içərisində türk şair və ədiblərinin ruhi vəziyyətləri, zehni fəaliyyətlərilə islam müctəhid və müfəssirlərinin Qur'ana, qüruni-vüsta xristian mütəfəkkirlərinin Aristot və İncilə qarşı aldıqları vəziyyət və ibraz etdikləri zehni fəaliyyət arasında pək az fərq vardır.

Şərq və Qərbi təqlid məktəbləri təsirlərində bir-birlərindən ayrılıyorlarsa da, nəticələrində birləşiyorlar. Türk-tatar ədəbiyyatını təbii, canlı mənbələrindən ayıraraq, süni və ölü ədəbiyyat halına gətirdilər. Bu canlı və təbii mənbə nədir və nərədədir?.. Bu xalq ruhiyyatı və ədəbiyyatıdır, ətrafımızda, ayağımız altındadır.

Şimdiyə qədər türk-tatar xalq ədəbiyyatının varlığı-yoxluğu, əsliyyəti-ariyyəti vəlhasil qiyməti haqqında Vamberidən zamanımıza qədər

pək çox münaqişələr olmuşdur. Bununla bərabər, bu münaqişələrlə müvazi surətdə türk-tatar xalq ədəbiyyatını cəm və təsnif işi də getdikcə iləriləmişdir.

Kunoş, Qruntend, Bitner, Radlov, Qordlevski və digər yüzlərcə böyük-kiçik alim və həvəskarlar tərəfindən Altay dağlarından Bosnaya və Tuna üzərində yeganə və ən qərbi türk yuvacığı olan "ada qala"ya həman bütün türk-tatar şivələri haqqında məlumat və bunlardan nümunələr toplanmış və hər lisanda nəşr olunmuşdur. Eyni surətlə Şərqdə miladi on birinci əsrin müəzzəm və alim türkoloqu Mahmud əl-Kaşqaridən "Qamusi-türki" sahibi Şəmsəddin Sami bəyə qədər müstəqil surətdə və gərəksə müxtəlif sərf-nəhv, lüğat kitablarında xalq ədəbiyyatı əsər və nümunələri xatirdən çıxarılmıyor.

Lakin on doqquzuncu əsrin ortalarına qədər Avropada Bup və Humbold[t]un və Şərqdə müasirimiz bulunan bir çox ədiblərin zehninə girmiş olan: "Xalq ədəbiyyatı yazılı ədəbiyyatın xalq dilində pozulmuş parçalarıdır", – mə'lindəki hökm və qənaət münəvvirlərimizin bu böyük və əsli xəzinədən istifadələrinə mane olmuşdur.

Bu gün gərək İstanbul və gərəksə digər türk-tatar ölkələrinin şairləri nümunə olaraq yalnız Avropa klassik ədəbiyyatını alıyorlar.

Məhəmməd Əmin bəy kibi xalqçı şairlərin sənətinə hətta səthi bir nəzərlə baxdığımız təqdirdə buna da Devisin yuxarıda irad etdiyimiz sözlərini tətbiq etmək pək qolaydır. Məhəmməd Əmin bəyin sənətində də bulacağımız şey təmiz türkcə fellərlə xalq heca vəznidir.

Martin Lüterdən:

> Əvət, o gün sən romanın o qorxunc əsrarını anladın,
> Bir cəhənnəm görmüş kibi bu fəsad ocağına bağırdın,
> Bir qönçəni isitməyən eşqlərin taleyinə ağladın,
> Vicdanları məzhəbdəki hikmətin ətrafına çağırdın...

Şairin bu dörd sətirdəki şəkli sənəti "anladın – bağırdın – ağladın – çağırdın" fellərindəki zorakı ahəng üzərində qərar qıldığı kibi, ruhi sənəti də "romanın o qorxunc əsrarını anladın" Martin Lüterin "bir cəhənnəm görmüş kibi bu fəsad ocağına bağırması" və "bir qönçəni isitməyən eşqlərin taleyinə ağladıqdan" sonra "vicdanlar məzhəbdəki hikmətin ətrafına çağırdığını" göstərməkdən ibarət...

Bu dörd sətir içində dörd feli ("anlamaq – bağırmaq – ağlamaq – çağırmaq") qafiyə rütbəsinə çıxarmaq üçün bir-birindən uzaq, bir-birini izah və ikmal edəmədiyindən başqa, Lüterin rolu və yaxud dövrü haqqında bizə bəlli-başlı, dərin-geniş heç bir hiss, heç bir intiba' verəməyən dörd müxtəlif və zəif cizgini bir-birinə rəbt ediyor. Əmin bəy daha neçə felləri böylə səadətə nail etmişdir. Buna inanmaq üçün onun "Türk sazı"nı gözdən keçirmək kifayət edər. Digər tərəfdən, əgər bir rəssam bu dörd sətirdəki dörd lövhəni cızsa, təsvir etsə, Lüterin təsviri əski, aşınmış bir möhürün sarı kağız üzərində buraxacağı izdən daha aydın və açıq olmazdı. Heca vəzninə gəlincə, şimdiyə qədər həman bütün türk ədib və şairlərinin nəzərində heca vəzni türk xalq ədəbiyyatının yeganə əsli ünsürü sayılmaqdadır. Halbuki əlalülum vəzn-ölçünün şeirdəki rolu nəsrdə cümlə tərtibinin rolundan ziyadə deyildir. Hər şeirdə vəzn-ölçü bulunması şərtdir, nasıl hər cümlədə bir mübtəda və bir xəbər olmalıdır. Lakin bu mübtəda ilə xəbər son dərəcə tənəvvö və təxalüf edə bildiyi və nəhayət, mübtədasız, yaxud xəbərsiz də cümlə ola bildiyi kibi, vəznsiz şeir ola biləcəyinə şübhə yoxdur. Netəkim bir çox səmimi və əsli xalq şeirlərində nimahəngdən (**assonance**) başqa bir şey yoxdur.

Sonra tam və mükəmməl heca vəzni ilə yazılan xalq şeirlərində ən əsaslı cəhət vəzn deyil, bəlkə, büstbütün başqa nöqtələrdir. Məsələn: 1) şeirin digər şəkli xüsusiyyətləri, parça – məqtələrinin (**cesure**) sayısı; 2) sözlərinin tərtibi, mövqeyi, mənası; 3) mündəricəsi, lövhələri; 4) məntiqi...

Bütün bunları tədqiq edib nəzəri-etibarda alan, duyan, bənimsəyən bir şair yalnız ədəbiyyatla deyil, eyni zamanda bu vasitə ilə xarici aləm, xarici mühitlə, daha doğrusu, həyatla da kəndisini sıxı surətdə rəbt etmiş olur.

Həyatdan dərs alan tələbə deyil, ustaddır. Həyatı təqlid edən sadəcə təqlidçi və tərcüman deyil, bəlkə, eyni zamanda icadçı və mübdi'dir.

"Ədəbiyyat həyatın aynasıdır" sözü kitablarımızda, dillərimizdə hər münasibətlə dolaşdığı halda, həqiqətdə ədəbiyyatımızı əks etdirmək deyil, onun müxtəlif dalğalarına, lövhələrinə təlmih və işarətdən belə çox uzaqdır.

Müxtəlif türk-tatar ədiblərini, şairlərini oxuyan, tədqiq edən adam bunlarda yaşadıqları mühitin, mənsub olduqları xalqın xüsusi cizgilərinə, zahiri, batini xüsusiyyətlərinə dair pək az intiba' əldə edə bilir.

Bu sözlərimiz yalnız adət mövcibi İstanbul ədəbiyyatına deyil, bəlkə, bəzi müstəsna müməssilləri kənarda buraxılmaq şərtilə, Azərbaycan və Qazan, Krım kibi digər türk-tatar ölkələrinin şair və ədiblərinə də eynən aidiyyəsi vardır.

Bu gün türk-tatar ədəbiyyatı hənuz təqlidçilik və tərcümanlıq dövründə bulunıyor. Maarifin ümumiləşməsi köylə şəhər, güzidələrlə xalq arasındakı səddi-Çinin yıxılması bizdən əsli, icadçı və ətrafımızdakı həyatı əks etdirəcək ədəbiyyat istəyir. Bu istəyə cavab vermək üçün üç vasitəmiz vardır: 1) Avropa ədəbiyyatının taktiki üsulları; 2) xalq ədəbiyyatı; 3) həyat və psixolojimizin tədqiqi.

Bu üç mənbə bizə: 1) duymağı, 2) duyuları bənimsəməyi, 3) bənimsədiklərimizi ifadəni öyrədir.

"Maarif və mədəniyyət", № 2(22), 1925, səh. 9-13.

KUMUK DİLİ VƏ ƏDƏBİYYATI HAQQINDA

Bu ilin həziran və təmmuz aylarında Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin tapşırmasilə Dağıstanda kumuklar arasında bulundum.

Burada o vaxt əlimə keçən materialı bundan çox zaman əvvəl toplanmış olan materiala əlavə edərək, kumuk dili və ədəbiyyatı haqqında bir qaç söz söyləmək istəyirəm. Bu bir kaç söz elmi lisaniyyat və filoloji hüzurunda çoxdan unudulmuş olan kumuk tədqiqatını, bəlkə, bir az canlandırmağa xidmət edər.

Bəzilərinin fikrincə, kumuklar ən əski zamanlardan bəri Xəzər dənizi sahillərini işğal edən bir qövmdür və "kam / kamak" namı altında Bitlimusa məlum edərlər.

Klaprot (**Klaproth**) kumukların xəzərlərin özü və yaxud əhfadı olduğunu zənn ediyor[1].

Vamberi (**Vambery**) "Türk xalqı" (**"Das Turkenvolk"**) namilə 1885-ci ildə çıxmış olan əsərində kumukların Xəzər dövlətinin şövkətli dövründə buralara köçmüş olduqlarını fərz edər. Əgər bu fərziyyə ilə razı olmaq lazım gəlsəydi, artıq miladi səkkizinci əsrdən başlayaraq Bəhri-Xəzərin orta sahələrini kumuk vətəni saymaq lazım

[1] Klaproth. Reise in den Kaukazus, II, 1812.

gəlir. Lakin bütün bu fərziyyələrin heç biri qəvi dəlillər və məntiqi söhbətlər üzərinə bina edilmiş deyildir. Böylə bir fərziyyə qüvvətlənə bilmək üçün xəzərlərin dili, tarixi və məişətləri haqqındakı məlumatımız daha ziyadə genişlənmək və dərinləşmək icab edər.

Hər halda "kumuk / kamak / kaman / kuman" kibi sözlər arasında türk dilləri morfolojisini nəzəri-etibara alaraq az-çox bir münasibət olduğunu duymaq pək güc deyildir. Digər tərəfdən, aşağıda görüləcəyi vəchilə kumanların dilində 1303-cü ildə tərtib olunmuş olan "Kodeks kumanikus"un dili ilə kumuk şivəsi arasında bütün digər türk-tatar şivələrindən ziyadə yaxınlıq vardır. Nəhayət, kumanların "Yazıq kun"u ilə bugünkü kumukların "Kafir kumuk"ı arasında bir münasibət yoxmudur? Bütün bu məsələləri çözə bilmək üçün uzun və dərin elmi tədqiqlər və böylə tədqiqlərin nəticəsində əldə edilə biləcək olan vəsiqələr, söhbətlər lazımdır.

Bunlardan başqa, kumuk dili və ədəbiyyatı haqqında yalnız "Qafqaz ölkə və xalqlarının təsviri üçün materiallar" məcmuəsi (**"Сборник материалов для описания местностей и племен Кавказа"**) namilə 1881-1894 [...] sənələrində nəşr olunmuş olan məcmuələrin üçüncü şöbəsində "Kumuk mətnləri" (**"Кумукские тексты"**) namilə Kostek məktəbi müdiri Afanasyev tərəfindən qeyd olunan şikəstələr dərc olunduğu kibi, yenə eyni adam tərəfindən "Kumuklar haqqında bir kaç söz" əlavə olunmuşdur. Yenə eyni məcmuədə Moxir (**М.В.Мохир**) tərəfindən tərtib olunan "Kumuk-rus lüğəti" ilə Afanasyev tərəfindən yapılmış "Rus-kumuk lüğətçəsi" bulunur. Bütün bu material beş-on səhifəni keçməz və elmi surətdə cəm, tərtib və təsnif olunmamışdır. Lakin kumuklar haqqında XX əsrin birinci rübünə, yəni zamanımıza qədər bundan başqa bəlli-başlı bir material daha olmadığı, Katanovun (**Н.Ф.Катанов**) "Uryanxay dilini tədqiq təcrübəsi" (**"Опыт исследования Урянхайского яз."**) namındakı əsərində əlliyə qədər türk şivəsinə aid bol-bol material və ədəbiyyat göstərirkən kumuk şivəsi haqqında yalnız yuxarıda zikr etdiyimiz məcmuədəki əsərcikləri işarət ilə kifayətləniyor və bu materialları lisani və ədəbi tədqiqat üçün kafi bulmadığına əlamət olmaq üzrə müqayisə cədvəllərinə və misalları arasına kumuk şəkilləri, sözləri idxal etməz.

Bu məcmuədə kumukların sayısı səksən bin miqdarında göstəriliyor. Akademik N.Y.Marrın **Н.Я.Марр** "Qafqaz xalqlarının təsnifi" (**"Племенной состав населения Кавказа"**) namilə nəşr etdiyi əsə-

rinin 5-ci paraqrafında kumukları zikr edərək, bunların türk irqindən olmaqla bərabər, digər qomşu Qafqaz xalqlarilə pək ziyadə qarışdığı və sayları 112 bindən ibarət olduğu qeyd olunuyor.

* * *

Kumuk ədəbiyyatı Osmanlı və hətta Azərbaycan ədəbiyyatına görə fəqir, fəqət, məsələn, qaraçay və balkar ədəbiyyatına görə daha zəngindir. Çünki keçən əsrin sonlarında artıq kumuklar içərisindən öz şivələrində yazı yaza biləcək adamlar yetişmiş və bunlar zamanımıza qədər kumuk dilində kiçik bir kütübxanə meydana gətirmişlərdir.

Bunlardan 1255-1322-də yaşamış olan Yaxsaylı Məhəmməd əfəndi namındakı zatın 1883 sənəsində o vaxtkı Peterburqda 174 səhifədən ibarət və kumuk yırları – şərqiləri, xalq maqallarından ibarət bir məcmuəni akademi mətbəəsində təb və nəşr etdirdiyini biliyoruz. Bu kitabdakı şeirlərin çoxusunu Məhəmməd Yaxsaylının özü yazmış, bundan başqa, Qazanda "Oxuyqa yaşqa nəsihət" namilə yenə məhəlli kumuk dilində bir risalə nəşr etdiyini bizə xəbər veriyorlar. Daha sonra, ölmüş və sağ kumuk şairləri içərisində Manay, Kazak, Nohay Batırmirzəyev, Əbu Süfyan, Timurbulat Beybulatov, Məhəmməd Nəbi... kibilərini zikr edə biləriz. Bunların əsərləri xalq şeirinə və dilinə pək ziyadə yaxındır. Bu saydığımız şairlərin xalq şairlərindən, daha doğrusu, oxumaq-yazmaq bilməyən şairlərdən ayrılıqları yazılarında bəzi ictimai məsələlərin və müəyyən elmi və ya siyasi məqsədin bulunmasındadır. Bu mövzular da şunlardır:

1) müsəlmanlığın, şəriətin dürlü cəhətlərinin şərhi,
2) molla və mollalıq,
3) Şamil dövrünün xatirələri,
4) qız-qadınların vəziyyəti,
5) oxumanın, elmin qiymət və əhəmiyyəti,
6) hifzüs-sihhə və sair bunun kibi Qasprinski dövrünə aid məsələlər...

Başqa mövzularda yazılı ədəbiyyat ilə xalq ədəbiyyatı arasında böyük bir fərq yoxdur.

Xalq ədəbiyyatının mövzuları:

1) qan davası,
2) mal və qız qaçırmaq,

3) igidlik,
4) eşq,
5) fəqirliklə zənginlik,
6) digər türk-tatar ədəbiyyatında rast gətirdiyimiz dastan və mahnı mövzuları.

Xalq ədəbiyyatının vəznləri, ədəbi təamülləri, nəhayət, çox dəfə insana təsir edən qəti, açıq fəlsəfəsi kumuk ədəbiyyatının qiymətli nöqtələridir. Şübhəsiz, bu xüsusda ən ziyadə ilərıyə gedə bilmiş olan kumuk şairi Kazakdır. Onun dilindəki mətanət, təşbehlərindəki doğruluq, isabət, nəhayət, şeirindəki səmimi qayğı onu türkmənlərin məşhur şairi Məxdumqulu ilə bir sıraya çıxarıyor. Hətta Kazak Məxdumquludan da qüvvətli və dərin bir üsluba malikdir, – denilə bilir. Çünki məlum olduğu üzrə, Məxdumqulu az-çox yazılı ədəbiyyatın təsiri altında bulunduğu halda, Kazakda, təmiz xalq dili ilə təqlid olunmamış bədii nöqtə pək çoxdur. Çox yaxşı ki, bu şairin şeirləri Əbu Süfyan tərəfindən yazılmış olan "Məcmuül-əşaril-əcəmiyyə" namındakı məcmuədə bir çox digər şeirlərlə qarışdırılmış və ümumiyyətlə, şimdiyə qədər bu şairin ayrı bir məcmuəsi nəşr olunmamışdır. Burada Kazakın şeirlərinə nümunə olmaq üzrə Sibiriyaya sürüldüyü zaman Şamxal Rayhanat bəyə yazdığı məktubdan bir kaç parçanı alıyoruz:

Eki avuz söz bilə biz,
Yanğız gözdən görəyiz
Altunlı tax, almaz tav,
Alislərdə elibiz.
Alisləni ayı-güni zar mukən,
Aylanğan qışı-yazı qar mukən.
Gög əlagöz görür günlər bar mukən,
Gül aşinalı gözəl tovğan yeri biz?
Dağıstanlı tatar oğlu Kazakdan
Rayhanatğa öpkəm salam uzaqdan.
Bikəm nə ge qayğım etip almadın,
Tülküləyin tüşkən təmir tuzaqdan?..
Təmir tuzaq toşdı meni butuma,
Yetəlmədim anadaşlı yurtuma.
Bikəm meni qayğım etmey qoymasdip,
Min burulub qaray ketdim artıma.

Ümumiyyətlə, kumuk xalq və yazılı ədəbiyyatında, bizim fikrimizcə, mərsiyə – elegiya növü digərlərinə görə daha ziyadə qüvvətlidir. Məsələn, oğlu qan davasında ölmüş bir qadıncığazın ağzından şu qüvvətli sözlər və sağlam təşbehləri eşitdiyimiz zaman istər-istəməz ağlımıza məşhur ərəb şairəsi Xənsanın qardaşı haqqında söylədiyi mərsiyəsi gəlir:

Axşamlardan son gün tumas,
Ağarğan saqqallar qaralmaz.
Nekə öldü? – deb, sağa ayıtmimən,
Ölgətin ki, hu gənc etmimən.
Kürdə bilin kim çeçdi...
Aranlarda yansun çırağınğ,
Aylıq yoldan qayıtsın qonağınğ.
Dərs oxuyğan mədrəsən büzülsün,
Kitablarınğ hər yağnə tüzülsün.
Qələm tarik qara üzəngə ağılsın,
Qələmlərin qızğan-utğan yağılsın.
Say özdəmdən başğa atılğan aruvun
Balaçaçı bilginə baylansın.

Kumukların yeganə mədəni mərkəzi olub gələn Temirxanşura şəhərində kitab basmaçılığı ancaq əsrimizin başlarında meydana gəlmişdir. Bu zamanda basılan kitabların pək çoxu litoqrafi üsulilə istehsal edilmişdir. Buna baxmayaraq, nisbətən ən çox kitab basıb çıxaran Əbu Süfyan namında şimdi də sağ aşağıqazanışlı bir zatdır. Bu zatın kəndisinin verdiyi məlumata görə, basılmış-basılmamış otuz yeddi əsəri vardır. Kumuk[ca], türkcə, ərəbcə, farsca şeir yaza bilən Əbu Süfyan kumuk xalq ədəbiyyatını toplamaqda fövqəladə böyük qeyrət göstərmişdir. Yuxarıda zikr etdiyimiz "Məcmuül-əşar" namındakı əsəri 1912 sənəsində nəşr olunmuş və burada bir çox kumuk şairlərinin şeirlərilə bərabər, xalq ədəbiyyatı parçaları da əlavə olunmuşdur.

Əbu Süfyanın əsərləri kumuk həyatının ən ufaq məsələlərindən ən qarışıq və yüksək nöqtələrinə qədər təəllüq edər. Bunun üçün əsərləri arasında "Qalıq kitab" ən bəsit əxlaqi və sihhi qaydalardan bəhs edərdən siyasi lüğətlər və cərəyanları izah edən "əl-Lüğatüs-siyasiyyə"yə qədər vardır. Əbu Süfyanın bütün əsərlərindən bu məqalədə bəhs edəməyəcəyimizi gözə alaraq, burada yalnız kumuk dilindəki şeirlərindən birisini zikr etməklə iktifa ediyoruz:

Qız yaşlanı tilindən şikayət

Eşitiniz, lirənlər,
Qız yaşlanı xəbərin.
Ərz etip bildirəmiz
Yürək bizdə barin.
Ələmlü aləm ləgə,
Axçası küb yaylağa.
Yalbara biz bir mədəd,
Bu bəzən hər aylağa.
Biz də insanız axır,
Bizgə də ələm gərək.
Ələmdən, mərifətdən
Tutmağız bizni arək.
Siz çakı bulmasaq da,
Sizgə yetib gələ biz.
Heyvan tökülən biz axır,
Bildirsəniz bilə biz ... ilax.

Kumuk dilində başqa cənubi türk xalqlarının şivə ədəbiyyatında gördüyümüz əcnəbi – ərəb, fars və sairə sözlərə rast gəlməyiriz. Bu gərək ərəbcə ayrı dil olaraq, daha ziyadə qüvvətli olmaqla bərabər, xalq dilinə o qədər qarışmamışdır. Yalnız gün isimlərinin pək çoxu burada bizdəki farsca yerinə ərəbcə olmuşdur.

Kumukların həyatı, məişəti şeirlərini, fəlsəfələrini təyin və təsbit etmişdir. Bunların fəlsəfə və şeiri də təbiətin birinci təsirləri, köçəbə və ibtidai köylü həyatının doğurduğu hərgünkü məsələlərdən ötəyə gedəməmişdir. Yazılı ədəbiyyatları əlli ildən ziyadə bir tarixə malik deyildir və bu əlli illik bir zaman içərisində ədəbi şəkilləri qomşu xalqlardan, məsələn, ruslar, yaxud Osmanlı türklərindən alacaq qədər böyüyəməmişdir. Daha ziyadə xalq ədəbiyyatına və az-çox Qazanda Şihabəddin əl-Mərcani və Krımda Qasprinski ilə başlayan cədidilik cərəyanının təsirinə düşmüşdür. Buna zikr etdiyimiz kumuk şairləri tərəfindən dürlü vaxtların tərcümə və yaxud təfsir olunan Qazan hekayələri dəlildir.

Kumuk ədəbiyyatında dini ünsür şimdiyə qədər böyük bir yer işğal etmişdir. Lakin sufilik, təsəvvüf və reybilik yoxdur. Bu nöqteyi-nəzərdən kumuk eşq ədəbiyyatı çox maraqlıdır. İran və onun təsiri altında

qalan digər türk-tatar şairlərində rast gətirdiyimiz mərəzi və melanxolik eşqi biz burada görəmiyoruz. Kumuk sevgisi sağlam məntiqdən uzaq olamaz və igid Şərqi alçadacaq dərəcəyə varmaz. O daima şərtlə, yəni sevilmək şərtilə sevər:

Vey kiçi qız, səni müqtahü müqtasam,
Mən öləyim, sənsiz yerdə tuqtasam.
Çanələni yalqənidi çaçalarıŋğ,
Qarılğaçnı qanatıdı qaşlarıŋğ.
Kokənni qarasıdı gözlərin,
Şəkərdən şirin səni sözlərin.
Avzində inci mahi tişlərin,
Nədir, qız, ley etip qoyğan işlərin.
Söyəmən dib nəki, qız, eti söydirdin,
Söyməyən dib yürəgimni göydürdün.
Sən gəlməsən, səndi bəri gələcək,
Atan qoysa, ol da səndi yolacaq,
Tubəsi bulan altun bulsak,
Sən söymisən bizim yemik malsızını.

"Yurəginin yağı erdigini, iki yanbaşları çürüyüb, içində qazanlar qaynadığını" söyləyib eşqini ərz eməyə başlayan kumuk şairi sevilməyəcəyini anlar-anlamaz ayağa qalxar və bütün mədh və sənalarını geri olaraq sevgilisini hər kəs kibi bir dilbər elan etməyə qədər gedər.

Kumuk ədəbiyyatının ümumi türk-tatar xalq ədəbiyyatı içərisində, heç şübhəsiz, bir mövqeyi vardır. Bundan başqa, Şimali Qafqaz türk ləhcələri içərisində ən ziyadə rol oynayan bir şivə ola bilmişdir. Çünki kumuk dili bir çox Şimali Qafqaz qəbilələrinin "görüşmə dili" **(Mingangssprache)** ola gəlmişdir. Yetişməkdə olan kumuk münəvvər gəncliyi, heç şübhəsiz, türk ədəbi üsullarından birisinin təsiri altına düşəcəkdir.

Hər nə qədər lisani və lüğəvi nöqteyi-nəzərdən kumukca balkar, qaraçay və Krım şivələrinə pək ziyadə yaxın olsa da, bunlardakı ədəbiyyatın azlığı istər-istəmoz kumukcanı da cənubi türk ədəbi şivələrindən birisinə (ya Azərbaycan, yaxud Osmanlı) yaxınlaşdıracaqdır. Artıq inqilabdan sonra nəşr olunmaqda bulunan "Maarif yolu" jurnalının və "Yoldaş", "Dağıstan füqərası" qəzetələrinin dili, üslubu buna şahiddir.

* * *

Kumuk ədəbiyyat və dili haqqında daha müfəssəl və daha elmli məlumat almaq istəyən oxuyucuya "Darülfünun əxbarı" üçün hazırlamaqda olduğum müfəssəl əsəri gözləməsini tövsiyə edərək burada yalnız kumuk dilində şimdiyə qədər nəşr olunan bəzi əsərlərin sadəcə ünvan və təb tarixini qeyd etmək istəyirəm:

1. Hidayətül-ülum. Əbu Süfyan. İstanbulda təb edilmişdir.
2. Qalıq kitab. Əbu Süfyan. Teymurxanşura, 1914.
3. Məcmuül-əşar. Əbu Süfyan. Teymurxanşura, 1912.
4. Bərbər qala. Mütərcimi Əbdülhəkim əl-Ərəfli. Teymurxanşura, 1333.
5. Yaşlanı dünyası. Məhəmməd əl-Qərazi Debirov. Teymurxanşura, 1922.
6. Yemişi xəbərlər, şirin sözlər. Tərcümə Əl-Ərəfli Şeyx Əhməd Nəbi Baybulat, 1324.
7. Məcmuül-mənzumatil-əcəmiyyə. Əbu Süfyan. Teymurxanşura, 1914.
8. Yazıq Həbibə. Nohay Batırmirzəyev. Teymurxanşura, 1328.
9. Qız yaşlanı tilindən bir şikayət. Əbu Süfyan, 1328.
10. Gözəl qız Xədicə. Qazaxcadan tərcümə Əbdülhəkim əl-Ərəfli Teymurxanşura, 1913.
11. Kiçi təcvid. Əbu Süfyan. Teymurxanşura, 1913.
12. Sittətü-əlsinə (ərəbcə, kumukca, avarca, urusca, çeçencə, qazıkumukca). Teymurxanşura, 1911.
13. Dəniz Sindibad. Mütərcimi Nohay Batırmirzəyev. Teymurxanşura, 1912.
14. Davud bulan Leyli. Nohay Batırmirzəyev. Teymurxanşura, 1922.
15. Canşah. Mütərcimi Nohay Batırmirzəyev. Teymurxanşura, 1330.
16. Fənn tərbiyə və tədrisi və olanı üsulu. Müəllifi Məhəmməd əl-Qərazi Debirov. Teymurxanşura, 1924.

* * *

Burada zikr etdiyimiz əsərlər az-çox mühüm olub təb olunanlarıdır. Bunlardan başqa, bir çox əsərlər daha vardır ki, hər nasılsa şimdiyə qədər təb edilməmişdir. Məsələn, Temirbulat Beybulatovun

kumuklar arasında topladığı şərqilər və "Can azığı" namilə tərtib etdiyi şeirlər məcmuəsi bu qəbildəndir. Mətbəələrinin darlığından, bir az da xalq ədəbiyyatına və ona təqlidən yazanların əsərlərinə gərəyi kibi əhəmiyyət verilmədiyindən Beybulatovun:

Etmə söyüb xalqıma bir qulluqnı,
Çaçdım çarnab tavığa bir az uluqnı
Çarnağanım miskin xəlqni yarığı
Çaçğanımda tek bulsun can azığı –

təmnisi şimdilik yerinə gələmiyor.

Yazdakı səyahətimiz əsnasında bən də xalq ədəbiyyatından bəzi dastanlar və şərqilər toplamağa müvəffəq oldum. Bunların tədqiqi bənə Şimali Qafqazı, ümumiyyətlə Cənubi Rusiya türk şivələri haqqındakı tədqiqatımı genişlətməyə fövqəladə xidmət etdi. "Maarif və mədəniyyət" səhifələrindən böyük səmimiyyət və dostluqla xalq ədəbiyyatı və məişəti ilə tanış olmamıza xidmət edən Dağıstan maarifçilərinə, şairlərinə, bilxassə bu əsnada bir çox zəhməti ehtiyar edən Mirzə Temirxanov, İsayev, Muxtar Temirxanov, Əbu Süfyan, Məhəmməd Nəbi və Azərbaycan Ali Pedaqoji İnstitutu məzunlarından Surxay Temirxanova, Bakı Darülmüəllimini tələbələrindən Mikayıl Qanbulatzadəyə və başqa elmi planımızı olduqca böyük müvəffəqiyyətlə sonuna çıxarmamıza yardım göstərənlərə təşəkkürü borc biliyorum.

"Maarif və mədəniyyət", № 3(23), 1925, səh. 22-26.

DİL HAQQINDA FİLOSOFLARIN FİKRİ

Dilin səscə, şəkilcə, mənaca keçirdiyi və keçirməkdə bulunduğu təbəddüllər, dəyişmələr haqqında zamanımıza qədər və zamanımızda cildlər dolusu kitablar yazılmış və deyə biləriz ki, bütün mühüm və elmi məsələlər çözülmüşdür. Yalnız dilin mahiyyəti, nə olduğu və mənşəyi – nərədən gəldiyi doğrusunda daha müxtəlif elmlərin və alimlərin bütün qeyrət və ictihadına rəğmən qəti heç bir şey söylənməmiş və yazılmamışdır. Lakin bundan, şübhəsiz, bu xüsusda heç

bir məntiqi və həqiqətə yaxın nəzəriyyə bulunmadığı anlaşılmaz. Biləks, ta yunan filosofları zamanından başlayaraq Darvin və Lamark nəzəriyyəsi təsiri altında bulunan zamanımız filosoflarına qədər bir çox həqiqi və elmi nəzəriyyələr sird olunmuşsa, daha doğrusu, hər nəzəriyyə birinci baxışda nə qədər səthi və yanlış olursa-olsun, dilin mənşəyi və mahiyyəti barəsində hökm sürən qaranlığı bir dərəcəyə qədər yeritmiş və bizi həqiqətə bir-iki addım yaxınlaşdıra gəlmişdir.

Biz bu məqaləmizdə qısadan bu nəzəriyyələrin bir-ikisi ilə qaremizi tanış etmək və gələcək məqalələrimizdə isə bunların münaqişəsi və öz əqidəmizin izahı ilə məşğul olmaq istəyiriz.

Həman bütün elmi, ictimai və fəlsəfi məsələdə olduğu kibi, dil xüsusunda da ən birinci söz yunan filosoflarınındır. Bundan başqa, mədəniyyət və ali mütəfəkkirlərinin dil haqqında heç bir fikri, nəzəriyyəsi olmadığı nəticəsinə varmamalıdır. Hər şeyin yunan fəlsəfəsindən başlaması müvəqqəti bir haldır və Avropa üləmasının və Avropa mədəniyyətinin dövri-intibahdan bəri aldığı xüsusi vəziyyətilə əlaqədardır. Çünki Avropa elmləri hər şeydən ziyadə Ağ dəniz hövzəsi mədəniyyəti, yəni yunan və Roma mədəniyyətlərini tədqiq ilə işə başlamışlardır. Bu alimlərin başqa mədəniyyətlər və dövrələr haqqında əldə etdikləri və bizə bildirdikləri məlumat yunan və Roma mədəniyyətləri barəsindəki məlumata görə səthi və ikinci dərəcədədir. Misir, assur-babil, hind-Çin və türk-tatar-ərəb-fars alimləri və mədəniyyətləri haqqındakı məlumat hənuz məntiqi və tam bir surətdə təsnif və müqayisə edilməmişdir. Yunan filosoflarından dil barəsində birinci nəzər-diqqəti cəlb edən fikirləri meydana qoyan Demokrit **(Democrite)** olmuşdur.

Demokritin fikrincə, dil ixtiyari bir müəssisədir, yəni insan istədiyi kibi əşyanın adını qoya biliyor. Onun üçün "əşya ilə sözlər arasında bir rabitə yoxdur". Bunun üçün Demokrit üç nöqtəyə nəzər-diqqəti cəlb ediyor:

1) Bir sözün bir kaç mənası olıyor; 2) Bir şeyin bir çox ismi olıyor; 3) Bir-birinə bənzəyən şeylərin isimləri başqa-başqa olıyor.

İştə Demokritin əsasi fikirləri... O da bir çox kəndisindən sonra gələn filosoflar kibi, hər şeydən əvvəl dilin təbiətlə mərbut olub-olmadığı məsələsinə əhəmiyyət vermiş və yuxarıda görüldüyü kibi, təbiətin dillə heç bir əlaqəsi olmadığı nəticəsinə gəlmişdir. Demokritin yuxarıda sird etdiyimiz üç tərifi lisaniyyət üçün bir addımdır.

Lakin onun zənn etdiyi kibi lisanla təbiət arasında heç bir münasibət olmaması və dilin başdan-aşağıya "ixtiyari bir müəssisə"dən ibarət olması, yəni insanların kefinə və iradəsinə bağlı bulunması, şübhəsiz, doğru deyildir.

Əflatuna görə, biləks, sözlərlə əşya arasında sıxı-sıxıya münasibət vardır. Əflatun şu nöqtələri çox iyi görmüşdür: 1) Sözlər düşünmə və təhlil **(analyse)** altıdır və isim əşyanı öyrənmək, mühiti və təbiəti tədqiq etmək vasitəsidir. İsim yardımilə əşyanın bir-birinə olan münasibətini anlaya biliyoruz; 2) Söyləmək və nitq xasiyyəti təbii olub, Demokritin zənn etdiyi kibi etibari **(conventional)** bir müəssisə deyildir. Etibar və etiyad yalnız sözlərin mənasını təyin və təsbit, yaxud təhrif və təbdil edə bilər; 3) Fikir lisandan, yaxud sözdən doğmaz, biləks, söz, dil fikirdən doğar. Bir şeyə isim verə bilmək üçün əvvəla o şeyin özünü görmək, tanımaq lazımdır.

Görüyoruz ki, Əflatun Demokritə görə daha ziyadə iləriyə getmişdir. Əflatun artıq əldə nə kibi faktor – amillərin bulunduğunu fərq etmişdir. Həqiqətən Əflatunun iləriyə sürdüyü fərziyyələrin hər üçü də bugünkü təcrübi və müsbət lisaniyyat tərəfindən təfsil və az-çox təbdil edilməklə bərabər, zərrə qədər cürh edilməmişdir. İki min beş yüz il əvvəl şimdi[ki] texnik və mədəniyyəti görməyən və təsəvvür belə edəməyən adamların öz tədqiqlərində bu qədər üzv, doğru nəticələrə vara bilmələri pək heyrət və təqdirə layiqdir.

İştə bütün digər məktəblər ta dövri-intibaha və hətta on səkkizinci əsrə qədər həp bu iki bir-birinə zidd nöqteyi-nəzərdən doğmuş və əsas etibarilə bu iki nöqteyi-nəzərin təfsil və təfsirindən başqa bir şey demək deyildir.

Hər iki fikir də – gərək Demokritin, gərəksə Əflatunun – yunan mədəniyyətinin parlaq dövründə dini rəngdən uzaq və adi olduğu halda, bir az sonra hər iki nəzəriyyə də dini şəklə bürünmüşdür. Demokritin nəzəriyyəsindəki "ixtiyari və iradəvi" yerinə xristianlıqdan sonra "ilahi" fikri girmiş, Əflatunun nəzəriyyəsinə gəlincə, bu da "Allah tərəfindən insana bəxş olunan nitq məziyyəti və ifadəaltı olaraq" dəyişmişdir.

Bekona **(Bacon)** qədər dil haqqında olan nəzəriyyələrdə böyük bir dəyişmə görülmiyor. Bekon lisanın yalnız sözdən ibarət olmadığını söyləmişdir. İnsan daha bir çox yollarla məramını anlada biliyor. Bəlkə, ilk dəfə filosoflar içində Bekon bir fəlsəfi-müqayisəli sərf

meydana gətirmək lüzumunu irəli sürüyor. Bekonun **"Novum organum"** namındakı əsərində lisan haqqında sird etdiyi ikinci fikir də: "Hər lisanda ən gözəl qayda və sözləri toplayıb ondan nümunə ola biləcək kibi bir dil meydana gətirmək öylə ki, böylə bir dil ilə ruhun və dimağın daha yüksək həyəcan və hərəkətini ifadə mümkün olsun". İştə bu fikir esperantonun və onun tərəfdarlarının məbdəi-tarix ittixaz edə biləcəyə bir nöqtədir.

Leybnic **(Leibniz)** elmi lisaniyyatın müəssisi sayılır. Leybnic Dekart fəlsəfi məktəbində dil məsələsi ilə xüsusi surətdə uğraşan bir filosofdur. Leybnic filoloji üsulunun pək böyük müvəffəqiyyətlə əsasını cızmışdır. Leybnicə qədər yəhudi dilini bütün insan dillərinin mənşəyi və anası sayarlardı. Leybnic birinci dəfə bu fikrə qarşı çıxmışdır.

Leybnic dini nəzəriyyələri atdıqdan sonra müqayisəli üsulu vəz' etmişdir. Leybnicin fikrincə, dil yazıdan əvvəl insanların malik olduğu bir xasiyyət üçün onların ən əski həyatını pək gözəl göstərə bilir. Bunun üçün hər lisandan toplayaraq lüğətçələr tərtib etməli və bunları kəndi aralarında müqayisə eməlidir. Leybnic eyni zamanda türk-tatar, Ural-Altay lisaniyyatının müəssisidir. O, türk-tatar və macar-fin lisanlarının bir-birinə yaxın olduğunu ilk əvvələn duymuş və bütün dillərin nəticələrini tərtib edib, kəndi aralarında müqayisə etməyi tövsiyə etmişdir.

Şarl de Bross **(Sharles de Brosses).** Bu adam on səkkizinci əsrin sonlarında nəşr etdiyi **"Essai sur la formation mecanique des lonques"** – dillərin mexaniki təşəkkülü haqqında yazdığı və 1765-də nəşr etdiyi əsərində lisaniyyatda bu günə qədər təsiri olan iki mühüm prinsipi meydana qoymuşdur. De Brossun fikrincə: 1) dil sövti üzvlərimizin yapılışından doğmuşdur; 2) əşyanın təbiətindən mütəəssir olmuşdur. Binaən əleyh etibari və süni bir müəssisə deyildir. De Brossun ortaya atdığı bu iki fikir bir-birini tamamlar və həqiqətən dili doğuran iki böyük amil üzərinə barmaq basar. Heç şübhəsiz, dil hər şeydən əvvəl insanın sövti üzvlərinin mövcudiyyətinə bağlıdır. Səs çıxaracaq üzvlərimiz olmasa, dil də olamaz. Demək ki, de Bross bizim bu gün səslərin fiziolojisi namını verdiyimiz lisan xüsusiyyətini təfərrüq və onun qiymət və əhəmiyyətini təqdir etmişdir.

Digər tərəfdən, əşyanın təbiəti dil üzərinə təsir edər – qəziyyəsini de Bross kitabında təfsil edərək, nəhayət, insanda olan həyəcan **(emotion)** və təqlid **(imitation)** nöqtələrinə götürür və dilin

vücuda gəlməsində təbiəti və onda bulunan hərəkət və səsləri insanın təqlid və bənimsəməyə qalxışmasının dilin bir ifadə və düşüncə aləti olaraq təməlləşməsi və inkişafı üçün fövqəladə əhəmiyyəti olduğunu isbat edər.

Bekker və Şleyxerin Potebnya **(Потебня)** tərəfindən tənqid olunan fikirləri de Brossun fikrinə görə həqiqətə daha az yaxındır.

Vilhelm Humbold[t]a görə, "dil bir iş, təhəccür, təmərküz etmiş bir hal deyil, bəlkə, daimi bir işləmə, fəaliyyətdir və bu da hər şeydən əvvəl fikri fəaliyyətimizdir". Vilhelm Humbold[t]un bu tərifi, heç şübhəsiz, naqisdir. Çünki yuxarıdakı nəzəriyyələrdə gördüyümüz kibi, dil yalnız ruhi fəaliyyətimizdən doğmuş deyildir; dilin doğmasında üzviyyətimizin də böyük rolu vardır. Lakin fon Humbold[t]un nəzəriyyəsi de Brossunkunu tamamlayır. Orada üzviyyətə verilən mövqeyi bir az darlaşdırıb, onun yanına ruhi fəaliyyətimizin rolunu da əlavə edəcək olursaq, bugünkü lisaniyyat tərifini əldə edə biliriz: Dil üzvi və ruhi fəaliyyətimizin nəticəsidir və bu fəaliyyəti idarə edən üzvlərimizin məhsuludur.

Bütün bu nəzəriyyələri böylə müxtəsər və quşbaxışı gözdən keçirməklə şu nöqtələri açıq surətdə görüyoruz:

1. Dil və onun nərədən doğduğu məsələsi əvvəldən bəri alimlər və insanları məşğul edə gəlmişdir.
2. Dil haqqında zamanımızda mövcud olan elmi fikirlər və baxışlar yalnız bizim əsrimizin məhsulu olmayıb, binlərcə il içində yavaş-yavaş qurulmuşdur və elm tərəqqi etdikcə daha da ilərilyəcəkdir.
3. Dilin mənşəyi və inkişafı yolları bu gün belə gərəyi kibi tərif və tənvir ediləməmişdir.

Mənbələr:

1. Paul Jauet. Histoire de la Philosophie.
2. А.А.Потебня. Язык и мысль.
3. Hermann Paul. Principien der Sprachgeschichte.

"Maarif və mədəniyyət", № 3(23), 1925, səh. 29-31.

FÜZULİ VƏ ONUN YERİ

"Füzuli Şərqin yetişdirdiyi
ən səmimi, ən həssas şairidir"
Mister Gibb

Dörd yüz il... Az zaman deyildir. Dörd yüz ildə irmaqlar yataqlarını dəyişdirir, dağlar asınır, insaniyyət tarixində bir deyil, bir kaç böyük dövrlər gəlir keçir, yüzlərcə hökumətlər, dövlətlər və binlərcə dövlət adamları doğub-ölür. Bununla bərabər, dörd yüz il çox uzun zaman da deyildir. Elmin, fənnin böyük-böyük kəşfləri, icadları sayəsində dörd yüz, dörd bin, hətta qırx bin sənəlik bir zamandan az-çox məlumatımız vardır.

Füzulidən çox əvvəl gəlmiş-keçmiş türk şairləri, alim və həkimləri, filosofları vardır. Füzuliyə gəlincəyə qədər türklər bin ildən ziyadə bir ömrə malik ədəbiyyat və olduqca böyük, şöhrətli, qüdrətli dövlətlər doğurmuşlar. Bunlardan Orxon, Turfan kitabələrinə, "Kutadqu bilik", "Divanü-lüğatit-türk", ümumiyyətlə, uyğur, cığatay namlarilə anılan dövrlərə işarət edərsək, nə demək istədiyimizi anlamış olur.

Bütün bunlara qarşı Füzulinin ayrı bir əhəmiyyəti vardır. Füzuli dörd yüz il əvvəl ədəbiyyatımızın dumanlı-buludlu üfüqlərində doğmuş, ölməmişdir və bəlkə, daha bir çox əsrlər ölməyəcəkdir. O bizim bu gün də könlümüzdə, xatirəmizdə, məktəb və səhnələrimizdədir. Ona bir müasirimiz, yaşdaşımız dersək, yanılmış olmayız. O, dörd yüz il yaşayan bir insandır. Yuxarıda saydığımız dövrlərin qəhrəmanları artıq həp tarixi simalar olduğu halda, Füzuli bu günə qədər canlı bir simadır. Digər tərəfdən, azacıq əlinə qələm tutan, bir kaç yazılı nümunə görən türk gəncləri, ixtiyarları arasında bilərək-bilməyərək Füzulini oxumayan, eşitməyən, dinləməyən həman yox kibidir.

Füzuli münəvvər təbəqə ilə xalqı ən böyük və ən incəlmiş şairlərimizlə yüzlərcə illərdən bəri, bəlkə də, əlinə heç bir zaman kitab almamış köylülərimizi "Leyli və Məcnun" ilə ağladan, "Şikayətnamə"si ilə güldürən və digər qəzəllərilə coşduran yeganə bir şairimizdir.

Məşhur alman müştəşriqi, professor Martin Hartman "Türküstanda kitab sənəti" nam əsərində: "Füzuli Daşkənddə, Qazanda, vəl-

hasil, Asiyanın hər tərəfində təqdirlə oxunur", – deyir. Demək ki, o – Füzuli bizim türk, hətta Şərq ölkəsinin hər tərəfində qarşımıza çıxır, hər yerində vətəndaşımız, köydaşımızdır.

Füzuli bütün Şərq ədəbiyyatında, bütün Şərq ellərində məlum olduğu, təqdir etdiyi kibi, Avropada da böyük rəğbət və məhəbbətə məzhər olmuşdur.

Avropa müştəşriqləri Füzulini bir çox cəhətlərdən türk və Şərq ədəbiyyatının yeganəsi saymışlardır. "Osmanlı şeirinin tarixi"ni altı cildlik böyük və müəzzəm bir əsərdə izah və təhlil etmiş olan və hökm təqdirində pək ziyadə müşkülpəsənd görünən mister Gibb əsərinin Füzuliyə təxsis etdiyi qismində onun türk və Şərq ədəbiyyatındakı müstəsna mövqeyindən bir kaç kərə yüksək təqdir və səmimi sitayişlə bəhs ediyor. Məsələn, "Osmanlı şeirinin tarixi" nam əsərinin üçüncü cild ikinci səhifəsində Füzuli haqqında: "Şərqin Şərq olalıdan bəri yetişdirdiyi şairləri içərisində ən səmimisi və ən həssası Füzulidir", – dediyi kibi, eyni əsərin eyni cildinin 86-88-ci səhifələrində Füzulinin "Leyli və Məcnun"u haqqında: "Bu, yəni "Leyli və Məcnun" şimdiyə qədər yazılan məsnəvilərin ən yüksəyi və ən gözəlidir", – sözlərini qeyd etməklə bərabər, yenə Gibb 70-ci səhifədə: "Bütün türk ədəbiyyatında Füzulidən daha böyük bir isim bulmaq mümkün deyildir", – deyərək təqdirini son dərəcəyə vardırıyor və Füzulini başlanğıcından zamanımıza qədər türk ədəbiyyatında yetişən şairlərin sultanı, yəni sultanüş-şüərası mərtəbəsinə çıxarıyor.

"Türk ədəbiyyatında eşq" namilə yazdığı əsərində Edmon Fazi: "Füzuli Asiya məktəbi-ədəbisinin ən böyüklərinin şairidir. Ondan sonra keçən dörd əsr içində bütün şairlər onu tərənnüm etdilər. Fəqət, yenə o həpsinin üstündə məsləyin yeganəsi qaldı", – sözlərini yazıyor.

"Osmanlı şeir sənəti"nin müəllifi və Avropa türkşünaslarının babası Hammer Bürqştaldan professor Krımskiyə qədər eyni fikirlərin az-çox dəyişmiş təbirlərlə Avropa şərqiyyatçılarında bulunduğunu görüyoruz.

Avropa üləmasının yuxarıda zikr etdiyimiz fikirlərindən də aşkar olduğu kibi, Füzuli Azərbaycan – Osmanlı türklüyünün və fars-ərəb mədəniyyət dairələrinin on dördüncü, on beşinci, on altıncı əsrlərin təsadüf və çarpışma nöqtəsi olan Bağdadda böyümüş və çalışmış olmaqla bərabər, yalnız bir-iki qövmün, hətta yalnız türklüyün şairi saymaq lazım gəlməz. Onun yeri bütün Yaxın Şərqin yetişdirdiyi ölməz böyüklər arasındadır.

İştə bunun üçün professor Krımski "Türk ədəbiyyatı tarixi" nam əsərində: "Füzuli həm fars, həm Azərbaycan və Osmanlı ədəbiyyatları tarixinə girər", – dediyi zaman yanılıyor. Şərqin on yeddinci əsrə qədər ərəbi, farsı, türkü birləşdirən iqtisadi, ruhi, ictimai bir əsası, təməli var idi ki, o təməl də ümumi ruhda yetişən filosoflar, ədiblər, şairlər bütün Şərqin malıdırlar və bunların fəaliyyəti ayrı bir Şərq tarixi, bir Şərq ədəbiyyatı meydana gətirmişdir. Ərəb, fars, türk ruhunu kəndi şəxsiyyətində ən iyi məzc edən bu xəlitələrdən bugünkü cənub türkcələrində (Osmanlı və Azərbaycan) olduğu kibi, sepalı, üçayaqlı bir lisan deyil, yekparə bir əsər meydana gətirən Füzuli olmuşdur.

O, ərəb eşqi, fars ruhu və türk qılıcilə qurulan əsrlərin ağır və acıqlı uruşları altında yıxılan Bağdadın ruhunu qavramış, onu bizə duyurmuşdur. Qrek, Bizans, fars, türk, ərəb ruhlarının mənsəbi, bir vaxtlar dünya iqtisadi yollarının kilidi olan Bağdad xarabalarını oxumuş, duymuş və tərcümə etmişdir. Bu cəhətdən o, böyük cahan faciəsini bizə tərənnüm etmişdir.

Bundan başqa, Füzuli kəndi zamanındakı Bağdadı da duymuşdur. Füzulinin yaşadığı Bağdad o vaxtdakı İran və Türkiyənin qanlı sərhədi idi. Füzuli dövrü şiə-sünni davalarının, islam dünyasında İran və Türkiyə faiqiyyəti, hegemoniyası mücadilələrinin ən ziyadə şiddət qazanmış bir zamanı idi. İqtisadi həyatın gevşəkliyi, siyasi idarələrin keşməkeşi, nəhayət, ruhi həyatın qəvi ümdələrə istinad edəməməsi böylə dövrlərin açıq və ana cizgilərindən sayılır.

İslam tarixində Əli – Müaviyə, abbasi – əməvi, islam – moğol, fars – ərəb, türk – fars və ərəb mücadilələri və doğurduqları böhranlar ayrı dürlü olaraq qeyd olunmalıdır. Bu dövrlərin bütün cahan və insanlıq tarixi nöqteyi-nəzərindən böyük iqtisadi və ictimai mənası vardır.

Biz burada yalnız şunu qeyd edəcəyiz: böylə dövrlərdə çox dəfə Şərqdə mistik-mütəsəvvif şairlər yetişmişdir. Məşhur ərəb, fars və Əhməd Yasəvi, Yunus İmrə, Aşıq Paşa... kibi türk sufi şairləri böylə dövrlərdə yetişmişdir. Böylə dövrlərin aşağıdan-yuxarıya, bir kənardan digərinə qədər bütün Şərqi sardığına bir əlamət də şudur ki, yalnız şairlər deyil, xalq da mistik-sufi ruhunda bulunmuşdur. Əsasən böyük sufi şairləri xalq ruhunun tərcümanı olmuş və yaxud olmağa çalışmışlardır.

Lakin Füzuli sufi-mistik deyildir. Gerçək sufilər kibi, o da şərabdan, eşqdən bəhs edər. Lakin onun bəhs etdiyi şərab üzümdən (əngur) yapılmış qırmızı şərab, "meyi-ləl"dir:

"Tərəfə" adı, zəmanə məşhuru,
Ləqəbi "Badə", əsl ənguru...

Yenə kim, "Bəngu Badə"sinin sonunda:

Çün Füzulidürür bənim ləqəbim,
Əcəb olmaz, gər olmasa adım –

deyərək kəndisinin bəhsi haram və şər' və şəriət adabına zidd, müxalif şeylərdən bəhs etdiyini təsdiqdə bulunuyor.

"Eşq"inə gəldikdə, burada da biz xalqın "qara sevda" dediyi melanxoliya, ən yüksək həyəcan və yas dərəcələrinə qədər çıxan cinsi bir sevgi, səltənət və məzhəb qovğalarından uzaq bir guşədə ailə qurmaq, bəxtli olmaq istəyən həssas fərdiyyətçi-individualist sevgisini görüyoruz. Böylə bir sevgi ilə Əhməd Yəsəvi, Yunus İmrə kibi türk sufilərində rast gəldiyimiz eşqi-ilahi, əflatuni məhəbbət arasında pək böyük fərq vardır:

Pərişanhalın oldum, sormadın hali-pərişanım,
Qəmindən dərdə düşdüm, qılmadın dərimanım,
Nə dersən, rüzgarım böyləmi keçsin, gözəl canım?
Gözüm-canım, əfəndim, sevdiyim dövlətli sultanım.

Qətti könlün nədən bu zülmə, bidadə rağibdir?
Gözəllər sən kibi olmaz, cəfasından nə vacibdir?
Sənin tək nazəninə nazənin işlər münasibdir,
Gözüm-canım, əfəndim, sevdiyim dövlətli sultanım...

Yaxud:

Hasilim bərqii-həvandan məlamət dağıdır,
Müsnədim kuyi-məlamətdə fəna toprağıdır,
Zari-könlüm təndə zindani-bəla dustağıdır,
Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır.

Gərçi Füzulidə həqiqi sufi parçalar da vardır. Çünki o, İranın, ərəbin klassik sufi şairlərindən nümunələr görmüş, dərs almış, təsir qapmış ola bilir. Lakin yuxarıda gətirdiyimiz kibi parçalarda böylə sufi-mistik duyğusu və ruhu aramaq mümkün deyildir. Mistik şəkil və ruhunda yazılmış parçalar az-çox təqlid və tərcümə əsəri isə, bu sərf

maddi eşqə, cinsi məhəbbətə aid yazdığı şeylər, əsli və şəxsi şeirlərdir ki, yüzdə yüz Füzulinin kəndi ruhundan, öz mühitindən və xalqından alınmışdır. Netəkim "gözəl canım", "gözüm-canım", "mürüvvət çağı"... kibi təbirlər, yaxud "Sənin tək nazəninə nazənin işlər münasibdir" və "Gözəllər sən kibi olmaz, cəfasından nə vacibdir" kibi cümlələr heç bir zaman ilahi, mövhum, hətta xəyali bir gözələ, gözəlliyə deyil, Bağdadın filan məhəlləsində, filan evində yaşayan, Füzulicə, gözəl bir xanıma, bir türk qızına aiddir. İştə Füzulinin ən böyük səmimiyyəti də buradadır.

Şeyləri, sevdiyini-sevmədiyini kəndi adilə söyləmək, yad etmək alim filosofların da pək az görülən hallardan olduğu kibi, pək böyük yenilik və pək yüksək qəhrəmanlıqdır. Bütün Şərq dilləri, bütün Şərq həyatı pərdə altında qalmış, doğrudan-doğruya təəllüq (**непосредственность**) və bunun nəticəsi olan səmimiyyət Şərqdə məchul xüsusiyyətlərdən sayılır. İştə bunun üçün Şərq şairləri haqqında "səmimi" demək, deyə bilmək kiçik bir təqdir deyil, bəlkə, dahi inqilabçı deməkdir. Çünki cəsarət, icadçılıq, üsyan, istiqbalçılıq... kibi böyük, yüksək duyğular, fikirlər həp bu sözcüyün içərisində gizlidir və bu miqyası, səmimiyyətin meyarını əlimizə alaraq, Şərq ədəbiyyatlarını gəzəcək olursaq, orada binlərcə şairlər içərisində bizə kəndisini, dərdini və mühitini, iman və etiqadını, sevdiyini-sevmədiyini doğrudan-doğruya, açıqdan-açığa igidcəsinə, mərdcəsinə söyləyə biləcək kaç sima, kaç şəxsiyyət bula biliyor?

Bunlar haqqında farsın böyük şairi Xəyyamın şu rubaisini xatırlamamaq mümkün deyildir:

آنها که محیط فضل و آداب شدند
در کشف علوم شمع اصحاب شدند
ره زین شب تاریك نبردند برون
کفتند فسانه و در خواب شدند

Tərcüməsi: Onlar ki, fəzliyyət və ədəbi əldə etmiş və elmi kəşflərdə xalqın çırağı, məşəlləri edir, bu qaranlıq gecədən yollarını aydınlığa çıxaramadılar, bir masal söylədi və uyudular...

"Şəb-tarik" – "qaranlıq gecə" Çindən Balkanlara qədər uzanan qeyri-səmimi, riyakar, qorxaq Şərq deyil də, nədir? Və o masal ucsuz-bucaqsız kütübxanələr dolduran ədəbiyyatımız olduğu kibi, bunları söyləyənlər də o böyük Şərq ədib və həkimləri deyilmi idilər?..

Halbuki Füzuli kəndi hisslərini, həyəcan və ümidlərini, mühitinin və xalqının səfalət zillətlərini o vaxtda mövcud olan ən qüvvətli sözlər, ən səmimi şəkillərlə anlatmışdır. Füzuliyə "mübaliğəçi", "safdil" deyə biliriz, lakin bu gün də, yarın da "yalançı", "masalaçı" deyəməyiz. "Ən gözəli-ən yalanı" ("əhsənühü–əkzəbühü") düsturilə yaşayan Şərq ədəbiyyatında o, ən gözəli, ən doğrusu olan şeirlər, əsərlər meydana gətirmiş birinci şairimizdir.

Füzuliyə "fərdiyyətçi aşiq" demişdik. Bununla bərabər, o, ümumi və ictimai həyata qarşı da laqeyd deyildir. O, zamandakı siyasi, fəlsəfi, ictimai cərəyanları yaxından təqib etmişdir. O həm Şah İsmayıla, həm də onun qanlı düşməni Sultan Süleymana mədhiyyələr yazmasını bilir və hər ikisinin də damarlarını oxşayacaq şeylər bulur. O həm sünni ruhunda nə'tlər, həm də şiə şəklində mərsiyələr yazar.

Biz onun tərcümeyi-halından sünni [və] şiə məzhəbləri arasında bir-iki kərə intiqallar, çevirmələr yapdığını öyrəniyoruz. Vəlhasif, Füzulinin bir sifəti və olduqca mənfi sifəti də iyi bir Şərq məsləhətçisi, taktiki olmasıdır. O, "bərayi-məsləhət" qələmini gah Təbrizə, gah İstanbula, gah şaha, gah sultana təqdim edərək, kəndisinə lazım gələn rahatlıq və salamatı təminə çalışıyor.

O da şeirindən, istedadından hər Şərq şairinin tiranlara vermək məcburiyyətində olduğu vergini ödəmişdir. Lakin Füzuliyə digər saray şairləri kibi dalqavuq və qəsidəçi demək olmaz. Onun həyatını təsvir edən qızıl cizgi hər zaman saraydan və onun ədəbiyyat və cəmiyyət üçün zəhərli ruhundan uzaq qalmasıdır.

O daima kəndisini saray və sultana qarşı müariz və saray şairlərinə qarşı məğrur və müstəhzi tutmuşdur. Baxınız, o, Şah İsmayılın, yaxud Sultan Səlim və Süleymanın zamanımıza qədər parlaq sayıla gəlmiş fütuhatı haqqında nə deyir:

Padişahi-mülk dinarü dirhəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.

Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,
Ol dəxi asari-əmnü istiqamətdən bəri...

Göstərir saətdə dövranı-fələk bir inqilab,
Həm özü fani olur, həm ləşkəri, həm kişvəri...

Yaxud:

Ey Füzuli, odlara yansın büsati-səltənət,
Yegdir andan, həq bilir, bir guşei-gülxün bəna...

"Yüz fəsadü fitnə təhrikilə" ölkələr fəth edən padşahların fəaliyyin bir inqilabı nəticəsində əsgərləri, səltənətləri, ölkələrilə məhv olacaqlarını, olduqlarını, ola gəldiklərini xəbər verən Füzuli bu fitnə və fəsadın ocaqlarını da pək gözəl görmüş, tanımışdır. Bu ocaqlar o səltənətin divanları və sair müəssisələridir ki, bunlar haqqında yazdığı "Şikayətnamə" Füzulinin digər əsərləri kibi, zamanımıza qədər bizi güldürməkdə və ağlatmaqdadır.

Rüşvət deyildir deyə salam almayan bu müəssisələrin müdiratını "kəl-ən'am bəl həm əzəlli-heyvan" kibi və bəlkə, onlardan aşağı deyə tövsif və "nə səfadən andə əsər və nə sidqdən andə nişan var", - deyə təsvir ediyor. Nəhayət, bunlara qarşı kəndisini "fəqiri-padişahasa" – padşah kibi fəqir, "gədayi-möhtəşəm" – həşəmətli dilənçi və qəm karvanının qafiləsaları – yol başçısı, qılağozu adlandırıyor:

Mənəm kim, qafiləsalari-karvani-qəməm,
Müsafiri-ra səhrayi-möhnəti-ələməm,
Həqir baxma bənə, kimsədən sağınma kiməm,
Fəqiri-padişahasa, gədayi-möhtəşəməm.

Nə mülkü mal bəna çərx versə, məmnunəm,
Nə mülkü maldan avarə qılsa, məhzunəm,
Əgərçi müflisü pəstü mühəqqər dunəm,
Dəmadəm öylə xəyal eylərəm ki, Qarunəm.

Lakin o, karvandan, xalqdan da məmnun deyildir. Onları da kəndisini anlayacaq, təqdir edəcək, dərdinə ortaq, sirrində sirdaş olacaq kibi bulmayır:

Bir diyar içrəyəm ki, xəlqindən
Eyləməz heç kim bəna pərva.

Kimsə yox, dərdim eyləyəm izhar,
Eyləyəm andan iltimas də'va.

Lə'lvəş daş içindədir vətənim,
Gül kibi xari qılmışam mə'va...

Məzhəb qovğalarına cəlb edilmiş köylü və köçəbələr, dərin bir böhran dövrü keçirməklə bərabər, sufizmin dibsiz, əsilsiz şüarlarında təsəlli arayan və hər biri bir pirin himayəsində yaşayan əsnaf təşkilatları və bütün bu əski və mütərəddi, münqəriz "Şərq konsertini" idarə edən rüşvətçilər Füzulini anlaya biləcək, heç olmazsa, sevinc yerinə qayğı, sürur yerinə matəm dövrünün gəldiyini duyacaq halda deyil idilər. Sonra xəlqi şeirləri, fikirləri ilə aşılayacaq məharət və bilgi, bəlkə, iradə və əzm Füzulidə, Füzulinin dövründə hənuz doğmamışdı.

Füzuli dili etibarilə sadə olmaqla bərabər, təbir caizsə, heç təmiz deyildir. İstanbulun, Baqi, Nəf'i kibiləri müstəsna olmaq üzrə bir çox şairləri ilə Füzuli arasında türkcə sözlər qullanışında fərq pək azdır.

Ərəbi və farsi sözlərin nisbəti Füzulidə də yüzdə doxsana varmaqla bərabər, dilinin yenə də görülməsinə bir kaç səbəb vardır:

1. Füzulidə şəkli təsənnö və üzüntüdən heç də əsər yoxdur. Yazdığı şeyləri bir kərədə hafizəsinə nasıl gəlmiş, şüurunda, vicdanında da nasıl doğmuşsa, öylə yazılmış kibidir.

2. Ərəbi, farsi sözlərdən qulağımıza ən ziyan alışıq, hafizəmizə tanış, zövqümüzə yaxın olanlarını qullanmışdır. Ərəbi-farsi sözlərini digər klassik şairlər, hətta Tofiq Fikrət və Hamid kibi, qamuslar və lüğətlər toplamayıb, çox vaxt o vaxtdakı münəvvər təbəqənin ağzından almışdır ki, bu surətlə ondakı ərəbcə və farsca təbirlərin yarısından ziyadəsi bu gün bilxassə cənub türk xalqlarının ağzında işləməkdə və lüğətlərində qullanılmaqdadır.

3. Qullandığı türkcə sözlər az olmaqla bərabər, digər şairlərdə olduğu kibi yalnız fellər olmayıb, bunlar arasında bir çox da Füzuliyə qədər ədəbiyyata çıxmamış xalq sözləri də vardır.

4. Nəhv və məntiq cəhətindən uzun və silsiləli cümlələr Füzulidə pək az olub, çox kərə hər fikrə qarşılıq ayrı bir cümlə vardır ki, bu surətlə ifadəsi həm sadə, açıq, həm də qüvvətli və təsirli oluyor.

Füzuli şeirlərinin pək çoxunu yalnız təsadüfi olaraq türkcə yazmış deyildir. O, farsca daha gözəl yazıldığının və farsca daha ziyadə ədəbi modada bulunduğunun fərqindədir. Lakin o da Aşıq Paşa, Əlişir Nəvai, Yunus İmrə... kibi digər bir çox qüvvətli türk şairləri kibi [...]

türkcə kibi işlənməmiş bir dil ilə gözəl şeir yazmaq [mümkün] olduğunu ileri sürmüşdür:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzm nazik türk ləfzilə ikən düşvar olur.
Bəndə tofiq olsa, bu düşvarı asan eylərəm,
Novbahar olğac dikəndən bərki-gül izhar olur...

Burada bir məsələ daha qalıyor. Əcəba, Füzuli türkcənin hankı şivəsilə yazmışdır? Füzulidə dilcə rast gəldiyimiz başlıca xarakteristik cəhətlər bəzi sözlər olub, cümlə tərtibində müəyyən şivəyə işarət edəcək xüsusiyyətlər pək azdır. Bu sözlərdən bəziləri şunlardır: *mən, dutsaq, tapşırmaq, eyləmən, yaxşı, yaman, özgə, ağ* ("aq"), *tək* ("kibi"), *sayru* ("xəstə")... Bu sözlərdən bəziləri bu gün azəri türk şivəsində yerləşməklə bərabər, əski Osmanlı və bugünkü digər şivələrdə də bulunur.

Divanının hər yerdə bir çox gözə görünür təhriflər, dəyişmələrə uğramaq şərtilə yazılmış olduğu ərəb yazısı, tələffüz və lisani cəhətdən bu xüsusda yapılması lazım gələn elmi və tədqiqi işini pək ziyadə gücləşdiriyor. Burada izahı üzün sürəcək digər bəzi lisani əlamətlərə dayanaraq, bu sətirləri yazan Füzulini lisanının türkcə qismi etibarilə Azərbaycan şivəsinə daha ziyadə yaxın buluyor. Şivə xüsusunda, daha doğrusu, uzun-qısa bir kaç dövr keçirmişə bənzəyir. Yenə eyni surətlə sözü uzatmamaq fikrilə professor Krımskinin Füzulinin kürd olması haqqında ileri sürdüyü iddianı münaqişədən vaz keçiriz. Əsasən Krımski "Türk ədəbiyyatı tarixi" nam əsərində ibtidadan zamanımıza qədər, Osmanlı sədri-əzəmlərinin listəsinə nəzirə yaparaq yetişən türk ədib, həkim və şairlərinin yüzdə doxsanını rum, kürd, arnavud, ərəb çıxarmışdır. Təbii, heç birisində, Füzulidə olduğu kibi, heç bir dəlil və söhbət əlavə etməmək şərtilə, hər halda Krımskini böylə cürətkar iddialara sövq edən cəhəti bu gün elmdən tış qılmaq lazım gəlir.

Xülasə, Füzuli "Bəngu Badə"si, "Saqinamə"si, "Leyla və Məcnun"u, "Şikayətnamə"si, qəzəlləri və başqa farsca, türkcə şeirləri ilə, yuxarıda da dediyimiz kibi, hər zaman ədəbiyyatımızda tər və təzə qalmış duyğular və şəkillərin mövcidi, təqlid olunamayan ustadı olmuşdur və bir çox əsrlər də böylə qalacaqdır.

Saraydan uzaq, qəsidəçilik sənətinə olmasa da, ruhuna yabançı qalması, zamanını işğal edən məzhəb qovğalarına, parlaq fütuhata qarşı lazım gələn hökmü və qərarı söyləməsi və hər kəsdə, hər xalqda, hər dövrdə müştərək dərin ruhi həyəcanları, duyğuları bulub, duyub, təsvir etməsi onu xalqın, münəvvərlərin, türkün, farsın, hər kəsin şairləri yapmışdır. Qərbdə, Avropada da ruhun dediyimiz dərin təbəqələrinə enmək qüdrət və şərəfi, şəksiz, Gete, Şiller... kibi pək az qələm sahiblərinə müyəssər olmuşdur. İştə bunun üçün Füzuli Avropada bütün türk, ümum Şərq şairləri içərisində bir çox xüsusiyyət və məziyyətləri ilə ən çox təqdirlərə məzhər olmuş bir şairdir.

Avropada və Asiyada dün və bu gün yapılmaqda olan tədqiqat ədəbiyyat tariximizdə parlaq səhifələr doğuracaq və "Füzuli bəhsi, dövrü və məktəbi"... olaraq ayrıca yer tutacaqdır. Bu etibarla Füzuli, bəlkə, bir kaç dörd yüz illik arxasından da görüləcək, parlayacaqdır. İstiqbal Füzuli kibi səmimi şairlərindir.

"Füzuli. Ədəbi fəaliyyətinin dörd yüz illiyi münasibətilə". Bakı: Azərbaycan Ədəbiyyat Cəmiyyəti, 1925, səh. 96–109.

TÜRK DİLİ SƏRFLƏRİNİN ÜMUMİ QÜSURLARI

Dil gərək!

Əski mədrəsələrdən bir az əvvəlki gimnaziya və seminariyalardan qoğulmuş olan türk dili yeni həyat və yeni dünya məktəblərinin proqramına bir elm, bir dərs və mədəniyyəti, biliyi və işığı bənimsəməmiz üçün yeganə alət olaraq girdikdən sonra hər kəs bir şeylə uğraşıyor: türkcənin sərfi!

Hankı elmi müəssisəyə yanaşsaq, hankı elmi təşkilata girsək, yaxud bunlarda yazılan, nəşr olunan jurnalları gözdən keçirsək, bütün məsələlərin mərkəzində ana dili və onun sərfi məsələsi duruyor.

Bu halın iki səbəbi vardır: 1) Türk dilinin öz məktəblərimizdə öyrətməsi və öyrənməsi aləti olaraq yer almasıdır. Bunun üçün şimdiyə qədər yalnız şairlərə lazım olan dil bundan böylə bütün pedaqoqlara və hər dürlü ixtisas adamlarına pək lüzumlu və qayət zəruri bir vasitə halına giriyor; 2) Simdiyə qədər bu dili öyrədən sərf kitablarımızın ehtiyaclarımıza qarşılıq, dərdimizə əlac olamamasıdır.

Renessans dövründə, yəni bugünkü Avropa xalqlarının latın dili təhəkküm və nüfuzu altından qurtulduğu zamanlarda Avropada da biliyin və sənət, məktəb və mədəniyyət davalarının başında dil və sərf məsələləri bulunıyordu.

O vaxtda latıncadan başqa dildə də ədəbiyyat və elm doğa bilir, başqa dillərin də qaydaları, müntəzəm ahəngli inkişaf yolları və söz xəzinəsi vardır, – deyənlər, deyə bilənlər böyük islahçılardan və fədakar alimlərdən sayılırdı.

1713 sənəsində filosof Laybnic **(Laibniz)**, ümumiyyətlə, dilin dəyişdiyi və təkamül etdiyi haqqındakı fikirlərini, türk-tatar və finuqor dillərinin bir-birinə yaxınlığı nəzəriyyəsini ilərı sürdüyü zaman Avropa alimlərində böyük heyrət və həyəcan doğurmuşdu.

Laybnicdən başqa, Lokk **(Lock)**, Bekon **(Bacon)**, Dekart **(Descartes)**, Adam Smit **(Adam Smith)**, Darvin **(Darvin)**... kibi yeni Avropanın böyük mütəfəkkirləri hər dil və sərf-nəhv məsələləri ilə uğraşmışlardır.

Avropa elmlərini yerli ana dilində zəbt etmək və birinci dərəcə məktəbdən darülfünuna qədər ümumi maarif sistemini milli dilə çevirmək ehtiyacları o vaxt Avropasında hər kəsi bu məsələ ilə uğraşmağa məcbur edirdi.

Biz də bu gün eyni vəziyyətdəyiz. Yüzlərcə illərdən bəri qonuşmaq, yazmaq, düşünmək üçün lazım gələn həyəcandan məhrum idik. Bu gün artıq oyandıq, duyduq və düşünüyoruz. Yeni Avropa bilgilərini, Şərqdə və Qərbdə gün-gündən yapmaqda olduğumuz kəşfləri, tərəqqiləri anlatmağa, qeyd etməyə, hesaba almağa məcburuz. Bunun üçün bizə bunları verə biləcək mükəmməl bir alət, mədəni, zəngin, məzbut və müdəvvən bir dil gərəkdir!..

Dil və sərf

Dil ruhi və ictimai bir hadisədir. Onu gərəyi kibi qullanmaq, iradəyə tabe etmək üçün şüurdan **(conscience – сознание)** keçirmək, təhlil və tədqiq etmək lazımdır. İştə dilə qarşı böylə şüurlu əlaqəmiz, tədqiq və təhlillərin nəticəsi, yekunu geniş mənasında sərfi meydana gətirir.

Sərf icad ediləməz, nasıl ki, Amerika yaradılamaz; hər ikisi də kəşf oluna bilir.

Dilin tabe olduğu qaydalar insanların məntiqindən deyil, bəlkə, sövqi-təbiisindən **(instenct)**, zehnindən, ruhundan çıxar. Bunun üçün sərf qaydalarını sərf kitabı yazanlar uyduramazlar, onlar yalnız qeyd edə bilirlər.

Yalnız şurasını da unutmamalı ki, sərfi olmayan bir dil düşüncə aləti, vasitəsi olamaz və kəndi dilinin sərfini yazamamış bir millət mədəniyyətə xidmət edəməz və mədəni sayılamaz.

Demək ki, mədəniyyətə iki ayağımızla birdən yürümək istərsək, dilimizin sərfi olmalıdır. Bu sərf də ancaq dilimizin elmi surətdə tədqiq və təhlili nəticəsində əldə edəcəyimiz yekunlardan başqa bir şey olmayacaqdır.

Üsul məsələsi

Burada sərf tərtibinin təməl məsələlərindən birisinə yanaşmış oluruz ki, bu da üsul məsələsidir.

Bir dili iki dürlü bilmək olur:

1) Təcrübə yolilədir ki, hər çocuğun ata-anasından şüursuz bir surətdə qonuşmasını öyrənməsidir. Bu sağlam-təbii, hər insan üçün mümkün olan şeydir. Buna "ana dili" deyiriz. Bu növ öyrənmənin ruhi təməli, yuxarıda dediyimiz kibi, insiyaq və ya etiyaddır;

2) Elmi yolladır ki, bu bir adamın kəndi dilini təhlil və tədqiq süzgəcindən keçirərək, şüurlu bir surətdə o dili bilməsi, söyləməsidir. Bu "sərf dili"dir və sərf vasitəsilə meydana gələ bilir. Dilin bu tərzdə öyrənilməsi hər kəsə nəsib olmaz. Bunun üçün kafi dərəcədə mədəniyyət yüksəkliyi, şüur kəskinliyi, bilxassə dili tədqiqdə yardımımıza gələn fizioloji, psixoloji, tarix-ictimaiyyat kibi bilgilərin doğub iləriləməsi şərtdir.

İştə birinci yolla dili öyrəniş və öyrətiş təsadüfi və üsulsuz olduğu halda, ikinci – sərf yolilə öyrəniş üsulidir və müəyyən qaydalara tabedir.

Demək ki, hər hankı bir dilin sərfini yazanlar və yazacaqlar üçün o dili "əzbərdən bilmək", oxumaq və anlamaq yetişməz; hər şeydən ziyadə o dili tədqiq lazımdır ki, bu surətlə: 1) dilin ümumi sxemasını, üzviyyət və ruhiyyəti, 2) o üzviyyət və ruhiyyəti doğuran, 3) yaşadan, 4) dəyişdirən amilləri və nəhayət, 5) bu amillərin digər insan dillərindəki amillərə olan münasibətini görsün və uzun təcrübə və zəhmətli çalışmalar nəticəsində bu məsələləri çözsün, həll etsin.

sualına burada cavab verə biliriz:

I. Dilin üzviyyət və təşəkkülatını anlatmaq üçün bu yoldakı xüsusi və ixtisasi tədqiqlərdən başqa, bu üzviyyətin dürlü nöqteyi-nəzərlərdən tədqiqlə uğraşan 1) psixologiya, 2) fiziologiya, 3) tarix, 4) ictimaiyyat, 5) iqtisadiyyat və ehsaiyyat (statistika) kibi elmlərə aşina olmaq şərtdir.

II. Müəyyən bir dilin üzviyyətini doğuran amillər dilin mənşəyində, birinci dövrələrində rol oynayanlardır ki, bunu bilmək üçün dilin tarixinə aşina olmalıdır, yaxud tarixi sərfi bilməlidir.

III. Dili yaşadan amillər dildə bu gün hökmü keçən qayda və qanunlardır ki, bunları meydana çıxarmaq dilin bugünkü halını anlamağa yarar. Buna da "təsviri sərf" (**qramm. descriptive – описательн. грамм.**) deyəcəyiz.

IV. Dili dəyişdirən amillərə gəlincə, bu dilimizi mənşəyindən bu günə qədər olduğu kibi, bu gün də durmadan dəyişdirən yüzlərcəbinlərcə böyük-kiçik səbəblərdir ki, sərfçi bunları öyrənməklə təkamül qanununun dil sahəsindəki cilvələrinə aşina olur və kəndi tədqiqatını digər bütün amillərin işi ilə bağlar.

Dildə peyda olan yeni sözlər, yeni qayda və xüsusiyyətlər həp bu növ uğraşmaların nəticəsi, məhsulu olaraq sərfçinin gözünə ilişir və əlinə keçər.

V. Bu amillərin digər insan dillərindəki amillərlə olan münasibətini araşdırmaq məsələsi bütün lisani tədqiqatın nəticə və yekununu verir. Çünki, ümumiyyətlə, dil kibi türkcə də türklərin ictimai və ruhi yaşayışlarının zəruri bir nəticəsidir.

Türklərdə də ictimai və ruhi yaşayış ümumi, insani təməl üzərinə qurulmuşdur. Türkcə bir kərə bu cəhətdən ümumi dil qanunlarının təsiri altındadır. Bundan başqa, türk-tatar xalqları ruhi və ictimai yaşayışlarında heç bir zaman yalnız bulunmamışlar, daima digər millətlərlə görüşmüş, qarışmış, öyrənmiş, öyrətmişlərdir. Türkcəni vücuda gətirən amillərlə digər dillərin amilləri arasındakı müəyyən ahəngdar əlaqəni bulmaq yalnız türkcənin o dillərlə olacaq müqayisəsilə qabil olur.

İstə gərək dürlü nəhv və gərəksə beşinci nöqtələrdə qısadan bəhs etdiyimiz məsələləri çözə bilmək üçün müqayisəli sərf və ümumi lisaniyyat – dil bilgisi elmlərilə uğraşmaq lazım gəlir.

Bütün dillərin dil olmaq etibarilə bir-birilərinə bənzədiyini və ümumi ruhi-ictimai təməl üzərində doğduğunu söyləmişdik. Nasıl ki, hər dağ bütün dünyaya şamil və ümumi olan qanunların təsiri altında doğmuşdur. Lakin hər dağın kəndinə məxsus bir tarixi, otları, heyvanları, mədənləri olduğu kibi, hər dilin də ümumi dil qanunlarından başqa, tabe olduğu öz xüsusi qayda və qanunları vardır. Hər dil hər şeydən əvvəl xüsusi bir hadisədir. Türkcənin bir dil olduğunu anladıqdan sonra nasıl və nə surətlə türkcə olduğunu, nə üçün fransızca, ərəbcə olmadığını, bunlardan nə kibi əlamətlərlə ayrıldığını bilmək lazım gəlir. İştə ən gücü də budur.

Şimdiyə qədər yetişən sərfçilərimiz və yazılan sərf kitablarımızın ən zəif nöqtəsi burasıdır.

Şimdiyə qədər sərf kitablarının başlıca iki təsir altında hüsula gəldiyini bir kaç yerlərdə qeyd etmişdik:

1. On doqquzuncu əsrə qədər türk dilini, rəsmən olsun, təhlil etməyə çalışan sərf kitabları ərəb sərfçilərinin təsiri altında yazılmışdır. Məlum olduğu üzrə, ərəb sərfçiləri də İsgəndəriyyə məktəbi lisançılarının, yəni əski qrek filoloqlarının təsiri altında bulunmuşdur.

Bu gün məktəblərimizdə işlənməkdə olan əski və yeni sərf kitablarımızda rast gəldiyimiz qayda və qanunların üçdə ikisi əski ərəb, dolayısilə əski qrek sərflərinin başlıca ünsürlərindən ibarətdir, – dersək, heç də mübaliğə etmiş olmayız. Lakin ərəb sərfçiləri bundan təqribən bin il əvvəl qrek dilçilərinin nəzəriyyələrini kəndi dillərinə uydura bildikləri halda, türk sərfçiləri bu şeyi, çox yazıq ki, yapamamışlardır.

Osmanlılarda hicri 937 sənəsində "Meysərətül-ülum" namilə birinci Osmanlı türk sərfini yazan Berqamalı Qədridən Əhməd Vəfiq paşa və Hüseyn Cahid, yenə şərq və şimal türklərində hicri 446 sənəsində "Divanü-lüğatit-türk" namilə birinci sərf-nəhv və lüğətini verən Mahmud əl-Kaşqaridən Qazan sərfçisi Qalimcan İbrahimova qədər osmanlılarda dörd yüz, şərq və şimal türklərində səkkiz-doqquz yüz sənəlik bir zaman içərisində ərəbləri təqlid məktəb və üsulunun yaşadığını görüyoruz. Bütün bu dövr içərisində türk-tatar dillərinin xüsusiyyətləri, tabe olduğu xüsusi qanunlar ala bildiyinə ehmal edilmişdir.

2. On doqquzuncu əsrdən başlayaraq yazılmış və yazılmaqda olan sərflərdə artıq ərəbcənin və ərəb lisaniyyat üsulunun yerinə Avropa dillərinin və bunları təhlildə qullanılan üsulun yerləşməyə başladığını görüyoruz. Bilxassə türkcənin sərfini yazarkən kəndi dillərini, yaxud, ümumiyyətlə, hind-Avropa dillərinin üzviyyət və həyatını əsas alan Avropa türkoloqları türk dilinə bunların qaydalarını tətbiq etməyə çalışmışlardır.

Bu sonuncular haqqında 1921-ci ildə Parisdə "Türk dili sərfi" **("Grammaire de la langue turque")** namilə fransızca 1218 səhifəlik müfəssəl və çox elmi bir əsər yazmış olan Paris Şərq Dilləri İnstitutu professoru J.Deni (**J.Deny**) kitabının müqəddiməsində şu sözləri yazıyor: "Şimdiyə qədər türkcə haqqında yazılan fransız əsərləri daima fransız və latın sərflərinin qayda və hadisələrini əsas alaraq işə başlamaq xətasında bulunmuşlardır. Türk-tatar dillərinin morfolojisi (şəkliyyat) hind-Avropa dillərininkindən pək ziyadə fərqli olduğundan bu növ sərfçilər heç bir zaman xətasız və təhlükəsiz bir nəticəyə varamaz. Biz türkcəni yalnız kəndi dühası **(genie)**, öz ruhu ilə hind və Avropa dillərini tədqiq edərkən aldığımız qənaət və fikirləri tamamilə bir kənara buraxaraq tədqiq edəcəyiz..."

Bundan sonra professor J.Deni türk dilinin fransız dilinə görə xüsusiyyətlərini və hətta bu xüsusiyyətlərilə türkcənin bir çox cəhətlərdən hind və Avropa və fransız dillərindən üstün olduğunu uzun-uzadı ayrı-ayrı maddələrdə kamali-əhəmiyyətlə qeyd ediyor.

Professor Denidən əvvəl dil bilgisi **(linqvistika)**nın namlı ustadlarından Maks Müller **(Max Muller)** 1826 sənəsində nəşr olunmuş "Dil bilgisi" **("Lasarence du langage")** namındakı əsərində şu sözləri yazıyordu (ingiliscədən tərcüməsi): "Türkcəni öyrənmək heç istəməyən bir adam üçün belə bir türk sərfini oxumaq böyük, həqiqi bir zövqdür. Türk sərfi şəkillərinin heyrətverici zənginlik və gözəlliyi, fel, isim... kibi sözlərin dəyişmələrindəki düzgünlük, nəhayət, bütün türk dilinin təşəkkülat və üzviyyətində görülən açıqlıq, aydınlıq, şəffaflıq insan zehninin, ruhiyyətinin, dilinin təşəkküründə nə qədər yüksək çıxa biləcəyini pək açıq göstərir..." (səh. 333).

Demək ki, dünün və bu günün iləri gələn Avropa türkoloqları, alimləri bu göstərdiyimiz qüsuru çoxdan qeyd etdikləri halda, çox yazıq ki, bu fikirlər bizə qədər eşidilməmiş və eşidilmiyor.

Şimdiyə qədər yazılan sərf kitablarımızdan ərəb və fars dillərindən türkcəyə keçmiş olan sözlərin təhlilini və bunların qullanılışında cari olan qayda və qanunların izahını bir kənara buraxacaq olursaq, türkcə namına bu sərflərdə yalnız bir fel bəhsi qalır. Bu sərflər yalnız türkcə felləri təhlil etmişlərdir. Əcəba, nə üçün?..

Keçmiş və hətta zamanımızda yaşayan Osmanlı-türk şair və alimlərindən tamamilə təsadüfi olaraq birər cümlə alalım:

Sinan paşadan (841-891 hicri):

"Ey mələki-əllam və ey maliki-əzmei-inam! Sən əvvəli-mövcudsan ki, gül rüxsarı ikmami-irhamında təqdir gələ peyda eylərsən" ("Nümunei-ədəbiyyat", səh.16).

Füzulidən (900-963):

"Maliki-mülkarayi-aləm və hakimi-hökmfərmayi-əqalim və ümərni-məmurei-cəhani vəqfi-istirzaq edüb, tövlitini müluki-ədaləti-şüar və hökmi-mərhəməti-təfviz etdikcə və xanqahi-tənəkkünayi-ərsei-imkanda asari-ərbabi-istehqaq olub, hər fərdinə miqdarınca xəzzanei-qeybdən vəzifei-müstəmirrə yetdikcə, ol məhəlli ərqami-divani-xilafətin qələm müşkbarları miftahi-künuzi-ərbabi-ərzaq və əshabi-istehqaq ola" ("Şikayətnamə" müqəddiməsi).

Əbu Bəkr Kani (1124-1206):

"Həmişə sərvsəbz sərabistan sərvərləri sərasər sayə kəctər səbzəzar vücud və gülnihal bağçei-zat səriyyüs-sifatları sərasər puş gülbirki-izz və məsud olmaq duasından sonra surəti-dəftəri-malikanei-məhəbbət, əqlami-əzəliyyil-ərqam divani-ixlasın baş qələmindən ixrac olunub, övlağı-səriil-iblağ müvəddət birlə bu günə irsal olunur ki..."

Mütərcim Asim (1169-1235):

"Bəzi əxass aşina və ənis və müzhik və məsxərə müqəvviləsi kasəlis və marüz-zikr övlah qapu kətxudası olacaq, iblislər ilə bizim xass və əncüməni-ixtisasi-tərtib və xanəndə və sazəndə və bazəndələr ilə pürahəng bəzmi-bəxşi-nəşat və gərmagərm ciniş və inbisat olaraq, mehtab gecələrdə taqımlarilə subəsu zor qıran bəhri-kəbudi-eyş və aləm abi-səfasilə dəryakeşi-zövqi-bitəşviş və xilalgərmi insi-məaşlarında bir tərəfdən dəxi dəvayi-məhəbbət və xülusi-sərxoşanə ilə razimənun dövləti anlar təsyib edirlər idi".

Ziya paşa (1241-də doğmuşdur):

"İnsan dəxi əcnasi-heyvaniyyədən bir növ olduğundan əhvali-ümumiyyei-təbiiyyədə əsla anlardan fərqi olmayıb, yalnız insanın qüvvei-hissiyyəsi sair heyvanlardan ziyadə və nitq qüvvəti kəndində bir xassei-fövqəladə olmaqla bu imtiyazlara müqabil anın əsbabi-təbiiyyei-həyatiyyəsi sair növlərdən ziyadə əvarizi-müfsidə qəbula müstəidd və mail olmuşdur".

Namiq Kamal (hicri 1256-da doğmuş və miladi 1888-də ölmüşdür):

"İnsan şu kürei-zəmin dediyimiz vücudi-mütəhərrikin ruhudur, – denilə bilir. Zira ki, bəşərin xaricində hər nə ki, hərəkət görülürsə, həp anın sayəsində zühur ediyor. Təbiətin fövqündə nə əsər müşahidə olunuyorsa, həp anın himmətilə oluyor..."

Əbdülhəqq Hamid:

Açıl, ey çahi-bəlavü nikbət!
Açıl, ey əsfəli-fəqrü zillət!
Açıl, ey carihei-səhmi-sitəm!
Açıl, ey kəlbei-ya'sü matəm!

Yaxud:

Yetiş, ey nairei-zülmətpər,
Bərqi-cansız bürudətpərvər!
Yetiş, ey rahzəni-aləmgir,
Mərəzi-məhlik dərmantə'sir!

Tofiq Fikrət:

Sarmış yenə afaqını dudməənd,
Bir zülməti-beyza ki, peyapey mütəzayid,
Təzəyyüqünün altında silinmiş kibi əşbah,
Bir tozlu kəsafətdən ibarət bütün əlvah,
Bir tozlu və heybətli kəsafət ki, nəzərlər
Diqqətlə nüfuz eyləyəməz qövrünə qurqar.

(*"Sis" mənzuməsindən*)

Yaxud:

Toxundun hismə, ey şəb! Yenə hali-həzininlə
Xarab etdin bəni ülviyyəti-sevda gəzəninlə.

Sən, ey mah! Ey müəllamənbəi-ülviyyəti-sevda!
Qılarsın qəlbi-məfturumda şövqi-etilapeyda!

Məhəmməd Əmin:

Əvət, yavrum, musiqi fikrə qanad verir,
Ruhu eşqin sədəfli qumsalında gəzdirir.
Göylə yüz bin xülyanın ruzgarını əsdirir,
Öksüz qalan həyata təsəllilər gətirir.

(*"Bir gənc qıza"*)

Yaxud:

Sən, uzman, bu dünyanın yuvarlaq olduğunu sezmişdin,
Zəkan ilə Qərbi Şərqdə bulmaqlıq ümidinə qanmışdın.
Zəngin Hində bəslədiyin bir eşqin atəşilə yanmışdın,
Bu uğurda bir sərsəri ömrilə ölkə-ölkə gəzmişdin.

(*"Xristof Kolumb"*)

Buraya qədər gətirdiyimiz misallardan Namiq Kamala qədər – Sinan paşa, Füzuli, Əbu Bəkr Kani, Mütərcim Asim, Ziya paşa – olanlarını gözdən keçirəcək olursaq, türkcə namına yalnız fellərə rast gələcəyiz. Bu fellər də başqa-başqa deyil, həp iki dürlü damardan gəlmədir: 1) olmaq; 2) etmək.

Burada şair, mühərrir və alimlərimizin İran ədəbiyyatında rast gəldikləri nümunəni almış və ona görə ərəbcədən söz, cümlə uydurmuş olduqları görülür. Nasıl ki, farsların ərəbcədən götürdükləri, məsələn, *fəhm, icabət, qəbul, əzm...* kibi sözləri, Sə'di Şirazinin "Gülüstan" namındakı əsərində olduğu kibi, bir farsca "kərdən" sözünün əlavəsilə qullandıqlarına çox dəfə şahid oluyoruz.

Bu surətlə gərək Sə'di Şirazinin və gərəksə digər böyük islam-fars alim və ədiblərinin əsərlərində türk yazıçı və oxuyucuları "fəhm kərdən", "icabət kərdən", "qəbul kərdən", "əzm kərdən" kibi sözləri görərək, "kərdən" yerinə türkcə *etmək*, yaxud *eləmək, qılmaq* və "budən" yerinə *olmaq* sözlərini yerləşdirərək, *fəhm qılmaq, icabət etmək, qəbul eləmək...* kibi sözləri, təbirləri qazanmışlardır. İş buraya gəldikdən sonra artıq *eləmək, olmaq, etmək, qılmaq...* kibi fellərin *olmaqla, eləməyin, olub, edərək, qıldığından...* kibi zərf, rabitə şəkillərini qullanmaq ilə əskilər və hətta yenilərin pək çoxu "türkcə yazmış" olurdu. Əgər bu fellərdən başqa, türk ədiblərinin yazılarında türkcə

söz arayacaq olursaq, şöylə sözlərə rast gələ biliriz: 1) *anlar*, 2) *bu*, 3) *-i / -si, -nin* (izafət ədatları), 4) *-də, -dən, -a/ -ə/ -yə* (məful ədatları)... 5) bəzi müstəqil sözlər (*baş, ay, gün* kibi...).

Türk sərflərini əlinizə alacaq olursanız, onların böylə bir dil üçün, yəni ədiblərimizin yuxarıda nümunələrini gətirdiyimiz dillərini izah etmək üçün tərtib olunduğu anlaşılır.

Böylə bir ədəbi dili öyrənmək vəzifəsini üzərinə yükləmiş olan sərfçinin kitabında türkcəyə az-çox toxunan bəhslər şunlar olacaqdır: 1) müfəssəl surətdə türkcə fellər, 2) bir az zəmir, 3) bir az sifət və isim və 4) bir az da izafət.

Məhəmməd Əmindən gətirdiyimiz parçaları oxuyanlar şimdiyə qədər yazdıqlarımı onun şeirlərinə müvafiq bulmaya bilirlər. Biz burada bu şeirlərin qafiyələrinə diqqət verməsini oxuyucuya tövsiyə edəriz. Məhəmməd Əmin bəyin bütün şeir sənəti və qafiyə məharəti fellər üzərinə qurulmuşdur. Şeirlərində rast gəldiyimiz başqa türkcə sözlərin (*yavru, qanad, öksüz, yuvarlaq, atəş*...) yüzdə doxsan beşi şani, qeyri-mücərrəd **(concret)** sözlər olub, içərisində mücərrəd **(abstract)** olanları pək azdır. Bu da əski stilin, üslubun bir mirasıdır.

Misallarımıza baxaraq, oxuyucu zənn etməsin ki, bu yalnız Osmanlı ədəbiyyatında böylə olmuşdur. Gərək uyğur ədəbiyatının son dövrləri, gərəksə cığatay və digər türk-tatar xalqlarının yazılı ədəbiyyatı həp bu cizgiləri ərz etməkdədir.

İnsana "Münşəati-Firidun bəy" bu xüsusda çox açıq və dərin təsir yapar. Orada Osmanlı və digər onlarla münasibətdə bulunan türk yazıçı və şairlərinin üslubundakı dəyişmə və təkamülü addım-addım təqib etmək mümkün olmaqdadır... Bizim fikrimizcə, bu məsələni gərəyi kibi ətraflı və elmi surətdə münaqişə və təhlil etmək zamanı gəlmişdir. Böylə bir uğraşma nəticəsində türk-tatar üslubu tarixi gözümüz önünə çıxacaqdır ki, bunun həm tarix, həm də ədəbiyyat və lisaniyyat nöqteyi-nəzərindən əhəmiyyəti pək böyükdür.

Əgər böylə bir monoqrafik əsər yazılsa, zənn ediyorum ki, türk üslubunun şu surətlə inkişaf etdiyi görüləcəkdir:

1. Orxon kitabələrindən "Qutadqu bilik"ə qədər saf türk sözlərindən və söz örmələrindən yapılmış bir üslub mücərrəd və qeyri-mücərrəd sözlər həp türkcə, qismən çincə və pək az hind sözləri.

2. "Qutadqu bilik"dən başlayaraq, cığatay və səlcuq ədəbiyyatında ərəbcə və bilxassə farscanın təsiri ziyadələşiyor. Hətta rəsmi və ədəbi dil farsca oluyor.

3. Orta Asiyada Babur, Əhməd Yəsəvi ilə qüvvətlənən cığatay, Kiçik Asiyada Osmanlı türklərilə başlayan Osmanlı-türk ədəbi dili əvvələn türk fellərini ərəbcə ilə qarışmış farscaya əlavə edərək işə başlıyor. Bu dövr Şünasiyə, Kamala qədər sürüyor.

4. Nəhayət, son dövrdə fellərdən başqa, qeyri-mücərrəd sözlər də bol-bol ədəbiyyata girməyə başlıyor; lakin dil yenə əsas etibarilə fellərə istinad ediyor, dayanıyor. Yeni ədəbiyyat Məhəmməd Əmin bəy dövrü.

5. Beşinci dövr istilahçılıq və mücərrəd sözlər arayan zamanımızdır ki, burada iki asılı prinsip yaşıyor: 1) türkcədən xalq dilindən, yaxud tarixi dildən istilah və təbir yaratmaq; 2) dilimizə girmiş əcnəbi istilah və təbirləri morfologiya və fonetikaca, yəni şəkil və səscə türkləşdirmək.

Sərflərimiz iştə bunun üçün hər şeydən ziyadə xalq dilinə, qonuşulan dilə əhəmiyyət vermək məcburiyyətində, əhəmiyyət veriləcək tarixi bir nöqtədə bulunuyorlar.

Türk ədəbi üslubu yuxarıda göstərdiyimiz müxtəlif dərəcələrdən keçərək dəyişmiş və təkamül etmiş olmaqla bərabər, sərflərimiz başlanğıclarilə müqayisə edildikdə, heç olmazsa, bu qədər belə təkamül etmiş, iləriləmiş deyildirlər. Buna mane olan şey bu sərflərin ruhunu əllərinə keçirmiş, ovuclarına almış olan əski lisaniyyatın, yəni sxolastik mütənəccilik və təfsirçilik dövrünün üsuludur ki, bunun başlıca nöqtələrini göstərmək lazım gəlir:

1. Əski sərflərdə səs ilə hərf, yazı ilə dil bir-birinə qarışdırılıyor. Sərflərin başında daima şu və yaxud şuna yaxın sözləri oxuyuruz:

a) *Lisani-Osmanini təşkil edən hərf otuz ikidir* ("Müfəssəl yeni sərfi-Osmani". Xüsusi komission).

b) *Lisani-Osmanidə otuz altı hərf vardır* ("Osmanlı lisanı". Tədqiqati-lisaniyyə əncüməni əzasından Əhməd Cavad).

c) *Avuzdan çığan bir tavuşa "hərf" deyilə* ("Ağızdan çıxan səsə "hərf" deniliyor". "Türki sərfi". Əhməd Hadi Məqsudi).

ç) *Hərflər bir keyfiyyəti-məxsusə ilə boğazın, dodaqların, dilin, dişlərin, damağın məxrəci-müəyyənində çıxan səslər, yəni əsvati-müqəttəə və bunlara müqabil olmaq üzrə qəbul edilmiş işarətlər, rəsmlərdir. Türkcədə otuz bir hərf vardır* ("Türkcə sərf və nəhv". Hüseyn Cavid).

Bu misalları istənildiyi qədər çoxaltmaq, uzatmaq mümkündür. Dürlü zamanda və yerlərdə yazılmış və basılmış sərf kitablarından

aldığımız misallar göstəriyor ki, əvvəla, türk sərfçiləri türkcədə kaç səs (onlarca, hərf) olduğunu bilməyir. Otuz bir, otuz iki, otuz altı, hətta qırx, qırx iki... səs və yaxud hərf göstərən sərflərimiz vardır. İkinci dərəcədə hərfi səs yerinə alaraq hökm yürüdiyorlar. Bunlar arasında Hüseyn Cavid guya hərfin doğru tərifini verməyə çalışırkən "türkcədə otuz bir hərf vardır", – dediyi zaman bunların nə qədər türk səsinə qarşılıq olduğunu, yaxud ümumiyyətlə, məsələn, İstanbul şivəsində nə qədər bəlli-başlı tip səsi bulunduğunu düşünəmir belə.

Hər hankı münasibətlə dildən bəhs edən, söz açan adam şunu bilməlidir ki:

1) ümumiyyətlə hərf hər lisanda, hətta akademik istinsaxda belə, səsin naqis işarətindən başqa bir şey deyildir;

2) ağızdan, boğazdan və digər səs üzvlərindən heç bir zaman hərf çıxmaz, səs hasil olur;

3) dilin səsləri durmadan dəyişdiyi halda, hərf yazıldığı kibi qalır;

4) bunun üçün bir dildə nə qədər səs olduğunu heç bir zaman gözlər, yəni hərf yardımilə görmək mümkün olmayıb, yalnız qulaqla eşitmək və bir çox zəhmət və diqqətdən sonra ağızla təqlid etmək mümkün olur.

Eyni fikri yazı ilə dil haqqında da deyə biləriz. Bu gün əlimizdə pək beş yüz sənəlik yazılı abidələr olduğu halda, hətta yüz sənə bizdən əvvəl gəlib-keçmiş insanların türkcəni nasıl söylədikləri haqqında qəti dəlil və iddiamız yoxdur.

Hərf və yazı tarixi və müqayisəli sərf üçün istər-istəməz yeganə mənbə oluyorsa da, bugünkü dilin, bizim dilimizin təsviri sərfini yazacaqlar üçün yeganə bulaq, mənbə canlı dil və başlıca alət qulaqdır.

Bir dili qonuşmasını bilməyən bir adamın o dilin sərfini nöqsansız yazamayacağı buradan kəndi-kəndinə aşkar olur. Nasıl ki, bir adamın həyatını görməyən, onu az-çox təsəvvür edəməyən bir adam onun romanını yazamaz.

2. Əski sərflərimiz söz şəkillərinə (morfologiya) əhəmiyyət verməyirlər.

Bir çox türkoloqlarla bərabər, yuxarıda adını zikr etdiyimiz J.Deni yenə eyni əsərin 13-cü səhifəsində: "Türk sərfini bilmək bu dildə qullanılan şəkilçi, qoşma (**affixe**), türkcəyə görə **suffixe**-ləri bilmək deməkdir", – deyir.

Türk dilində səsdən keçdikdən sonra və cümlə təşkilinə gəlməzdən əvvəl iki şey buluruz: 1) damar (kök, cizr), 2) şəkilçi, qoşma (**affixe**, yaxud **suffixe**).

Bütün türk dili bu şəkilçilərlə yaşar. Türk sərfini bilmək, doğrudan da, bu şəkilçilər – qoşmalarla damarlar arasında olan münasibəti təyin və izah edə bilməkdən başqa bir şey deyildir, – denilə bilir. Lakin bu surətlə bəsitləşmiş kibi görünən türk sərfi bu üsula tabe olduğumuz təqdirdə tədqiq edən sərfçi üçün pək ziyadə güclaşir. Çünki, digər tərəfdən, dünyada heç bir dilin türkcə qədər bu şəkilçilərdə zəngin olmadığı da bir çox alimlər tərəfindən təsdiq edilməkdədir. Tarix boyunca ölən bir şəkilçinin yerini daima yüzlərcə yeniləri tutmuşdur. Dil tarixi nöqteyi-nəzərindən bu şəkilçilər nədir? Bunlar dilimizin əskidən müstəqil sözləri, ayrı kəlmələri olduğu halda, təkamül qanununun dildəki nəticələrindən olaraq istiqlallarını qaib etmişlər, onların yerini tutan yeni müstəqil sözlərin xidmətinə daxil olmuşlardır. Bir az fantaziyası olan böylə sözlərin ömrünü insanın yaşayışına bənzədə biliyor. Əvvəla, müstəqil olan bir söz yavaş-yavaş əhəmiyyətini qaib edərək, digər sözlərin xidmətinə giriyor. Xülasə, bugünkü türk şəkilçilərində əski türk dilinin bəqayasını görə biləriz. Lakin bu sözlərimiz bir fərziyyədən ibarət olub, bütün şəkilçilərin vaxtilə hankı müstəqil mənanı haiz olduğunu heç bir kimsə deyəməz və bəlkə, söyləyəməyəcəkdir. Hər halda bu şəkilçilər öylə faydalı mikroblara bənzərlər ki, dilimizə can, hərəkət, şəkil və ifadə verirlər.

Dilimizdə bulunan şəkilçilər, yuxarıda da işarət etdiyimiz kibi, iki dürlüdür: 1) canlı, 2) cansız.

Canlılar bu gün dilimizdə yaşayan və sözlərə xüsusi şəkil və məna verən qoşma əlavələrdir. Canlı şəkilçilər də iki dürlü olur: 1) söz yapan, 2) söz dəyişdirən.

Böylə canlı şəkilçiləri hər zaman, damar olan söz müstəqil mənasını qaib etməmək şərtilə, damardan ayırmaq mümkündür. Bu şəkilçilər ahəngə görə cift olur. Halbuki cansız şəkilçilər böylə deyildir. Bunlar damara yapışmışdır. Damardan ayırdığımız təqdirdə ya damarın müstəqil mənası olmaz, olsa belə, bu damardan ayrılan şəkilçini digər bir damara yapışdırmaq mümkün olmaz.

Əski türkcədə, hətta macarca kibi bəzi Ural-Altay dillərində vaxtilə *–arı / -eri, -ra / -rə* şəklində qayət canlı bir şəkilçi, qoşma var idi. Məşhur Orxon kitabələrinin başında bu şəkilçiyə rast gəliriz (*özə göy*

tenqri, asra yeğiz yer – "üstdə (yuxarıda) göy – mavi səma, altda ("asıtda") qara yer").

Bugünkü türkcədə şu sözlərdə qalmışdır: *il+əri, tış+arı, yux+arı, iç+əri, g+eri,* yaxud *son+ra, taş+ra, üz+rə, iç+rə, ha+ra / qa+ra* (yəni: "ilərı", "tışra", "yuxarı", "içəri", "geri", "bəri", yaxud "sonra", "tışra", "üzrə", "içrə", "hara").

İştə bu *-əri, -arı; -ra, -rə* şəkilçiləri bu gün artıq dilimizdə cansızlanmışdır. Çünki bunları bu gün yapışmış olduğu damarlardan ayırdığımız təqdirdə damarların müstəqil mənaları qalmaz. *G+eri, b+əri, yux+arı,* yaxud qalsa belə, *son+ra, iç+əri, tış+arı...* bunlardan ayrılmış olan şəkilçini (*-arı, -ra, -eri, -rə*) hər türk sözünə əlavə etmək olmaz, məsələn, *qapu+ra, ev+rə, sağ+ra, sol+ra* demək olmaz. Halbuki macarcada bu şəkilçi hənuz canlı olduğundan orada onu həman bütün macar sözlərinə əlavə etmək mümkündür. Orada, məsələn, *kapu+ra* (qapu+ra), *szakal+ra* (saqal+ra), *pest+ra* (peşt+rə) demək mümkündür (Bu materialdakı sözlər türkcə və macarcada müştərəkdir: *saqqal, qapu, peşt,* yaxud *peştə*).

Demək ki, *-arı/ -əri, -ra/ -rə* şəkilçisi bugünkü türk dilində cansız, macarcada canlıdır. Eynən bunun kibi: *yüz+ük, biləz+ik, yük+sək, tok+suq, əks+ik, al+ın, qal+ın, in+cə, yax+ın, uz+aq, ir+aq* sözlərindəki *-ük/ -ik, -sək, -suq, -in, -cə, -aq* şəkilçiləri artıq damara yapışmış, cansızlanmışlardır, yəni bu sözlərdə damarla şəkilçini bir-birindən ayırmaq olmaz.

Bu növ cansız şəkilçilər dil bilgisi mütəxəssislərinə məlum olub, daha ziyadə tarixi sərfdə işimizə yaramaqla bərabər, təsviri sərf ilə uğraşanların da bunlardan məlumatı olmalıdır.

Canlı şəkilçilərə gəlincə, bunları insan hər zaman zehnində damardan ayıra bilir:

1) *açıq = aç+ıq, açar = aç+ar, açan = aç+an, açıcı = aç+ıcı, açmış = aç+mış...*

2) *kəsik = kəs+ik, kəsər = kəs+ər, kəskin = kəs+kin, kəsək = kəs+ək...*

3) *duraq = dur+aq, durğun = dur+ğun, durmuş = dur+muş, dursun = dur+sun...*

İştə türk sərfçisinin morfologiya – şəkliyyat meydanında görəcək işləri şu bir kaç sətirdən pək aşkar surətdə məlum olur. Dil, bilxassə iltisaqi, yapışıq dillərdən olan türkcə bir üzviyyətdən ziyadə

morfologiyasında bir makinaya bənzər. Təbii elmlərin dili ilə deyəcək olursaq, bizim Ural-Altay dillərində kimyəvi bir tərkib yerləşmədən ziyadə hökmi bir qarışma hüsula gəlmişdir. Bunun üçün türk dilinin əczalarını ayırıb göstərmək, kiçik-böyük üzvlərini bulmaq bir makinanı, yaxud bir saatı kiçik parçalarına ayırmaq kibidir və çox qolaydır.

Elmin məqsədi və vəzifəsi də düşüncəni gücləşdirmək, qarışdırmaq deyil, bəlkə, qolaylaşdırmaqdır. Kopernikə qədər coğrafiya və heyət nə qədər güc elmlərdən birisi idi, çünki elmi üsul və sistemdən məhrum idi. Bu gün lisan bilgisi də eyni dövrü keçiriyor. Dil bilgisi kopernikləri çoxdan işlərini yapıb getdilər. Şimdi onların bulduqları nəticələri məktəblərə, bilxassə Şərq məktəblərinə soxmaq lazım gəlir.

Türk sərfində müəllim, yaxud sərfçi bizə dilimizin nasıl qurulduğunu, nə kibi ünsürlərdən meydana gəldiyini bildirməlidir. Nasıl dağ ilə dərənin, irmaqla dənizin, yaxud bağ ilə bağça və yaxud tarlanın fərqini çocuğun kəndisinə buldurmaq mümkün isə, eyni surətlə dilin damar, şəkilçi kibi başlıca ünsürlərini və bunların ikinci dərəcədəki parçalarını və rollarını tələbələrin kəndilərinə kəşf etdirmək qayət qolaydır.

Məktəb sərflərində rast gəldiyimiz uzun-uzun təmrin, mümarisə cədvəlləri çocuqları yalnız hafizə ilə çalışmağa və dili şüur və mühakimə ilə deyil, yalnız təqlid və etiyad ilə öyrətməyə xidmət ediyor. Düşüncə aləti olan dil heç bir zaman şüursuz əldə ediləməz. Bunun üçündür ki, mədəni xalqların dilində hər düşüncə və yaxud duyğuya qarşılıq bir söz olduğu halda, bizdə dilimizin söz xəzinəsi görünüşdə pək zəngin olmaqla bərabər, öylə elmi və fənni fikirlər vardır ki, bunları, bütün ərəbi-farsi istilahlarımızı da toplasaq, yenə də ifadə edəməyiz. Çünki dilimiz hər şeydən sonra düşüncə aləti və ifadə vasitəsi ola gəlmişdir.

Canlı-cansız şəkilçilərin həman cümləsi vaxtilə müstəqil söz olduqlarını yuxarıda qeyd etmişdik. Hər nə qədər bu xüsusda qəti bir şey demək zamanı hənuz gəlməmiş isə də, sxematik surətdə türk sözləri şu dövrələrdən keçmişdir, – deyə biliriz: 1) damar (yaxud müstəqil söz), 2) yarımsöz, 3) canlı şəkilçi, 4) cansız şəkilçi, 5) damarın, nəhayət, nə tarixi və nə də təsviri sərf tərəfindən təhlil olunmayan bir parçası halına gəlirlər. Məsələn, ola bilsin ki, *qara, qurı, qarı, qaş,*

taş, baş... kibi sözlərdə də cansız əski şəkilçilər bulunuyor, lakin bunları təhlil edib meydana çıxarmaq bu gün, bəlkə də, heç bir zaman mümkün olmayacaqdır.

Sərf kitablarımızda bəzi qarışıq nöqtələr

Şəkilçilərin, eyni zamanda dilimizdəki sözlərin bir-birinə nasıl bağlandığını, bu bağlanmanın qaydalarını verdiyini söyləmişdik. İştə bunun üçün şəkilçilərin təsnifi sərflərimizdə isim, sifət, zəmir, fel, zərf, nida, ədat namilə ayrılan qisimləri və bunların bir çox cəhətlərdən doğurduğu qarışıqlığı ikinci dərəcəyə endirəcəkdir. Çünki bu yeddi qisimdə əsas olaraq damar ilə şəkilçidən başqa bir şey yoxdur. Həman bütün sərf kitablarımızın başında sözlərin müəyyən qisimlərə ayrıldığını oxuyuruz. Sərflərimizin bəziləri isim, sifət, zəmir, fel, ədat namilə beş, bəziləri isim, sifət, zəmir, fel, zərf, ədat, nida olaraq, bəziləri də ismi-cins, ismi-ədəd, ismi-işarət, sifət, zəmir, fel, zərf, ədat, nida namlarilə sözləri doqquz qismə ayırmaqdadırlar. Bu təqsimlərin təməli əski yunan və ərəb lisaniyyatına dayandığını biliyoruz. Aristotun əsərlərindən olan "Periyermineyas"ı ərəbcəyə tərcümə edən İbn əl-Müqəffə eyni zamanda dildəki sözlərin üç qismə isim, fel, yardımcı parcalar) ayrıldığını ərəblərə öyrətmişdir (İbn əl-Müqəffa 757 miladi sənəsində ölmüşdür). Sonra bu üç parçalardan isim – sifət, zəmir; fel – zərf; yardımçı parçalar – nida, ədat kibi övladlar doğurmuşdur.

Əcəba, bu təqsim türk dilinin üzviyyət və təbiətinə müvafiqmi? Biz yuxarıda türk dilinin başlıca iki əsası bulunduğunu xəbər vermişdik: damar və şəkilçi. Demək ki, dilin öyrədilməsi türkcədə hər şeydən əvvəl damar və şəkilçini ayırmaq, tədqiq etməklə başlamalıdır, nasıl ki, çocuq təbiət dərslərinə başlarkən əvvələn heyvan, insan, mədən, ot... kibi təbiətin başlıca ünsürlərini ayırmağa çalışıyor.

Bir çocuq üçün *qaçaq, saçaq, yataq, taxaq,* yaxud *qaçqın, şaşqın, dalğın, bayğın...* sözlərini *qaç+aq* və *qaç+qın*... ilax. kibi damar və şəkilçiyə ayırmaq şimdiyə qədər yazılan sərf kitablarımızda ismi-cins, ismi-işarət, tərkibi-izafi, müzaf ileyh, məf'ul ənh, fih, ileyh... ilax. kibi divlərin, əjdahaların adlarını, təbiət və adətlərin öyrətməkdən qat-qat qolaydır.

Yuxarıda şəkilçilərin 1) canlı, 2) cansız, 3) sözdəyişdirən, 4) sözyapan olduğunu söyləmişdik. Eyni surətlə damarın da 1) sadə, 2) qoşma

ola biləcəyini bildirmişdik. İştə fənni bir türk sərfinin başlıca çərçivəsi bu surətlə təəyyün etmiş olur: 1) səs; 2) damar: sadə, mürəkkəb (qoşma); 3) şəkilçi: canlı, cansız.

Böylə bir təqsimə alışan sərfçi pək çox xətalardan qurtulmuş olur. Məsələn, hər kəs bilir ki, türk sərflərində sifət – mövsuf, müzaf – müzaf ileyh... məsələlərinə pək böyük əhəmiyyət veriliyor. Halbuki bu ərəb dilinin və o dil üçün yazılmış üsulca naqis sərflərin təqlidi dövründən qalma ənənələrdəndir.

Ərəb dilində, eyni surətlər hind-Avropa dillərinin pək çoxunda sifət ilə mövsufun bir-birilə əlaqəsi qəvi, alıb-verəcəyi çoxdur. Məsələn, ərəbcə, العلامة الفاضلة – العلامة الظاهرة , yaxud ruscası **красивое здание, способный ученик, светлая комната**... kibi sözləri alacaq olursaq, burada sifətlər və mövsuflar bir çox bağlarla bir-birinə bağlıdır. Yaxud yenə ruscada bir **от, из, над** baş şəkilçisi **(prefixe)** həm sifəti, həm də mövsufu mütənasibən dəyişdirir, məsələn:

1) над красивым зданием;
2) из светлой комнаты;
3) от способного ученика.

Ərəbcədə də böylədir. Demək ki, hind-Avropa dillərindən birisi olan rus, sami lisanlarından olan ərəb sərflərində sifət ilə mövsufu biryerdə tədqiq etmənin bu dillər üçün xüsusi bir əhəmiyyəti varmış. Əcəba, türk dili üçün də böyləmidir? Misallar alalım: *gözəl ev, işıq otaq, çalışqan tələbə...*

Şimdi bu sözləri təsrif edəlim:

1) *gözəl evdə;* 2) *gözəl evdən;* 3) *gözəl evi.*

1) *işıq otaq;* 2) *işıq otaqdan;* 3) *işıq otağı.*

1) *çalışqan tələbəyə;* 2) *çalışqan tələbədən;* 3) *çalışqan tələbəni.*

Demək ki, dünya yıxılsa, türkcədə sifətlə mövsufun bir-birilə nə kəmiyyət, nə keyfiyyətcə əlaqələri yoxdur. Bu halda sərflərimizdə sifətlə mövsufdan bəhs etmək yalnız dilimizi öyrənən və kəndi dilində bunların daima sıxı əlaqədə bulunduqlarını görməyə alışan əcnəbiyə lazımdır. Türk çocuğu üçün bu qətiyyən zaiddir.

Burada ərəbcə-farsca sözləri nə yapacağız? – sualı meydana çıxa bilir. Bu xüsusda da ayrı bir məqalə yazmaq fikrində bulunduğumuzdan burada yalnız bir tamamiyyət xatiri üçün şunu deyə biliriz ki, biz ərəbcə-farsca sözləri yalnız sadə damar kibi onların kəndi sərflərində malik olduqları hüquq qəvaidi tanımadığımızdan burada da qarşımıza

çıxacaq ciddi bir mane, əngəl yoxdur. Bu gün artıq "alim qadın", "ali darülmüəllimat"... deməklə, əskidə olduğu kibi, "mollalığımıza" heç bir nöqsan gələməz.

Sərf kitablarımızda sifət və mövsufdan ziyadə rol oynayanlardan izafət, tərkib, məful... kibi şeyləri göstərmək mümkündür. Deniliyor ki, izafət ismin mənasını tamamlayan şey olduğu halda, məful fellərin mənasını tamamlar. Ümumiyyətlə alındıqda heç bir dil yoxdur ki, orada sözlər bir-birinin mənasını tamamlasınlar. Əks təqdirdə yüzlərcə, binlərcə sözə də ehtiyac da qalmazdı. Yalnız sözlər bir-birinin mənasını tamamlamaz. Sözdən başqa bir taqım sövti hallar vardır ki, onlar da sözün, cümlənin mənasını tamamlarlar: vurğu (**ударение**), ahəng (**интонация**), səsin alçalıb-yüksəlməsi, sairə bu qəbildəndir. Burada ən böyük bəxtsizlik, şübhəsiz, müzaf ilə müzaf ileyhin başına gəlmişdir. Çünki başqa arxadaşları fellərin mənasını tamamlamağa göndərildikləri halda, türkcə bulunan bütün isimlərin mənasını tamamlamaq borcu, vəzifəsi bu iki biçarənin omuzuna yüklənmişdir!.. Türk sərfçisinin insafına dəyəcək yox...

Müzaf ileyh nə deməkdir? Avropa sərflərinin **genitivus**, rus sərflərinin **родительн. падеж** dediyi şeydir ki, ikincisi birincisinin rusca tərcüməsidir. Müzafa gəlincə, o da **accusativus**, yaxud bunun ruscaya tərcüməsi olan **винительн. падеж**-dir ki, bunların digər məfullardan (məful ileyh – **datiuvus**, məful ənh – **exeussivus**, məful fih – **lokativus**, məful məəh – **comitativus**) heç bir fərqi yoxdur.

Sərflərimizcə, məsələn, "Əhmədin kitabı" dediyimiz zaman "kitabı" müzaf olduğu halda, "kitabı ver" dediyimiz zaman "kitabı" məful bih oluyor və birinci halda ismin, ikinci halda felin mənasını tamamlayır. Şəkil və vəzifə noqteyi-nəzərindən bunlar arasında heç bir fərq yoxdur. Digər bir misal alalım. Şimdiyə qədər yazılmış sərflərimizcə, yalnız isimlər müzaf və müzaf ileyh olaraq bir-birinin mənasını tamamlarlar. Halbuki "dəmir qaşıq", "dəmirdən qaşıq", yaxud "evdən evə", "evdən bazara", "adam evdə" dediyimiz zaman guya bu isimlər bir-birinin mənasına təsir etməyir, tamamlamayır. Burada sərflərimizin qeyd etmədiyi, daha doğrusu, tənaqüzə düşdüyü mühüm bir nöqtə də şudur ki, yazı ilə dili, yazılış ilə söylənişi bir-birinə qarışdırdıqları kibi, şəkliyyat – morfologiya ilə nəhv – sintaksisi bir-birinə qarışdırırlar. Halbuki verdikləri tərif ("Sərf, yəni morfologiya ayrı-ayrı sözlərdən bəhs edər") doğrudur. Çünki şəkilçilərdən sözyapanlar yalnız sərfi olduğu halda, sözdəyişdirənlər nəhvidir. Başqa dürlü deyəcək olsaq, sözyapan şəkilçilər yalnız bir sözün şəklini, vəzifə və mənasını bildirdiyi halda, sözdəyişdirici şəkilçilər sözlərin bir-birinə olan münasibətini göstərir, yəni sözlərdən cümlə meydana gətirməyə yarar və eyni səbəbdən dolayı sözdəyişdirici şəkilçilər çox dəfə cümlənin feli ilə, daha doğrusu, xəbəri (**сказуемое**) ilə bağlıdırlar. Bu xəbər fel də ola bilir, isim də. Qısası, müzaf və müzaf ileyh ilə digər məfullar arasında heç bir fərq yoxdur. Sərf yalnız sözyapıcı şəkilçilərlə uğraşıb, sözyapıcı şəkilçiləri[1] nəhv qisminə buraxmalıdır. Peşkovski, Afanasyev, Uşakov... kibi yeni rus məktəb sərfçiləri bu təqsimi qəbul edərək, qəti surətdə rus məktəblərində keçirməyə çalışmaqdadırlar. Məktəb sərfçilərimiz tarixi sərfə əhəmiyyət versələrdi, vaxtilə türk dillərində (hətta bugünkü şivələrin pək çoxunda) müzaf, müzaf ileyh, məful bih, məful ileyh kibi halların ya olmadığını, yaxud bütün bunları ifadə üçün bir şəkilçi qullanıldığını öyrənəcəklərdi ki, buradan bu şəkilçilərin eyni əsildən törədiyi kəndi-kəndinə aşkar olur.

Professor J.Deni türk sözünün skeletini şöylə göstəriyor ki, pək doğrudur: damar+sözyapan şəkilçi+sözdəyişdirən şəkilçi (profesor Denidə eyni: **racine+suffixe+desinence**).

Bunu bizim şimdi söylədiklərimizə uydursaq, "damar + sərfi şəkilçi + nəhvi şəkilçi" olmuş olur. Bu tərtibdə heç bir türk şivəsində heç bir dövrdə dəyişmə olmamışdır və olmaq ehtimalı yoxdur. Onun üçün bu qanuna dilimizin skelet qanunu deyə biliriz. Məsələn, *ev+li+dən* deyiriz, lakin heç bir zaman heç bir şivədə "ev+dən+li" şəklinə rast gələməyiz.

İzafət və tərkib məsələsinə gələcək olursaq, burada məktəb sərflərimizin tərkibi-izafi, tərkibi-tövsifi, tərkibi-vəsfi... kibi tərkiblərlə uğraşdıqlarını görüyoruz. Halbuki canlı dil və elmi sərf nöqteyi-nəzərindən bir dildə kaç dürlü söz, yaxud cümlə düzə bilirsək, o qədər tərkib vardır. Tədrisdə, şübhəsiz, daima müəyyən, başlıca niyyətlər alınır. Lakin sərfçi, yaxud lisançı bir kərə kitabını əlindən buraxıb, qonuşanları dinlərsə, görəcəkdir ki, canlı dildə, hətta yazılı ədəbiyyatda tərkib o qədər çox, o qədər mütənəvvedir ki, bunları yalnız bir kaç söz və ya tərkib içərisinə sığışdırmaq qabil olmayacaqdır.

Biz bu tərkibləri əsasən sərf kitablarından deyil, söyləyərək, yazaraq, oxuyaraq öyrəniyoruz. Son zamanda Rus Elmi Mərkəzində və Ali Dövləti Bilgi Şurasının nəzarəti altında çıxan məktəb sərfləri və

[1] Yəqin ki, sözdəyişdirici şəkilçiləri (*tərtibçi*).

bunların tədrisinə aid əsərlərdə birinci dərəcə məktəblərin bütün qruplarında tərkiblərin tədqiqinə böyük əhəmiyyət verildiyini görüyoruz. Lakin burada tərkib məsələsi bir kaç tip içərisinə sığışdırılmış olmayıb, bəlkə, qonuşma dilində və yazılı ədəbiyyatda rast gələ biləcəyimiz tərkiblərin tədqiq, təsnif və təlimi nöqteyi-nəzərindən söz mövzusu olmaqdadır.

Zərf, ədat, nida... kibi ayrı-ayrı qisimlər məktəb sərflərimizdə şəkilçi, damar, yarımsöz bəhsləri içərisində əriyib gedər və ayrı – müstəqil tədqiq və bəhslər istəməz.

Türk sərflərinin yazma və izah üsulu

Bir kaç söz də sərflərimizin mövzu və məsələlərini nasıl izah və tərif etdiyi haqqında sərf etmək, söyləmək lazım gəlir. Hər hankı bir sərfi əlinizə alsanız, şöylə bir sxema görəcəksiniz: 1) istilah (ərəbcə, farsca, əskidən əski, qarışıqdan qarışıq); 2) qayda; 3) misallar. Türk məktəblərinin dil dərslərini ziyarət edənlər bilirlər ki, məktəblərdə müəllimlərin pək çoxu eyni üsula tabe olaraq, əvvələn, qaydaları mücərrəd surətdə anladır, daha doğrusu, çocuqların hafizəsinə yerləşdirir, sonra onların yorğun, usanmış zehninə misalları, dəlilləri soxuşdurmağa çalışır. Halbuki bu sxema və üsul əksəriyyən mücərrəd nəzəriyyələr, mütəarifələr, aksiomlar elmi olan riyaziyyatda belə əksinə qonulmuşdur. Sərflərimizdə və dil dərslərimizdə iş əksinə olmalıdır: 1) misallar, lövhələr, materiallar; 2) təsniflər, nəticələr, qaydalar, təriflər.

Qayda və nəticələri də çocuğun kəndinə buldurmaq və tərifi kəndisinin yapmasına yardım etmək lazımdır. Bu surətlə kəndisi düşünərək, iştirak edərək, tələbənin öz dilini şüurlu, fəal bir surətdə əldə edə bilməsi elmi, ictimai, tədris cəhətindən məktəblərdə yeni bir dövr sayıla bilir. Bu təbiiyyat bilgilərinin üsuluna yaxlaşmaqdan başqa bir şey deyildir. 1856-da Maks Müller "Lisaniyyat mühazirələri" nam əsərində birinci mühazirəsini "Lisaniyyat təbii elmlərdən birisidir", – deyə başlayır. Nasıl tələbə[yə], hankı dərəcəli məktəbdə olursa-olsun, təbiiyyat elminin qanunlarını təcrübə və müşahidədən sonra anlatmaq hər zaman mümkün, hətta daha qolay oluyor, öylə də lisaniyyat və onun bir parçası olan sərf və nəhv fənnini tədris qabildir və bəlkə, təbiiyyatdakından daha qolay və əlverişlidir. Çünki

təbiiyyat təcrübə və müşahidə üsuluna varmaq üçün süni mühitə (laboratoriya kabinəyə) möhtacdır. Halbuki üç yaşından başlayaraq, hər çocuğun, hər insanın öz lisani materialı və təcrübəsi vardır ki, onu bu material üzərində düşündürmək, tədqiq və təkşifə sövq etmək yolilə məqsəd daima parlaq surətdə əldə edilir.

Sərf istilahları

Sərf kitablarımızda xəstə məsələlərdən birisi də istilah məsələsidir. Çocuq izafətlərin, məfulların, zərflərin, fel şəkillərinin, hətta hərflərin adlarını bilmək üçün daha əlifbaya, səslərin tədqiqinə başladığı zaman təftəzanilər, mollacamilərdən bir kaç yüz ərəbcə siğələr əzbərləmiş olmalıdır. Sözlər, adlar bir şey anlamaq, xatirdə tutmaq üçündür. Bunun üçün də sadə anlaşılır, qısa olması lazım gəlir.

Çocuğun 3-5, hətta 7-8 və bəlkə də, ziyadə yaşlarına qədər öz dilinə malik olması, böyüklərə, mühitə, şeylərə verdiyi adların onun ruhuna, məntiqinə uyğun düşməsi lazım gəlir.

Çocuğun hər zaman gördüyü və pək iyi tanıdığı ata-babasını, məsələn, müzaf ileyh və yaxud tərkibi-tövsifi adlandırsaq, heç şübhə yox ki, çocuq on yaşına qədər, bəlkə, daha ziyadə bir zaman üçün ata-babasının adını doğru-düzgün söyləyəməzdi. Çünki bu təbirlərin çoxusu deyil, tamamilə [hamısı] başqa bir üzviyyətə, skeletə malik olan, [təkcə] bizim dilimizdə [deyil], hətta öz yurdları olan ərəb-fars xalq dillərində belə arxaizm halına gəlmiş, kiflənmiş tarixi sözlərdir. Bunların yerinə türkcələrini icad etmək üçün son on beş-iyirmi il içərisində bir çox qeyrətlər, əməklər sərf olunmuş isə də, zorakı təbirlərdən başqa bir şey meydana çıxmamışdır. Bunun səbəblərini başqa yerlərdə izah etdiyimizdən burada təkrarına hacət yoxdur. Bu təbirlərin təmiz rusca qarşılıqlarını bizdən çox əvvəl bulmuş olan ruslar artıq bu növ istilahları az və ehtiyatlı qullanmaq, hətta tamamilə işdən atıb, ortada yalnız faktlarla lisani materialları, bunların tədqiq və təsnifindən çıxacaq nəticələri buraxmaq niyyətindədirlər. Getdikcə ilərləyən dil üsuli-tədrisi bu istilahların lüzumsuz, fəzlə olduğunu hər gün bir az daha qüvvətli dəlillərlə isbat etməkdədir. Diplomatlardan birisi: "Qonuşmaq fikirləri gizləmək üçündür", – demişdi. Bu söz sərf istilahları üçün pək doğrudur. Çünki bizdə sərf və dil öyrətmək çox dəfə

bu istilahları əzbərlətməyə varıb tökülür. Qısası, istilahları tamamilə ortadan qaldıraraq, bunların yerinə tədqiq, təsnif və tərif işlərini qoymaq həpsindən gözəldir. Ümumi üsuli-tədris bizi yeni istilahlar aramaq zəhmətindən azad edər. Nasıl Qaf dağını və Yəcuc-Məcucu aramaq zəhmətindən yeni elmlər bizi qurtarmış isə, istilahlardan da bu surətlə qurtulmuş oluruz. Əsasən məşhur lisançılardan birisi: "Hər şeyə ad taxmaq həvəsi düşünmə tənbəlliyidir", – deyir.

Nəticə

Əsri və elmi bir türk sərfi yazmaq üçün şu şərtlərin və vəzifələrin yerinə gətirilməsi lazım gəlir:

1. Lisaniyyat üsullarını bilməlidir.
2. Canlı dili öyrənməlidir.
3. Türk sərfi Aristot və İbn əl-Müqəffa zamanlarından qalma, elmcə batil, əməliyyatca məhal fikirlərlə doludur. Bunlardan sərfimizi təmizləmək lazımdır.
4. Türk sərfləri əcnəbi sərflərini təqlid edilərək yazılmamalıdır.
5. Dilimizdə bulunan əcnəbi sözlər sərflərimizdə bəsit damar kibi görülərək, onların qaydaları ortadan qaldırılmalıdır.
6. Türk sərfi şu qisimlərdən mürəkkəb olmalı, yaxud şu məsələlərdən bəhs etməlidir:

1) səs (yalnız türkcədə kaç səs olduğu deyil, bəlkə, türk dilindəki səslərin nə surətlə meydana gəldiyi, qrupları, cinsləri, dəyişmələri, birbirlərinə təsiri, ahəng və sairə);

2) damar: a) bəsit, b) mürəkkəb;

3) şəkilçi: a) canlı, b) cansız, c) sözyapan, ç) sözdəyişdirən;

4) söz: a) ayrı söz, b) mürəkkəb söz, c) yarımsöz, ç) şəkilsiz söz;

5) cümlə, onun növləri, vəzifələri.

7. Şəkillərdə müvazi olaraq, yaxud ayrıca məna bəhsi olmalıdır.

İbtidai izahatdan başqa, burada şu şöbələr də buluna bilir: a) mənanın genişləməsi, b) mənanın darlaşması, c) intiqalı, ç) qaib olması, d) mənasız sözlər, e) yarımmənalı sözlər və sairə...

8. Sərf kitablarının sonuna xalqın əcnəbi sözləri nasıl dəyişdirib bənimsədiyini göstərmək üçün xalq etimologiyası qismi də əlavə olunsa, çox müvafiq olur.

Birinci mənbələr və məxəzlər

Müəllimlərimizə, sərfçilərimizə öz dilimizdə göstərəcək mənbə və məxəzlərimiz həman yox kibidir. Bunun üçün bu məqalənin təməlini izah edə biləcək bəzi əsərləri, əcnəbi dilində də olsa, oxuyucularımıza tövsiyə etməyə qərar verdik:

1. J.Deny. Grammaire de la turque. Paris, 1921.
2. Русский язык в школе, под редакцией проф. Ушакова. Москва, 1923.
3. Родной язык в школе, книга 1-7, 1921-1925.
4. А.М.Пешковский. Наш язык. Часть I. Книга для учителя. Москва.
5. П.О.Афанасьев. Родной язык в трудовой школе. М., 1924.
6. Mühərririn: Türk-tatar lisaniyyatına mədxəl. Bakı, 1924.
7. Krım-tatar elmi sarfi. Ağ məscid, 1925.

Digər lüzumlu əsərləri bunlardan öyrənmək mümkündür.

"Yeni məktəb", № 5-6, 1925, səh. 3-34.

TÜRKOLOJİ QURULTAYININ MÜƏLLİMLƏR ÜÇÜN ƏHƏMİYYƏTİ

Türkoloji qurultayı martın səkkizində işlərini bitirdi. Aradan iri bir zaman keçdiyi halda bu qurultayın hər cəhətdən mühüm olan yekunlarını əks etdirə biləcək əsərlər, təsirlər meydanda yoxdur. Bu sözümüz başqa məmləkətlərdən ziyadə Azərbaycana aiddir. Çünki özgə cümhuriyyətlərin müməssilləri öz yurdlarına daha bir kaç gün əvvəlisi dönə bildilər və hənuz öz intibalarını qəzetələri sütunlarında, camaatları arasında əks etdirməyə vaxtları olmadı. Lakin Azərbaycan Cümhuriyyətinin bütün elmi və tərbiyəvi qüvvətləri böyük maraq və əcələliklə qurultayda iştirak etdikləri halda, nədənsə öz təsirlərini heç bir yerdə meydana qoymadılar, – desək zənn edərim, yanılmayız. Halbuki bu qurultay əsas etibarilə Azərbaycanın idi və qurultayın bir çox qərarları Azərbaycan müəllimləri tərəfindən ortaya atılan məsələlərə bütün türk-tatar cümhuriyyətlərinin və Rusiya – Avropa türkoloqlarının verdikləri cavablardan başqa bir şey deyildi. İştə bunun üçün bilxassə

Azərbaycan müəllimləri bu qurultayın işi və bu işin nəticələri ilə əlaqədar olmalıdırlar.

Biz şu bir kaç sətirlik məqaləmizdə qurultayın bütün və olduqca böyük bir cild istəyən başqa qərar və yekunlarını buraxaraq, müəllimlərimizin diqqətini yalnız birinci dərəcədə onlar üçün mühüm olan yekunlar üzərinə çevirmək istəyiriz.

* * *

Bir kaç yerdə söylənildiyi və yazıldığı kibi, türkoloji qurultayının ruznaməsində duran məsələlər ikiyə ayrılmışdı: 1) elmi, 2) əməli. İştə bu əməli məsələlər məktəb, pedaqoji və müəllimlik məsələlərindən başqa bir şey deyildir.

Bəzi kabinet türkoloqları qurultayda əməli məsələlərin də müzakirəyə qonulmasından, bu qurultayın türkoloji qurultayından ziyadə türk xalqlarının qurultayı olduğunu zənn etmişlərsə də, onlara yanıldıqları qurultay bitmədən əvvəl isbat edilmişdir. Çünki artıq türkoloji elmi tamamilə mücərrəd, nəzəri və metafizik bir sahə olmaqdan çıxıb, canlı dillərin, ədəbiyyatların, müasir mədəni və ictimai cərəyanların da təhlil və tədqiqini üzərinə almışdır və bu etibarla türkoloji də, başqa bilgi budaqları kibi, elmi, əməli, nəzəri və tətbiqi qisimlərinə ayrılmışdır.

Artıq yalnız türklərin əski yurdu, hüyunğ-noların əsli, sədalı sayelərin rolu ... kibi mücərrəd tarixi və lisani məsələlər üzərinə qurultay çağırmaq, müzakirə açmaq dövrü keçmişdir. Böylə məsələləri qurultaylardan ziyadə müəyyən elmi jurnallar və müəssisələrdə müzakirə altına alıb çözməkdən başqa çarə yoxdur. Bu qurultay gerçəkçi elmi və əsri bir türkoloji konqresi idi.

Bundan başqa, qurultayda iştirak edən müməssillərin yüzdə səksəni sənət etibarilə müəllimlər idi. Türk-tatar aləminin ən təcrübəli və ən məlumatlı müəllimlərinin bu qurultayda iştirakındandır ki, bir çox qarışıq və dolambaclı məsələlər qayət açıq və bugünkü məktəb və maarif həyatımızın istəklərinə uyğun olaraq çözüldü.

Qurultay ətrafında çıxan ikinci yanlış təfsir də, zənn ediyorum ki, əlifba məsələsinin qurultaydakı yeri və əhəmiyyəti haqqındadır. Bəzi adamlar Birinci Türkoloji Qurultayını "əlifbaçılar qurultayı" və hətta bəzi daha əsəbi vətəndaşlar "latınçılar qurultayı" adlandırmağa meyl etməkdədirlər.

Əlifba məsələsinin zamanımız üçün haiz olduğu böyük və dərin əhəmiyyəti heç bir zaman inkar etməməklə bərabər, heç bir zaman da əlifba məsələsinin dil, tarix, ədəbiyyat, ictimaiyyat... məsələlərindən ayrı olaraq ileri sürülməsinin tərəfdarı olmadıq və qurultayda da bu nöqteyi-nəzərin parlaq surətdə təsdiq edildiyini gördük.

Hər kəsi əlifbaçılıqla ittiham edənlər, zənn ediyorum ki, bir tərəfdən, qurultayın proqramı və işilə aşina deyillər, digər tərəfdən, həqiqi və mütəəssib əlifbaçılardır. Çünki qurultayda da gördüyümüz kibi, bilxassə ərəb əlifbasını əksirdən qüvvətli əlac və zəncirdən sağlam bir bağ olaraq düşünənlər əlifba məsələsindən başqa, bir məsələ haqqında nə düşünmək, nə də danışmaq tərəfdarı deyildilər. Burada ərəb əlifbasının hər hankı bir ərəbdən ziyadə tərəfdarı olan dostlarımdan birisinin qurultaydan sonra söylədiyi şu sözləri xatırlamamaq əlimdən gəlməz: "Yeni türk əlifbasını qəbul etməklə Şərq mədəniyyətini gömdünüz və qalan məsələlərinizdə az-çox ahənglə gözəl birər mərsiyə oxudunuz. İştə qurultayınız bundan ibarətdir!"

Bu sözlərdən sonra bən dostuma ərəb əlifbasının qüsurlarından, imla, üsul, istilah... məsələlərindən bəhs edə bilirmi idim? Hər ikimizdən də acınıqlısı, şübhəsiz, "Şərq mədəniyyəti" idi ki, yüz bir səs ilə gömüldü-getdi...

* * *

Xayır, müəllim arxadaşlar... Türkoloji qurultayı bu deyildir. Bütün bu yanlış anlamalar qurultayımızın birinci və qayət mühüm olmasından ileri gəlir. Hərgünkü işləri anlamağa, düşünməyə alışan qafalarımız böylə hadisələrin qiymətini birdən-birə təyin etməməkdə, edəməməkdə məzur tutulmalıdır. Gərək kabinet türkoloqlarının, gərəksə "ərəb"i ع-sız yazamayan əlifbaçılarımızın qurultaya verdikləri qiymət, ətf etdikləri qüsurlar əski etiyadların, alışmaların nəticəsindən başqa bir şey deyildir.

Həqiqət halda isə qurultay həman bu türk-tatar cümhuriyyətlərini və bütün Avropa və rus türkoloji müəssisələri nümayəndələrini pək ziyadə sevindirmiş və hər kəsdə istiqbal haqqında dərin ümidlər doğurmuşdur. Akademik Oldenburq, professor Pavloviç, Samoyloviç və Mentsel, Köprülüzadə... kibi qurultayda öz bilikləri və xidmətləri ilə mühüm rol oynamış olan müməssillərin fikirləri, bizdə buraxdıqları

təsirlər buna dəlildir. Gərək Moskva və gərəksə Avropa türkoloqlarının həman bir ağızdan Azərbaycan türkoloji və şərqiyyat müəssisələrində çalışmaq arzusunda bulunmaları buna şahiddir.

Bununla bərabər, bu qurultayda bütün məsələlərin tamamilə çözülmədiyini, bəzi xətaların, ehmalların bulunması mümkün olduğunu heç kimsə inkara qalxışmaz. Əgər böylə olmasa idi, heç kimsə Səmərqənddə ikinci bir qurultayın çağırılmasını təklif etməz və böylə bir təklifi qəbul etməzdi. Qısası, ortada şimdilik tam yetmiş bir bina olmasa da, təməl, həm də qayət sağlam bir təməl atılmışdır ki, bunun üzərinə bir-birindən gözəl binalar qurmaq mümkün olur. Əgər bu məqaləciyimizdə bu təməlin nədən ibarət olduğunu göstərirsək, gələcək məqalələrimizdə daha ileriyə gedərək, bu təməl üzərinə qurula biləcək binaların projelərindən bəhs edə biliriz.

* * *

Bizim, yəni Şuralar İttifaqında yaşayan türk-tatar xalqlarının bugünkü mədəni sərmayəsi birinci və ikinci dərəcə məktəblərlə ali təhsil müəssisələrində oxumaqda olan gənclərindən ibarətdir. Binaən əleyh türkoloji qurultayı bu faktları göz önündə tutaraq, bunların əzəmi faydanı təmin edə bilməsi üçün lazım gələn tədbirləri, çarələri görmüş və göstərmiş isə, özündən bəklənilən vəzifə və borcları yerinə gətirmiş deməkdir.

Mədəniyyət və irfan həyatımızın bu cəhətlərinə toxunan məsələlər türkoloji qurultayın ruznaməsində sütunlar idi:

1) imla; 2) üsuli-tədris; 3) əlifba; 4) istilah; 5) ölkəşünaslıq.

Bütün bu məsələlər öz aralarında sıxı surətdə bağlıdır. Kəndlərdə, şəhərlərdə çalışan müəllimlərimiz, maarifçilərimiz bu məsələlərin gərəyi kibi çözülməsindən pək böyük güclüklərə məruz qala gəlmişlərdir. Bunlar haqqında qəbul edilən qərarlar, ileriyə sürülən tezislər prinsip etibarilə böyük bir intizam və yeknəsəqlik içərisindədir.

İmla məsələsində qurultayda ona qədər məruzə və yarımməruzə və yarım gündən ziyadə münaqişə olmuşdur. Bu çıxışlar arasında bir çox imla prinsipləri və əməli qərarlar ileriyə sürülmüşdür. Bu məsələ haqqında doqquz müfəssəl nöqtədən ibarət olan qərarlarında qurultay birinci qərar nöqtəsində izah edilən prinsipi qəbul etmişdir: "İmla haqqında bu gün mövcud olan dörd əsasi və elmi prinsipdən türk dilinin

təbiətinə uyğun başlıca prinsip şəkillilər morfolojik, yaxud etimolojik prinsiplə müxtəlif dərəcədə birləşdirilmək şərti ilə sövti (fonetik) prinsipdir".

Böylə bir qərarı qəbul edə bilmək üçün başlıca tarixi prinsip tərəfdarları ilə sözləşmək və hesablaşmaq lazım gəlmişdir. Türkoloji qurultayında iştirak edən bəzi maarifçilərimiz şimdiyə qədər təyin etmiş olan imlamızın əhəmiyyətli tarixi xüsusiyyətləri olduğunu ileri sürərək, tarixi prinsipin bundan böylə də əsas, ümdə olaraq alınmasını təklif etmişlərdir. Böylə bir təklifi qəbul edə bilmək üçün şimdiyə qədər türk dilini və sözlərini yazmaqda qullana gəldiyimiz ərəb hərflərinin heç olmazsa başlanğıcda, məsələn, onuncu və on birinci əsrlərdə o vaxtdakı türk dilinin səsləri az-çox doğruluqla qeyd etmiş olduğunu və bu soy əskiyə, keçmişə məxsus xüsusiyyətlərin bu yazıda saxlanıb gəlmiş olduğunu isbat etmək lazım gəlir. Əgər ingilis, fransız, rus kibi bir çox Avropa xalqlarının imlalarında tarixi prinsip mühüm bir yer qazanmış isə, bunun başlıca səbəbi bu imlaların vaxtilə fonetik olub, sonra get-gedə dilin dəyişib, yazının sabit qalmasilə bugünkü tələffüzdə olmayan xüsusiyyətlərin yazıda qüvvətli izlər buraxmasıdır.

Əcəba, ərəb yazısı hər hankı bir zaman türk səslərini və yaxud sözlərin xarakteristik şəkillərini əks etdirə bilmişmidir? Buna cavab vermək üçün ən əski ərəb hərfləri ilə yazılmış türk əsəri olan Mahmud əl-Kaşqarinin "Divan"ından zamanımızda yazılmaqda olan türkcə kitab və məqalələrə göz gəzdirmək yetişir. Sözün qısası, türk dili nöqteyi-nəzərindən ərəb yazısilə mövcud olan kitablarımızda, yazılarımızda tarixi xüsusiyyətlər bulmaq – buldum, zənn emək başqa!.. – çox gücdür.

Böylə olunca imlamızda tarixi xüsusiyyətlərin bulunduğunu iddia, daha doğrusu, isbat etmək pək gücdür. Netəkim qurultayda da nə nəzəri və nə də əməli dəlillərlə böylə bir davanı qazanmağa imkan görülməmişdir.

Bununla bərabər, fonetik prinsipin özbaşına gözəl, düzgün və qolay bir imla verəcəyini zənn etmək safdillik, daha doğrusu, cahillik olur. Bunun böylə olduğuna yeni türk əlifbasilə nəşr olunan kitab, kitabçalar və bilxassə "Yeni yol" qəzetəsinin sütunları bol-bol dəlillər verə bilir. Orada bir nüsxədə, bir səhifədə, hətta bir məqalədə eyni sözün bir kaç dürlü yazıldığını görmək hər zaman mümkündür. Çünki yeni əlifba ilə yazan arxadaşlarımız hənuz qarşılarında müəyyən imla əsas-

ları, qaydaları bulamamış və o qaydaları yaradacaq, bilgiləyəcək təməl quramamışlardır. Onlar bu gün daha canlı, yəni fərdi tələffüzlər əsasında durmaqdadırlar. Əgər bütün mühərrir və şairlərimizdə bu qüsurun pək açıq göründüyünü də buna əlavə edəcək olursaq, imlasızlıq bəlasının, başqaları kibi, ümumi mədəni və ədəbi nöqsanlarımızdan olduğu anlaşılır, ümidindəyəm. Məsələn, "qarşılarında" kibi bir sözü yazmaq istəyəcək olursaq, bunun bugünkü imlamıza görə düzgün və yanlış şəkillərini göstərmək mümkün deyildir. İştə bunun üçün قرشيلرنده قارشولرينده... قرشيلارينده، قارشيلرينده، kibi ona yaxın şəkillərindən hər biri doğru, düz sayılmaq lazım gəlir və öylə də zamanımızda qullanılır.

Yalnız fonetik əsasın yetişməyəcəyini görən imla komissionu və ümumiyyətlə, qurultay pək doğru olaraq buna etimolojik prinsipi də əlavə etmiş və daha doğru olaraq birinci nöqtəyə şu üç mühüm maddəni də əlavə etmişdir ki, bu maddələr imla komissionu tərəfindən qəbul edilmiş qərarların 7, 8, 9-cu paraqraflarını təşkil etməkdədir:

7) Müəyyən ədəbi dillərdə imlanın vahid şəkildə bulunmasını tövsiyə etməklə bərabər, qurultay bəzi türk şivələrində görülən məhəlləçilik meylini rədd ediyor.

8) Türk şivələrində məntiqi və əqli sövti əsas üzərinə qurulmuş bir imla meydana gətirmək üçün türk-tatar dillərinin imla lüğətlərini meydana gətirməlidir.

9) Qurultay bütün türk-tatar dillərinin səslərini əks etdirmək üçün aid olan elmi müəssisələr tərəfindən latın əsasında bir elmi transkripsion, istinsax əlifbasının meydana gətirilməsini arzu edər.

İştə bu üç nöqtə yalnız sövti əsasla kifayətləndiyimiz təqdirdə qarşımıza çıxacaq müşkilləri həll edə bilmək üçün çox mühümdür. Çünki qurultay, bir tərəfdən, məhəlləçilikdən (**провинциализм**) qaçınmasını, digər tərəfdən, ədəbi tələffüzlərin göz önündə tutulmasını və nəhayət, bütün türk-tatar şivələrinin ümumi xüsusiyyətlərini əsas alaraq, vahid, birlik transkripsion əlifbası meydana gətirilməsini tövsiyə etməklə fərdi, anarxiyalı, qaydasız və ölçüsüz imlanın qarşısına keçmək üçün ən əsaslı çarələri göstərmiş oluyor. Azərbaycan, Tatarıstan, Özbəkistan... kibi az-çox uzun bir maziyə malik ədəbiyyatları olan türk ölkələri üçün ədəbi tələffüz üzərində birlik imla yaratmaq qayət qolay bir işdir. Yalnız burada müəyyən iradəvi və qaidəvi (**normativ**) fəaliyyət şərtdir. Xülasə, qurultayın göstərdiyi elmi və əməli yollarla birlik və düz bir imla sahibi olmaq mümkündür.

Üsuli-tədris məsələsi də türkoloji qurultayında olduqca müfəssəl və ətraflı bir surətdə müzakirə olunmuş və bu xüsusda ayrılan üsuli-tədris komissionu tərəfindən təyin edilib qurultayda qəbul edilən on bir maddəlik qərarda bu məsələnin başlıca nöqtələri haqqında kafi məlumat verilmiş və az-çox qəti yollar göstərilmişdir.

Dil və əlifba tədrisi ətrafında şimdiyə qədər meydana çıxmış olan bütün üsullar gözdən keçirildikdən və türk məktəblərinin on doqquzuncu əsrin ortalarından zamanımıza qədər keçirmiş olduqları üsul dəyişmələrinin layiq olduğu dərəcədə qiyməti verildikdən sonra qurultay imla məsələsində qəbul etdiyi prinsiplərə uyğun olmaq üzrə əlifba tədrisində Amerika üsulundan ziyadə, Montesorinin sövti əsasa qurulmuş üsulunu tövsiyə ediyor.

Üsuli-tədris haqqındakı qərarnamənin birinci maddəsi şimdiyə qədər müəllimlərimiz və lisançılarımız arasında davam edib gələn və çox dəfələr bir çox anlaşmazlıqların mənbəyi, bulağı olan mühüm və olduqca qarışıq bir məsələni, bizcə, çox açıq bir surətdə çözüyor. Nətəkim bu qərarnamənin birinci maddəsində şöylə deyiliyor: "Ayrı-ayrı şivələrin tədqiqi və müəllimlərin lisaniyyat elmində lazım gələn hazırlıqları olmadıqca türk xalqlarında ana dili tədrisinin müvəffəqiyyətli bir surətdə götürülməsi mümkün deyildir. Bunun üçün də gərək şivələrin və gərəksə lisaniyyat bilgisinin orta və yüksək məktəblərin proqramında ayrı və mühüm bir yer tutması lazım gəlir".

Bu xüsusda eyni qərarnamənin 10-cu, 11-ci və 12-ci maddələri gərək bir-birini və gərəksə yuxarıda söylənilənləri tamamladığından bu maddələri də burada eynilə köçürməyi faydalı bulıyoruz:

10) İkinci dərəcə məktəblərdə ayrı bir dərs (**предмет**) olaraq elmi sərfin oxudulması arzu olunur.

11) Birinci dərəcə məktəblərdə ana dili üçün başlıca material türk xalqlarının xalq ədəbiyyatından alınmalıdır.

12) İkinci dərəcə məktəblərdə ədəbiyyat ictimaiyyata bağlı olaraq epizodik bir tərzdə və müasir ədəbiyyata daha ziyadə əhəmiyyət verilərək tədqiq olunmaq lazım gəldiyi kibi, tarixi cəhətdən də öyrənilməlidir. Ədəbiyyat tarixi cəhətdən keçildiyi zaman başqa türk xalqlarının ədəbiyyatları göz önündə tutulmalı və bu məqsədə uyğun surətdə qiraət, material kitabları (ədəbi xrestomatiyalar) yapılmalıdır.

Bütün bu qərarlar türk çocuğunun ana dilindən yavaş-yavaş yüksələrək ədəbi dilə və nəhayət, öz ölkəsindən başqa ölkələrdə yaşayan

türk xalqlarının ədəbiyyatlarına yetişməsini təmin etdiyi kibi, ədəbiyyatın ictimaiyyat ilə, dilin lisaniyyat ilə bağlanması da onun, türk tələbəsinin öz dil və ədəbiyyatını ümumi, əsli cərəyanlarla müvazi və bağlı olaraq təhlil və tədqiq edə bilməsinə yol açıyor.

Türk sərfinin ikinci dərəcə məktəblərdə elmi surətdə keçilməsi müəllim və hazırlıqlı tələbə bulunduğu təqdirdə bir gün əvvəl həyata keçirilməsi lazım gələn fikirlərdəndir.

Əlifba məsələsi bir çox illərdən bəri türk-tatar aləmində bir çox münaqişə və müzakirələrə ana olan xəstəliklərimizdən birisi idi. Qurultay, bütün başqa məsələlərdə olduğu kibi, burada da əsas olaraq türk dilinin təbiət və mahiyyətini almış və bu nöqteyi-nəzərdən yürüdülən uzundan-uzun, müfəssəldən-müfəssəl münaqişə və çıxışlar nə əski, nə də islah olunmuş ərəb hərflərinin türk dilinə yaramayacağını bütün qurultaya göstərmiş və bu surətlə ərəb əlifbası tərəfdarı olub gələnlərdən bir çoxu da latın əsasını qəbul etmək cəhətinə rəy vermişlərdir. Türk dillərinin bütün səslərini qeyd və bütün şəkli xüsusiyyətlərini işarət edə biləcək bir əlifba varsa, o da, heç şübhəsiz, latın əsasında yapılacaq ümumi türk əlifbasıdır.

Bu nöqteyi-nəzər ətrafında şimdilik Tatarıstan və Qazaxıstandan başqa, on beşə qədər türk cümhuriyyət və ölkəsi toplandı ki, bu surətlə latın əsasında ümumi bir türk əlifbası mümkün olduğu hər kəsə əyan-bəyan göründü. Bu məsələ haqqında başqa əməli məsələlərimizə görə daha geniş ədəbiyyat olduğundan daha ziyadə durmağı lüzumsuz görməklə bərabər, yalnız burasını qeyd edəlim ki, qurultay dağılmadan əvvəl Azərbaycan Yeni Türk Əlifba Komitəsinin təşəbbüsilə ortada mövcud dürlü əlifba projelərini tədqiq ilə nəticədə ümumi bir türk əlifba projesi hazırlamaq üçün lazım gələn qərarları qəbul etmişdir. Bu surətlə yeni türk əlifbasının yapılma, intişar dairəsi heç bir dürlü ərəb əlibasınınkından dar olmayacaqdır.

İstilah məsələsində də qurultay on üç maddədən ibarət bir qərarnamə qəbul etmişdir ki, bu qərarnamə ilə, zənn ediyorum, istilah işinin təməlləri bizdə hər zaman üçün qəti surətdə qurulmuşdur.

Burada bir-birinə müvazi olaraq şu əsaslar ilərıyə sürülmüşdür:

1) Türk dilinə, istilah yapılırkən, bütün başqa dillərə qarşı üstünlük verməlidir.

2) İstilah ararkən şivə, şivə qruppası, ümumi türk dili dərəcələrini göz önündə tutmalıdır.

3) Bu lisani dərəcələrlə məktəb və təhsil dərəcələrini bir-birilə birləşdirə bilməlidir.

4) Yəni birinci dərəcə məktəblərin öz xüsusi istilahları üçün məhəlli şivə, ikinci dərəcə məktəb üçün şivə qruppası, darülfünun üçün ümumi əsasa dayanaraq istilah meydana gətirməyə çalışmalıdır.

5) Bütün əcnəbi istilahlar damar olaraq alınıb, türk dilinin sövti və şəkli qanunlarına uydurulmalıdır.

İştə bu surətlə qurultay, bir tərəfdən, türk və əcnəbi sözlərin dilimizdəki münasibətini, digər tərəfdən, xalq şivələri ilə ümumi türk lüğətinin rollarını pək açıq və məntiqi bir tərzdə göstərməsilə istilah işimiz şimdiyə qədər görülməmiş bir surətdə aydınlaşmışdır. Bununla bərabər, bu mühüm qərarların həyata keçirilməsi bizdən, yəni türk müəllimlərindən böyük diqqət və çalışqanlıq istəyir. Ancaq ayrı bir diqqət və qeyrət ilə çalışa bildiyimiz təqdirdə hər üç dərəcə məktəb üçün istilah və nəhayət, elmi dil meydana gətirə biliriz. Bunun üçün də, əvvəla, hər üç dərəcə məktəbdə çalışan maarifçilərimiz, müəllimlərimiz arasında sıxı rabitə və birlikdə çalışmaq üçün lazım gələn birləşdirici müəssisələr bulunmalıdır. Bu məsələyə lazımi dərəcədə cavab və həll verə bilmək üçün qurultay bütün türk istilah komissionlarının ümumittifaq müşavirəsini çağırmağı münasib görmüşdür.

Bundan başqa, məhəlli, hər cümhuriyyətdə bulunan istilah komissionlarının şimdiyə qədər olduğu kibi, bundan sonra da qəbul etdikləri, meydana çıxardıqları istilahları cəmi-istilah lüğətçələrinin nəşrini və bütün bu məhəlli işləri yekunlaşdırmaq üçün bütün türk-tatar istilah lüğətinin nəşrini qurultay tövsiyə etmişdir.

Nəhayət, ölkəşünaslıq (**красведение**) məsələsində qurultay dörd maddəlik qısa, fəqət, olduqca faydalı qərarlarında ölkəşünaslıq türkolojinin başlıca əsaslarından biri olaraq qeyd olunmaqda və hər cümhuriyyətdə ölkəşünaslıq təşkilatlarının bulunması lüzumu ixtar olunmaqdadır. Ölkəşünaslıq bütün buraya qədər qeyd etdiyimiz dörd məsələnin əqli və məntiqi bir surətdə çözülə bilməsi üçün lazım gələn əsas materialları verən birinci mənbədir. Ölkəşünaslıq bilgisinin ən yeni üsullarını əldə edərək bütün türk ölkələri gərəyi kibi tədqiq və təftiş olunmadıqca türkolojinin nə nəzəri, nə də əməli cəhətlərini tam bir surətdə işıqlandırmaq, qarşımıza çıxan və çıxacaq şəkilləri ehtiyaclarımıza uyğun bir şəkildə çözmək qabil olamaz.

Nəticə: Qurultayın ruznaməsindən ayırıb aldığımız bu beş məsələ yalnız türkoloji müəssisələrinin deyil, ondan da ziyadə, məktəb və müəllimlərimizin hərgünkü məsələlərindəndir. Türkoloji alimləri və türk maarifçiləri bu məsələləri az-çox doğru bir surətdə çözməklə türk müəllimlərinə böyük, pək böyük bir arxadaşlıq yardımı göstərmiş oldular.

Müəllimlərimizin bu yardıma verəcəkləri cavabı bu və başqa bunun kibi məsələlər doğrusunda qurultayın arzu, tövsiyə və qərarlarını öyrənərək onların yerinə gətirilməsinə çalışmaqdır.

Yalnız əməli məsələlərdə deyil, özgə, elmi və nəzəri sahələrdə də (məsələn, lisaniyyat, etnoqrafi, tarix...) müəllimlərin rolu və yardıma gəlmələri lüzumu bir kərə deyil, bir kaç kərələr qeyd olunmuşdur.

Məqaləmizin başında söylədiyimiz kibi, türkoloji qurultayı təməli qurmuşdur. Bu təməl üzərində iləridə olacaq yapıçılıqda ən mühüm kərpicləri müəllimlərimiz gətirməlidirlər.

"Maarif işçisi", № 3 (11), 1926, səh. 7-13; № 4 (12), 1926, səh. 6-10.

ŞƏRQÇİLİK MÜƏSSİSƏLƏRİ

Bu məqaləmizdə ümumi cizgilərilə Şuralar İttifaqı içərisində bulunan və bulunmuş olan şərqiyyat, xüsusilə türkoloji müəssisələri haqqında bir kaç söz yazmaq istəyiriz.

Şərqdə on birinci əsrdən on səkkizinci və on doqquzuncu əsrə qədər az-çox müvəffəqiyyətlə türk xalqlarını, ümumiyyətlə, Şərqi araşdıran və öyrənən bir çox şərqçi və türkiyyatçı ünvanına layiq alimlər gəlib keçmişlərsə də, bunların məmləkət və xalqların müntəzəm, daimi və üsuli surətdə öyrənilmələri, tədqiq olunmaları üçün hər hankı bir təşkilatı meydana gətirdiklərini bilməyiriz.

Elm, hankı sahə və meydanda olursa-olsun, yalnız şəxslərin, ayrı-ayrı fərdlərin işləməsilə yaşayamaz, ilərilməyəz. Bu günə qədər heç bir ustad görmədən, heç bir ocağa, tezgaha, məktəbə, fabrikaya... mənsub olmadan elmi düşüncəyə malik bir adama rast gəlinməmişdir və gəlinəməz də... "Xudayi tabət" mövcudlar, "dahi kəşfçilər", özbaşına yetişən ümmi şair və filosoflar həp hər hankı bir ustadın, məktəbin, heç olmazsa, elmi və fikri mühitin yetişdirmələridir.

Elmdə bu gün yaşamaqda olan işbölmə (təqsimül-ə'mal), ixtisas **(специализация)** şüarları fərdi, mücərrəd işlə, şübhəsiz, qarışdırılamaz. Elmlərin insanlar arasındakı iqtisadi və ictimai münasibətlər ilərilədikcə genişlənməsi, ilərilməsi bu sahələrdə çalışan alimlərin öz aralarında rol və vəzifələri paylaşmalarını icab etdiriyor.

Əskidən bütün Şərq dillərini Giyom Postel kibi alimlər artıq şərqiyyatçılar arasında yoxdur və olamaz. Heç bir şərqiyyatçı, məsələn, həm fars, həm ərəb, həm də türk tarixini və tarixi ədəbiyyatını yazamaz. Zamanımızda ərəbist, iranoloq, türkoloq bir-birlərinin yerlərini tutamayacaq dərəcədə üsul və mündəricəcə öz sahələrini ayırmış və işləmişlərdir. Deyil yalnız şərqiyyat sahəsində, bu sahələrin içərisində də işbölmə – təqsimi-ə'mal getdikcə daha ziyadə inkişaf etməkdədir. Məsələn, türkolojini alacaq olursaq, türkoloq-lisançı, türkoloq-tarixçi, türkoloq-ədəbiyyatçı... alimləri bir çox nöqtələrdə bir-birindən ayrılıb çıxmışlardır.

Demək ki, türkoloji sahəsində az-çox qətiyyətlə təqsimi-ə'mal ehtiyacı kəndisini duyurmaqda, zaman keçdikcə, türkoloji elmi inkişaf etdikcə bu ehtiyac da tətmin olunmaqdadır.

Təqsimi-ə'mal ilə fərdi çalışma arasında böyük fərq vardır. Təqsimi-ə'mal ilə çalışmaq birlik, kollektiv çalışmanın ən gözəl və ən əmin üsuludur, yoludur. Burada təqsimi-ə'mal ilə çalışmada kənardan bir-birindən ayrılmış kibi görünən sahələr, bir-birindən xəbərsiz kibi çalışan alimlər, yaxud, ümumiyyətlə, işçilər həqiqətdə sıxı-sıxıya bağlıdırlar.

Yenə türkolojini alacaq olursaq, burada, məsələn, yuxarıda zikr etdiyimiz lisançı, tarixçi və ədəbiyyatçı türkoloqların işləri bir-birilə sıxı bağlarla bağlanmış olduğu kibi, bir çox yerlərdə bir-birinin açdığı keçiddən, yapdığı köprüdən keçməyə borcludurlar.

Bu gün türkoloji sahəsində ən ziyadə axsayan bir cəhət varsa, o da, heç şübhəsiz, türk tarixidir. Bu gün hər hansı bir lisançı və yaxud ədəbiyyatçının əsərini alsaq, orada türk tarixi meydanının, sahəsinin zəif surətdə işləndiyindən şikayət olunduğunu oxuyuruz.

Yalnız türkolojinin dürlü sahələri arasında bulunan bağları və qarşılıqlı münasibətləri göstərmək, bəlkə, oxuyucumuzca, kafi sayılamaz. O halda, izn verilirsə, bir-iki sözdə türkoloji ilə başqa ictimai və təbii elmlər arasında bulunan qomşuluq və yaxınlıq haqqında söyləyəlim. Türkoloji gərək lisan və ədəbiyyat, gərəksə tarix və ictimaiyyat cəhətlərindən türk xalqlarının həyat və mədəniyyətini tədqiq etmək

etibarilə türklərin tarixləri və mədəniyyətləri boyunca kəndilərinə münasibətdə bulunduqları Şərq və Qərb xalqlarını da göz önündə tutmağa, onları da az-çox türklərin onlara, onların türklərə təsir etmələrini və bu təsirlərin əsli, əsasi ünsür və amillərini bulub meydana çıxarmağa məcbur olur və bu cəhətlə başqa Qərb və Şərq millətlərinin dilləri, tarixləri, məişətləri, mədəniyyətləri və nəhayət, sənət və irqi xüsusiyyətlərilə uğraşmağa məcbur olur. Türkoloqu – istər lisançı, istər tarixçi və yaxud daha başqa bir sahəyə mənsub olsun – az-çox öz sahəsindən tışraya çıxmağa məcbur edən amillərdən, səbəblərdən birisi bu, şimdi söylədiyimiz isə, digəri də üsul və məlumat cəhətidir ki, türkoloq, məsələn, lisançı başqa sahələrdə başqa dillərin tədqiqi üzərində çalışan alimlərin üsulları, məlumatları ilə, bir tərəfdən, lisaniyyatın, ümumiyyətlə, yardım aldığı fizioloji, psixoloji... kibi elmlər və bu elmlərin mütəxəssisləri ilə, digər tərəfdən, bağlanmış olur.

Bütün şimdiyə qədər söylədiklərimizdən şu nəticə çıxar ki, bu gün türkolojinin hər hankı bir sahəsində çalışan yaxud çalışmaq istəyən bir adam elmi planlarını özbaşına əmələ və həyata keçirəməz.

Türkoloq bir kərə bütün şərqiyyat – Uzaq Şərq də buraya girmək şərtilə – elmlərilə, digər tərəfdən, türkiyyat meydanında özünə ayırdığı işə, vəzifəyə görə başqa antropoloji, sosioloji, iqtisadiyyat, ilax. kibi elmlər və alimlərlə, bunların nəticələri, əsərləri ilə aşina olmaq icab edər.

Əcəba, türkoloqu bütün bu elmlərlə, elmi sahələrlə bağlayacaq vasitə, yaxud vasitələr nədən ibarətdir? İştə bu vasitələr, elmi təşkilatlar, şərqiyyat, yaxud türkoloji müəssisələridir.

Ayrı-ayrı türkoloqlar ancaq böylə elmi müəssisələrin xadimi, üzvü ola bildikləri təqdirdə əzəmi, ən çox məhsul verir və fayda gətirə bilirlər.

Şu günlərdə şəhərimizdə toplanmaqda olan türkoloji qurultayı şimdiyə qədər türkləri tədqiq sahəsində yapılan elmi və fənni işlərə yekun vermək və ilərıdə yapılacaq işləri göstərmək şüarı və məqsədilə toplanırkən türkoloji və yaxud şərqçilik müəssisələri bir məsələ olaraq qarşımıza çıxıyorlar. Netəkim bundan bir-iki ay əvvəlisi toplanmış olan qurultayın təşkilatçı komissionunun plenumu qurultay ruznaməsinin birinci qismini işğal edən elmi məruzələrin sonuna "Şuralar İttifaqı içində türkoloji müəssisələrinin bugünkü vəziyyəti və gələcəkdəki vəzifələri" namilə bir məsələ daha əlavə etmiş və bu xüsusdakı məruzəni də acizə yükləmişdi.

İştə mənim bu sətirlərim bu xüsusda qısadan bəzi fikirlərimi bəyan və izah etməyə xidmət edəcəkdir.

* * *

Avropada birinci şərqiyyat müəssisəsi olaraq, Fransada on beşinci əsrdə qurulmuş olan Şərq dilləri məktəbini **(Ecole des lanques orientales)** göstərə biliyoruz. Böylə bir müəssisə meydana gətirmək fikri Parisdə daha on dördüncü əsrdə meydana atıldığı halda, ancaq on beşinci əsrdə həyata keçə bilmiş, Paris Darülfünununda Sorbonda bu zamanlarda Şərq dillərini tədqiq üçün xüsusi kurslar yaradılmış idi. Lakin on doqquzuncu əsrə qədər gərək Rusiya və gərəksə Avropada Şərq dilləri altında yalnız Bibliya və islam dillərini anlayırlardı. Bu zamanlarda ərəb dilinin birinci professoru yuxarıda adını zikr etdiyimiz Giyom Postel olub, bu zatı on doqquzuncu əsrə qədər Avropada rast gəldiyimiz müəyyən ixtisası olmayan və bir dildən o birinə adlamaqdan usanmayan tipdəki şərqçilərin babası saymaq lazım gəlir. Bu zatı Çinə qədər bütün Şərqi tərcümansız keçə biləcəyini və buralarda yaşayan millətlərlə tərcümansız anlaşa biləcəyini söyləyibmiş. Bu məktəb şimdiyə qədər mövcuddur və şimdi də, yanılmırsaq, Fransanın yeganə və ən mühüm şərqiyyat ocağı bu müəssisədir. Burada yalnız şunu da qeyd edəlim ki, lisaniyyat elminin müəssislərindən və ustadlarından sayılan Fransua Bop **(Francois Bopp)** da bu məktəbdə çalışmaqla işə başlamışdır.

Avropa şərqiyyat məktəblərinin başlanğıcını bu surətlə təyin etdikdən sonra əsl məqsədimiz olan şuralar şərqiyyat müəssisələrini gözdən keçirəlim.

Rusiyada, bizim bildiyimizə görə, [...] birinci şərqiyyat müəssisəsi tərcüman yetişdirmək üçün qurulmuş olan Japon Dilini Tədqiq Məktəbidir **(Школа изучения для японского языка)** ki, bu məktəb 1816 sənəsinə qədər yaşamışdır. Bundan sonra 1744 sənəsində Orenburq şəhərində tərcüman yetişdirmək üçün tatar-kalmık məktəbi **(Татарско-Калмыцкая школа)** açılmışdır.

Bundan əvvəl 1733-də ərəb dili mütəxəssisi sayılan Ker-Kep Şərq akademiyası qurulması təklif etmiş isə də, təklifi nəticəsiz qalmışdır.

1804-də rus akademisi tarix-ədəbiyyat fakültəsində Şərq dilləri kafedrası meydana gətiriyor. O vaxtdan bütün Avropada olduğu kibi, Şərq dilləri altında "müsəlman" və Bibliya dillərini anlayırlar. Lakin

bundan bir az sonra darülfünunda (o vaxtdan Peterburq Darülfünunu) Uzaq Şərq dilləri də oxunulmağa başlayır.

Şərqiyyatın 1826-1846 arasında mərkəzi Qazan oluyor. Bu zamanda və bundan sonra Qazanda şərqiyyata aid bir çox əsərlər nəşr ediliyor və Berezin (**Березин**), Radlov (**Радлов**), Katanov (**Катанов**) kibi bir çox alimlər öz fəaliyyətlərini Qazanda başlamışlardır.

1835-də qəbul olunan darülfünun nizamnaməsi mövcibi, bütün darülfünunlarda "müsəlman dilləri" namı verilən ərəb, fars, türk dillərindən başqa, moğol və kalmık dili də oxunmalı idi. Lakin nizamnamənin Şərq dilləri olan maddəsi yerinə gətiriləməsə də, Qazan Darülfünununda yuxarıda söylənilən müsəlman dillərindən başqa, Çin, erməni və sanskrit dilləri də oxunulurdu.

Peterburqda 1854-də Şərq dilləri fakültəsi qurulduqdan sonra şərqiyyatın tədrisi daha ziyadə inkişaf etmişdir.[2]

Lazarev institutu haqqında bir kaç söz sözləyəlim.

Bu institut 1800 sənəsində erməni xalqından fəqir çocuqların tərbiyəsi üçün iki yüz bin rüblə xeyir verən İvan Lazarev namında bir erməni zənginin təşəbbüsü ilə açılmışdır. 1848 sənəsində bu məktəb ali məktəb tanılaraq Şərq Dilləri İnstitutu namını qazanmışdır. Bu institutun ixtisas sinifləri son zamanlarda Yaxın Şərq xalqlarının dillərini tədqiqə başlamış və nəhayət, 1918-də başqa nam və proqram ilə reforma və islah edilmişdir ki, bundan bir az aşağıda bəhs edəcəyiz.

Akademiya və darülfünunlardan başqa, Peterburqdakı Rus Coğrafiya və Təbiiyyat Antropoloji və Etnoqrafi Maraqlılarının Cəmiyyəti və sair Rusiyanın bir çox yerlərində arxiv, arxeoloji, muze, təbiiyyat müəssisələri ətrafında təşkil edən dürlü-dürlü cəmiyyətlər bu xüsusda, yəni Şərqi və bilxassə türk xalqlarını tədqiq yolunda bir taqım elmi səfərlər, ekspedisionlar yapmışlar və bir çox məcmuə və əsərlər nəşr etmişlərdir.

* * *

1917 sənəsi inqilabından sonra türkoloji və şərqçilik ilə uğraşan müəssisələr içindən və tışından proqram və təşkilatca olduqca böyük

[2] Dugat. Histoire des orientalistes de l'Europe. Paris, 1868; В.В.Бартольд. История изучения Востока в Европе и России. Ленинград, 1925(Издание Востока).

Bu iki əsərdə, bilxassə akademik V.V.Bartoldun əsərində bu xüsusda kafi dərəcədə tarixi və kitabi məlumat bulunur.

dəyişmələrə uğramışdırlar. Böylə müəssisələrdən birisi yuxarıda ismini zikr etdiyimiz Lazarev institutudur ki, 1918 sənəsindən iyirmiyə qədər bir kaç dürlü təbəddülə uğrayaraq, ən sonu Şərqiyyat İnstitutu namilə bir kaç şöbə ilə təşkil etmişdir. Burada Şərq və şərqiyyat olduqca geniş mənada alınmaqdadır. Yaxın Şərqdən başqa, Uzaq Şərq, "qaralar aləmi" (**Черный континент**) də tədqiq olunmaqdadır.[3]

Əsas etibarilə Moskva Şərqiyyat İnstitutunda üç şöbə bulunuyor:

1) Yaxın Şərq, 2) Orta Şərq, 3) Uzaq Şərq.

Şərqi coğrafi, siyasi-iqtisadi və inqilabi-tarixi cəhətlərdən tədqiq ediyor. Bu surətlə etnoloq-lisaniyyat, pedaqoji, iqtisadi, ilax. şöbələri vardır.

Məqsədi daha ziyadə Şərqlə tanış və Avropa, Şərq dillərindən birisini qullana biləcək əməli işçilər, məmurlar yetişdirməkdir. Doğrudan-doğruya Şuralar İttifaqı Mərkəzi İcraiyyə Komitəsi yanında bulunur.

Ümumi tipilə buna, Moskva Şərqiyyat İnstitutuna yaxın başqa bir müəssisə də Leninqradda vardır. Bu da təşkilat etibarilə eyni surətlə Mərkəzi İcraiyyə Komitəsi nəzdindədir.

Leninqrad Şərq Canlı Dilləri İnstitutu (**Ленинград. институт живых Вост. яз.**) namını daşıyan bu müəssisədə təqib olunan məqsəd maarif və mədəniyyət və elm xadimləri yetişdirməkdir. Japon, Çin, monqol-Tibet, hind (benqal, urdu, tamil), Türküstan, fars, gürcü, erməni, Osman-türk, ərəb və sairə bölüklərinə ayrılmışdır.

Bundan başqa, institut yanında türkoloji seminariyası da vardır.[4] Hər iki müəssisə canlı Şərq dillərini daha ziyadə əməli (qonuşmaq, söyləmək, yazmaq və oxumaq...) məqsədlərlə və daha ziyadə Şərqə maarif və mədəniyyət işlərində çalışacaq işçilər hazırlar.

* * *

Aşağı-yuxarı iyirmi sənəsindən sonra türk cümhuriyyətlərində də şərqiyyat və türkoloji müəssisələri təşkil edilməyə başlanmışdır ki, bunlardan Krım, Qazan, Daşkənd və Bakı şərqiyyat müəssisələri zamanımıza qədər çalışıb gəlməkdədirlər. Bunlar həman həp Yaxın Şərqi, ərəb-fars-türk dünyasını tədqiq etməyə çalışmaqdadırlar.

[3] М.П.Павлович. История и задачи новых востоковеденных вузов. Новый Восток, № 11.

[4] Справочные сведения по Ленинградскому институту живых Восточных языков. Ленинград. 1925.

Şimdilik bu öyrənmə başlıca iki nöqteyi-nəzərdən, iki sahədən getməkdədir: 1) lisan və 2) tarix.

Daşkənd Şərq fakültəsi iki şöbəyə ayrılmışdır: 1) etnoloq-lisaniyyat, 2) pedoqoji.

Qazan, Krım şərqiyyat müəssisələrində də pedaqoji meylinin qüvvətli olduğunu biliyoruz. Bakı şərq fakültəsinə gəlincə, burada lisaniyyat, ədəbiyyat və tarix namilə şöbə vardır. Məqsəd bütün müasir məlumat və üsul ilə təchiz edilmiş türkoloq-lisançı, türkoloq-tarixçi yetişdirməkdir. İləridə hüquq və ictimaiyyat şöbələrinin əlavə olunacağı ümid edilməkdədir.

Bu gün də, bizim bildiyimizə görə, Şuralar İttifaqı içərisində şu şərqiyyat müəssisələri vardır: Moskva (Şərqiyyat İnstitutu və Şərqiyyat Assossiatsionu), Leninqrad (Canlı Şərq Dilləri və islah halında bulunan Şərq fakültəsi), Qazan (Şərqiyyat Pedaqoji İnstitutu), Ukrayna, Vladivostok, Bakı (Şərq fakültəsi).

Bunlara şimdi Avropada və Asiyada bulunan Paris, Berlin, Budapeşt, Roma, Neapol, Cəzair, İstanbul, Misir, Beyrut və sair bir çox ölkələrdə bulunub, proqram və məqsədləri bizə az-çox məlum olan müəssisələri də əlavə edərək gözdən keçirəcək olursaq, iki tip müəssisə görürüz: 1) elmi, 2) əməli.

Əməli müəssisələr tərcüman, konsul, tüccar, qəzetəçi yetişdirdiyi halda, elmi müəssisələr daha ziyadə Şərqdə dürlü elmi cəhətlərdən tədqiqdə buluna biləcək alimlərə hazırlıq verməyə çalışıyor.

Bizi burada ən ziyadə maraqlandıran, şübhəsiz, iştə bu elmi müəssisələrdir. Bunlardan Şərq dillərindən ibtidai məlumat ilə bərabər, tələbənin maraqlandığı (lisan, tarix, coğrafiya, etnoqrafiya...) sahədə o zamana qədər yapılan tədqiqlərin yekunu veriliyor.

Son zamanlarda üçüncü tip bir şərqiyyat, bir xassə türkoloji müəssisəsi yetişməkdədir ki, əsl məqsədimiz buna nəzər-diqqəti cəlb etməkdir. Şimdiyə qədər mövcud olan gərək əməli və gərəksə elmi şərqiyyat müəssisələrində oxuyan müdavimlər ikinci dərəcə orta təhsillərini əksəriyyən rus, fransız, alman... kibi Qərb dillərində alanlar idi. Bunların şərqiyyat müəssisələrində keçirdikləri üç-dörd sənədə əldə edəcəkləri məlumat ibtidai və səthi olmaqdan heç bir zaman qurtulamazdı. Halbuki türk və Şərq məmləkətlərində son zamanlarda qurulub, artıq meyvə verməyə başlayan birinci və ikinci dərəcədəki yerli məktəblər Şərq fakültələrinə bilxassə türkcə ədəbiyyat, tarix, lisan sahələrində mükəmməl hazırlıqlı tələbələr verməkdədir ki, bu

surətlə Şərq fakültələrindəki proqramı dibindən dəyişdirmək lazım gəliyor. Bir kərə əməli dərsləri ortadan qaldırıb, bunun yerinə seminariya və laboratoriya üsulu keçiriləcək birinci mənbələri tədqiq əsasını yerləşdirmək, ikinci dərəcədə gərək tələbələrin bu hazırlığını və gərəksə şərqlilər, bilxassə türklər arasındakı tədqiqatçı türkoloqların azlıq, daha doğrusu, yoxluğunu gözə alaraq, bunlardan tədqiqatçı və şərqiyyatçı yetişdirmək məqsədini birinci sıraya sürmək lazım gəliyor. İstanbul və Bakı Şərq fakültələrini bu məsələlərə, bu istəklərə cavab verməyə çalışan Şərq fakültələri saymaq mümkündür. Çünki hər iki fakültənin tələbəsi yuxarıda söylədiyimiz hazırlığa malikdirlər. Leninqrad türkoloji müəssisələrinin və İttifaq Elmi Akademiyasının bu cəhəti hesaba almaqda olduğunu bir çox tərəflərdən xəbər almaqdayız.

* * *

Məqaləmizi bitirməzdən əvvəl bir kaç söz də türkoloqlar haqqında söyləməliyiz.

Professor A.N.Samoyloviç Berezin haqqında yazdığı bir risaləsində[5] türkoloqları üç qismə, sinfə ayırıyor: 1) Birincilər də elmi maraq ilə Şərq məmləkətlərinə və xalqlarına qarşı olan sevgi birləşir; 2) İkincilər üçün Şərq yalnız maraqlı bir tədqiq sahəsindən başqa bir şey deyildir; 3) Üçüncülər Şərq və şərqiyyat ilə ya ümumi elmi fikirlərlə, yaxud öz məmləkətlərinə müəyyən fayda gətirmək niyyətilə uğraşır və maraqlanırlar.

Avropa və Rusiya türkoloqlarının dürlü sinifləri ilə uğraşmaq şimdilik həm elmi və həm də əməli nöqteyi-nəzərdən boş bir şey olmaqla bərabər, professor Samoyloviçin yuxarıdakı ayırmasını doğru və maraqlı sayarız. Təbii, elmi və ciddi olmaq şərtilə hər üç sinif türkoloq işdə bizim üçün faydalıdır. Bunun ilə bərabər, birinci və üçüncü sinfin, yəni Şərqi sevənlərlə Şərqdən nifrət edənlərin əsərləri çox dəfə elmi fayda yerinə zərər gətirmişdir.

Akademik V.Bartold və professor Krımskidən birincisi "Şərqi öyrənmə tarixi", ikincisi "Türkiyənin və ədəbiyyatının tarixi" namındakı əsərlərində bu xüsusları, yəni həm Şərqə məhəbbəti olan, həm Şərqdən nifrət edən türkoloqların nə qədər səthi baxışlara və yanlış hissi nəticələrə vardıqlarını müfəssəl surətdə bəyan etməkdədirlər.

---

[5] А.Н.Самойлович. И.Н.Березин как тюрколог. Петроград, 1919.

Elmdə, bilxassə mənəvi və ictimai elmlərdə şimdilik insanın tamamilə bitərəf və laqeyd olması qabil deyildir. Burada şərqlilər, xüsusilə türklər arasından yetişməkdə olan elmi xadimləri göz önündə tutaraq, yalnız şunu tövsiyə etməlidir ki, türk dillərini, tarixi və mədəni və başqa sahələri öyrənir, araşdırırkən öz dillərinə, öz tarixlərinə qarşı tərəfgir olmaqdan və hissi olmaqdan qaçıb, yalnız həqiqətlə bərabər, dövrlərinə və xalqlarına fayda gətirməyi unutmasınlar. Həqiqət ilə faydanı birləşdirmək də yalnız elmilə əməli, yaxud bilgi işi bərabər götürmək sayəsində ola bilir. Türkoloqların və ümumiyyətlə, türkologiyanın Avropada doğub ilərilməsinə yalnız xeyirli deyil, bəlkə, müstəmləkəçilik, faydalanma – istismar kibi bir çox xeyirsiz amillər yardım etmişdir. Əsrimizin türkolojisi[ndə] artıq bu nöqtələr böylə ünsürlərdən təmizlənməkdədir. Bunun da başlıca səbəblərindən birisi şərqlilərin öz aralarından çıxmaqda olan gənc elm həvəskarları və dürlü Şərq mərkəzlərində tutmaqda olan elmi təşkilatlardır.

Qısası, Rusiya və Avropanın fədakar, nəcib türkoloqlar ordusuna bu gün türklərin öz aralarından yetişməkdə olan nisbətən zəif və gənc türkoloqlar bölüyü də qoşulmaqda, iltimaq etməkdədir.

İştə ilərideki təşkilat planlarında bütün elm həvəskarlarının böyüyüb-yetişib, artıb, gərək miqdar və gərəksə dərəcə etibarilə qarşılarında duran məsələ və vəzifələrə cavab verə bilmələrini göz önündə tutmalıdır.

* * *

Öylə isə bu gün nasıl şərqiyyat müəssisələri yaratmalıdır ki, yarının Şərq məmləkətlərində çalışa biləcək alimləri yetişdirsin?

Şimdiyə qədər türk sözlərini biz başlıca ədib və qəzetəçi olaraq görüyoruz. İçlərində ali təhsil alanlar belə, elmdə, elmi sahədə çalışıb, elmi həyatı, elmi ədəbiyyatı yaratmaq imkan və fürsətini əldə edəməyir. Halbuki yalnız məktəblərlə elm yaratmaq və elmi həyat yaşatmaq qabil olmadığını isbata belə hacət yoxdur. Bizə, iştə bu ədib və qəzetəçi münəvvirlərimizə elmi yola düşüb, təqdirlərə və elmi işlərə yanaşmaq fürsətini təmin etməlidir. Bu da ancaq lazım olan təşkilatların meydana gətirilməsilə qabil ola bilir. Şərqdə bizə görə, türk cümhuriyyətlərinin hər hankı birisində gənc türk münəvvirləri arasından müasir elmi üsullarla təchiz olunmuş və Şərqi öyrənmək, Şərqə öyrətmək üçün lazım gələn rəhbərlik və rəhbərliklərin həpsinə malik bir

institut, bir türkoloji araşdırma (tədqiq) institutu meydana gətirilməlidir. Bizim yuxarıda bəhs etdiyimiz qəzetəçi və ədəbiyyat [...] tipi türk aləminin əhəmiyyətsiz və kiçik bir siması deyildir və bizim burada ondan bəhs edişimiz onun rolu[nu] kiçiltmək, yaxud onun mütləq elmi xadim olması lazım gəldiyini isbat etmək deyildir. Biləks, qəzetəçi və ədib hər zaman mədəniyyətin mühüm amillərindən, işçilərindən birisi ola gəlmiş və böylə də olacaqdır. Yalnız bizim demək istədiyimiz bunlar arasında bir çox elmi xadimlərin də bulunması və bunlara oynamağa müstəidd olduqları rolu ifa edə bilmələri üçün imkan verilməməsidir.

Bütün Avropa və rus türkoloqlarının doğrudan-doğruya və yaxud bilavasitə rəhbərliyi altında bulunan böylə bir təşkilatı meydana gətirərək, şimdiyə qədər elmi hazırlığını dərinləşdirməyən xadimləri və darülfünundan sonra müntəzəm surətdə elmi tədqiqata girişmək istəyən gəncləri hazırlamaq qarşımızda duran ən birinci məsələlərdən birisidir.

Bu yolda mümkün olan təşkilatların ən ziyadə mümkünü və məqsədə yaxın və uyğunu, bizim fikrimizcə, böylə bir tədqiq institutudur.

Artıq türkoloji qurultayını doğurmaq və aydırmaq işi qarşımızda duruyor.

Ümid edəriz ki, Birinci Türkoloji Qurultayı böylə bir təşkilatın şəkil və mündəricəsini, nərədə, nasıl çalışacağını və nəhayət, nə surətlə idarə olunacağını çözmədən dağılmayacaqdır. Biz də o vaxtda böylə təşkilatın bəzi nöqtələri haqqında daha müfəssəl yazmaq və söyləmək imkanını əldə edəriz.

"Maarif işçisi", № 10, 1926, səh. 5-17.

ELMİ VƏ ƏDƏBİ DİL MƏSƏLƏSİ

İstilahın nə olduğu, əhəmiyyəti, istilah yapmaq yolları, türkoloji qurultayın fikri; müəllimlərin vəzifəsi

Şimdiyə qədər gərək cənub, gərəksə şimal türklərində əməli və mədəni nöqteyi-nəzərdən böyük-böyük münaqişələrə səbəb olan ədəbi dil məsələsi türkoloji qurultaydan bir kaç il əvvəlisi yeni bir dövrəyə keçmişdir. Dürlü çağlarda insanın yeyəcəyi nasıl dəyişiyorsa, dilə

olan ehtiyacı da öylə dəyişiyor, dürləniyor. Şimdiyə qədər türk ələmində ən açıq və ən ileri gələn mədəni simalar – şair, qəzetəçi, ibtidai [məktəb] müəllimi olduğu halda, son illərdə maarif və mədəniyyətimizin artmasilə mədəni simalarımızın həm sayısı, həm də dərəcəsi dəyişmişdir. Bu gün artıq hər yerdə darülfünun, ali məktəb tələbələrimiz və hətta şimdilik tək-tük darülfünun müəllimlərimiz vardır. İştə bu hadisələr ilə bağlı olaraq, bir də ədəbi dil yanında bir də elmi dil məsələsi qalxdı.

Türk dillərini onun tarixi abidələrilə birlikdə gözdən keçirəcək olursaq, burada ədəbi təbirlərin, elmi istilahların azlığını, kifayətsizliyini görüyoruz. Əgər on beşinci əsrə, yəni islam sxolastikasının türkləri möhkəm surətdə təsiri altına almasına qədər olan zamanlarda gərək idarə və gərək zehni-fəlsəfi sahəyə aid bir kaç düzünə təbir və istilahlar gözə çarpıyorsa, bundan sonra bunların yerlərini əcnəbi sözlərə buraxıb, qaib olmuşlardır.

Ədəbi dil məsələsi, yəni qəzetə, teatro və şeir dili, hər xalqda olduğu kibi, bizdə də müəyyən iqtisadi, ictimai və mədəni mərkəzləri təmsil edəcək ədəbi şəxsiyyətlərin yetişməsilə bağlı bir məsələdir; daha doğrusu, zorla, iradə ilə olacaq şeylərdən deyildir. Bundan başqa, bu məsələ haqqında olduqca çox yazılmış və söylənmişdir. İştə bunun üçün biz burada yalnız elmi dil və istilah məsələlərindən bir məqalə çərçivəsində mümkün olduğu qədər bəhs etmək istəyiriz.

Sözləri mövzu və məna cəhətindən ikiyə ayırmaq mümkündür: şairi və mücərrəd. Vund, Debrus, Teylor, Herman Paul, Marks kibi alim və filosofların son əsrlərdə ileriyə sürdükləri nəzəriyyələr və dürlü nöqteyi-nəzərlərdən yapdıqları tədqiqlər iki bin beş yüz illik bir davanı çözmüşdür. Doğrudan da, ta Demokrit, Əflatun zamanlarından başlayaraq, yuxarıda adları anılmış olan alimlərə qədər davam edən dil-iradə və dil-təbiət davaları bu surətlə dilin təbiət və cəmiyyət şərtləri təsiri altında doğması, ilərilməsi, dövr danması qaydasına cızılmışdır. Bu xüsusda bilxassə Vund və Marksın baxışı pək ziyadə açıq və qətidir. Hər ikisi də dili cəmiyyət və təbiətin məhsulu olaraq almış və göstərmişlərdir. Bundan başqa, ibtidai, daha təbiətin təsirindən qurtulmayan, daha doğrusu, aşağı istehsal dərəcəsində bulunan xalqlar və millətlərdə dilin leksikonu nasıl ola biləcəyini ümumi cizgilərlə bildirmişlərdir. Qısadan söyləyəcək olursaq, ibtidai dillər hərəkət-jest dilidir. Vund böylə bir dilin bir çox şəkillərini və dövrələrini təyin

etmişdir. Vunddan sonra ümumi lisaniyyatın bir nəzəriyyəyə yapdığı əlavələr əsas etibarilə qayət cüzidir, – denilə bilir.

Vəlhasil, bizim mövzumuz nöqteyi-nəzərindən söyləyəcək olursaq, ibtidai dillərdə yalnız konkret-şani sözlər bulunub, mücərrəd-abstrakt sözlər pək az rast gəliniyor.

Əvvəlcə bəzi alimlərin düşündüyü kibi, dillərin sərfi şəkillərindən, onların aşağı və yaxud yüksək mədəniyyət dərəcəsində bulunan insanların dili olduğuna hökm etmək mümkün deyilsə də, yuxarıda əvəz etdiyimiz nöqteyi-nəzərdən dilin leksikonuna, lüğətinə baxaraq, o dildə söyləyənlərin zehni inkişafları, mədəni təkamülləri haqqında hətta çox qəti və çox əsasi fikirlər peyda etmək mümkündür. Çünki insanın fərqinə vardığı, şüurundan keçirdiyi hər maddənin, hər hal və hərəkətin ismi, sözü vardır.

İnsan müdəvvən, sistemə çəkilmiş elmlərdən əvvəl yalnız mücərrəd və şani qisimlərdən, parçalardan ibarət bir dilə və lüğətə malik isə, elm və elmi sistemlər, nəzəriyyələr izah edilmək istənilən dillərdə bu kateqoriyalara bir də istilah – termini **technici** denilən sözlər əlavə olunur. Böylə istilahların iki cəhətdən əhəmiyyəti vardır: 1) elmi, 2) tərbiyəvi-tədrisi.

İstilahların elmi əhəmiyyəti şurasındadır ki, hər hansı bir tədqiq nəticəsində fərq olunan hadisə, əldə edilən nəticə, yaxud çıxarılan qanun bir söz vasitəsilə təsbit edilmədiyi, müəyyən bir ad alamadığı təqdirdə, başqa, onunla sınırdaş, ona yaxın hadisə və qanunlarla qarışmaq təhlükəsinə məruz qalır. Bu surətlə bir elmi əməliyyəni – istər hadisə, istər qanun olsun – təsbit etməklə ona ad vermək bir-birindən ayrılamaz. Ümumiyyətlə, insan adını bilmədiyi şeyləri pək çapuq unuda bilir. Adlar, təbir caizsə, şüurdan və dürlü zehni əməliyyələrdən keçib hafizədə saxlanan fikirlərdir. Nasıl insan yalnız məchullardan ibarət bir müadiləni çözəməz və təqribi kəmiyyətlər üzərində hesab yapamazsa, adsız fikirlər də düşünəməz, elmdə fikirlərin birbirindən ayrılığı, bir-birinə qarşı olan münasibətləri nə qədər böyük əhəmiyyəti haizsə, bunların təsbitindən, zəbtindən başqa bir şey olmayan istilahlar, ümumiyyətlə, elmi dildə eyni əhəmiyyəti haizdir.

İstilahlar və təbirlərdən ibarət elmi bir dilə sahib olmasaydıq, bütün fikirləri bir taqım təqribi təsvirlərlə anlatmaq lazım gələcəkdi ki, bu surətlə filosofanə şeirdən başqa bir şey meydana gələməzdi. Bütün bu söylədiklərimizə yalnız şunu əlavə edəlim ki, ən mükəmməl, ən

mütərəqqi, ən ziyadə işlənmiş olan elmlərin dili ən ziyadə açıq və istilahları ən çox bəlli və müntəşir olur. Burada təbiiyyat elmləri ilə mənəvi elmləri müqayisə edəcək olsaq, təbiiyyatın istilahları burada üstün gələcəkdir və bu üstünlüyü hər iki kateqori elmlərin mənşəyi və işlənməsi ilə izah etmək pək ziyadə qolaydır.

İstilahların tədrisi əhəmiyyəti də aşağı-yuxarı eyni əsaslardan çıxar. Müəllim və yaxud müdərris, təhsilin hansı dərəcəsində olursa-olsun, bir fikri izah etdikdən sonra onu bir istilah vasitəsilə, ümumiyyətlə, söyləndiyi təqdirdə bir sözlə tələbələrinin başında yerləşdirməzsə, dərsini davam etdirəməz, yəni birinci fikrə bağlı olan ikinci bir fikri öyrədəməz, anladamaz. Əskilər istilahın, ümumiyyətlə, dilin elmi və tədrisi qiymətini pək iyi təqdir etmişlərdi. Bunun üçündür ki, əski fəlsəfi məsləklər içində: "Fikir yox, söz var, məntiq yox, dil var!" – deyən nominalistlərə və "İyi düşünmək iyi söyləməkdən ibarətdir", – deyən sofistlərə rast gəliyoruz.

Elmi istilahın əhəmiyyəti haqqında şu bir kaç sözü ilərıyə buraxdıqdan sonra birər-birər başqa cəhətləri tədqiq edəlim. Burada birinci dərəcədə qarşımıza çıxacaq məsələ "əcəba, bu elmi dili, elmi istilahları kimlər yapıyor?.." məsələsidir. Biliyoruz ki, çocuqların adlarını doğuranlar, heyvanların adlarını sahibləri veriyor. Elmi qazanclarımızda əsas və nəticə etibarilə şüurlu və iradəli fəaliyyət və hərəkətimizin meyvəsidir. Binaən əleyh bu qarancların adlarını da biz, insanlar verə biliyoruz. Lakin bu gün artıq ümumi mənasilə "alim" olmayıb, müəyyən elm şöbələrinə məşğul olan mütəxəssislər bulunduğundan burada bütün insanlar və hətta bütün alimlərdən bəhs etmək mümkün deyildir. Bu haqq yalnız müəyyən ixtisas sahiblərinindir. Məsələn, fiziologiyanın istilahlarını hər kəsdən əvvəl fizioloqlar, psixologiyanı psixoloqlar... yarada bilir.

Burada ikinci məsələ bu mütəxəssislərin istilahları nərədən və nə surətlə bulacaqlarıdır.

Mütəxəssis böylə sözləri 1) ya öz dilindən, 2) yaxud əcnəbi dillərdən alır. Bunlardan hər ikisinin mümkün olan məziyyətləri və qüsurları vardır.

Öz dilindən yapılan təbir və istilahların iki böyük məziyyəti vardır: 1) qolaylıqla anlaşılması, 2) zehndə başqa ana dili sözlərilə şəkilcə və səscə birləşərək təməlli surətdə yerləşməsi.

Buna qarşılıq mümkün olan qüsurları da şundan ibarətdir: 1) Ana dilindən alınan istilahlar çox dəfə mənaca başqa adi sözlərdən güclüklə

ayrılır; 2) Ana dilində əvvəlcə hər hankı bir mənaya gələn sözü alıb, az-çox süni surətdə başqa mənada qullanmaq daima qərib və gülünc və qeyri-təbii bir təsir yapmaqdan xali qalmaz. Bunun üçün denilə bilir ki, böylə ana dilindən yapılan və rus, alman, macar, fransız... kibi dillərdə yerləşmiş olan istilahlar vaxtilə uzun-qısa gülünc və qeyri-təbii olmaq dövrəsini keçirmişlərdir.

Əcnəbi dillərdən alınacaq istilahların da özlərinə görə artıq və əskik yerləri vardır: 1) Artıq yeri şudur ki, əcnəbi istilahlar ana dilinin başqa sözlərinə görə həm xarici, həm də daxili tərəfdən ayrı bir vəziyyətdə bulunduqlarından daha çapuq xatirdə qalır və müəyyən elmi məfhumların bəllənməsinə daha ziyadə xidmət edərlər; 2) Bundan başqa əcnəbi dillərdən alınacaq və yaxud yenidən yapılacaq olan istilahlar vasitəsilə insan başqa dillərdəki elmlərin istilahlarilə bağlanmış olur...

Lakin ana dilindən yapılan istilahlardakı üstünlüklər eynən əcnəbi əsasda qurulacaq istilahların nöqsanlarını təşkil edərlər. Bilxassə tərbiyəvi və tədrisi cəhətdən əcnəbi istilahlarının pək böyük zərərləri görülməkdədir. Çünki bu soy istilahlar qullanıldığı zaman məfhumdan başqa, bu istilahları da anlatmaq, izah etmək lazım gəlir ki, dərsin və zehni inkişafın ilərilləməsinə bunun pək böyük təsiri vardır. Burada *ruhiyyat – psixoloji*, *lisaniyyat - linqvistika*, *ictimaiyyat – sosioloji*... təbirlərini qarşı-qarşıya gətirə biliriz. Bu təbirlərin kaffəsi əcnəbi olmaqla bərabər, ərəbcələrinin türk tələbələr üçün daha ziyadə anlaşılıb, daha çox zehnlərində yerləşdiyini çox dəfə təcrübə etmişiz.

Üçüncü qarşılaşdığımız məsələ türk dillərində istilah yaratmanın yolları? – sualına veriləcək az-çox elmi bir cavabdır.

Ərəblər əməvilər dövründən başlayaraq, rum istilahlarını, avropalılar qüruni-vüstadan başlayaraq, Şərq və bilxassə ərəb təbirlərini almışlardır. Bu da, ümumiyyətlə, elmin, mədəniyyətin nisbi üstünlüklərini göstərən hallardan birisidir. Lakin hər zaman böylə deyildir. Məsələn, türk xalqlarının ərəb və fars istilah və təbirlərini almaları bunların ifadə etdikləri fikirlərin türklərdə bulunmadığına dəlalət etməz. Buna əlimizdə bir çox konkret, qəvi dəlillər vardır ki, bunlar da əski türk yazılı abidələridir. Bunları, bu abidələri gözdən keçirdiyimiz zaman *acun, anık, ertem, aşıq, toqal, yertinç, savğat, yasavul, qaravul, bukavul, soyurğal, tutqavul, yamçı, şusuncu, sucu, budun, bitik, bitikci* kibi bir çox sözlərə rast gəliyoruz ki, bunların yerləri artıq həp əcnəbi istilahlar,

təbirlər tərəfindən tutulmuşdur. Bunların həpsi türk dilinin mədrəsələrdə oxunmayıb, təhsilin ərəb və fars dililə getməsindən, bu da öz sırasında daha dərin bir çox səbəblərdən ileri gəlir.

İştə bu surətlə türk dilləri ərəb və fars, son zamanlarda Avropa dillərindən bir taqım istilah və təbirlər almağa başlamışlardır.

Burada türk dilini başqa dillərlə müqayisə etmək mümkün deyildir. Bu gün Avropa dilləri bir-birindən istilahlar almaqdadır. Dar mənasilə elmi istilahları alacaq olursaq, deyə biliriz ki, bütün Avropaya məxsus bir elmi dil vardır. Netəkim əskidən Yaxın Şərqə məxsus ərəb əsasında dini-fəlsəfi bir dil var idi. Ümumiyyətlə, elm bir xalqın həyatı içərisinə qapanamadığı kibi, elmi istilahlar da yalnız bir dilin çərçivəsi içində qalamaz.

Bununla bərabər, tamamlıq və bizərflik xatiri üçün şunu əlavə edəlim ki, fin, eston, macar kibi bəzi dillərin istilahları tamamilə başqa prinsip üzərinə yapılmışdır. Məsələn, bunlardan macarcanı alacaq olursaq, orada *universitə, elektrik, professor, teleqraf, tramvay, bilet, konstitutsion (qanuni-əsasi), aeroplan, politexnikum* kibi həman bütün Avropa və hətta bir çox Şərq dillərində bulunan istilahları atıb, bunların macar qarşılıqlarını yapmış və uydurmuşlardır. Bu soy macar istilahları həman bütün-bütünə Avropa, yəni latın və yaxud qrek istilahlarının tərcüməsidir.

Bu soy istilahlar yalnız macarcada deyil, bir çox dillərdə vardır və aşağı-yuxarı iki yolla meydana gəlmişdir: 1) analoji uydurma yolilədir ki, bunun da özünəməxsus bir kaç surəti, üsulu vardır.

Birincisi, söz ilə təsvir etmək istədiyimiz hadisənin başqa bir hadisə ilə yaxınlığı, yaxud ona bənzəyişi nəzəri-etibara alınaraq, istilah da buna görə uydurulur. Məsələn, dillərin bir taqımı haqqında "iltisaqi", "yapışdırılıcı" təbirini qullanıyoruz. Burada Ural-Altay dillərində şəkilçinin damarla zəif surətdə bağlanması və hind-Avropa dillərində daha qəvi, daha sıxı surətdə adətən damarla qarışmış kibi bulunması, Ural-Altay dilləri "yapışqan dillər" təbirini həm latınca **agglutination**, həm də ərəbcə meydana gətirmişdir. Bütün istilahlarda böylə bir uydurma vardır.

Lakin bizim burada kəndisindən bəhs edəcəyimiz "uydurma"[6] əsas etibarilə bizim kibi elmi dilcə fəqir olanların öz dillərindən istilah yapmaq, uydurmaq istədikləri zaman göz önündə tutmaları lazım gələn

[6] "Uyğunlaşdırma" mənasında (*tərtibçi*).

bəzi nöqtələrdir. Burada analogiyanın iki cəhəti vardır: birisi, əcnəbi sözlərinə uydurma, ikincisi, ana dilinin qayda və şəkillərinə uydurma. Yuxarıda bəhs etdiyimiz sözlərin macarcadakı qarşılıqları mənaca Avropa sözlərinə, şəkilcə macar sözlərinə uydurulmuşdur.

Rusların da pək çox sözləri böylədir.

Bizdə şimdiyə qədər bütün türk şivələrində mövcud olan cərəyan ana dilindən istilah uydurmaq lehinədir. Lakin son illər içərisində bu xüsusda, bu yolda yapılan işlər elmi bir dil meydana gətirəcək yerdə mövcud olan elmi istilah xəzinəsini də tarümar etmiş və hər dürlü elmi düşüncə və yazını imkansız qılmışdır.

Alimlərimiz hər sahədə yetişmədən elmi dil yarada bilməmiz qabil deyildir. Halbuki bizdə elmi təşkilatların zəifliyi və idari təqsimatının uyğunluğu – burada inqilabdan sonra meydana çıxan iyirmiyə yaxın və bəlkə, daha ziyadə maarif idarələrini qəsd ediyoruz – öz məhəlləsində hakim bir taqım istilah şevalyeləri yetişdirmişdir ki, bunlardan hər biri öz dilini elmi, öz istilahlarını doğru və əsri saymaqda və acımaqdadır. Təbir caizsə, bu "istilah trestləri"nin rəqabətindən istilah o qədər "ucuzlamışdır" ki, məsələn, bir "rəis" sözünü on dürlü, onun "müavin"ini on beş-iyirmi dürlü deyə bilirsiniz. Lakin, digər tərəfdən, qəzetələrimizin tirajı, bilxassə elmi və tədris-nəşriyyatda daima top-top zərər gətirməkdədir. Öz məsrəfini qoruyan türk qəzetə və yaxud kitabı pək azdır. Halbuki uzağa getməyəlim, rus yoldaşlarımızın kitabçılığı öz-özünü qoruduqdan başqa, kar gətirməkdədir.

Burada yalnız istilahsızlıq üzərində durmaq kafi deyildir. Məktəblərimizin nisbi azlığı, xalqımızın savadsızlığı, yazıçılarımızın azlığı, nəşriyyat idarələrimizin vasitəsizliyi... kibi daha əsaslı, daha mühüm səbəbləri unutmaq olmaz. Bununla bərabər, oxur-yazarlarımızın da öz ana dillərindəki kitablara çoxdan çox rəğbət etmədiklərini də yaddan çıxarmamalıyız. İnqilabdan sonra hər türk-tatar cümhuriyyətində oxur-yazarların faizini əsgəri iyirmi faizdən üstün olduğu halda, türkcə kitab oxuyanların faizi beşi-onu keçəməz. Bu nöqtəyə gəldikdə bilxassə tərcümə ədəbiyyatımızı düşünməliyiz. Nəşriyyatımızın hər yerdə yüzdə yetmiş faizi əcnəbi dillərdən, xüsusilə ruscadan yapılan tərcümələr təşkil ediyor. İştə söz qəhətliyi, istilah yoxluğu ən böyük zərəri, bizim fikrimizcə, asıl burada gətiriyor. Öylə zənn ediyorum ki, şimdiyə qədər tərcümə edilən kitabları, çarəsini bulur, müəyyən azacıq əcnəbi dillərə aşina olursa, heç kimsə qarışıq təbirli, pozuq

dilli olduqları üçün oxumaz. Bir də elmi və ədəbi tərcüməçilik işinin iləriləmədiyi də, qəvi etiqadıma görə, bundandır. Əlinə müəyyən müntəzəm və doğru istilah qamusları verilmədikcə böylə mahir və təcrübəli yetişəcəyini ümid etmək də boşdur, faydasızdır.

Məktəb müəllimlərimiz istilah yoxluğunun, kitablarımızdakı dil pozuqluğunun nə qədər mühüm bir nöqsan olduğunu hər kəsdən ziyadə bilir və duyarlar. Binaən əleyh istilah işinin tezdən çözülməsində ən ziyadə yenə onlar, müəllimlər əlaqədardırlar.

Yaxınlarda Bakıda olub – keçən türkoloji qurultayı istilah işini prinsip cəhətindən çözmüşdür, – deyə biliriz.

Türkoloji qurultayı istilah məsələsində dar çərçivələrdən çıxaraq iki böyük əsası göz önündə tutmuşdur:

1. Mümkün olduğu qədər elmi dilimizi, yəni elmi istilahlarımızı tezliklə mədəni Avropa xalqlarınınkına yaxlaşdırmaq.

2. Eyni surətlə öz geniş xalq kütlələrimizi elmə və mədəniyyətə götürmək üçün onun dilini istilah yaparkən yaddan çıxarmamaq və gözdən qaçırmamaq.

İştə bütün istilah və elmi-ədəbi dil qovğalarına böylə iki prinsip nəhayət verə bilir. Bunun üçün istilah yapılarkən, bir tərəfdən, Avropa elmlərinin istilahlarını gərəyi kibi tədqiq etmək lazım gəldiyi kibi, digər tərəfdən, bu istilahları bənimsəməmiz üçün öz dilimizin şəkil, lüğət, səs və qanunlarını da araşdırmamız, öyrənməmiz və tətbiq etməmiz lazımdır.

Türkoloji qurultayı bundan başqa, məhəlli və ümumi istilahların nisbətini də olduqca açıq bir surətdə təyin etmişdir. İstilah xüsusunda çıxarılan qərarlara görə, məhəlli şivələr ziyadə birinci dərəcə, şivə qruppaları ikinci dərəcə və nəhayət, bütün türk-tatar xalqlarında və bütün Avropa elmi aləmində ümumi sözlər, istilahlar üçüncü dərəcə məktəblərdə göz önündə tutulmalıdır.

İş bu dərəcəyə gəldikdən sonra artıq prinsip qovğalarına nəhayət verilməlidir. Ümumi ədəbi dilimiz ola bilərmi? Əcnəbi istilahlarını qəbul etməlimi?.. ilax. kibi suallar, məsələlər Birinci Türkoloji Qurultayı ilə bitmiş hesab edilməlidir. Bizim anladığımıza görə, türkoloji qurultayının istilah işində verdiyi qərar və şüar şu surətlə xülasə edilə bilir: "Türk dili əsasında avropalılaşmaq, mədəniləşmək!"

Bundan sonra yapılacaq iş iştə bu başqa meydana çıxması, ömrə keçirilməsi üçün əməli tədbirlərə girişməkdir. İstilah işinin yoluna

qoyulması üçün bizdə lüğətçilik işi yoluna qoyulmalıdır. İnqilabdan sonra çıxan əsərlər arasında ən görülən lüğət kitablarıdır. Kolxoz işinin iləriləməsi dürlü nöqteyi-nəzərdən düzülmüş lüğət kitablarının meydana çıxmasına yardım edər. Xalq dilinin lüğətlərini toplamaq surətilə istilahları xalq dilindən arayıb-bulmaq yolunu açmış oluruz. Radlovun məşhur müqayisəli lüğətini yenidən basmaq ki, türkoloji qurultayında da müzakirə olunmuş və nəhayət, müsbət qərarla nəticələnmişdir. Bu xüsusda böyük bir yardım və geniş bir addım olurdu.

Bir tərəfdən, xalq dilinə, digər tərəfdən, çocuq ruhiyyatına ən yaxın münəvvirlərimiz olan kənd və ümumiyyətlə, ibtidai məktəbləri müəllimləri xalq dilindən alınıb ibtidai tədris həyatına və kitablarına keçiriləcək istilahlar işində, istərlərsə, çox faydalı işlər görə bilərlər. İstilah işində bir taqım əməli və ixtisasi işlər daha vardır ki (yeni istilahlar, əcnəbi istilahları türkləşdirmək, nərələrdən nə üçün istilah almaq, şimdiyə qədər yapılan istilahlar...), bunların həpsindən bir məqalə çərçivəsində bəhs etmək qabil deyildir.

"Maarif işçisi", № 5 (13), 1926, səh. 27-36.

ŞƏRQ TARİXİNİN MƏKTƏBLƏRDƏKİ MÖVQEYİ HAQQINDA

Tarix dərslərinin Şərq elmi müəssisələrində, bəlkə, hər elmdən artıq bir əhəmiyyəti vardır. Namdar ustadım mütəvəffi Qoldseyher hər zaman deyirdi ki, Şərqdə tarix fikri əskikdir! Həman bütün Şərq müəllifləri hali-mazi ilə istiqbali halı [...] qarışdırırlar. Bu xəstəlik bir çox parlaq zəkaların meyvə verməməsinə, qısırlığına səbəb olmuşdur.

Həqiqətdə Mahmud əl-Kaşqari kibi gərək filoloji, gərəkcə tarix fənlərində parlaq istedad, geniş əhatə sahibi olan müəlliflər də belə bəzi ən bəsit məsələlərdə anaxronizm – vaxt yanlışlıqları bulunduğunu nəzəri-etibara alırsaq, Qoldseyherin nə qədər haqlı olduğu özlüyündən anlaşılır.

Bir tərəfdən, tədqiqatını zaman və məkandan xaric, mücərrəd bir surətdə icra edə biləcək heç bir elm olmadığı, digər tərəfdən, bu günün elmlərinə yarınkı elmlərin müqəddiməsi nəzərilə baxmaq lazım gəldiyi üçün tarix tədrisatı bütün digər fənlərə əsas, tün-ahəngverici

mövqeyini işğal edər. Tarixi nöqteyi-nəzər olmadan hər hansı bir məsələni tədqiq və izah qeyri-qabil olur. Məntiqin bizə verdiyi "səbəb-nəticə-səbəb" düsturu tarixi düşüncənin mühüm əsaslarından birini təşkil edir.

Təkamül, inkişaf, tərəddiyi-inqiraz, böhran qanunlarını bulmaq üçün təbii elmlərdən mötəvilərə qədər tarixi nəzəri bənimsəmək lazımdır.

Bütün insanın mənşəyi, taleyi, keçirdiyi müxtəlif səfhə və dövrləri anlamaq üçün bütün insaniyyət tarixinə malik olmamız lazım gəlir. Halbuki bu gün Ranke, Mossen, Sorel, Seynubus... kibi yeni dövr tarixçiliyinin əsasını qurmuş olan böyük müəmrixlərin etiraflarilə də sabit olduğu vəchlə əlimizdə "Avropa tarixi"ndən başqa bir şey yoxdur. Bunu iki dəlillə isbat edə bilərik:

1. Bu gün əlimizdə bulunan və ümumi "tarix" namını daşıyan əsərlər, material – mündəricə nöqteyi-nəzərindən şöylə təqsim olunurlar:

a) Qrek-Roma mədəniyyətləri,

b) Misir-Babil – assir-İran,

c) qüruni-vüsta (xristianlıq, islamiyyət, moğollar...),

ç) renessans, yeni dövr, səlcuqilər, osmanlılar, Orta Asiya hökumətləri, dövlətləri.

Burada əhatə nöqteyi-nəzərindən ümumi və insani tarixinin tədqiq dairəsinə yalnız Kiçik Asiya və Avropanı alıb, islamiyyət, moğol və türk-səlcuq, osmanlılara, Orta Asiyaya, bu ölkələrin qonşuları, sınırdaşları sifətilə təmas etdiyi açıqca görülür.

Bundan başqa, böylə bir plan üzərinə yazılan tarixlərdə yer tutan xüsusi bir qənaət daha vardır ki, bu da insaniyyətin tarixi və mədəni təkamülünü Misir – Yunan – Roma – Avropa, yaxud eyni qənaətin digər bir şəklinə görə, Babil – Misir – Yunan – Roma – Avropa kibi tələqqi edərək, digər millətlərin, yaxud hövzələrin, ölkələrin tarixini tədqiq edərkən bu mədəniyyət hövzələrinin onlar üzərinə olan nüfuzunu vahidi-qiyas, meyar-ölçü olaraq qullanmaqdan ibarətdir.

Böylə bir təqsim və nöqteyi-nəzər hər şeydən əvvəl bugünkü tarixi tədqiqatın vəziyyəti ilə əlaqədar olmaqla bərabər, hənuz geniş insaniyyət sahəsinin tarixi heyəti-məcmuəsilə meydana çıxarılmadan gərək mədəniyyətin təqib etdiyi təkamül və inkişaf yolu və gərəksə əsasi mədəniyyət mərkəzləri haqqında qətiyyətlə fikir sərd və bəyan etmənin nə qədər yalnış və elm üçün təhlükəli olduğu aşkardır.

2.Tarixin hənuz "ümumi" ünvana layiq olmadığına ikinci mühüm dəlil on yeddinci - on səkkizinci əsrlərdə Sellari (**Беллари**) tərəfindən irəli sürülüb, bu günə qədər tarixlərdə yer tutan və bizdə "qüruni-ula, vüsta, axirə" namilə məşhur olan təqsimdir.

Bu təqsim tarixin istiqbalda maziyə doğru getdikcə ilərilləyən tədqiqatı və "qəblət-tarix" sayılan məchul və müzlim sahədən sənədən-sənəyə qüvvətlənməkdə olan elm və fənn piruza gətirənin artıq bir çox nöqtələri tənvir etməsi sayəsində pək indi, pək dar görünməkdədir.

Şimdiyə qədər Blüminbax, Leyne... kibi alimlər tərəfindən dörd irq [...] haqqında verilən təfsilat antropolojinin son tədqiqatilə nasil cürh olunmuş isə, insaniyyət tarixinin bu üç böyük dövrü – qüruni-ula, vüsta, üxra və onun haqqında verilən məlumat da qiymətcə əski Bibliyanın, yaxud Qur'anın tarixi qismi yanında əxzi-mövqe etmək dərəcələrinə yaxınlaşmaqdadır.

Böylə bir kaç sətirlə üsuli-tarix haqqında ciddi bir tənqid yazmaq niyyətində deyiliz; bu bir kaç sözdən məqsəd gənc türk, yaxud Şərq tarixçisinin mövcud olan tarixi tələqqilərə və üsuli-tarixə nə nədər şübhə və ehtiyatla yanaşmaya lazım gəldiyini ixtar etməkdir.

Söz buraya gəldikdə, hər şeydən əvvəl şunu demək lazımdır ki, ümumiyyətlə, tarix və bilxassə Şərq tarixi tədrisatında mühazirə-leksiya üsulu yalnız faydasız deyil, bəlkə, zərərlidir. Bu bir üsulun, bilxassə tədqiq və tətəbbö ocağı olması lazım gələn ali bir müəssisədə və nəhayət, hər hansı bir maarif ocağında nə üçün fayda verəmiyəcəyini, daha doğrusu, nasıl zərər gətirəcəyini bir kaç nöqtədə xülasə etmək mümkündür:

1. Mühazirə-leksiya üsulu, ümumiyyətlə, ibtidai məktəblərdən belə qovulmuş, həman bütün pedaqoqlarca çürüyə çıxarılmış bir üsuldur.

Mühazirə üsulu yalnız dinləyənə, tələbəyə deyil, mühazirəçinin, yaxud müəllimin özünə də heç bir şey verməz. Çünki mühazirə əsas etibarilə əksəriyyən üslubi bir hadisə olub, burada zahiri nöqtələr, məsələn, mühazirənin planı, cümlələrin tərtibi, nəticələrin mərbutiyyəti, mündəricəsi və ruhu, xülasə mühüm cəhətləri daima kəndi təhəkkümü altında tutar.

Bundan başqa, mühazirəçi nə qədər alim və mahir olursa-olsun, **donnelər**, faktlardan ziyadə dəlillər və məntiqi oyunlar, nəhayət, hazır nəticələr üzərində durur ki, bu surətlə mühazirə oxumaqla fikri və

tədqiqi bir əməliyyədən ziyadə, hafizəvi, hissi bir iş yapar; bir sözlə, qarşısındakını düşündürəcək yerdə ona təsir edər.

2. Mühazirə üsulu xüsusilə tarix tədqiqatında müzirdir. Çünki tarix ümumiləşdirməyə pək ziyadə müsaid bir elmdir. Halbuki məlum olduğu üzrə, kafi miqdar mütəyan, məlumat və faktlara istinad etməyən hər dürlü tə'mim çürük, nəhif və zehni-məntiqi tərəddinin və hətta təəssübün ən birinci mənbəyidir. Buna ən gözəl bir mühazirənin belə ümumi və əvvəldən hazırlanmış icrasına təhlil olunmamış nəticələri verməkdən azadə olamayacağını əlavə edərsək, tarixdə mühazirə üsulunun ruha və onun inkişafına olacaq mənfi təsiri kəndiliyindən meydana çıxar.

Tarixi mühazirə üsulilə oxuyan, dinləyən zəvatın ən müməyyəz xarakteristik nöqtəsi bütün bir-birinə uyan-uymayan hadisə və faktları əvvəlcə indiki çərçivələrə yerləşdirməyə, soxmağa çalışmaqdır.

3. Mühazirə üsulu bilxassə Yaxın Şərq və türk tarixini tədqiq edərkən təhlükəlidir. Çünki yuxarıda işarət etdiyimiz kibi, nə Şərq, nə də türk tarixi haqqında tam və mükəmməl bir tədqiq bu gün yapılmamış olmaqla bərabər, kəndi tarixlərində bulduqları zəngin faktlar, açıq səbəbiyyət rabitələri, müəyyən təsir və əks-təsir qanunları ilə etimadinəfs qazanmış Avropa müərrixləri Yaxın Şərq və türk xalqlarının mədəniyyətləri, məişətləri haqqında istədikləri, həqiqətə müqayisə tərıqilə yaxın gördükləri hər dürlü fərziyyə və nəzəriyyəni ileri sürməkdən çəkinməmişlərdir.

Dürlü xalqların "islamiyyət" namı verdiyimiz müəyyən mədəni, iqtisadi və siyasi hərəkət və dövrlərdə iştirakları, bu dövrü hazırlayan səbəblər və nəhayət, bu dövrün dürlü nəticələri haqqında Roze, Kremer, Renan, Neldeke, Müller... kibi islam, yaxud De Gine, Hammer, Erdvardstoun, Leon Kahon kibi türk tarixçiləri arasında türklərin mənşəyi, digər qövmlər və mədəniyyətlərlə olan təmasları, ədəbiyyatları, insaniyyət tarixindəki yerləri, türk tarixinin dövrlərə təqsimi, hər dövrün xarakteristiki xüsusunda törəyən ixtilaf və təzadları, bir tərəfdən, mühazirələrdə mühazireçinin əksəriyyən bu saydığımız alimlərdən fikrinə iştirak etdiyi müəyyən müəlliflərə və onların talifatına istinad edərək, mühakimə yürütdüyü, digər tərəfdən, nəzəri-etibara alırsaq, mühazirə üsulunun türk və islam tarixini [öyrənmək üçün] nə qədər az əlverişli olduğu bir qat daha aydınlaşır.

Şübhəsiz, mühazirə üsulunun başqa bir çox zərərlərini daha göstərmək mümkün isə də, bir kaç sözlə, bizim fikrimizcə, mühazirə

üsulunun yerini nasıl bir üsul tuta biləcəyini də xülasə etmək faidən xali deyildir:

1. Hər şeydən əvvəl tələbələri bəsitdən mürəkkəbə, qolaydan gücə getmək şərtilə faktların mümkün mərtəbə həqiqi şəkil və simasilə tanış etmək lazım gəlir. Məsələn, islama olan dürlü təsirləri göstərmək üçün iki əməliyyə tələbələri dərhal başqa zehniyyətə və məntiqə götürə biliyor:

a) Qur'anın doqmatik-əqidəvi, tarixi, ədəbi qisimlərilə Məkkə və Mədinə ayətləri arasındakı əsasi fərqlərə nəzər-diqqəti cəlb etmək şərtilə, nəhayət, hədisi-səhih və hədisi-mövzu məsələlərində dürlü millətlərin, qrupların siyasi, iqtisadi, ənənəvi hirslərini bu hədislərdən bir qisminin üzərində tədqiq etmək;

b) Dürlü məzhəblərin zühurunda əqaid münazirələrin altında nələr gizləndiyinə dəlil olmaq üzrə, heç olmazsa, Qəzali və Təbəridən bəzi bəhsləri eynən tədqiq masasına yerləşdirmək.

Türk tarixinə gəlincə, burada da, məsələn, yuxarıda isimlərini sayıb keçdiyimiz müərrixlərin əsərləri yerinə açıq və bəsit bir tənqid ilə məzkur Avropa müərrixlərinin ümumi və həman yeganə mənbələrindən bir kaçını, məsələn, Raşidəddin, Cüveyni, Əbülqazi, İbn Bibi və nəhayət, yəni Aşiq Paşazadə, Cövdət Solakzadəni tədqiq etmək fövqəladə mühümdür. Bu üsulla iki qazanc əldə edə biliyoruz:

a) Tələbələrin istiqbaldakı müstəqil tədqiqatına yol açılır;

b) Tənqid və təhlil üsulları əldə edilir.

2. İkinci dərəcədə tələbələr, çox dəfə yapıldığı kibi, Avropa müərrixi və onun nöqteyi-nəzəri ilə deyil, digər müərrixlərlə də və imkan olduqca doğrudan-doğruya onların əsərləri ilə də kəndilərini tanış etməlidir.

Böylə bir əməliyyə tarixdə və tarixçilikdə pək müzir təsirləri olan səlahiyyət **(autorite)** təsirindən tələbələri, ümumiyyətlə, gəncləri qurtaracaq, onlara lazım gələn fikri istiqlalı təmin edəcəkdir.

3. Bu surətlə müəllimin rolu məlumatçılıqdan rəhbərlik və üsulçuluğa intiqal etməlidir ki, o, yəni müəllim kəndi şəxsi təsiri[ni] həddi-əsğəriyə endirərək, gələcək nəslin inkişaf dimağı, istiqlali-fikrisinə, ən qiymətlisi, olduqca çox həqiqi və faydalı fikirlərin onların zehnlərində yerləşməsinə xidmət edə bilsin.

Bu sözlərimiz, şübhəsiz, ümumi və daha doğrusu, ən ziyadə ali məktəblərdəki, məsələn, Şərq fakültələri, pedaqoji institutlarındakı tarix tədrisatına aiddir.

Bununla bərabər, ikinci dərəcə, hətta birinci dərəcə məktəblərində leksiya üsulunu atmaq, əzmək, yerinə doğrudan-doğruya tədqiq üsulunu qoymaq artıq gərək rəsmən, gərəksə elmən çoxdan həll olunmuş məsələlərdəndir.

Təbii, ikinci və birinci dərəcə məktəblərin tarixi mənbələrdən başqa, tədqiqədəyər və tədqiqi zəruri bir çox sahələr vardır ki, bunlara digər tarixçi və ictimaiyyatçılar tərəfindən çoxdan işarət olunmuşdur. Yetər ki, tarix və ictimaiyyat müəllimlərimiz bu ədəbiyyatı və Moskva Dövləti Elmi Şurası tərəfindən nəşr olunan proqramları təqib etsinlər.

Bu kiçik məsələdə bizim məqsədimiz Şərq və türk tarixinin elmi surətdə tədrisində tezdən və qolaylıqla müraciət oluna biləcək bəzi çarələri göstərmək və bəzi mühüm bir-iki tədbirə işarət etməkdi.

"Maarif işçisi", 1926, səh. 51-56.

NƏVAİNİN DİLİ VƏ DİLÇİLİYİ HAQQINDA

Bu gün, bir tərəfdən, oyanmaqda bulunan türk xalqlarının, o bir tərəfdən baxdıqda, Radlovun [göstərdiyi kibi] gərək üsul və gərəksə mündəricə cəhətindən zəngin və fəal dövrünü keçirmiş olan türkoloji aləminin yekun yapma, yekunlaşdırma dövründə bulunuyoruz. Birincisinin əlaməti bütün türk məmləkətlərində getdikcə qüvvətlənməkdə olan maziyə və onun əsərlərinə olan məhəbbət olsa, ikincisində dəlili qarşımızda böyük vədlər və səmimi ümidlərlə toplanan türkoloji qurultayı və bu qurultayda ortaya atılan "Türkoloji işinə yekun!" şüarıdır. Bu "yekun" cümləsindən olmaq üzrə, keçən il Azərbaycanda bayram edilən Füzuli yerinə, türkoloji qurultayı, bu il Hindistandan İstanbula, Qazandan Misirə qədər təsirini yapmış və Teymurdan sonra Teymur dövləti miqyasında, bəlkə, ondan da geniş bir şair olan Nəvainin topdan hesabla beş yüz illik bayramını yapıyoruz.

Möhtərəm V.V.Bartoldun "Teymur tərəfindən yaradılmış olan dövlət türk-moğol dövlətçilik və türk-moğol hərbi sistem ünsürlərilə müsəlman, başlıca fars mədəni ünsürlərinin xüsusi bir tərkibindən ibarətdir",[7] – deməsi burada xatırlanacaq fikirlərdən birisidir. Nəvaidən əvvəl və sonra hər hankı bir türk elm və ədəb adamının bu qədər

[7] В.В.Бартольд. Улугбек и его время. Петербург, 1918, стр. 3.

böyük təsir və nüfuz qazandığını bilməyiriz. Nəvai zamanında Orta Asiya, Kiçik Asiya, Hindistan birləşib, bir aləm meydana gətirmişdi ki, bu aləmin irqi nöqteyi-nəzərdən siyasi və idari rəhbəri türk-moğol, elmi və mədəni rəhbərləri ərəblə fars idi.

Nəvai, bizim fikrimizcə, iştə bu aləmdə türk-moğol ünsürünün mədəni rəhbərlik davasının yeganə və böyük müməssilidir. Başqa bir məqaləmizdə də qeyd etdiyimiz kibi, Nəvai türk dilinin sözün siyasi, elmi və irqi mənasilə şüurlu müdafeyidir.

Türk dili zamanımıza qədər köylü və xalq dili olaraq qalmışdır. Onun şəhərlərə girəmədiyini biz əyan-bəyan Mahmud əl-Kaşqaridə görüyoruz.[8] On birinci əsrdən on dördüncü–on beşinciyə qədər vəziyyət dəyişməmişdir. Nəvai də farsca yazan-söyləyən bəylərə şair, alimlərdən şikayət və onlara türkcə söyləyib-yazmanı tövsiyə etməkdədir. Bundan başqa, xalqın da farsca, yaxud sartca söylədiklərini yenə Nəvainin özündən anlıyoruz: "Amma tərkinq uluğdin kiçigi kadıkınça və nökərdən beki kadıkınça sart tilidin bəhrəmənddürlər. Andaq kim öz xurda əhvalığa kura ayta alurlar, bəzi fəsahət və bəlağət bilə həm təkəllüm qılurlar".

Bəzi türk tarixçilərinin – Edvard Şavan, Klaprot, Leon Kahon ... xəbər verdiyinə görə, türklərin Orta Asiyada iranilərlə ilk təmasları səkkizinci əsrlərdə Aftalit dövlətinin ortadan qalxması ilə başlar. İki-üç əsr içərisində fars dili və mədəniyyəti türklər üzərinə pək böyük təsirlər yapa bildiyini yuxarıda ismini zikr etdiyimiz türk dilçisi əyan-bəyan göstəriyor. Burada türklərin farslar üzərinə olan təmsilçi təsirini də unutmamaq lazımdır. Ümumiyyətlə, kumalar çıxarılacaq olursa, hər hankı bir türk xalqının kuma halında öz dilini unudub, əcnəbi dilini qəbul etdiyinə rast gəlmiyoruz. Çingiz, Teymur dövlətlərində Çin hüdudlarından Krıma qədər türk ünsürləri içərisinə qarışan moğol qəbilələrindən Krımda, Volqaboyunda, Türküstanda, hətta Azərbaycanda yer-yer təkrar edən moğol qəbilə adlarından (bu gün köy, kənd isimləri...) başqa bir şey qalmamışdır. On beşinci əsrdə artıq sart-fars ünsürü də dilcə türkləşməyə üz tutmuş və nəhayət, Türküstan rus idarəsinə keçdikdən sonra bu əməliyyə də bitmişdir. Yəni sartlar ümumiyyət etibarilə, daha doğrusu, türk köylüləri və köçəbələri ortasında qalan şəhərlərdə və ölkələrdə (Fərqanə, Kaşqar...) türkləşmişlərdir.

[8] Divanü-lüğatit-türk: افصح اللغات لمن لا يعرف السانا واحدا و لم يختلط الفارسى و لم يتعود نزول البلاد, səh. 29 və sonra gələnlər (1-ci cild).

Bundan sonra şurasını da qeyd etməliyiz ki, on beşinci əsr türk aləmində "yerləşmə əsri"dir. Bu vaxta qədər hər əsrdə bir, hətta bir kaç kərə yurd dəyişdirən türk-moğol xalqları qəti surətdə müəyyən coğrafi və təbii hövzələr içərisində yerləşmişlər və on yeddinci əsrdən başlayaraq, zamanımıza qədər yer-yer davam edən cüzi mühacirətlər çıxarılacaq olursa, bu son beş yüz illik dövr içində yurdlarını dəyişdirməmişlərdir. Nəvaidən bizə qədər olan təqribən beş yüz illik dövr ilə Nəvaiyə qədər olan beş yüz illik dövrü (hətta hyunq-nolardan başlayaraq) müqayisə edəcək olursaq, bizim gözümüz önünə gələn lövhə oxuyucumuzun qarşısında da açıq surətdə dikilir.

Böylə bir yerləşmə **(consolidation)** zorunda Nəvainin şəxsiyyəti böyük, pək böyük bir əhəmiyyəti haizdir. Nəvaidən, heç şübhəsiz, daha qəti bir surətdə düşünmək istərsək, ondan da əvvəl, on üçüncü - on dördüncü əsrlərdən[9] alaraq, biz artıq türk ədəbi dilini və türk ədəbi mərkəzlərini açıq surətdə təqilə edə biliriz.

Professor Köprülüzadənin gərək uyğur, gərəksə cığatay ədəbiyyatlarının həqiqi lisani mahiyyətləri haqqında ortaya atdığı sualları və nəticədə vardığı şübhəni pək doğru saymaqla bərabər, cığatayca haqqında verdiyi tərifə də iştirak etmək məcburiyyətindəyiz. Cığatayca Çingiz istilasını mütəaqib islam mədəniyyəti təsiri altında təsis və təqərrür edən ədəbi Şərq türk ləhcəsidir.

Professor A.N.Samoyloviç də türk şivələrinin təsnifində "dağlıq qrup, cənub-şərqi" namını verdiyi şivə qrupunu eyni zamanda cığatayca[10] adlandırıyor ki, bu surətlə hər iki professorun fikri birləşmiş oluyor. Nəvai, yaxud Teymur dövrünə qədər Orta Asiyada müəyyən ədəbi dildən bəhs etmək qabil olmasa belə, Nəvaidən sonra deyil, yalnız Orta Asiyada, hətta Hindistan və Volqaboyu, İran və Əfqan[ıstan] kibi məmləkətlərdə törəyən ədiblərin, şair və alimlərin ədəbi türkcəsinin ümumi tipini təyin etmək mümkündür.

Yerli, məhəlli şivələrdə yazanlar doğuncaya qədər "Nəvai dili" deyə biləcəyimiz cığatayca, Azərbaycan, Osmanlı və Krım müəllifləri

[9] Burada möhtərəm Mehmed Fuad Köprülüzadənin "Türk ədəbiyyatında ilk mütəsəvviflər" namındakı əsərində Əhməd Yəsəvi – Yunus İmrə müqayisəsində vardığı nəticələrə işarət etmək istədiyimizi oxuyucumuz anlasa gərəkdir. Lakin eyni zamanda Körpülüzadənin pək doğru olaraq Çingiz istilasına qədər Orta Asiya türkcəsi əsərləri haqqında qoyduğu böyük şübhə və istifham işarəti də unudulmamalıdır.

[10] А.Самойлович. Некоторые дополнения к классификации турецких языков. Петроград. 1922 г.

xaric olmaq üzrə, denilə biliyor ki, qalan bütün ədəbiyyatlı və yazılı türk şivələrinin yeganə nümunəsi olmuşdur.

Nəvainin dilçiliyi müəyyən əsaslar üzərinə qurulmuşdur. O, türk dilinin qüvvətli, fars dilinin zəif nöqtələrini fərq etmişdir. Bundan başqa, fars ədəbi dili ilə türk xalq dilini bir-birilə müqayisə etmişdir ki, bu surətlə fars dilinin xalq dilindən uzaqlığından faydalanmışdır. Halbuki Nəvainin "Mühakimətül-lüğəteyn"ində gətirdiyi sözlərin, təbir caizcə, yüzdə doxsanı o vaxtın klassik ədəbi əsərləri üçün lüzumsuz sözlərdir. Burada Nəvai görünüşdən qayət incə surətdə istifadə edə bilmişdir. Bilxassə qrek filoloji məktəbinin ənənələrindən olan mütəradif və mütəşabehlərə baxaraq, dillərin zənginlik və üstünlüyünü təyin etmək adəti də Nəvainin bu xüsusdakı sətirlərinə ayrıca qüvvət və məntiq vermişdir. Nəvainin dilçiliyində bu gün də qiymət veriləcək bir nöqtə varsa, o da onun türk dilindəki şəkilçilərə nəzərdiqqəti cəlb etməsidir. Həqiqətən türk dilinin birinci baxışda gözə çarpan iki böyük xüsusiyyətindən birisi fellərinin, daha doğrusu, fel şəkillərinin zənginliyi olsa, ikincisi də şəkilçilərinin qullanışındakı qolaylıq və bunların damarların mənalarında bir-birlərinə olan münasibətlərində meydana gətirdikləri dəyişiklikdir.

Nəvainin türk dilinin üstünlüyünə ikinci bir əsası da onların islam aləmində yerləşdikləri qəvi və sarsılmaz kibi görünən hakim siyasi vəziyyətdir. Sultan Hüseynin türkcə şeirlər yazması Nəvai tərəfindən türkcə yazmaları üçün başqa şairlərə bir işarət kibi təfsir olunmaqdadır. Şimdi Nəvainin özünün dilinə gələcək olursaq, öz fikirlərinə sadiq qalmayan şərqli burada da kəndisini göstərməkdədir. Nəvainin hər hankı bir əsərini oxuyan adam bu xüsusda eyni qənaəti əldə edəcəkdir.

Türklərin islamiyyəti qəbullarından sonra keçən nisbətən qısa bir zaman içərisində nə qədər çapuq fars-ərəb təsirinin türk dili üzərində göründüyünə misal olmaq üzrə "Qutadqu bilik"i xatırlamaq yetişir.

Nəvai də artıq qatı surətdə təşəkkül etmiş olan ədəbi ənənələrin təsirindən kəndisini qurtaramamışdır. Bunu Nəvainin "Fərhad və Şirin", "Leyla və Məcnun", "Səddi-İsgəndəri"... kibi mövzularında, həm də əsərlərinin daxili təqsimində, nəhayət, ədəbi leksikonunda (təşbehləri, istiarələri, sözləri) və vəznlərində görmək mümkündür.

Azərməşrin yalnız bir simvol (iləridə Nəvai nəşriyyatını elmi və tənqidli surətdə nəşr etmək arzusunda bulunduğuna işarət olmaq üzrə) kibi nəşr edilən bu əsərciyin bilxassə müqəddiməsini oxuyanlar sözlərimizin doğruluğuna qane olacaqdırlar.

"Sə'yi-müqəddəmini tələb badiyəsiğə qoyub, ümid cəsasın fəqr cüzvdanığa salıb, təcərrüdi-kütübin təməl arxasına götərib..." kibi zəncirləmə təşbeh və istiarələr ən bəsitlərindən sayılmalıdır.

Nəvainin mənzumələri, bizim fikrimizcə, mənsur əsərlərindən türkcə və bəsitlik cəhətilə daha ziyadə üstündür:

Bu otnu keşikə bulsa ruzi,
Köydür səni tanın cəhannı sözi.
Tanın yok bu ot etsə əşkra qərq,
Yamğur yağar anda kim, toşar bərq
Kim, rizq riya dəstur birlə,
Aşiq etər özni zur birlə.
Bu söznü eşitkac ol yeganə,
Guya ki, tilər idi bəhanə.
Göydə tiləkənni yerdə tabtı,
Çün rəxş o zəmindi gögnə çaptı.
Gəndun ki, gözini yüz bəna açtı,
Əncüm dərmin başıqa saçdı...

Nəvai haqqında cildlər yazmaq lazımdır. Yalnız onun əsərləri gərəyi kibi, bütün elmi tənqid üsulları qullanılaraq nəşr edilmədən əvvəl bu qabil deyildir. Özbəkistandan son aldığımız xəbərlərlə Nəvainin külliyatından bir çoxları nəşr ediləcəkmiş (Türkoloji qurultayının da bu xüsusda öz yardımını göstərəcəyinə əminiz). Nəvainin bu iki əsərciyi hesaba girəməz. Çünki böylə ciddi bir nəşriyyata girişilmək üçün lazım gələn ciddi hazırlıq üçün vaxt, vasitələr şimdilik əlimizdə yoxdur. Bu iki əsərciyi və bizim sətirlərimizi yalnız Nəvai ətrafında yapılması lazım gələn və faydalı xidmətin, vəzifənin qarşımızda durduğuna işarət olmaq üzrə qəbul etməlidir.

Birinci Türkoloji Qurultayı öz tarixi qərarı ilə bu xüsusu təsbit etsə, yol göstərsə, zəmin hazırlasa, nə mutlu! O vaxt da Xoca Nəvainin dediyi: "Yadağı rəsail ki, qələm sürüpmin və məkatibğa rəqəm urubmin ki, farsi sehirsazlar və pəhlivan əfsanəpərdazlar həm anda uraq arastə və əcza pirastə qəlib durlar kim dana həkim ədalət yüzidin köz salsa və burunğa farsi və sönəkği türki lətaif və dəqaiqi din bəhrə alsa, hökm sürər zəmanıda və hər qaysının mərtəbəsini təyin qılır. O anıda ümidim oldur və xəyalımğa andaq gəlir kim, sözüm mərtəbəsi "övcdin guyi inmakay və bu tərtibim kökbəsi əla dərəcədin özgə birini bikanma kay".

Doğrudan, beş yüz illik bir zaman içində onun şəxsiyyəti və təmsil etdiyi sima "övcdən quyı" etmədi və "tərtibinin kökbəsi əla dərəcədin özgə birini" bəyənmədi.

Şərqin və Qərbin hüzurunda Nəvaini anmamız, şübhəsiz, ilərıdə də nəvailərimiz yetişəcəyini qəvi surətdə umduğumuzdandır.

"Əlişir Nəvai. Vəqfiyyə. Məqalələr məcmuəsi".
Bakı: Azərnəşr, 1926, səh. 9-16.

NƏVAİ – DİLÇİ

Türk dilinin islam dinində dörd böyük müdafeyi olmuşdur ki, bunların birincisi "Divanü-lüğatit-türk" sahibi Mahmud əl-Kaşqaridir, ikincisi "Qəribnamə" sahibi Şeyx Aşıq Paşadır, üçüncüsü Nəvai və dördüncüsü "Meysərətül-ülum" namındakı sərfin sahibi Berqamalı Qədridir.

Bu dörd zatın təmsil etdiyi dörd dövr ümumiyyətlə Kiçik və yaxud Orta Asiya tarixlərində, xüsusilə türk tarixlərində ən parlaq dövrlərdəndir.

Mahmud əl-Kaşqari Orta Asiyanın taleyi və gələcəyi üçün pək mühüm olan on birinci əsrin yetişdirməsidir. Halbuki tarixi rümuzlara girişmədən qısadan söyləyəcək olursaq, on birinci əsr nədir?

On birinci əsr Orta Asiya üzərinə, bizə məlum olduğuna görə, miladdan iki-üç əsr əvvəl başlamış olan beynəlmiləl davanın türklərin lehinə, türk soyu faydasına yetməsi deməkdir. Bu davada yeddinci və səkkizinci miladi əsrə qədər olduqca qüvvətli rol oynayan Çin sıradan çıxdıqdan sonra türklərin qarşısına bir çox əsrlər Orta və Kiçik Asiyanın yeganə sahibi olan İran çıxıyor. "İpək yolu davası" adını verə biləcəyimiz bu davaya o vaxtın bütün dövlətqurucu xalqları Moğolustandan Babülməndəbə qədər cəlb olunuyor. Türklərin Bizans ilə ittifaq edərək, İran üzərinə yüklənmələri İranın qapılarını ərəblərə, islama açıyor və şimaldan İran üzərinə yapdıqları təzyiq ilə türklər islam aləminin yarı işini, bəlkə, qeyri məşhur surətdə üzərlərinə yönənmiş və yerinə gətirmiş oluyorlar. Ərəblər siyasət və hərb

səhnəsinə çıxdıqları zaman artıq bu səhnənin başlıca qəhrəmanlarını – İran və Çini məğlub edilmiş, zəiflədilmiş buluyorlar. Lakin ərəblər də iki-üç əsrdən ziyadə Orta və Kiçik Asiyanın xocalığını yapamayırlar. Abbasilərin gəlməsilə bu səfər iranilər Bağdadda qazandıqları vəziyyət sayəsində bilərək-bilməyərək türk ünsürünün Orta Asiyada qüvvətlənib, Kiçik Asiyaya, Hindistana daşmasına yol veriyorlar. Artıq on birinci əsrdə türklərin hər tərəfdəki təfəvvüqü ərəbin və farsın gözündə əyan və bəyan duruyor.

İştə Mahmud Kaşqari bu dövrün dilçisidir. "Türk dilini öyrəniniz, çünki onların dövləti qəvi və uzundur", – hədisini farsların və ərəblərin ağzından alıb gəlirkən əql və məntiqcə də bunun böylə olduğunu öz tərəfindən qeyd ediyor. Türk ünsürünün üstünlüyü, türk dilinin qüvvətlənməsi, ən mühümü bu rabitənin Mahmud əl-Kaşqari kibi doqquz yüz il bundan əvvəl yaşayıb keçmiş olan bir dilçi tərəfindən qeyd olunması, hər hanki tərəfdən alınsa, qeydə və diqqətə layiq bir hadisədir. Mahmud əl-Kaşqaridə burada qeyd etməmiz lazım gələn iki nöqtə vardır ki, birisi onun lüğətinə əsas olaraq canlı türk dillərini alması, ikincisi isə dilin tabe olduğu dəyişmə qanunlarının pək gözəl fərqində olmasıdır.

"Qəribnamə" sahibinə gəlincə, onun dövrü də bu nöqteyi-nəzərdən pək şayani-diqqətdir. On dördüncü miladi əsr Kiçik Asiyanın şərqində ərəb və fars, qərbində Bizans dövlətlərinin yıxılıb, səlcuqilərə görə daha qüvvətli türk dalğası demək olan Osmanlı türklərinin əlinə keçən bir zamandır.

"Meysərətül-ülum" isə Süleyman Qanuni zamanı, yəni Türkiyə[nin] iqtisadi və siyasi təsir və nüfuzunun ən geniş dairəyə malik olduğu bir dövrdə yazılmış bir əsərdir.

Mir Əlişir Nəvaiyə gəlincə, o da eyni surətlə türk ünsürünün Orta Asiyada ən son parlaq dövrünün yetişdirmələrindən, alim, filosof, şairlərindən biridir.

Daha on birinci əsrdə Mahmud Kaşqari şəhərdə farca, aullar və köylərdə isə türkcə qonuşulduğunu qeyd ediyordu. Mir Əlişir Nəvainin sözlərindən üç-dörd əsr içində vəziyyətin dəyişmədiyi anlaşılıyor. Nəvai çox dəfə fars, göytürk bəylər və mirzadələr[in]dən bəhs ediyor. Türk aristokratiyasının, saray aləminin əcnəbi dillərə düşkünlüyü artıq Orxon kitabələrində, tukyular dövründə gözə çarpmaqdadır. Bununla bərabər, yalnız bəylərin və zadəganın deyil, bəlkə, bütün şəhər xalqının da farscaya böyük rəğbəti olduğunu yenə Nəvaidən

eşidiyoruz. Netəkim "amma türkinin uluğdin keçigi kadikincə və nökərdən bəyi kadikincə sart dilidin bəhrəmənddirlər", – deməsi ilə Orta Asiya şəhərlərində dil cəhətindən vəziyyətin beş əsr əvvəl bugünkündən fərqli olmadığı görülməkdədir. Çünki bu gün də Səmərqənd və Buxara kibi şəhərlərdə sart dili özbəkcəyə qarşı üstünlüyünü saxlamaqda və başlıca danışıq dili olaraq yer almaqdadır.

Türk dilini saraya, ədəbiyyata, cameyə, mədrəsəyə, təkyəyə... vəlhasil, əski islam aləminin ictimai müəssisələrinə girəməməsinin başlıca səbəbi onun şəhərlərə girəməməsidir. Türk dövlətləri şimdiyə qədər tam mənasilə öz şəhərlərinə malik olmamışlardır. Gərək on birinci və gərəksə on yeddinci əsrdə mövcud olan və hətta bugünkü türk ölkələrinin şəhərlərində əksəriyyət əcnəbi ünsürlərdədir. Bu surətlə şəhər dili olamayan türkcə eyni zamanda ədəbi dil də ola bilməmişdir. Çünki ədəbi dil hər şeydən əvvəl, hankı tipdə olursa-olsun, şəhər dilidir. Köy və köçəbələrin toplandığı yurtlar yalnız anonim və yazısız xalq ədəbiyyatı meydana gətirə bilir. Teymurilərin son dövrlərinə doğru şəhər içində üstünlük davası çıxmış və türk ünsürləri külliyyətli miqdarda şəhərlərə cəlb edilməyə başlanmışdır. Digər tərəfdən, o vaxtın türk münəvvər təbəqəsi bilxassə fars dilinin üstünlüyünü və bu üstünlük arxasında fars nüfuzunun şəhərdə saraylarda qüvvətlənməsini çəkəməmişdir.

Nəvainin dilə aid sətirlərində iki dürlü baxış vardır: 1) afaqi (obyektiv); 2) qaidəvi (normativ).

"Mühakimətül-lüğəteyn" adlı əsərinin başlanğıcında o əvvələn bitərəfanə, o vaxta görə elmi nöqteyi-nəzərdən türk dilinin mənşəyi və üstünlüyü üzərində duruyor. Qur'an dili olan ərəbcə səmavi bir dil olaraq ortadan çıxarılacaq olursa, əsli olaraq üç dil qalıyor ki, başqa dillər həp bunların budaqlarıdır. Bu dillər də hind, fars və türk dilləridir.

Hindlilərin dili, sortları kibi, çirkin, təməlsiz, fəsahət və bəlağət hülyəsindən ari oldu. Sart (fars) dili ilə türkcəyə gələcək olursaq, Nəvainin fikrincə, sart türkdən elmi olmaqla bərabər, türk sartdan daha ziyadə anlayışlıdır. İştə bu xüsusları Nəvai bir taqım türk sözlərini zikr edərək isbata çalışıyor.

Nəvainin dayandığı dil kitabında zikr etdiyi türk şairlərinin, ədib və filosoflarının dili olmayıb, bəlkə, xalq dilidir. Demək olur ki, Nəvai fars ədəbi dili ilə türk xalq dilini müqayisəyə girişir.

Nəvai, ümumiyyətlə, qrek (yunan) və islam lisançılarında olduğu kibi, dilin mütəradif və mütəsabehlərinə, mononim və sinonimlərinə əhəmiyyət vermişdir. Bir *at*, yaxud *gög* və *sağın*... kibi sözlərin dürlü-dürlü mənalara gəldiyini, halbuki bu xüsusiyyət və məziyyətin fars dilində olmadığını göstəriyor. İkinci dərəcədə Nəvai türk heyvan və nəbat, silah-uruş alətlərinin isimlərinə, adlarına nəzər-diqqəti çevirmişdir ki, bu soy sözlər bu gün də türk xalq dillərində pək bol, pək çoxdur. Nəhayət, Nəvai türk fellərinin və fel şəkilçilərinin zənginliyinə, ifadəcə qolaylığına nəzər-diqqəti cəlb ediyor.

Heç bir fransız leksikonunun, akademi lüğətinin türklər arasında yerinin dürlü şəkillərinə, otlara, heyvanlara verilən adların qarşılığını bulub verəməyəcəyini qeyd edən məşhur türk tarixçisi Leon Kahon, türk dilinin başqa dillərə, məsələn, hind və Avropaya üstünlüyünü dəfələrlə qeyd edən Maks Müller, J.Deni kibi alimlərin fikirləri, sözləri xatırlanırsa, Nəvainin sözləri doğrudan da maziyə və yaxud onun türk təəssübünə ətf ediləməz.

Nəvai eyni surətlə *ap-ağ*, *sap-sarı*, *yup-yumlaq*, *çöp-çuxur*... kibi zaidli sözlərə, yaxud *yasavul*, *bukavul*, *toqqavul*, *yasal*, *tosqal*, *süpürğal* kibi sözlər meydana gətirən şəkilçilərə əhəmiyyət veriyor.

Kəmali-cəsarətlə deyə biliriz ki, Nəvainin bu surətlə türk dilini təhlil etməsi, dini müqəddiməsi kənara buraxılacaq olursa, onun tam mənasilə bir dilçi olduğunu meydana çıxarır. Bizim bildiyimizə görə, türk xalqı olalıdan bəri böylə yalnız iki dilçimiz olmuşdur: Mahmud Kaşqari və Nəvai.

Yazıq ki, Nəvai öz dövrü üçün Mahmud Kaşqari kibi daha müfəssəl bir lisani əsər meydana gətirməmişdir.

Buraya qədər qısadan-qısa, səthidən-səthi surətdə qeyd edə bildiyimiz ustazanə qeydləri Nəvainin, təbir caizsə, obyektiv, daha doğrusu, elmi dəlailidir. Onun bundan başqa, türk dilinə idarəvi və qaidəvi baxışla yanaşması da vardır ki, bir kaç söz də bunun haqqında söyləmək icab edər.

Nəvai bütün söylədiklərindən şu nəticələri çıxarıyor: "Andın sonra kim türk diliyin cameiyyəti munca dəlail belə sabit buldu. Kırak irdi kim, bu xəlq arasından peyda buluğan təb' əhli səlahiyyət və təb'lərini öz tilləri turğac öz katıl belə zahir qılmasa ayırdı və işka buyurmasalar ayırdı".

Hər halda türkdən çıxacaq yazıçılar, Nəvainin fikrincə, başqa dildən ziyadə öz dilində yazmalıdır. Halbuki, – deyir, – şimdiyə qədər

yetişmiş olan türk böyükləri həp əcnəbi dillərlə, öz dillərini unudub, yazı yazmışlardır. Nəvainin yenə pək dərin fikirlərindən birisinə görə, islamda səltənət – hakimiyyət əvvəllən ərəblərdə idi və bunun üçün ərəb dili fəlsəfə, şeir və elm dili oldu və sonra farslara keçdi. Onlar da öz dilləri üçün lazım olan inkişaf və tərəqqini verdilər, böyük-böyük şairlər, alimlər yetişdirdilər. Şimdi isə sart sultanlarından mülk və hökumət türklərə keçdikdən sonra lazım gəlir ki, hər kəs fikrini, sözünü türkcə söyləsin, türkcə yazsın.

Bundan sonra Nəvai kəndisinin türk dili və türkcə şeirləri ilə nə qədər şöhrət, etibar və dərəcə sahibi olduğunu qeyd ediyor.

Bütün bu sözlər bir türk hökumət adamının fikirlərini dinlədiyimizi göstəriyor. Nəvai bir çox sifətlərlə bərabər, dilçilik ilə uzaq düşünən dövlətçiliyi özündə toplamışdır.

Nəvainin dilçiliyində gözümüzə çarpan nöqtələr şunlardır:

1. Türk dilinin rəqibləri hind və fars dilləridir.

2. Türk dili məna və şəkilcə fars dilindən zəngindir və qüvvətlidir (mütəradiflər və şəkilçilərin bəyanı).

3. Türk dili dövlət dilidir.

Nəvaidə, bütün yuxarıda saydığımız türk dili müdafelərində olduğu kibi, əskik bir nöqtə varsa, o da böylə əxlaqi və ədəbi tövsiyələrlə iktifa edib, daha konkret, daha ciddi təkliflərə və tövsiyələrə yanaşmamasıdır. Məsələn, türk dilinin mədrəsə və təkyələrə soxulması, hökumət adamlarının türkcə bilməsi. Dilin böylə bir surətlə müdafiəsi ümumiyyətlə Şərqdə məchul qalmış və ancaq on doqquzuncu əsrdə avropalılar vasitəsilə yeni Şərq dövlətlərində tətbiq edilməyə başlanmışdır. Yuxarıda söylədiyimiz kibi, bu yolda Nəvaidən əvvəl və sonra gələnlər olmaqla bərabər, bunlardan heç birisi onun qədər nüfuz və şöhrət sahibi olamamışdır. Nəvaidən sonra Hinddən İstanbula, Səmərqənddən Misirə qədər Nəvainin binlərcə tərcümanları, təfsirçiləri, şagirdləri yetişdiyini və Nəvainin sözlərinə izah və təfsir üçün yüzlərcə lüğətlər və dil kitabları yazıldığını qeyd edərsək, mübaliğə etmədiyimiz anlaşılır. Bu surətlə onun: "Və xəyalım qəmundaq gilür kim, türk ulusu fəsihlarığa uluğ haqq sabit qıldım ki, öz əlfaz və ibarətləri həqiqəti və öz til və lüğətləri keyfiyyətidin vaqif buldular və fars köylərinin ibarət və əlfaz babidə tə'n qılır sərzənişdən qurtuldular!" – deməsi tamamilə doğru çıxdı.

Bu gün türk və türkoloji dünyasında birinci dəfə toplanan türkoloji qurultayında beş yüz il sonra bütün Avropa və Asiya türkşünasları qarşısında Nəvainin adı hörmətlə anılıb, salam dürülürkən Nəvainin təmiz türk xalq dili ilə əcnəbi dillərin təsirinə qarşı qaldırdığı bayraq, açdığı cığır yenidən təzərmiş və nəhayət, "ümid ölkim bu fəqirəni xeyir duası bilə yadqılğaylar və ruhumnu anın bilə şad qılğaylar", – təmənnisi ustazın şan və şərəfinə layiq bir surətdə yerinə gətiriliyor.

Türkoloji Qurultayında müzakirəyə qonulan məsələlərin qolayca çözülməsində onun beş yüz [il] əvvəl söylədiklərini xatırlamaq və xatırlatmaq pək böyük fayda verə bilir.

Çox yazıq ki, böylə mühüm bir şəxsin ən böyük bir sifəti, dilçiliyi haqqında bir az işlərimizin həddən aşırı çoxluğundan, zamanımızın darlığından ancaq hekayə qəbilində bir şey yaza bildik.

"Nəvai. Məqalələr məcmuəsi", Bakı, 1926, səh. 73-80.

ƏDƏBİYYATIMIZDA YENİ QİYMƏTLƏR

Bu məqaləmizdə çox mühüm bir dövrün ədəbi qiymətləri haqqında az-çox məlumat verməyi üzərimizə aldıq. Bu dövr min doqquz yüz on yeddi sənəsi inqilabından başlamışdır. Oktyabrdan zamanımıza qədər keçən aşağı-yuxarı səkkiz illik bir zaman içərisində türk xalqlarının ədəbiyyatı həm kəmiyyətcə, həm də keyfiyyətcə dəyişmiş, ilərləmiş və artmışdır.

Bu gün Şuralar İttifaqı içində yaşayan türk xalqlarının ədəbiyyatı bir çox tərəflərdən müəyyən bir çərçivə içərisinə alına bilirsə də, çox yazıq ki, bu günə qədər bu xüsusda böylə camiəvi bir əsər yazılmış və nəşr edilmiş olduğunu bilməyiriz. Təbii, hər meyvənin zamanı vardır. Böylə bir tərkib meydana gətirmədən əvvəl ayrı-ayrı hər şivənin yeni ədəbi dövrü haqqındakı materiallar meydana çıxarılmalı, işlənməlidir. Bu yoldakı işlərin bir çox yerlərdə hənuz ağır getdiyini söyləməliyiz.

Şimdiyə qədər söylədiyimiz qısa dövr içində öz şivə ədəbiyyatına ən çox fikir verən cümhuriyyət, şübhəsiz, Azərbaycandır. Burada, ümumiyyətlə, ədəbiyyat tarixi nəşriyyatı, xüsusilə Azərbaycan ədəbiyyatı tarixinə aid nəşriyyat olduqca böyük ölçü ilə yapılmaqdadır.

Ümumi türk ədəbiyyatı tarixi meydanında İ.Hikmətin böyük və çox qiymətli cildlərdən ibarət tədqiqləri[11] nəşr olunmaqda bulunduğu kibi, Azərbaycan ədəbiyyatı tarixinə aid olaraq, bir tərəfdən, mərhum Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" namını daşıyan əsəri[12] cild-cild çıxarılmaqda, digər tərəfdən də, ədəbiyyat həvəskarlarından Salman Mümtazın yenə Azərbaycan şairlərinə aid olaraq topladığı materiallar risalə şəklində buraxılmaqdadır.[13] Hər üç əsər də şimdiyə qədər tamam olmamışdır və şimdiyə qədər nəşr olunan material Şuralar İttifaqı türklərinin yuxarıda qeyd etdiyimiz dövrdəki ədəbiyyatına hənuz yetişməmişdir.

Azərbaycandan sonra Tatarıstan Cümhuriyyəti gəlir. Volqaboyu türkləri inqilabdan əvvəl də öz dil və ədəbiyyatlarını işləməkdə əski Rusiya türkləri arasında birinci yeri tuta gəlmişlərdir. Burada yenə oktyabr inqilabından sonra görülən fəaliyyəti alacaq olursaq, ən mühüm bir əsər olaraq qarşımıza Qali Rəhim və Q.Qaziz arxadaşlarımız tərəfindən yazılan "Tatar ədəbiyyatı tarixi" çıxar.[14]

Gərək İ.Hikmət, gərəksə Qali Rəhim və Q.Qaziz arxadaşlarımızın əsərləri pək ciddi və elmi olmaqla bərabər, birincisi hənuz Şuralar İttifaqı türklərinin ədəbiyyatlarına aid cildlərini nəşr etməmiş, sonunculları da yalnız on doqquzuncu əsrin sonlarına qədər gələ bilmişlərdir. Bundan başqa, Cəmaləddin Vəlidinin "Tatar ədəbiyyatının barışı" və bunun genişlədilərək ruscaya tərcüməsindən ibarət olan digər bir

---

[11] Türk ədəbiyyatı tarixi. İsmail Hikmət. Bakı, Azərnəşr, 1924-1925 arasında dörd cildi təbdən çıxmışdır. Bu cildlər Osmanlı ədəbiyyatına təxsis edilmişdir.

[12] Azərbaycan ədəbiyyatı tarixi materialları. Firidun bəy Köçərli. Bakı, Azərnəşr, 1925.

[13] Azərbaycan ədəbiyyatı. Salman Mümtaz. "Kommunist" qəzetəsi nəşriyyatı. Şimdiyə qədər [...] yeddi risalə nəşr edilmişdir ki, bunlarda sırasilə Ağa Məsih Şirvani, Molla Pənah Vaqif, Nişat Şirvani, Məhəmməd Hüseyn Müştaq, Qövsi, Kərbəlayi, Allahi Arif, Lütfi Şirvaninin şeirləri çıxarılmışdır. Köprülüzadə Məhəmməd Fuadın Azərnəşr tərəfindən 1926 sənəsində nəşr edilən "Azəri ədəbiyyatına aid tədqiqlər" namındakı risaləsi də Füzuliyə qədər gəlməkdədir.

[14] Tatar ədəbiyyatı tarixi. Qali Rəhim, Q.Qaziz (Qubeydullin). Bu əsərin birinci təbi 1922, ikinci təbi 1925-də nəşr edilmişdir. Əsər əsas etibarilə üç cilddən ibarət olub, birincisi bütün türk ədəbiyyatına ümumi baxış, ikincisi pək əski dövr və tatarlar arasına girmiş cığatay, Osmanlı əsərləri və onlara təqlid, üçüncüsü Tatarıstan torpağında Avropa təsirinə qədər Şərq əsasında vücuda gətirilən əsərlər məsələlərilə məşğul olur. İkinci təbdə isə əski dərəbəylik təsirini nəzəri-etibara alaraq, tamamilə yeni prinsip və genişlədilmiş material üzərinə yazılmışdır.

əsəri də ancaq on yeddinci sənəyə qədər tatar ədəbiyyatının inkişafını təqib etməkdədir.[15]

Krım şivə ədəbiyyatı haqqında namlı ədiblərdən Həsən Səbri Eyvazovun hazır və qiymətli bir əsəri varsa da, hənuz nəşr edilməmişdir.

Volqaboyu türklərinin namlı ədib və camaat xidmətçilərindən olan Qalimcan İbrahimovun "Proletariat ədəbiyyatı tövründə" namındakı əsəri də bizim mövzumuza toxunmamışdır. Bu əsərində Qalimcan İbrahimov "Ədəbiyyat neçün? Ədəbiyyatların ictimai turmuşqa baylanovu, ədəbiyyatlarda sinifçilik məsələsi..." kibi mühüm, lakin ümumi məsələlərlə uğraşıb, ortaya atdığı məsələləri öz zamanının ədəbi axıntılarına tətbiq etməmişdir. Qalimcan İbrahimovun bu əsəri bir müqəddimə mahiyyətində olub, gələcək sətirlərində mühərririn bu risaləsindəki nöqteyi-nəzərdən müasir Qazan-tatar ədəbiyyatını təhlilə girişəcəyini ümid etmək mümkündür.[16]

Buraya qədər saydığımız bütün bu əsərlərdən ədəbiyyat tarixi elminin bizdə də Qərbdəki elmi üsullarla işləməyə başlandığını görməmək mümkün deyildir. Eyni zamanda bu əsərlərdən birisi[də] on yeddi-iyirmi altı arasındakı ədəbi dövrü təhlilə hənuz girişməmişdir.

Professor A.N.Samoyloviç də **"Всемирная литература"**nın "Şərq ədəbiyyatı" qismində **"Литература турецких народов"** namilə 49 kiçik səhifədən ibarət bir məqalə yazmışdır ki, tukyulardan alaraq inqilaba qədər olan türk ədəbiyyatını bu, mövzusuna görə qayət kiçik məqalə içərisində sıxışdırmışdır. Bununla bərabər, Samoyloviç əsərinin sonunda Qazan, Azərbaycan, Krım, qazax, qırğız, özbək... xalqlarının yeni ədəbiyyatına toxunmuşdur. Lakin məqaləsində bu xalqların ədəbiyyatında az-çox rol oynayan zatların adlarını almaqdan nasılsa ötəy keçəməmişdir. Bu surətlə bu məqaləni də bizim mövzumuza toxunmuş və yaxud bizim burada məşğul olduğumuz məsələləri təhlil və yaxud tərkib etmiş sayamayız.

Bu sətirləri yazanın "Rusiya tatarlarının mədəni inkişafları" namilə macar dilində yazılıb 1918 sənəsi Budapeştədə basdırılmış olan risalə[sində], Samoyloviçin məqaləsi[ndəki] kibi, bin doqquz

[15] Cəmaləddin Vəlidov. Tatar ədəbiyyatının barışı. Orenburq, 1912. Bunun ruscası: Очерк истории образованности и литературы волжских татар. Джамалютдин Валидов, 1923.

[16] Qalimcan İbrahimov. Proletariat ədəbiyyatı tövründə. Meskev, 1924.

yüz beşdən on səkkizinci ilə qədər olan ədəbi cərəyanlara qayət xəfif surətdə toxun[ul]muşdur.

* * *

On yeddinci sənənin ədəbiyyatımıza bağışladığı ən böyük qiymət, şübhəsiz, xalq ədəbiyyatını toplamaq və az-çox işləmək yolunda olmuşdur. Şimdiyə qədər bizə məlum olduğuna görə, tarançılardan krımlılara qədər bütün türk şair və maarifçiləri öz el (xalq) ədəbiyyatlarını toplamaqla məşğuldurlar. Ta keçən əsrin sonlarına doğru Qəyyum Nasiri, Rəfiq paşaların uğurlu əlilə başlayan bu hərəkat iştə bu günlərdə, iyirminci əsrin birinci yarısında sonuna doğru ilərilləməkdədir. Həman bütün Avropa xalqları öz milli ədəbiyyatlarını ancaq böylə bir fəaliyyətlə başlaya bilmişlərdir. Xalq ədəbiyyatı parçalarını toplamaq, elmi bir tərtibə soxmaqda Avropa türkoloqlarının keçmiş əsrlərdən başlayaraq zamanımıza qədər davam edən xidmətlərindən bu məqaləmizdə bəhs etmək niyyətində deyiliz. Çünki bu surətlə bir kaç məqalələlik və hətta ayrı bir əsərlik bir məsələyə toxunmuş və öz mövzumuzdan kənara düşmüş oluruz.

Bizim burada bəhs edəcəyimiz nəşriyyat, şübhəsiz, tam və müfəssəl olamaz. Bəzi əsərlər məqaləmizin tışında qalacağı kibi, bəziləri də bizə doğrudan-doğruya hənuz məlum deyildir.

Bizim əlimizdə bulunan böylə xalq ədəbiyyatına aid məcmuələrin birisi qırğız dilinə aid olub, 1923-cü ildə nəşr edilmişdir, "Min bir maqal" ("Bin bir məqal")[17] namını daşımaqdadır. Həqiqətən bu kitabçada bin bir dənə atalar sözü (maqal) toplanmışdır. Kitabçanın başında Nazir Turaqul olının kiçik bir müqəddiməsi vardır. Burada Turaqul olı xalq ədəbiyyatının, bilxassə atalar sözünün xəlqiyyat, ictimaiyyat və lisaniyyat üçün olan əhəmiyyətindən bəhs ediyor. Zərbi-məsəllərin özlərinə gələcək olursaq, bunlar mövzularına görə qisimlərə ayrılmışdır: "Tanrı turasında", "padça" (padşah), "kan" (xan), "molla", "adam", "quldar" (qullar), "katın", "bala"...

Şimdiyə qədər məlum olduğu kibi, xalq ədəbiyyatı dilcə, məndəricə və şəkilcə ən ziyadə zəngin və təmiz olan bir xalq var isə, o da qırğız–qazaxlardır. Bir tərəfdən, onların sayca bütün qalan türk

[17] Min bir maqal. Cinavci: Əxmət Barcaqsı balası. Ovlotdar Komissariatı qarındağı Kuneçfes Basbası. Meskev, 1925 cil, səh. 58.

xalqlarından ziyadə olmaları,[18] digər tərəfdən, islam və ümumiyyətlə, əcnəbi təsirlərindən uzaq qalmaları, köçəbə [olmaları] bu ədəbi və lisani zənginliyin başlıca səbəblərindəndir. İştə "Min bir maqal" məcmuəsində toplanmış olan zərbi-məsəllərin dili bu xüsusda çox iyi bir misal ola biliyor. Bu bin bir maqal içində on bir yabançı sözə rast gəlinməz. Sayısı az olmaqla bərabər, bu məcmuədə toplanmış olan parçalar başqa türk xalqlarının atalar sözünü öyrənirkən, əlbəttə, az-çox fayda verə biliyor.

1923 sənəsində nəşr edilən "Ertarğın" dastanı da eyni nəşriyyat idarəsi tərəfindən çıxarılmışdır.[19] Bu dastan Qarbalası tərəfindən V.V.Radlov məcmuəsindən köçürülmüşdür. Ertarğın Krıma qaçıb, Krımdan Akça xan denilən bir xanın Ak Cunis adlı qızına aşiq olub, alıb qaçmış. Bu dastanda bir çox başqa dastanların bir-birinə qarışdırıldığı duyuluyor. Karasay, Kart Koçak batırların adı keçməsi də buna dəlildir.

Kart Koçak batır bu gün də kumuklar arasında söylənməkdədir.[20] "Ertarğın"da Kart Koçak krımlı bir qəhrəman olaraq görülməkdədir. Halbuki kumuk dastanında buna dair heç bir qeyd yoxdur. Digər tərəfdən, Kart Koçak Ertarğını məğlub ediyor, halbuki kumuk dastanında Ma'sumal, yaxud Ma'suma namındakı bir çoban qızına məğlub olıyor. Sonra Kart Koçakın qəhrəmanlara yolbaşçılıq edən, nəsihətlər verən ixtiyar bir bahadır olduğu da anlaşılıyor. "Ertarğın" ilə kumuk dastanı "Kart Koçak" arasında, bizim fikrimizcə, yalnız şu beytlərdə aşağı-yuxarı birlik var.

"Ertarğın"da Kart Koçak şöylə deyir:

Men-men durman, men durman!
Mende özündey kendir men!
Menim cunum sorasan,
Kırk – san Kırım elinde,
Al asıl coker yelində,
Arğı atam er kulek.
Özüm akam Koyanak,
Koyanak ulı Kart Koçak.

[18] Sayları Aristov, J.Deni və son Şuralar İttifaqı təhriri-nüfus nəticələrinə görə, beş ilə altı milyon arasında[dır].

[19] Ertarğın, Marabay. Töz etib basmarğan: Qarbalası. Ovletdar Komissariatı qarundağı Günçeğes Basbası. Meskev, 1923 cil.

[20] Kumuk dili və ədəbiyyatı tədqiqləri, səh. 54.

Kumukcada böylə:

Mendir-mendir men,
Mendir menge seyr bermeygen erdirmen,
Kart Koçak degen bayır erdirmen.

Yaxud:

Mendir, mendir, anan ölgür, mendir men,
Kart Koçak degen sen aruvğa erdirmen.

Bu nöqtələri yer-yer qeyd edişimiz türk ədəbi yazılarının müqayisəli tədqiqində bir çox maraqlı nöqtələrin çıxacağını işarət etməkdən ibarətdir.

İkinci böylə bir əsər yenə 1923 sənəsində nəşr edilmiş olan "Kız Cibek" ("Qız İpək") dastanıdır ki, Qazanda bir çox dəfələr basılmışdır.[21]

Mövzusuna girişməkdən burada vaz keçmək məcburiyyətində olduğumuzdan yalnız şəkli xüsusiyyəti haqqında şunu deyə biliyoruz ki, "Ertarğın" və başqa qırğız-qazax parçalarından ayrılmaz.

Yenə eyni ildə, 1923-də qazax qırğızlarının namlı ədiblərindən Baytursun tərəfindən toplanaraq nəşr edilmiş olan "Ersayın"[22] namındakı dastanı zikr etməliyiz.

Burada, böylə kiçik bir məqalədə "Ersayın", "Ertarğın", "Manas" dastanları haqqında çoxdan-çox məlumat verməyə imkan bulamayaraq, yalnız "Ersayın"dan kiçik bir parça – nümunə olaraq köçürməklə iktifa edəcəyiz:

Sol noqaylı curatında,
Curtaqığa menbegen.
Tostun cerge cürmegen,
Kırlı kıyım kıymegen.
Aldağa yetli yemegen,
Bes namaz qoymağan.

[21] Kız Cibek. Cusib bek Çapıx İslam olı. Türküstan Respublikasının basbasız Nazatov Matbaesi. Taçkent, 1923 cil.

[22] Ersayın. Cazıb alıb öndəgən: Baytursun olı. Ovlatdar Komissariatı qarundağı Kuneçfes Basbası. Maskev, 1923 cil.

Bir xudaydı oynağan,
Qarabası xan bulğan.
Baylığı goratğa an bulğan,
Malı alacaqa tan bulğan,
Bozmonay attı bay bulğan.

Baylığının bilgisi:

Toqsan kara kulı bar,
Toqsan toğay malı bar.
Sol dünyədə korzor baydın,
Dünyədə calğız munı bar.
Sol Bozmonay qartayıb,
Alpıs castan öpkənçə,
Xuday koskan kosağı
Elü casqaca tekence,
Bir perzenetge zar bulğan.[23]

Gərək şəkil, gərəksə tərkib cəhətindən bu dastan parçasının başqa türk xalqlarının bu soy şeirlərindən ayrılmadığı açıqca görüliyor. Yuxarıda söylədiyimiz kibi, bu şeiri qazax cercilərindən toplamış olan Baytursun olı bu parçanı Radlovun şimal türk xalqlarının şeir nümunələri məcmuəsindəki parça ilə qarşılaşdırmağı unutmamışdır.

Yenə qazaxlara yaxın digər bir türk xalqının, qırğızların "Tamsilder"[24] namı altında 80 səhifəlik kiçik bir risaləsi nəşr olunmuşdur. Bu kitabça üç parça masalı (**басня**) özündə cəm etmişdir. Bu da Moskvada Şuralar İttifaqı Xalqlarının Nəşriyyat şöbəsində basılmışdır. Öylə görünüyor ki, bu nəşriyyat idarəsi şimdiyə qədər ədəbiyyatı geridə qalmış xalqlar üçün olduqca böyük yardımlar göstərmişdir.

Qırğız dili ilə qazax dili arasında bir çox nöqtələrdən hətta yarımşivə fərqi belə yoxdur. İştə bunun üçündür ki, qazaxlarla qırğızlar arasında bir çox ədəbi parçaların hankı xalqa aid olduğu üzərində çox dəfə

[23] Bəzi sözlər: Sol = şu, curt = yurd, menbəgen = yenməyən, cerge = yerə, cürmegen = yürüməyən, alda = əllə, bes = beş, xudaydı = xudanı, Bozmonay attı = Bozmonay adlı, mun = qayğı, qartayıb = ixtiyarlanıb, alpıs = altmış, cas = yaş, öpkənçə = keçincə, koskan kosağı = qoşan quşağı, elü = əlli, perzenet = fərzənd, övlad.

[24] Tamsilder (Qanadsu, buğdayıq, buğdayqeten toyu). Qırğız Bilim Kemesiyasının Emgegi. Masko, 1925 cil.

münaqişələr olmaqdadır. Həqiqətdə isə böylə bir davaya səbəb olacaq heç bir əsas yoxdur. Ümumiyyətlə, türk sadə dastanı (**эпос**) tərkib, tərtib, ahəng və üslubları (**мотив**) ilə bir-birinə daima bənzər. Məəttəssüf, şu saat əlimiz altında Krım və noqay dastanı və yaxud hekayələri parçaları bulunmadığından yalnız "Ersayın", "Tamsilder" və bir kumuk mühacir şərqisinin birər kiçik parçasını yan-yana düzəlim.

"Ersayın"dan:

Burunğu ötəken zamanda
Dini-müsəlman amanda.
Üç çarbaktı, üç kenitti
Noğaylı da gen curt ötdü...

"Tamsilder"dən:

Murunğu ötkün zamanda
Can-canıvar amanda.
Arkayısı cacandan batırı
Erki mene bulğundu...

Kumuk mühacir şərqisi:

Dini-padşah Əbdülməcid savında,
Urusbeçə Nikolay çağında
Sevastopol dikan qala bozuldu,
Neçə min əsgər anda tozuldu.

Böylə iki-üç sətirlik bir parçanı deyil, bütün hekayəvi və yaxud dastani əsərləri bir-birilə müqayisə etdiyimiz zaman bu həqiqət daha gözəl meydana çıxacaqdır.

Yenə xalq şeirləri sırasına keçirə biləcəyimiz qaraqırğız dilindəki nəşriyyatdan bir parça da "Seketbay" namilə 1925 sənəsində mərkəzi Borbor Xalq Mətbəəsində basılmış olan risalədir.[25] Arabay olı namındakı qaraqırğız maarifçisi tərəfindən toplanmış olan bu olduqca uzun

[25] Seketbay. Ciovçi: Arabay olı. Moskovdakı Borbor Xalq Basmaxanasında, 1925, səh. 59.

və aşiqanə şeiri "Narın o yüzündə bovğaçı Cakub bek olı Seketbay" (Yaqub bəy oğlu Seketbay) namında birisindən eşitmişdir. Bu da şəkil, vəzn və tərkib etibarilə əvvəlcə zikr etdiyimiz iki şeirdən ayrılmaz. Buna dəlil olmaq üzrə buraya bir-iki qitəsini köçürüyorum:

Doğay salam cazayın,
Söz atyamın atyayın,
Avalı murun söz atıb,
Aşqıtqatan baştayın.

Salam atyam sa ağa men,
Sanadan ketbeyi aşıq sen!
Köydürdün dalayı meni sen,
Köyütün ketbeyi içimden.[26]

Kumuk, Krım, Qazan, Anadolu... türklərində rast gətirdiyimiz bu 4+3 ölçü və "a, a, b, a" qafiyəli şəklin ümumi türk şeiri vəznlərindən olduğu burada bir kərə daha aşkar olur.

Eyni qırğız ədibi Arabay olı "Seketbay"a görə həcm etibarilə iki kərə böyük başqa bir xalq şeiri parçasını toplayıb nəşr etmişdir.

"Comukçu Nuku"[27] namını daşıyan bu parça məşhur "Semetey", yaxud "Sebetey" dastanından bir parçadır. Bunun da eyni şəkildə, vəzndə olduğunu söyləməliyiz. Eyni vəznin xalq ədəbiyyatı[ni] gözləri önündə nümunə olaraq tutan bugünkü qırğız və qazax şairləri tərəfindən əksəriyyətlə qullandığını ilərida görəcəyiz. "Comukçu Nuku"dan şu parçacığı nümunə olaraq qeyd ediyoruz:

Qoynuma qolun salnanday,
Əmçəgim qarmab alğandan,
Alasacarın men emes,
Ti ovçu carım sen emes.

[26] Doğay = dua, cazayın = yazayın, avalı murun = ilk əvvələn, aşqıtqatan = aşiqlikdən, baştayın = başlayım, sana = əql, hafizə, köydürdün = yaxdın, köyütün = yanığın, ketbeyi = getmiyor.

[27] Tenyek Comukçu Nuku. Cınağan: Arabay olı (Semeteyden bir bölüm). Basdırıçı: Qırğız Bilim Kemesyası. Masko, 1925, səh. 184.

Elesten kelgen culuvcuv,
Abcyrin menen qaytıb get.
Al aqvalın barısın,
Culd şuna aytıb get.

Birinci təcrübə olan bu məqaləmizdə daha ziyadə təfsilata girişməyərək, diqqətinizi bu münasibətlə başqa türk xalqlarının da bu xüsusdakı fəaliyyətinə çevirmək istərsək, qaraqırğızlardan, şübhəsiz, onların qomşuları olan tarançı türklərində, yaxud bugünkü tarançı gəncliyinin təbir etdiyi kibi, uyğur xalqı üzərində durmalıyız.

Xalq ədəbiyyatı parçalarını toplamaq işi uyğurlar (tarançı) arasında artıq öz meyvələrini verməyə başlamışdır. Bunlar da 1925 sənəsində "Uyğur el ədəbiyyatı" namilə olduqca böyük bir məcmuə buraxmışlardır.[28]

Şimdiyə qədər bəhs edə gəldiyimiz qırğız-qazax məcmuələrinə görə, bu uyğur məcmuəsi daha ətraflı, daha zəngin bir mündəricəyə malikdir. Burada həm epik (dastani), həm aşiqanə, həm mənsur xalq ədəbiyyatı parçaları, zərbi-məsəllər (məqallar), bilməcələr (tapışmaqlar)... girmişdir.

Tarançı şivəsi qazax-qırğız şivəsinə görə özbəkcəyə və binaən əleyh cənubi türklərə (Azərbaycan, türkmən, Anadolu...) daha ziyadə yaxındır:

Gül qönçə, gülü qönçə
Necə köydürürsən munçə.
Qeşimdə turmıdın bir dəm,
Min könlüm eçilğunçə.

Atın yaxşısı turuq,
Qızın yaxşısı uruq.
Jikitlik qılay desəm,
Putumda yoğan çuruq.

Ya o yan ötüb ketti,
Ya bu yan ötüb ketti.

[28] Uyğur el odəbiyyatı. Jevkoçılar (yığıcılar): L.Ensari, Z.Beşir, E.B.Xudeyqul. S.S.S.R. Xalqlarının Özək Nəşriyyatı. Meskev, 1925, səh. 247.

Yarımın digən sözü
Canımdın ötüb ketti.

Yar bilən baraymu men,
Yolidə qalaymu men.
Könül bemigen yanın
Könlüni alaymu men.[29]

Bu da yuxarıda qazax-qırğız parçalarında tanış olduğumuz ölçü və tərkibdən başqa bir şey deyildir.

Eyni məcmuədə, yuxarıda söylədiyimiz kibi, tapışmaq (bilməcələr) və maqal (atalar sözü) var ki, bunlar içərisində bir çoxları çox əsli, orijinal şeylərdir. Məəttəəssüf, bunlar ayrı-ayrı və müqayisəli bir surətdə şimdiyə qədər tədqiq edilməmişdir.

Taran-uyğurlara aid olaraq əlimizdə bulunan ikinci bir xalq ədəbiyyatı parçası "Nazügim" adlı məşhur faciədir. "Uyğur balası" nam müstəarilə yazan tarançı ədibin bizə verdiyi məlumata görə, tarançılar arasında bu gün də böylə iki böyük və məşhur faciəvi şeir vardır ki, bunlardan birisi "Nazügim", digəri də "Xan Leylun" adını daşımaqdadır. "Naxşı" namını daşıyan bu məqamlar doğrudan bəsitlik və səmimiliyə ayrılmaqdadır. Uyğur balası iştə bu "Nazügim" məqamını alaraq və yer-yer "Nazügim" məqamına aid şeirlərlə yaraşdıraraq olduqca şeiri bir ifadə və ictimai mündəricə ilə bir hekayə meydana çıxarmışdır.[30]

Bundan da oxuyucumuz üçün şimdilik yalnız xarakteristik bir parçacığı köçürməklə kifayətləniyoruz:

Altay bakdım quyuknı,
Bir görmidim uyuknı.
Quyçı bulmas er erdim,
Quyçı qıldın sən nazük!

[29] Bəzi sözlər: yeme = nə üçün, köydürürsən = yaxıyorsan, munçə = bunca, qeşimdə = qarşımda, turuq = turu (at), uruq = arıq, jikitlik = igidlik, yoğan = yavan, çuruq = çarıq, o yan = o yana, bu yan = bu yana, ötüb = keçib, baraymu men = varımmı, bemigen = verməyən, yanın = yarın.

[30] Nazügim. Uyğur balası (taran-uyğur turmuşidən elnağan faciəlik tarixi milli hekayədir). Джетисуйское Гос. издательство.

Doqnı bilmas ər irdim,
Doqçı qıldın sən nazik!
Qaynab toğan qaynamğa,
Qarmaq silib bakkan yok.
Altay yürüb armanda,
Bir böyükni görgən yok.
Tal böyükni kürüşkə,
Quyçı akan armanda.
"Nazükim!"den istəydü,
Dərtlik könül arkanda.

Yaxud:

Tağdan tüşkən saf sunı
Süzüb içər ər barmu?
Nazük başqa mun tüşdi
İlib qaçar ər barmu?
Qayna vatkan qazanğa
Çomuş salsa, bulurmu?
Beklər yatur qoynumda,
Kafir yatsa, bulurmu?
Nazük yarım amanmu?
Aykak dostum eytsənçu!
Nazük yarın amandu,
Süyünçənni besənçü![31]

Eyni məsəldə və eyni qüvvətdə şərqi də "Tokkuz bayar" namı altında Krım türklərində vardır.

Buradan oxuyucumuzu tarançı dilinə, şivəsinə ən ziyadə yaxın digər bir şivəyə, özbəkcəyə götürə billəriz. Burada şimdiyə qədər eyni yolda göstərilən fəaliyyət özbəklərin əski ədəbi qüvvətlərilə münasibət olmasa da, hər halda başqa türk-tatar xalqlarının ədəbi fəaliyyətlərindən heç də aşağı deyildir.

Xalq ədəbiyyatı təməlində ədəbi və şeiri əsərlər meydana qoymuş olan son dövr türk-tatar şairlərindən ayrıca bir az sonra bəhs edəcə-

[31] Bəzi sözlər: toğan // torğan = dövran, silib = salıb, tal böyükni = dal fidan boyunu, aka = ağa, dost, dərtlik = dərdli, mun = ev, həsrət, qoy = qoyun, duk = hüzn, ələm, ilib = alıb, çomuş // çumuç = keyçə, aykak = xəbərçi, sirdaş (ayğaqçı), eytsənçu! = desənə! süyünçə = müjdə, gözaydın, besənçü! = dursana! arğan = qayğı.

yimizdən şimdilik yalnız bəzi xalq ədəbiyyatı tədqiqi yolunda ortaya çıxarılan əsərlərdən bəhs etməliyiz.

Özbək eşulə və ləpərləri gərək dil və gərəksə mündəricə cəhətindən qazax, qırğız və tarançı xalq ədəbi parçalarından az-çox ayrılıyor. Özbəklərdə yazılı ədəbiyyatın təsiri ayrım-açıq görülməkdədir. Bunun səbəbi də olduqca bəsitdir. Özbəklər arasında, bilxassə şəhərlərdə, əski cığatay və yeni özbək ədəbi parçalarını, şeirlərini yırlamayan, söyləməyən sazəndə və yaxud xanəndə pək azdır. Buna bir çox yerlərin ikidilli (fars, türk) olduğu da əlavə olunacaq olursa, məsələ daha ziyadə aydınlaşır. Bununla bərabər, özbək xalq ədəbiyyatı hər cəhətcə qazax xalq ədəbiyyatından az zəngin olmasa gərəkdir. Bu xüsusda özbək maarifçilərindən Qazi Alim Yunus arxadaşımızın əlində olduqca bol və qiymətli material bulunsa da, şimdiyə qədər yalnız ufaq bir risalədən başqa bir şey meydana çıxmamışdır. Bu da Qulam Zəfəri ilə M.Yunusa aiddir.

Bu "Eşulələr"[32] namını daşıyan 69 səhifədən ibarət risalədə 40 parça müxtəlif şeirlər alınmışdır. Bu şərqilərin ən əskisi toplayıcıların göstərməsindən anlaşılan 1904–1905 sənələrindən qalmadır. Toplayıcılar risalənin sonuna əlavə etdikləri cədvəldə 24-ə qədər şərqinin hankı münasibətlə və hankı tarançılardan düzüldüyünü qeyd etmişlərdir.

Bu eşulələr daha ziyadə, təbir caizsə, şəhərli xalqın ədəbi parçalarıdır. Bunlar bizim Krım, Azərbaycan, Türkiyə və Tatarıstan kibi şəhərlərdə oturan türklərdə rast gətirdiyimiz şərqi və yaxud türkilərdən bir çox cəhətlərdən heç də ayrılmazlar.

Məlum olduğu üzrə, bu soy xalq şərqiləri daha ziyadə qulağı yazılı[33] ədəbiyyata alışmış, təbir caizsə, "qulaq ziyalıları", yəni xanəndə, sazəndə, xülasə əsnaf ədəbiyyatçıları tərəfindən yazılıyor ki, kəndli, köylü və köçəbə xalqların daha safdil, daha sadə və daha az dəyişən parçalarından əvvəlkiləri, şəhər şərqilərini ayırmaq hər zaman mümkündür. Dildə olduğu kibi, ədəbiyyatda da şəhərdən nə qədər uzağa gedilsə, o qədər saf və eyni zamanda əski ədəbi parçalara rast gəliniyor. İştə bunun üçündür ki, İstanbul, Səmərqənd, Bakı, Qazan... kibi

[32] "El ədəbiyyatında eşulələr" bolçı. Birinci bölək. Yığıcıları: Qulam Zəfəri, M.Yunus. Uzbek Devlet Neşriyyatı. Taşkent, 1925 yıl.

[33] Yəqin ki, şifahi (*tərtibçi*).

mərkəzlərdə həman hər il yeni şərqilər törədiyi halda, qazax-qırğız köçəbələri, kumuk, qaraçay, noqay... köyləri bir kaç yüz il əvvəlki ədəbi mövzular və şəkilləri saxlamaqdadır. Bundan hər hankı bir növün digərindən üstün olduğu nəticəsi çıxarılamaz.

Köylü xalq ədəbiyyatı bizə daha ziyadə əski qiymətləri – gərək dil, gərək şəkil etibarilə – verdiyi halda, şəhər xalq ədəbiyyatı əksəriyyən gözümüz önündə olub-keçən vəq'ələrin xalqda oyandırdığı duyğularla bizi tanış edər.

İştə Uzbek Bilim Kengeşi – elmi şurasının təşəbbüsilə nəşr edilən bu parçalarda 1905-dən 1920-yə qədər Türküstanda olub-keçən təbii (Əndican zəlzələsi), siyasi (1919 Xokand vəq'əsi, 1920-ci ildə Hacı Həmdəmin şuralar hökumətinə ilticası) vəq'ələrin əsas alındığını da görüyoruz. Bu soy şərqilərdə tədqiqə və diqqətə layiq mühüm cəhətlərdən birisi də bunların ölkə-ölkə, şəhər-şəhər dolaşması və bu dolaşmalar əsnasında uğradıqları dürlü dəyişmələrdir. Məsələn, bu kiçik risalədə qeyd olunan şərqilərdən "Xan oyunu" şərqisini alacaq olursaq, eyni şəkildə və eyni təşbehlərlə yalnız təbii yerli şivədə, Krımda tatarlarda "Ey tatar qızı", qaratyimlərdə "Ey karal, karay kızı" şəklində bulunduğunu biliyoruz.

Burada "Xan oyunu"ndan[34] bir-iki parça alıyoruz:

Qaşınnı qara dedilər, dana ökəm, yar, yar,
qaraqaş ökəm yar, yar!
Görsət qaşınnı, min görəyin, qunduzqaş ökəm
yar, yar!
Qaşlarnı görüb nə qılarsız, siz eke canım,
yar, yar!
Qaldırğaçının qanatını görməbəmidiniz, yar, yar!
Nəqqaşlarnın qələmlərin görməbəmidiniz, yar, yar!.. ilax.

Eyni surətlə "Eşulələr" məcmuəsində "Gül oyun"[35] namı altında başqa bir şərqi daha buluyoruz ki, bu da bir çox türk xalqlarında eyni məsəl və lakin başqa şəkildə qaraçay-balkar, kumuk, Azərbaycan türklərində bu gün də vardır. Vilhelm Prohle **(Wilhelm Prohle)**

[34] Eşulələr, № 25, səh. 40.

[35] Yenə orada, № 28, səh. 45.

Mühərririn hər hankı bir dedi-qodunu böylə şəklə tökməsi, əlbəttə, buynuzlu xətalardan sayılmaq lazım gəldiyi kibi, nə tərcümə edənin

və nə də kitabı nəşr edən **"Книга"** şirkətinin özündən bu xüsusda bir şey əlavə etməməsi də əvf olunacaq ehmallardan deyildir.

Türkiyə maarifi haqqında mühərrir bəlli-başlı heç bir fikir bəyan etməmişdir. Türkiyədə ibtidai məktəbləri üçün Qur'andan başqa dərslik bulunmadığı yenə mübaliğədir.

Lirau kitabını bu sözlərlə bitirməkdədir: "Antanta üçün (halbuki eyni zamanda Almaniya üçün də böylə!) Lozan konfransı Şərqdəki nüfuzunu qeyb etmək deməkdir". Lirau bir alman zabiti olaraq, Almaniyanı bu cümləyə keçirir. Liraunun kitabına görə, Türkiyənin halhazırdakı əhalisi on beş ilə on altı milyon arasındadır.

2. İ.Y.Butayevin kitabına gələcək olursaq, burada Türkiyə işlərinə daha ziyadə aşina və Şərq ictimai və iqtisadi hadisələrini daha ziyadə qavrayan bir qələmlə tanış oluruz. Butayev əsərini yeddi şöbəyə təqsim etmişdir: 1) Türkiyədə təbii təsərrüfat **(Натур. хозяйство)** əsasının yıxılması, kənd təsərrüfatı münasibətləri, 2) Türkiyənin iqtisadi inkişafı və imperializm, 3) Türkiyə 1908 sənəsi inqilabına qədər milli hərəkatın əsas nöqtələri, 4) Müsəlman Şərqində və Türkiyədə milli quruluş hərəkatının başlıca üsulları və vasitələri, 5) Milli quruluş hərəkatının mənşəyi və inkişafı, 6) Milli dövlət təşkili – cümhuriyyət, 7) Türkiyədə və Şərqdə milli inqilabın gələcəyi.

Bir də müqəddimə əlavə olunmuşdur.

Kitabın bu şöbələrindən və Türkiyə məsələsinin bu surətlə tədqiq olunmasından mühərririn az-çox bişkinliyi və ictimai diaqnoz üsuluna aşina olduğu görülə bilir.

Butayev kitabının müqəddiməsində: "Türkiyə milli kapitalizm yoluna girdi", – deməklə bugünkü Türkiyəni anlamaq üçün ən doğru və qəti olan təməl fikrini ortaya qoyur. Mühərrir burada üşr, vəqf və cümhuriyyətin elanı nöqtələrində durulduqdan sonra Cahan müharibəsinə qədər, Cahan müharibəsində Türkiyə və yaxud Yaxın Şərq məsələsinin beynəlmiləl vəziyyət və siyasətdə oynadığı rolu olduqca müfəssəl surətdə izah edir. Bir tərəfdən, Türkiyəni parçalamaq, digər tərəfdən, Türkiyənin tamamiyyət mülkəsini saxlamaq **("L' inteqrite de l' Empire Ottoman")** şüarını ortaya ataraq, böyük Avropa dövlətlərinin oynadığı ikiüzlü siyasəti göstərir. Cahan və qurtuluş müharibələrini kəndlilərin öz omuzlarında daşıdığını ayrıca göstərir. Bu münasibətlə Türkiyənin bugünkü əhalisi üzərində duraraq, şəhərlərdə üç milyon, kəndlərdə beş milyon məcmunu, bugünkü Türkiyədə səkkiz

milyon xalq yaşadığını söyləyir. Demək ki, Liraunun göstərdiyi rəqəmlə Butayevin verdiyi rəqəm arasında yeddi-səkkiz milyonluq qədər bir fərq bulunur. Yeni Türkiyədə təhriri-nüfus olmadıqca bu xüsusda qəti və doğru bir fikir etmək mümkün deyildir. Bundan sonra Butayev türk intelligentsiyasını və onun başlıca ideallarını (panislamizm, pantürkizm və milli qurtuluş) təhlil edir. Butayev yeni Türkiyənin üç xarakteristik cizgisini təsbit edir: "Türkiyə xarici imperiializm və daxili feodalizm hücumlarına qalib gəldi" (106) və "Milli burjua dövlətini meydana gətirdi" (130).

Şərqdə və Türkiyədə milli inqilabın gələcəyi haqqında Butayev bu fikirdədir: "Şərqdə, ümumiyyətlə, Qərbin istilasından doğan proletariat və inqilabiləşən kəndli sinifləri milli burjuaziyaya görə daha tez və daha ziyadə inkişaf etməkdədir. Binaən əleyh çox varmaz, Şərqdəki milli inqilabı sinfi və ictimai inqilab təqib edəcəkdir" (213).

Kitaba əski şablona uyaraq, Türkiyəni xarakteristik tərəfindən heç də göstərməyən dərviş-filan rəsmləri qonulmuşdur. Sonunda yeni Türkiyə xəritəsi vardır.

3. Astaxovun kitabı, özünün etiraf etdiyi kibi, daha ziyadə onun Türkiyədə aldığı intiba və təəssürləri ehtiva etməkdədir. Bununla bərabər, əsər olduqca qiymətlidir. Mühərririn İzmirdəki iqtisadi konqre və liberallar ilə mühafizəkarların mücadiləsi, Türkiyədə işçi hərəkatı, nəhayət, ə'şar və Anadolu kəndliləri, mollaları haqqındakı təəssürləri bu əsəri ləzzətlə oxunacaq bir kitab halına gətirir. Bu qısa tanışlıq ilə oxuyucumuza bu kitabların maraqlılığı və faydalılığı haqqında qəti və açıq bir fikir verə bilər və bu əsərləri ayrı-ayrı tövsiyə etmək zəhmətindən bizi qurtarır, – ümidindəyiz.

"Maarif və mədəniyyət", № 9(32), 1926, səh. 46-47.

SİMURQUN HEKAYƏLƏRİ

Anadolu türklərini bir kənara buraxacaq olursaq, inqilaba qədər öz mənsur ədəbiyyatını ən ziyadə işləyən türk xalqı, şübhəsiz, qazanlılar idi. İnqilabdan sonra burada, Qazanda yenə bir çox mənsur parçalar, hekayələr, romanlar meydana çıxdı. Bunlar içində bin doqquz yüz sənəsində nəşr olunan "Bizin günlər" (Qalimcan İbrahimov, birinci

qisim), bin doqquz yüz iyirmi üçdə nəşr olunan "Edil" (Qali Rəhim) romanlarını Qazan tatarlarından göstərə bildiyimiz kibi, özbəklərdən A.Qadirin "Ötkən günlər" ("Keçmiş günlər")ini zikr edə biliriz. Bu sonuncusu bin doqquz yüz beşinci ildə Daşkənddə nəşr olunmuşdur. Bundan başqa, yenə Qalimcan İbrahimovun bin doqquz yüz iyirmi dördüncü ildə Moskva S.S.S.R. Xalqlarının Mərkəzi Nəşriyyatı tərəfindən "Qazan qızı" namındakı romanı çıxarıldığını da əlavə etməliyiz. Şübhəsiz, bunlardan başqa da bir çox hekayələr gərək ayrı-ayrı risalə şəklində, gərəksə, felyeton biçimində qəzetələrdə nəşr olunmuş və olunmaqdadır. Lakin, zənnimizcə, başcıları bunlardır.

Azərbaycana gələcək olursaq, burada daha ziyadə şeir və teatro pyesləri modadır. Bilxassə teatroçuluq və pyesçilik Azərbaycanın ədəbi xüsusiyyətlərindən birisi ola gəlmişdir. Bin doqquz yüz on doqquzuncu sənəyə qədər oyanma dövrümüzü təşkil edən fəaliyyətdə Qazan Qəyyum Nasirisi, yəni dil və məktəb kitabları, Krım Qasprinskisi, yəni qəzetə və üsuli-cədidilə iştirak etdiyi halda, Azərbaycan bu mədəni konsertə Fətəli Axundovu və başlıca teatrosu ilə girişmişdi. Bununla Azərbaycanda teatro, pyesdən başqa bir şey olmadığını demək istəmədiyimiz oxuyucuya açıqdır, – ümidindəyiz. Məqsədimiz maarif və mədəniyyət meydanlarımızda hər ölkədə daha ziyadə gözə çarpan, adətən bir xüsusiyyət təşkil edən cəhətlərə diqqəti cəlb etməkdir. Nasıl ki, Qasprinskidən bəhs emələ Azərbaycan və Qazan mətbuatını inkar etməyiriz.

Hər halda Simurqun bu il, bin doqquz yüz iyirmi altıda dörd risalə şəklində buraxılan yeddi kiçik hekayəsi keçən bin doqquz yüz iyirmi beş sənəsi bütün bir kampaniya şəklində başlayan ədəbi cərəyan, ədəbi məslək münaqişələrinə zimni bir cavab təşkil etmək etibarilə, bizcə, diqqətəlayiqdir.

Əvvəla, mövzu cəhətilə alacaq olursaq, bu hekayəciklərin bugünkü məişətimizdən və onun təzadlarından çıxarıldığı anlaşılır. Bunlarda dini mövhumat ilə mədəni oyanma, köhnə-əski yaşayış ilə yeni həyat, kəndli, ağa və bazirgan arasındakı çarpışmalarının dürlü şəkillərindən ibarətdir.

Mühərrir bu hekayələrində hələlik heç bir yeni mövzu yaratmamışdır. Bütün bu məsələlər "Əkinçi", "Tərcüman", "Molla Nəsrəddin" səhifələrində, bilxassə bin doqquz yüz on yeddinci sənədən, oktyabr inqilabından sonra daimi surətdə, hər gün qarşımızda dikilib duran mövzular olmuşdur.

"Kommunist" qəzetəsinin "Azərbaycan qəzalarında" şöbəsini oxuyanlar bu mövzuların daha kəndlərdə, qəzalarda, Bakının özündə bir çox ailələrdə canlı şaniyyət halında yaşadığını bilirlər. Madam ki böylədir, yeni mövzu yaratmağa hacət varmı?

Biz hənuz fanatizm, patriarxalizm (pədərşahi), feodalizm dünyası ilə çarpışırkən istiqbal haqqında rəml atmaq xəyalı və simvolik tiplər və mövzular yaratmaq, bir tərəfdən, mümkün, digər tərəfdən, lüzumlu deyildir.

Bu mövzuların işlənməsinə gəldikdə, Simurq, denilə bilir ki, burada böyük müvəffəqiyyət göstərmişdir:

1) Tiplər, şəxslər mücərrəd olaraq alınmamış, bəlkə, iqtisadi vəziyyət, görənək, adət və ənənələrin bu şəxsləri kukla kibi oynatdığı açıqca göstərilmişdir. Məsələn, "Çətin müəmma" hekayəsində ikiarvadlılığın kəndlinin təsərrüfat və məişəti ilə bağlı cəhəti təsvir edilir. "Aldanmış ümid"də mütəəssib Kərbəlayı Fərzəlinin qızını bolşevik Heydərə verməsindəki maddi və konkret ümidləri bir neçə qələm cizgisilə pək sadə və təbii surətdə təhlil edilir. "Əzab qorxusu"nda kəndin birisində pək gözəl işləyən savad məktəbinin birdən-birə dağılması heç də heyrət edilməyəcək surətdə beş-on sətir içində izah edilir.

Vəlhasil, mühərrir hər məsələdə baş səbəbi, əsasi amili bulub çıxarır, bununla oxuyucusunda heç bir şübhə buraxmır. Daha ziyadə üqəlalıq yapıb, daha dərin və incə səbəblərə getməyə, daha dərin təhlillər etməyə heç də hacət yox. Mübaliğəli xəyallara qarışan məcaz və təşbehlərə yer yox.

2) Vəq'ələrin cərəyan etdiyi mühiti də mühərrir diqqətindən uzaqlaşdırmır. Həyati anları, etnoqrafik nöqtələri, ənənəvi şəkilləri yerində və canlı olaraq verir. "Ağanın kənizi"ndə Kərbəlayı Xəlilin teleqrafı oxuması, Məşədi Mürsəlin geri dönməsi, istiqbal (qarşılama) məclisləri... başlıca lövhələri ilə təsvir edilir.

3) Şəkil cəhətindən hekayə tərzini qəbul etməsilə mühərrir olduqca böyük isabət etmişdir. Müfəssəl intiqal şəkli olaraq hekayə yeganə mümkün olan çıxışdır.

4) Dil cəhətindən Simurqun dili prozsuz deyildir. Sözlər üzərində dayanmadığı, onları seçib-çarpışdırıb oturmadığı görülür. Bunun üçün "Günün axır şəfəqləri ahəstəcəsinə ləpələnən suya düşüb", "Axır-üləmr paraxod çatdı", "Bir çox yelkənli və yelkənsiz lodkalar görü-

nürdü", "Hamısı əhvali-pərişan olıyor"... kibi sözlərə və söz qruplarına rast gəliriz. Lakin, ümumiyyətlə, mühərrir qısa cümlələri tərcih etmək surətilə mövzusuna uyğun oxuyucusuna yaxın düşmüşdür. Beş-on sözü keçən cümlələri çox azdır. Bu surətlə söz bulmaqda əksəriyyət sadə türkcə və yaxud türkcəyə girmiş, hər kəsə bəlli ərəb və fars sözlərilə məramını anlatmaqda güclük çəkməmişdir. Bir çox mühərrirlərin arayıb da bulamadıqları Azərbaycan ədəbi dilini Simurq öz hekayələri üçün tapa bilmişdir. Bu dil kəndli ilə şəhərlinin, ziyalı ilə savadsızın başa düşəcəyi bir dildir.

Söylədiklərimizi xülasə edəcək olursaq, bizim ədəbi dövrümüzü və bunun başlıca cizgilərini bu hekayələr münasibətilə də təsbit etmək olur:

1) Bizim üçün ən doğru, ən sağlam və ətrafımızdakı yaşayışilə bizi bağlaya biləcək ədəbi məslək realizmdir.

2) Şəkil və dil etibarilə və sadə dil, yəni məlum ədəbi qəlibə tökülmüş və məhəlli rəngə batırılmış, təbir caizsə, "kənd müəllimi dili" bizim üçün ən məqbul, ən canlı ədəbi əsərləri verə bilir.

3) Xalq həyatını psixolojik süzgəcdən keçirərək, geniş kütlələr arasında yayıla biləcək, təsir yapacaq, qısası, dar ədəbiyyatımızın çərçivələrini genişlədəcək bir ədəbi cərəyan və ədəbi həyat doğurmaq zamanımızda mümkündür.

Volqaboyu türklərində M.Qafurinin "Yarlılar", Tataroğlunun "İyirminci əsrdə bəzəngilər", Daşməhəmməd (N.Əmirxan)ın "Fətulla həzrətin ölkəç tirilovi" kibi hekayələri ilə müqayisə edildikdə Simurq hekayələrinin daha hankı cəhətlərdən diqqətəlayiq olduğu anlaşılır. Tənqidimizin mövzusu olan hekayələr bunlardır:

1) Son. Dərd. Əza qorxusu (iki hekayə biryerdə otuz bir səhifə).

2) Ağanın kənizi (otuz səhifə).

3) Aldanmış ümid. Çətin müəmma (iki hekayə biryerdə otuz bir səhifə).

4) Yox! Məşədi Qədimin evində bədbəxtlik (iki hekayə biryerdə otuz səkkiz səhifə).

Bütün bu kitabçalar "Ümumxalq kütübxanəsi" serisi altında bin doqquz yüz iyirmi altıncı sənəsində Azərbaycan Dövləti Nəşriyyat İdarəsi – Azərnəşr tərəfindən çıxarılmışdır.

"Maarif və mədəniyyət", № 10-11, 1926, səh. 61-62.

VİLHELM TOMSEN

Vilhelm Tomsenin vəfatı türkoloji elmi üçün böyük bir ziya'dır. Çünki Vilhelm Tomsen gərək Avropa və gərəksə Rusiya türkoloqlarının pişvası idi. Bilxassə Vilhelm Tomsenin vəfatından sonra Tomsenin fəaliyyəti və xidməti, onun bir çox Avropa şərqşünasları üçün yapdığı rəhbərlik, əsərlərilə – gərək mündəricə və gərəksə üsul etibarilə – göstərdiyi nümunələr daha ziyadə qiymətlənmiş, hər kəs üçün daha ziyadə zəruri olmuşdu. Tomsenin ölüm ili türkoloji sahəsində şərəfli və bütün elm aləmi üçün faydalı və maraqlı kəşflərlə dolu olan və on doqquzuncu əsrin ikinci yarısından başlayan bir dövr qapanır.

Tomsenin elmi fəaliyyətinə keçmədən əvvəl onun bioqrafisindən bəzi nöqtələri qeyd etməliyiz.

Vilhelm Lüdviq Peter Tomsen 1846 sənəsində Daniyada Kopenhaq şəhərində doğulmuşdur. 1867-ci ildə artıq gənc alim olaraq Rusiya və Finlandiyaya səyahət edir və bu səyahətin nəticəsində "Fin-lap dilinə qot-german dilinin təsiri" namilə bilaxirə almancaya tərcümə edilmiş olan qiymətli əsərini yazıyor. Əski german dilinin fin dilinə təsirinin izlərini göstərmək, kəşf etmək gərək mədəniyyət tarixi, gərəksə lisaniyyat nöqteyi-nəzərindən çox qiymətli sayılırdı.

Bir az sonra onun Kopenhaq Darülfünununda oxuduğu mühazirələr Danimarkada ümumi lisaniyyatın inkişafına fövqəladə böyük xidmət etdi. 1876-cı ildə Tomsen Oksford Darülfünununa çağırılaraq orada mühazirələr oxuyur və bu mühazirələr əsnasında bir çox yeni məsələlər ortaya atdığı kibi, əvvəlcə ortaya atılmışlarından bir çoxunu çözməyə müvəffəq oluyor. Bu arada Rusiyanın skandinaviyalılar tərəfindən təsis edildiyi nəzəriyyəsi ləhinə yeni dəlillər gətirir. Eyni surətlə 1891-ci ildə Tomsen Baltik və fin dillərinin təmas nöqtələri haqqında həman bütün hind-Avropa lisançılarının nəzər-diqqətini cəlb edən qiymətli bir əsər daha meydana qoymuşdur. Həyatının birinci dövrü adlandıra biləcəyimiz zaman içində Tomsen Avropanın birinci sinif lisançıları mərtəbəsinə vasil olmuş idi.

1893-cü il gərək Tomsenin ömründə və gərəksə bütün türkoloji aləmində yeni bir dövrün başlanğıcını təşkil eləyir. Çünki bu il XII əsrdən bəri bütün ziyarətçi və səyyahlara məchullar aləmindən bir nişanə olaraq duran Orxon kitabələrinin həlli, yəni oxunması yenə bu mükəmməl Daniya lisançısı Tomsenə müyəssər olmuşdur.

Moğolustanın şimalında Selenqa nəhrinin bir qolu olan Orxon çayının kənarında bulunan və başlıca üç abidədən ibarət olan bu kitabələr, bir tərəfdən, türk-tatar dilinin inkişafı, digər tərəfdən, eyni xalqın təqribən bin üç yüz il əski tarixi həyatı, ictimai qurumu haqqında məlumat verməsi dolayısilə deyil, yalnız türk-tatar xalqlarının öz tarixləri, bəlkə, bütün mədəniyyət tarixi üçün əhəmiyyəti haizdir.

Tomsen 1893 sənəsində Danimarka Akademisi bülletenində 14 səhifəlik bir məqalədə türkoloq və qeyri-türkoloq lisançıları həman yarım əsrdən bəri maraqlandıran, məşğul edən ədəbiyyat, lisan və tarix vəsiqələrini hər kəsin anlayacağı bir surətdə həll edilmiş əlifbası, mükəmməl surətdə tərcümə edilmiş mətni ilə elmə, insaniyyətə hədiyyə eləmişdir. Lisaniyyat sistemalı bir elm olaraq meydana çıxalıdan bəri bu sahədə Tomsen kibi ancaq bir-iki kaşif zühur eləyə bilmişdir.

Tomsenin sözün dar mənasında türkoloq olduğu halda qazandığı bu müvəffəqiyyət ancaq Avropa lisaniyyatının son üsulilə çalışa bilməsi sayəsində olmuşdur. Bunun üçün Tomsenin bu kəşfi hər zaman bütün türkoloqlar üçün nümunə xidməti görə bilər. İyi, elmi bir üsula sahib olmayan bir müdəqqiq, nə qədər məlumatlı olursa-olsun, tədqiqlərində böyük bir müvəffəqiyyətə nail olamaz.

Tomsenin xeyirli əlilə açılan Orxon tədqiqatı sahəsində indiyədək yenə Avropa alimləri tərəfindən beş yüzdən artıq ayrı əsər və məqalələr yazılmışdır. Demək olur ki, iyirminci əsrin birinci çərikində Avropa türkoloqları, lisançıları başlıca məsələ olaraq ancaq Orxon kitabələri ilə uğraşmışlardır.[51]

Tomsen Orxon kitabələrinin kəşfindən sonra uyğur dili haqqında mühüm lisani bir məsələni izah eləyən digər bir məqalə daha nəşr etmişdir ki, "Uyğur dilində samitələr sistemi" namını daşıyan bu məqaləsində Tomsen akademik Radlovun bu xüsusdakı fikir və nəzəriyyələrini şübhə edilməyəcək surətdə izah və şərh eləmişdir.

Bundan sonra Turfanda bulunan Orxon yazılı səhifə-kitabələr haqqındakı fikrini izah edən əsərini 1910-cu ildə və "Tursika" namilə Orxon kitabələrində bəzi məna və məfhumu açıq surətdə məlum olmayan nöqtələr haqqında bəzi yeni izahatı havi risaləsini 1916-da nəşr eləmişdir. Tomsenin türkoloji sahəsindəki fəaliyyəti[ni] bu əsərlərilə xitama alırlar.

[51] "Maarif və mədəniyyət" məcmuəsinin keçmiş nüsxələrində Orxon kitabələrindən bəhs olunmuşdur

İyirminci illərdə Tomsen Transilvaniyada bulunmuş bəzi runik yazılarla yazılı qablar və kitabələri həll etməyə uğraşırdı. Bu işin nəticəsi nərəyə vardığı bənə, məəttəəssüf, məlum deyildir.

Tomsenin, oxucu gördüyü kibi, bioqrafisi də çox zəngin deyildir. Onun həyatında uzun səyahətlər, Şərqin bugünkü həyatı ilə əlaqədar fikirlər və yazılar görmürük. Onun əsərləri Avropa dövlətlərinin Şərq siyasəti sahəsində mənfi-müsbət heç bir şey ifadə etmədiyi üçünmünədir, başdan bəri Avropa mətbuatı onu sükutla keçişdirdi.

Türkoloji sahəsini on birinci əsrdən, bir kərə də birinci miladi əsrə qədər genişləndirdiyi və bunun ilə, məsələn, Vamberi kibi türkoloqlardan bir kaç qat ziyadə xidmət və əmək sərf etdiyi halda, Avropanın "gündəlik şərqiyyatçıları" Tomsenin çalışması və müvəffəqiyyətlərini o qədər hesaba almadılar. Tomsenin ölməsilə türk mədəniyyəti tədqiqatının birinci dövrəsi qapanır.

Tomsenin əsərləri diqqətlə oxunduqda bizim üçün şu iki qiymətli nəticə çıxır:

1. Son Avropa elmi üsullarını öyrənmədikcə öz xalqını tədqiq edə bilməzsin.

2. Öz mədəniyyətini ayrı, xüsusi bir şey olaraq deyil, bəlkə, ümumi, insani mədəniyyətin bir parçası olaraq aldığın təqdirdə anlar və izah edə bilərsin.

Mükəmməl ümumi lisaniyyat üsuluna malik olub, türkcə bilmədiyi halda, türklərin ən çətin yazı və dil məsələlərini çözə bilən danimarkalı Tomsenin fəaliyyətindən bizim üçün çıxarılacaq üsuli və elmi nəticə özgə cür ola bilməz.

Orxon kitabələri 1300 il yaşayıb gəlmişsə, elm fənərini dünyanın ən qaranlıq guşələrinə qədər çevirib məchulları məlun eləyən, bütün insanlığın bilgisini artdıran tomsenlər əbədi olaraq yaşayacaqdır.

"Maarif və mədəniyyət", № 6, 1927, səh. 36-37.

YENİ ƏLİFBA VƏ TÜRK DİLİ

İyirminci əsrdə təbii təsərrüfat dövründən çıxmış, şüurlu və planlı surətdə öz gələcək işçi və köylü mədəniyyətini qurmağa doğru gedən bir xalq olmağa çalışırız. Təsərrüfatımız şəhərdə, kənddə əski ərəb və Bizans, bir sözlə Yaxın Şərq çərçivəsindən çıxıb Avropa iqtisa-

diyyatının ən son, ən yeni prinsip və təməlləri üzərinə kollektiv istehsalı və istehlak əsaslarına qurulur. Şuralar İttifaqı içində yaşayan türk-tatar xalqları getdikcə sosializm və kollektivizm əsasları üzərində bina edilmiş təsərrüfat və məişətə girir.

Əsnafçılıq, dərəbəylik bütün kölgələrilə bərabər aləmimizdən çəkilib getməkdədir. Dəvə karvanları, əski İran, ərəb, Çin, hind aləmilə iqtisadi şərait və maddi mədəniyyətcə bizim artıq alıb-verəcəyimiz yoxdur. Biz artıq sinfi təşkilatı bənimsəmiş, ictimai inqilab cərəyanına qatılmış yeni Şərq xalqlarındanız.

Bu kibi əsaslar üzərinə qurulmuş maddi, iqtisadi mədəniyyətə sahib olan xalqa ayrı, keçmişdəkindən büsbütün başqa ictimai şəkillər, alətlər lazımdır.

On doqquzuncu əsrin başlarına qədər təbii şərtlərin kor təsiri altından, dar coğrafi qazanlar, vadilər içindən çıxmayan türk-tatar xalqları üçün bu gün, yuxarıda bir-iki sözlə qeyd etdiyimiz səbəblərdən dolayı, tamamilə başqa ictimai ehtiyacların təmini lazım və zəruri olur.

Bu ictimai ehtiyaclar cədvəlinin başında "dil məsələsi" durur. Dil işlənmiş, şüurlu və sinfi surətdə yenə insanların özləri tərəfindən ikmal edilən, yaradılan dil ilə quşların ötməsi, uşağın ağlaması, quzuların mələməsi kibi şüursuz təbii surətdə danışılan dil arasındakı böyük fərqi qeyd etmək gərəkdir. Heyvanların pək azı çıxarılacaq olarsa, özlərinə məxsus ifadə, anlatma yolları olduğu hər kəsə məlumdur.

Mədəni və ictimai cəhətdən inkişaf etmiş xalqların dilləri hər şeydən əvvəl istehsal alətlərindən böyük və qüdrətli ictimai bağlardan birisi olaraq alınmalıdır. Dili bu mənasında, yuxarıda dediyimiz kibi, insan özü yaradır, yaxud başqa sözlərlə deyəcək olsaq, insan cəmiyyətlərinin inkişafı meydana gətirir. Burada nə üzviyyətin, fərdi psixoloji anların, nə də coğrafi şərtlərin birinci əhəmiyyəti yoxdur. Burada ancaq istehsal münasibətləri və istehsal ətrafında vüquya gələn ictimai təbəqələşmənin üzərində durmalıdır. Bu mənada və bu kibi yanaşmada ortaya çıxan dil məsələsi dərin və geniş ictimai məsələlərdən birisidir.

Türk-tatar xalqlarında da dil məsələsi bu gün zəruri istehsal alətlərindən birisi olaraq aranıldığından bu məsələyə yalnız türk ədib, şair və lisançılarının məsələsi kibi laqeyd baxmaq qabil deyildir. Bizə nə kibi bir dil lazımdır? Bizim üçün bulunacaq dil bu ehtiyaclara qarşılıq, cavab ola bilməlidir:

1. İstehsal və iş növlərini, istehsal əməliyyələrinin bütün şəkillərini qeyd edə bilməlidir.

2. Geniş kütlələrin bir-birinə bağlanmasına xidmət edə bilməlidir.

3. Ən son mədəni və ictimai qazancları əks etdirən bir dil olmalıdır.

Bu üç nöqtəni bir formul içində yığmaq lazım gəlsə, bizə əsrləşdirilmiş yüksək mədəni bir xalq dili lazımdır, – deyə biləriz.

Şübhəsizdir ki, bu gün artıq lüzumsuz olan təbir və təkərləmələrlə dolu sxolastika dilinin bizə heç bir surətlə gərəyi yoxdur.

Çoxdan bəri bu ehtiyacı duymuş olan türk-tatar alimləri "Dilimizi ərəb və fars ünsürlərindən təmizləmək lazımdır!" – şüarını ortaya atmışlardı.

Bu şüarın hədəf və məqsədi yuxarıda qeyd etdiyimiz əsaslara dilimizi yaxşılaşdırmaq olub, yoxsa bəzi "maziçilərimizin" anladığı kibi ərəb və fars dillərinə qarşı olan nifrət deyildir. Ərəb və fars dili daha orta əsrlər zehniyyətinin ifadə aləti qalığı, bəqiyyəsi olaraq bizim üçün lüzumsuz, ölmüş və cansızdır. Əgər bu dillərdə müəyyən qiymətlərin, canlı müəssisələrin işarət və inkişafları olsaydı, şübhəsiz, heç kimsə yuxarıdakı şüarı ortaya atmazdı. İmdi bir əsrə yaxın bir müddətdir ki, bu şüar hər yerdə təkrar olunur. Bu yolda bir addım olaraq ancaq Türkiyədə ərəb və fars tərkiblərinin ortadan qaldırılması, özgə məmləkətlərdən, məhəlli şivələrdən alınmış bəzi sözlərin yenə əski ərəb-fars üslubu içərisinə qarışdırılması çarəsini tapdılar. Dilimiz bu şüarın ortaya atılmasından sonra, bəzi yeni ədəbi şivələr müstəsna edilir isə, yenə də ərəbləşmək və farslaşmaqda davam etdi.

Ərəbləşmə və farslaşmanın, təkrar ediriz, dilimizin orta əsrlərə doğru qayıtmasının qarşısına keçmək üçün olduqca ciddi və yaradıcı bir tədbir lazımdı. Bu tədbir də dilimizi, türkcəni hər şeydən əvvəl bütün xüsusiyyətləri ilə təsbit edə biləcək bir yazı sistemi ola bilərdi. Bunun üçün də uzun zamanlardan bəri duyulan bu ehtiyacı təsviyə edə biləcək, bu tədbiri təmsil edə biləcək çıxış olaraq ərəb əlifbasının dilimizə uydurularaq islahı, yaxud tamamilə yeni bir yazı sisteminin meydana gətirilməsi məsələləri ortaya sürüldü və beş-altı illik münaqişə və münaziələrdən sonra Şuralar İttifaqı içində yaşayan türk-tatar xalqları tərəfindən dilimiz üçün ərəb əlifbasına görə tamamilə yeni bir yazı sistemi olan latın əlifbası əsasında tərtib olunmuş "yeni türk əlifbası" qəbul edildi. Bu vəq'ənin bir neçə cəhətlərdən dərin tarixi mənada əhəmiyyəti vardır:

1. Dilimiz ərəb-fars dillərilə olan alış-verişini bitirmiş olur.

Oxucu bu nöqtəni oxuyaraq şübhəyə düşə bilər, çünki bu gün daha yeni əlifba bütün mətbuat və nəşriyyatımızı qaplayıb, ərəb əlifbasını tamamilə meydandan sürümədiyindən yeni əlifbadan gözlədiyimiz və gözləyə biləcəyimiz bu təsir və nəticə özünü göstərə bilmir.

Məmləkətimizdə yalnız yeni əlifba qullanılan, işlədilən dövrəyə çatsaq, yuxarıda göstərdiyimiz nəticəni pək tez əldə edə biləcəyiz.

2. İndiyə qədər ən adi təzahürlərinə qədər, "müqəddəs" olaraq tanınmış olan ərəb əlifbası yerinə, tamamilə dünyəvi və iş bitirməkdən başqa məziyyəti olmayan əməli bir yazı sisteminin qəbul edilməsi əski Şərq zehniyyətinin baltalanması yolunda atılan böyük və əhəmiyyətli addımlardan birisidir.

Ərəb əlifbası birinci dərəcədə dini əlifba və məscid əlifbası idi. Bilxassə savadsız xələflərin nəzərində o, göydən enmiş[dir].

On doqquzuncu əsrin sonlarına doğru Qasprinski üsulu-cədid qovğalarını qaldırdığı zaman o vaxta qədər əlifba içərisində bulunmayan پ , چ , ژ hərflərinin əlavəsi təklif olunmuşdu. Buna qarşı Qazan mollalarından birisi ayrı bir risalə yazaraq isbat edirdi ki, bu hərflər ərəb əlifbasının başqa hərfləri kibi göydən düşmədiyindən müsəlmanlar tərəfindən qullanılamaz!

Yeni əlifbanı burada mücərrəd bir yazı sistemi olaraq aldıq. Bu mənada yuxarıdakı faydalarından, yaxud obyektiv surətdə deyəcək olsaq, verəcəyi nəticələrdən başqa bir neçə yoldaşların bu xüsusdakı şübhəsinə rəğmən biz qəti surətdə inanırız ki, yeni əlifba bizi Avropaya, Qərbə yaxlaşdırır!

On doqquzuncu əsrin ortalarından bəri başlanan yeni əlifba cərəyanı nəyi təmsil edir? Türk-tatar xalqlarında zehniyyət başqalığını, yaxud dəyişməsini göstərmirmi? İctimai həyatda heç bir dəyişmə yoxdur ki, yalnız texniki əhəmiyyəti olsun. Texnika meydanında olan dəyişmələrin yalnız texniki əhəmiyyəti olmayıb, bəlkə, səbəbləri və nəticələri etibarilə dərin ictimai kökləri vardır.

Yeni əlifbanın qəbulu ilə bütün mollalar, axundlar və vəlhüsül, əski mədrəsə meyvələri "savadsız", "qiymətsiz", "əməldən saqit!" elan olundu. Bu texniki məsələmidir? Bir az sonrakı sətirlərimizdən də görüləcəyi vəchlə, ərəb əlifbası ilə dilimiz arasında olan münasibət yeni əlifba ilə tamamilə başqa dürlü oldu. Bu da texniki məsələmi? Yox, bu fikirdə olanlar qəti açıq surətdə yanılırlar.

Yeni əlifba üçün yeni zehniyyət, yeni aləm, yeni maddi mədəniyyət lazımdır. Bunlar da ortada olmalı ki, yeni əlifba sıcaq-soyuq, uzaq-yaxın bütün ölkələrdə qalib gəldi.

Yeni əlifba dilimizin mükəmməl bir fotoqraf aləti yerindədir. Bu əlifba eyni zamanda dilimizin, mühərrirlərimizin dil və üslublarını da mükəmməl surətdə əks etdirir. Hətta mühərririn yazdığı sözləri düzgün oxuyub-oxumadığını da pək gözəl göstərir.

Yeni əlifba həyatımıza yalnız girmək üzrə bulunur. Yeni əlifbanı tam mənasilə lisani və mədəni bir alət halına gətirə bilmək üçün onun üzərində məntiqi, elmi və daimi surətdə çalışmaq lazımdır.

Birinci növbədə yeni əlifba ilə dilimizin münasibətini intizam altına çəkməliyiz. Yeni əlifba ilə türk dili arasındakı münasibət ancaq imla məsələsinin lazımi qədər həll edilməsilə təyin olunur. Əsasən imla özü dil ilə yazını, əlifbanı bir-birinə bağlamaq deməkdir.

Bəzi yoldaşlar deyirlər ki, ərəb əlifbası yaxşı, lakin bu əlifbanın tədris üsulları çürük[dür]! Sxolastikanı laboratoriya üsulilə tədris etməklə sxolastikalıqdan çıxarmı? Eyni surətlə onun əlifbası üçün də bu düzdür. Lakin yeni işlənmədiyi təqdirdə özündən bəklənən faydanı verməyə bilər. Bunun qarşısına keçmək bu gün üçün ancaq imla məsələsini həll etməklə qabil ola bilər.

İmla yeni əlifbanı təshih etmək deyildir, bəlkə, dilimizin sistem altına alınıb, yeni əlifba vasitəsilə bu sistemin təsbitidir. Bunun üçün də hər şeydən əvvəl dilimiz doğru söyləmə, yəni ədəbi əsaslarını meydana çıxarmalıdır. Azərbaycanda bu xüsusda bir neçə cərəyanlar mövcud olduğu halda, doğru söyləmə təməllərini, bizim fikrimizcə, bunların heç birisi verə bilməz. Məqsəd bu cərəyanlardan birisini əsas almaqla bərabər, digərlərilə olan ümumi nöqtələrini qeyd etməkdir. Bu surətlə, bir tərəfdən, həm dilə ümumi bir istiqamət verilmiş olar, həm də doğru yazma üçün lazım gələn olduqca qüvvətli əsaslar tapılmış olar.

Bütün mədəni, yəni əlifbalı və yazılı xalqların dilləri ilə əlifbaları arasındakı münasibəti nəzərdən keçirdiyimiz zaman bu münasibətin beş prinsip üzərində durduğunu görürüz: 1) tarixi, 2) əcnəbi sözlər, 3) təxalüf, 4) şəkilli, iştiqaqi, 5) sövti.

Bu prinsiplərdən burada təfsilinə imkan bulamadığımız səbəblərdən dolayı bizim üçün ancaq dördüncü və beşinci prinsiplər və bir dərəcəyə qədər ikinci prinsip lazım olacaqdır.

Sövti prinsip ilə əlifbamızı canlı kütləvi dilə yaxınlaşdırmış olduq və bu sayədə biz çürük əcnəbi təsirlərdən qurtardıq. Lakin əlifbamızın müəyyən sistemə malik dövləti, ictimai və iqtisadi bir amil ola bilməsi üçün onu dilimizin qanunlarına, şəkilli və iştiqaqi xüsusiyyətlərinə uydurmaq, bu surətlə mümkün olan anarşinin önünə keçmək lazımdır. Dilimizə elmi, fənni bir çox yeni Avropa istilahları girməkdə bulunduğundan bunların müəyyən sistem və imla altında bulunmasını təmin etmək lazımdır.

Hələ bu istilahlar üçün bizdə müəyyən bir sistem, bir şəkil yoxdur.

Birisi "psixoloji", o biri "psixologiya [...] ... ilax. deyir. Başqa əcnəbi şəkillərdə üç-dörd dürlü qullanılır.

Yeni əlifba məsələsinin mənşəyi, inkişaf tarixi – bilxassə Azərbaycanda! – həman cümləyə məlum olduğundan bu nöqtələr üzərində təkrar olmaq qorxusilə durmağa hacət görmədik. Yalnız dil və əlifba yapıcılığındakı xətti-hərəkətimizi və növbəti planımızı şu surətlə xülasə edə bilərik: 1) yeni əlifbanın qəbulu; 2) yeni əlifba projelərinin birləşdirilməsi; 3) yeni əlifba ilə dilimizin münasibətini qəti surətdə təyin eləmək, imla məsələsinin həll edilməsi; 4) istilah məsələsi.

Bu gün qarşımızda duran məsələlər təqribən bunlardan ibarətdir. Məqaləmizin başında da söylədiyimiz kibi, əsrimizdəki iqtisadi-ictimai inkişafımıza uyğun əlverişli əlifbanı tapdıq. Artıq bütün ictimai ehtiyaclarımızı təmin edə biləcək dili yaratmaq lazımdır. İndiyə qədər təbii, işlənməmiş bir surətdə yaşayıb gələn ibtidai vəziyyətdəki dilimiz bizim üçün ancaq hərəkət nöqtəsidir.

Orta əsrlərdə bu dil üzərində yapılan əməliyyat, işlənmələr bizim üçün müsbət bir sərmayə, faydalı bir yekun verə bilər.

Özünün əl toxunulmamış təbii zənginliklərə malik yurdunu işləməyə qonulmuş və oktyabr inqilabının on ili içində dev addımlarilə ilərilləyən bir təsərrüfat sistemi makinası qurub çıxarmış işçi və kəndlilər qəsidələrdə istemal olunan yarimmədəni-yarımvəhşi dildən mükəmməl bir mədəniyyət vasitəsi, möhtəşəm ictimai bir müəssisə, müsbət və faydalı bir iş aləti doğurmalıdırlar. Bu da yeni əlifba ilə yazılan yeni türk dili olacaqdır.

"Maarif və mədəniyyət", №12 (48), 1927, səh. 37-38.

OKTYABR VƏ TÜRK-TATAR ƏDƏBİYYATI

Oktyabr dövründə türk-tatar ədəbiyyatı həm şəkil, həm məzmun, həm də inkişaf istiqaməti cəhətindən əski ədəbiyyatımıza görə böyük dəyişmələrə üğradı. Keçən 1926-cı ildə "Maarif və mədəniyyət" məcmuəsinə əlavə olaraq nəşr olunan "Ədəbi parçalar"da, "Ədəbiyyatımızda yeni qiymətlər" ünvanı altında oktyabr dövründə ədəbi sahəmizdə yaradılan bəzi qiymətlərdən bəhs eləmişdik. Bu məqaləmizdə də oktyabr dövründə doğan bütün ədəbiyyatı qavramaq, hətta burada gətirəcəyimiz bütün bədii nümunələrin tam təhlil və xarakteristikini vermək heç bir surətlə olamayacaqdır. Bu kibi bir təhlilə girişmək üçün oktyabr inqilabından əvvəl və sonrakı türk-tatar xalqlarının məişət və ictimaiyyatı üzərində müfəssəl, ciddi surətdə, yəni faktlar və dokumentlərlə durmaq, ən mühümü də yeni rus ədəbiyyatı ilə ədəbiyyatımız arasındakı bağı tapmaq lazım gələcəkdir. Bizim məqaləmiz isə daha ziyadə türk-tatar xalqlarının oktyabr dövrünə məxsus ədəbiyyatında bulunan ümumi cizgilərdən, ümumi xarakteristikadan o taya keçəməyəcəkdir. Bu xarakteristikaya da bütün türk-tatar xalqlarının ədəbi fəaliyyəti deyil, bəlkə, yalnız, bizim fikrimizcə, bir neçə başlıca bədii nümunələr daxil olacaqdır.

Şəkil

Şeirin tışından içinə doğru təbii hərəkətlə yürüyəcək olsaq, görürüz ki, oktyabr inqilabından sonra həman bütün türk-tatar xalqlarında xalq şeir ölçü və şəkilləri ədəbiyyatda qəti surətdə birləşir. Türkiyədə, məlum olduğu üzrə, vəzn davası artıq bir əsri doldurur. Bundan sonra da "xalq vəzni"nin qəti surətdə yerləşdiyini görmürüz. Bizdə, Şuralar İttifaqı türk-tatarlarında vəzn qovğası heç olmadı, – desək, yanılmarız. Cahan miqyasında əhəmiyyəti olan ictimai və iqtisadi fırtınaların sərpindisi bizdə hər hankı bir münəqqidin kəskin qələmindən daha aydın və açıq surətdə bu məsələni həll etdi, keçdi.

Bəzi gözəgörünür türk-tatar şairlərindən nümunələr gətirəlim:

Qazan tatar şairi Fəthi Burnaşovdan ("Tatar briqadası kommunarlarına"):

Tavlar mindin... qarlar yürdün...
Qumdan səhra keçdin sin.
Dəhşət suların içdin sin,
Can əzabın çəkdin sin...
Yalanlardan, səhralardan
Aylar, yıllar getdin sin...
Kommunar qabasun
Biləsəkmi barasın?
Nik yarasın yel dalasın,
Qarab tonın qarasın?

Yaxud Nəqi Yesenbetdən:

Birinci may

Dəngir ötdü, yulduz öpdü,
Yesdi citdi tak cili:
– Ey çirəmlər, gül çeçəklər,
Soyununuz beyrəm, – dedi.
Görləniz, tibrəniz siz,
Bu birinci may dedi.
Başqa yulduzlar içində
Tik bu beyrəm, ey – dedi.

Krım şairi Cavtubəlidən:

Cavtubədir toğan Krım,
Carlı tatar əsli soyum.
Babam-dədəm sabançıdır,
Qeyri bizə yabançıdır.

Başqurd şairi Bayiçdən:

Appaq altun carlar məni, carlamım danlıq üçün,
Cülmin altun yetimçün öz toğan xalqım öçin.

Özbək şairi Çolpandan:

Çəm türük, şavqunlamak
Uyqu içində ol pəri.
Yorma tik tur, ey Şamal,
Yorsak da yorur ez nəri.

Gögdə bir top qız – mələk
Uyqu köyünü başladı.
Elkəri çalğan yetərək,
Canlı göyünü taşladı.

Bu misalları istənildiyi qədər tapmaq mümkündür. Oxucu bu qısa parçaları ölçü – vəzn cəhətindən tədqiq etdikdə burada bütün türk-tatar ellərində məlum və məqbul olan "yeddili", yəni hecalı ölçünü tapacaqdır. Dürlü yerlərdə dürlü adlar qazanan bu ölçüdəki şeirlər, şərqilər Azərbaycanda "bayatı" ümumi namını daşıyırlar. Professor Kovalskinin dediyi kibi, on birli ilə bərabər, yeddili türk-tatar şeirinin ən qədim və ən ümumi ölçülərindəndir.

Yeni türk-tatar şairlərinin xalqdan aldıqları yalnız vəzn deyildir. Onlar bütün dillərini xalqdan aldıqları kibi, hər biri öz istedad və iqtidarına görə xalq şeirlərinin incəliklərini də şeirləri içərisinə nəql edir. Bunlarla türklərin xalq şairi Məhəmməd Əmin arasında mündəricəyə gəlmədən, şəkilcə də böyük-böyük fərqlər tapmaq mümkündür. Şəkil məsələsi şeirdə, ümumiyyətlə ədəbiyyatın bütün növlərində məsələnin vəziyyətinə, qonuluşuna görə, həm əhəmiyyətli, həm də əhəmiyyətsiz məsələdir. Lakin şəklin, şəkli ənənələrin ədəbiyyatda daima müəyyən mənası vardır ki, buna baxaraq şairin mündəricəsini, ideolojisini həman hər zaman təyin eləmək mümkündür. Hətta şəkildən başqa heç bir şey tanımaq istəməyən formalistlərin də ictimai tipləri marksizm üsulilə çalışan ədəbiyyatçıya aydındır. Ən əski dövrlərdən alaraq ədəbi şəkillərin təkamülünü təqib eləsək, sxematik surətdə üç vəziyyət görə biliriz. Şəkil ilə mündəricə bir-birinə uyur. Bu halda ədəbi əsər tam bişkin və mükəmməl olaraq doğmuş olur. Yaxud mündəricə şəkil üzərində hakim olur. Şairin şəkildən ziyadə mündəricəyə əhəmiyyət verdiyi görülür ki, bu hal ictimai cərəyanların ümumi hakimiyyətə gəlmələri dövründə olur. Nəhayət, şair

məndəricədən ziyadə şəklə əhəmiyyət verir. Sükunət və təkamül halında davam edən ictimai quruluşda birinci halı, inqilabi dövrlərdə iki sonrakı halı görürük.

Yuxarıda gətirdiyimiz misallar yalnız vəzn nöqteyi-nəzərindən deyil, eyni zamanda bugünkü şeirimizin bütün şəkli mahiyyətini göstərmək cəhətindən xalq ədəbiyyatının təsiri altına düşür. Bu geriləməmi, irəiləməmi? Bu cəhətdən bu kibi sualla məsələyə yaxınlaşmaq doğru deyildir. Azərbaycanın vəzifəsi öz sahəsindəki hadisələri iqtisadi, ictimai və şair cəhətlərindən görüb, onları doğuran səbəb və amilləri təyin edə bilməkdir. Bu hadisələrə irəiləmə, yaxud geriləmə nöqteyi-nəzərindən qiymət biçmək ikinci dərəcədə bir məsələdir. Türkiyədə indiyə qədər xalq ədəbiyyatının şəkilləri, məlum xalq vəzni çıxarılacaq olursa, yazılı ədəbiyyata keçə bilmədi. Çünki türk kiçik burjuazisi kəndli ilə bağlı deyildi. Bu təbəqənin özünəməxsus ədəbiyyatı olmayıb, "saray ədəbiyyatı"nın qırıntıları, qalıqları ilə keçinirdi. Məşhur şərqiyyatçılardan İqnatis Kunoşun İstanbuldan yığdığı və bir çox parçalarından bu kiçik burjuaziyə məxsus olan ədəbi məcmuə bu xüsusda az-çox açıq bir fikir verə bilər. Burjuazi ədəbiyyatı isə, görünür ki, əski feodal ədəbiyyatının yıxınları üzərində və Avropa burjua ədəbiyyatının nümunələrinə uyğunlaraq, hətta onun ruhilə qurulacaqdır.

Bizdə, Şuralar İttifaqında yaşayan türk-tatar xalqlarında vəziyyət tamamilə başqa idi. Özbəkistan və Azərbaycan bir dərəcəyə qədər çıxarılacaq olursa, bizdə burjuazi kəndli ədəbiyyatı ilə keçinirdi.

Tatarıstanda, Qazaxıstanda, Krımda... hakim olan ədəbiyyat artıq on doqquzuncu əsrin əvvəllərindən başlayan kəndli xalq ədəbiyyatı idi.

Azərbaycanda eyni surətlə on doqquzuncu əsrin ortalarında Fətəli Axundovun pyeslərilə canlı xalq dili ədəbiyyata girdi, zamanımıza qədər təsirini qaib etmədən gəldi isə də, Əli bəy Hüseynzadələrlə iyirminci əsrin ibtidalarında özünü göstərən istanbulçuluq Sabirə qədər şeirdə xalqçılıq cərəyanının tanınmış ədəbi bir yol olmasına mümaniət göstərdi.

Geniş mənasında şəkli və Sabir, Tokay, Kazak... kibi dürlü türk-tatar ölkələrində yetişən şairlərdə rast gətirdiyimiz məndəricəsi ilə ədəbiyyat bizdə hər zaman xalqçı ola gəldi. Bugünkü proletar şairləri bir çox ölkələrdə şəkilcə daha kəndli ədəbiyyatı dairəsində bulunurlarsa, gənc oktyabr ədəbiyyatımızda bu yalnız başlanğıc dövrüdür.

Ədəbiyyatımız inqilabi yolda irəilədikcə, yüksəldikcə, şübhəsiz, özünə daha mükəmməl şəkli əsaslar və təcəllilər tapacaqdır.

Burada oxucu üçün bilinməsi lazım olan nöqtə budur ki, bu şəkli kəndçilik təsadüfi deyildir. Məqaləmizin başında zikr etdiyimiz kibi, Azərbaycan da daxil olmaq üzrə həman bütün ölkələrdə böyük hərarətlə xalq ədəbiyyatı nümunələri nəşr olunmaqdadır. O surətlə bu gün şeirdə, yaxud ədəbiyyatda çalışmaq üçün əlinə qələm alan mühərrirlərimiz qarşısında nümunə olaraq xalq ədəbiyyatı parçaları durur. Əski klassik ədəbiyyatımızın nümunələri ancaq bəzi pərəstişkarların xüsusi kütübxanələrində qalmışdır. Bunun xeyirli nəticəsi qüruni-vüstai ərəb-fars ədəbiyyatı təqlidçiliyindən qurtulmamızdır. Xalq ədəbiyyatı şəkillərinə şairlərimizi sövq edən ümdə amil, şübhəsiz, oktyabrdır ki, məqaləmizin başında da qeyd edilmişdi. Bu gün dar qruppa dərnəklərin şairləri bizdə yaşaya bilməz. Bizim ədəbi ölçümüz şəhərlə kəndi bağlayan dəmiryol stansionunda qurulmuşdur. Şairimiz proletar şəhərindən aldığı ilhamı kəndli şəklinə büründürərək nəql eləməlidir. Geniş Şuralar İttifaqındakı cavan şairlərimiz bu surətlə hərəkət edirlər.

Məndəricə

Şəkli cəhətdən oktyabr dövrünün şairləri böyük əksəriyyətində xalq ədəbiyyatı nümunələrini təqlid və təmsil edirlərsə də, məndəricə cəhətindən onların əsərlərilə xalq ədəbiyyatı parçaları arasında böyük ayrılıqlar vardır.

Əvvəla, məlum olduğu üzrə, xalq ədəbiyyatı parçaları mövzusuz olurlar. Halbuki dövrümüzün şairləri, müstəsnasız deyə bilərik ki, çox aydın və müəyyən mövzulara malikdirlər.

Ümumiyyətlə alındıqda biz bu şairlərdə şu mövzuları tapırıq:

1) işçi və kəndli həyatının təsviri;
2) oktyabr inqilabının şüarları;
3) əski şairlərlə mübarizə;
4) sərqin və türk-tatar xalqlarının gerilikləri;
5) öz inqilabi fəaliyyətləri;
6) şəxsi təəssürləri.

Təbii, bütün mövzuları bunlardan ibarət deyildir. İçlərində daha əski mövzuları təkrar edənlər də yox deyildir. Bu nöqtədən bütün ölkələrin şairlərini, hətta bir ölkənin ayrı-ayrı şairlərini bir-birinə

bənzətmək doğru deyilsə də, bizim bu məqalədəki məqsədimiz bir-iki cizgilə bir dövr olaraq, daha özündən bəhs edilmədən oktyabr ədəbiyyatının ana xətləri haqqında bir neçə söz buraxmaqdan ibarətdir. Gənc şairlərimizin birinci addımı əksəriyyən təsvirçilik ilə başlar. Bu başlanğıc cavan şairlər üçün çox əlverişlidir və şairin öz işinə ciddi surətdə verildiyini göstərir. Bu şairin həyatı öyrənməkdə olduğuna əlamətdir. Oxucumuzu, bəlkə, anlamadığı şivələrdən gətirilən misallarla yormaqdan isə, bu təsvirlərin mövzusunu bir-iki sözlə qeyd eləmək kifayət edər.

Bunların təsvirlərində artıq Tokayın "Tivençi"si, Tofiq Fikrətin "Ramazan sədəqəsi" kibi şeylər yoxdur. Bunlar "bədbin", "ağlayan" şairlər deyil, ümid və qüdrətlə dolu və qafiyə ilə yazan işçi, ciddi inqilabçı gənclərdir. Onlar Süleyman Rüstəmzadənin ağzilə deyirlər:

İmdi yeni, gənc şairəm, keçmişi unutum,
Yoxluqları buraxaraq, varlıqlara üz tutum.

Bənimsədim sevə-sevə öz elimin dilini,
Aşiq kimi şən sazımın dilləndirdim telini.

Yeni həyat güldü, dərin yaralarım sağaldı,
Ürəyimə sevinc doldu, ələmlərim yoxaldı.

Yeni həyat başlayırkən üzümüzə gülməyə
Keçdim bütün varlığımla bən ələmdən nəşəyə.

Könlüm gülər, şeirim gülər, həyat gülər, el gülər,
Sevinclərlə çırpınaraq sazımdakı tel gülər.

Eyni ruhla, eyni qüvvətlə Süleyman Rüstəmzadədən binlərcə verst uzaqda qırğız şairi də "ələmdən nəş'əyə" dəvət edir. Qırğız şairlərindən Kasım Tenestanov yazır:

Oyan casdar, oyan casdar,
Karab catıba, göründi aç!
Sal ayaqdı ayrı adamda
Omtıl endi, alfa bas!

Col görsəbət bilim çaç!
Col görsəbət bilim çaç!
Açıq cözbən "şad könül" mən
Qovançıqa cancın tas!

Onlardakı bu nəşəni həyatın daha dözülməyən, ələmli lövhələri də izalə edəmir. Bin doqquz yüz beş dövrü şairlərimizin sevimli və ələmli mövzusu olan "yurdsuz çocuğu" onlar müəyyən təkliflə qarşılayırlar:

Acı ruzgarları durub dinləmə,
Yaxma fəryadınla ürəkciyimi.
Tiyanlar altında yatma, inləmə,
Səni bəkləyirkən çocuq evləri...

Onların qeyd ediləcək cizgilərindən birisi də əhatə konsepsiyalarındakı genişlikdir. Onlar yalnız öz məhəllələrini bilən, öz gölləri içində üzən şairlər deyildirlər. Bu xüsusda, bizim fikrimizcə, böyük müvəffəqiyyətlər göstərən oktyabr şairi Nazim Hikmətdir. "Maarif və mədəniyyət" məcmuəsinin builki seriyasının 6-cı nömrəsində nəşr olunan "İyirminci əsrin sərgüzəşti", 3-cü nömrəsindəki "Odivar", 1-2-ci nömrəsindəki "Ustamızın ölümü", doqquzuncu nömrəsindəki "Neftə doğru" şeirləri ilə Nazim Hikmət yeni, avropai şəkilləri, orijinal bir qüvvətlə inqilabi mövzulara tətbiq etməkdə indiyə qədər bir çox gənc şairlərimizdə görülməmiş bir müvəffəqiyyət və məharət göstərir.

Mündəricə etibarilə oktyabr dövrü şairlərimiz xalq ədəbiyyatından başlamaqla bərabər, bu ədəbiyyatı on il içində div addımları ilə ilərilətdilər. Bir az daha iləri gedildikdən sonra lirizm və şeir şəkillərindən əksərisinin qurtulub ədəbiyyatı daha qüvvətli ictimai amil və daha kəskin "fotoqraf apparatı" halına gətirən daha ciddi və məsuliyyətli ədəbi növlər də icad eləməyə, məsələn, teatro səhnələrimizdə, hekayəçilik, romançılıq sahələrində özlərini göstərməyə başlayacaqlardır.

Bu sonuncu sahələrdə Qalimcan İbrahimovun, Simurqun, son zamanlarda Azərnəşr tərəfindən çox sevimli və realist hekayə və pyesləri ortaya çıxmaqda olan ixtiyar ədiblərimizdən Əbdürrəhim bəy Haqverdiyevin əsərlərindən başqa, bəlli-başlı mühüm yer tutan ədəbi materialımız yoxdur.

Bizdə oktyabr şairləri daha on yaşlarını belə dolduramadılar. Onlar bir az daha yüksəlsələr, şübhəsiz, beynəlmiləl ədəbi şəkillərdə, beynəlmiləl məsələlər ətrafında əbədi tiplər, ölməz qiymətlər yarada biləcəklərdir. "Ələmdən nəş'əyə", "yoxluqdan varlığa" gedən bu yola tənqidçi, daha çox vaxt təşviqçi, təbrikçi və bununla bərabər, əlindən gəldiyi qədər yol göstərici olaraq yardım eləməlidir.

"Maarif və mədəniyyət", № 10-11 (45-46), 1927, səh. 59-61.

TÜRKCƏ SƏRF VƏ NƏHV İSTİLAHLARI

Hər nə qədər son pedaqoji cərəyanları, ümumiyyətlə, istilahlara, bilxassə sərf və nəhv istilahlarına qarşı qüvvətli bir nifrət doğurmuşsa da, bu hərəkəti qismən haqsız, qismən də bizim türkcə sərf və nəhv istilahlarımız üçün qeyri-varid saya biliriz.

Birinci dərəcə məktəblərin ən aşağı qruppalarında belə, az-çox sərf və nəhv istilahlarına ehtiyac vardır. Bunun üçün bu istilahları birinci dərəcə məktəblərin dərslikləri nöqteyi-nəzərindən də tədqiq və təftiş, ən mühümü, tərtib və icad etmək zəruridir.

Qismən varid deyildir, – dedik, çünki bizim türk dilinə uyğun sərf və nəhv kitabımız və dilimizin müxtəlif xüsusiyyətlərini gərək oxuyucuların və gərəksə tələbələrin hafizəsində təsbit edə biləcək istilahlarımız varmıdır? Dil üzərində müşahidə və dərsliksiz oxutma prinsiplərini birinci dərəcə məktəblərin başlanğıc qruppaları üçün qəbul etsək belə, ikinci dərəcə məktəblərdə və birincilərin son qruppalarında sərfə və sərf istilahlarına olan ehtiyac hər kəsə məlumdur. Əsasən dil üzərində müşahidə yapan müəllim, yaxud rəhbər bu müşahidələrdən müəyyən nəticələrə, yekunlara qədər var eləmək və bu yekunları uşaqların zehnində təsbit eləyə bilmək üçün yenə də istilahlara möhtacdır.

Vasili Kippius, Peşkovski, Derjavin kibi söylədiyimiz prinsiplər üzərinə sərf yazmış olan mühərrirlərin əsərlərində işin ən sonu istilahları bəllətməyə varıb-çıxması bu fikrimizi bir qat daha qəviləşdirir.

Digər tərəfdən, bir çox mütəxəssis Avropa lisançılarının etibarilə sabitdir ki, türk-tatar dillərinin xüsusiyyətlərini izah və qeyd etmək işində qarşımıza çıxan ən böyük maneələrdən birisi də bu dillərin mahiyyət və səciyyəsinə uyğun və yaxın olmayan istilahlardır.

* * *

Dilimiz gərək Şərqdə, gərəksə Qərbdə əcnəbilər üçün yazılmış sərflərlə tədqiq edilməyə başlamışdır. Şərqdə birinci türk sərfçisi Mahmud Kaşqari əsərini ərəbcə və ərəblərə türkcəni öyrətmək niyyətilə yazmışdır. Bunun arxasından gələn Əbu Həyyan əl-Qərnati, Cəmaləddin ibn əl-Mühənna, Məhəmməd bin Qeys kibi müəlliflər də eyni yoldan və eyni məqsədlə getmişlərdir.

Bunlarda türk sözləri "əs-salim", "əl-müzaif", "şülasi", "rübai"... kibi siniflərə bölünmüşdür.[52]

Qərbdə də **Holdmanne, Meninski, Viguier** kibi lisançılar tərəfindən on səkkizinci əsrin başlarında və sonlarında yazılan sərf-nəhv kitablarında da Avropa dillərinin, fransız, latın ... sərf istilahları türkcəyə tətbiq olunmuş və bundan sonra zamanımıza qədər türk dilinin sərf və nəhv məsələlərilə uğraşan alimlər eyni istilahları qullanmaqda geri durmamışlardır.

XIX əsrin ortalarında cənub, sonlarında şimal türkləri üçün yazılan Cövdət və Fuadın və Qəyyum Nasirinin sərf və nəhv kitablarında da ərəb istilahları bəzi ufaq dəyişdirmələrlə qullanılmağa başlamışdır.[53] Halbuki bu istilahlar iqtisadi təşəkkülata malik olan dilimizə təşəkkülatları etibarilə yabançı olan dillərə məxsus olduqları üçün bu dilin bünyəsinə tamamilə uyğun sayılamaz.

Bundan başqa, ərəb istilahları üsul və əsasları etibarilə tamamilə əskimiş olan keçmiş əsrlər lisaniyyatının planını əks etdirdiklərindən daha ziyadə əlverişsiz idilər.

* * *

Müxtəlif məmləkətlərin lisançıları tərəfindən duyulmuş olan bu məsələ bəzi türk-tatar ölkələrində bu gün artıq qəti mahiyyətdə bəzi təşəbbüslər doğurmuşdur. Bu cərəyan təbii olaraq ərəb-fars ədəbi dillərinin təsirindən uzaq olan ləhcələrdə başlamışdır.

---

[52] Divani-lüğatit-türk, səh. 4; Kitabü-hilyətil-insan və həlbətil-lisan, səh. 71.

[53] Mərhum Nəriman Nərimanov "Türk-Azərbaycan dilinin müxtəsər sərf və nəhvi" namilə 1899-cu sənədə Bakıda nəşr etdiyi sərf kitabçasında əsas olaraq rus terminlərini almaqla bərabər, bunları yenə ərəbcəyə tərcümə etmişdir. Eyni surətlə "Kitabü-təshilil-qəvaid" əsərini 1901-də Badkubədə nəşr etmiş Yusif Talıbzadei-Tiflisidə və 1925-ci ildə Azərnəşrin çıxardığı "Türkcə sərf-nəhv"də də istilahlar sadə olmaqla bərabər ərəbcədir.

Ədəbi dil, Qəyyum Nasiridən başlayaraq, Qazan və ümumiyyətlə, Volqaboyu xalqlarında məhəlli şivəyə keçməyə başlaması ilə məktəb kitablarında qullanılan istilahlar da bu şivədən alındı.

Öz dilində birinci dəfə sərf və nəhv istilahları düzmək təşəbbüsünü bir sistem halında Qazan-tatar ədib və lisançılarından Qalımcan İbrahimovda görüyoruz.[54]

Qalimcan İbrahimov sərf və nəhv içində həman bütün ərəb istilahlarını qaldırıb-ataraq, onların yerinə tatar dilində sərfdə təsmiyə etdiyi hadisələrin mahiyyətinə uyğun və yaxud ərəb təbirlərinin mənalarına yaxın yeni təbirlər, istilahlar uydurur.

Bundan sonra "Öz tilimizcə mükəmməl sərf-nəhv" namilə digər bir dil kitabı meydana gətirmiş olan Qabdurrəhman Sədi eyni yoldan gedərək Qalimcanın bir çox təbirlərini öz sərfində işlədir.[55]

İnqilabdan əvvəl başlayan bu cərəyan inqilabdan sonra daha ziyadə qüvvətlənir. 1919-cu ildə "Ana tili nəhvi"[56] yazan Mühyiddin Qurbanəli və Xacə Qabdulbədi, yenə eyni sənədə "Tatar tilinin qrammatikası" namilə digər bir sərf-nəhv kitabı yazan Cəmaləddin Vəlidi[57] bəzi fərqlərlə eyni terminologiyanı istemal edir.

Nəhayət, 1926-1927 sənələrində iki dəfə təb edilən "Şəkli nigizdə tatar qrammatikası"[58] namındakı əsərində Qibad Alparov bu istilahları qullanır ki, bu surətlə Qazan tatarları arasında on beş ildən bəri işlə dilə gələn bu istilahların bu dildə qəti surətdə yerləşdiyini zənn etmək mümkündür. Bu cərəyan yalnız Qazan tatarları arasında qalmayaraq, qomşu türk-tatar xalqlarına da sirayət ediyor və Qazaxıstan, Özbəkistan, Krım kibi məmləkətlərdə özünə müaqiblər buluyor. Qazan lisançılarından Baytursun ulı Ahmet özünün "Til qural" – "Dil aləti", yaxud "Dil rəhbəri" namındakı əsərində qazax dilindən, bizim fikrimizcə, daha düzgün və uyğun istilahlar düzəltməyə müvəffəq olmuşdur.[59]

Özbək ədiblərindən Fitrət "Serf-nehv" ünvanlı müxtəsər əsərində Qazan istilahlarından bəzilərini özbək tələffüzünə uyduraraq

[54] Qalimcan İbrahimov. "Tatar sərfi" və "Tatar nəhvi" namilə 1912-1914 sənələrində Qazanda nəşr edilmiş əsərləri.

[55] Müəllim Qabdurrəhman Sədi. Öz tilimizcə mükəmməl sərf-nəhv. Qazan, 1915.

[56] Mühyiddin Qurbanəli və Xacə Qabdulbədi. Ana tili nəhvi. Qazan, 1919.

[57] Cəmaləddin Vəlidi. Tatar tilinin qrammatikası. Qazan, 1919.

[58] Qibad Alparov. Şəkli nigizdə tatar qrammatikası. Qazan, birinci basması 1926, ikinci 1927.

[59] Baytursun ulı Ahmet. Til qural. I-III qisim. Orenburq, 1922-1924.

qullandığı kibi,[60] Krım müəllimlərindən Şövqi Bikturə "Tatarca sarıf va nahıv"[61] namındakı əsərindən bəzi şimal Krım ləhcəsindən sözlər də əlavə edərək, sərfin istilahlarından yenə bu əsası təqib etmişdir.

Başqurt xalqının da bu istilahları qullanmağa meyl etdiyini görüyoruz.

Bu surətlə öz dilimizdə sərf və nəhv istilahları tərtib etmək işi şimal türklərində uyğun şərtlərlə rast gəlmiş və az-çox fərqlərlə sayca on milyondan artıq türk-tatar xalqlarında bu sistem, Qazan, Qazaxıstanda olduğu kibi, ya tamamilə yerləşmişdir, yaxud Başqırdıstan, Özbəkistanda olduğu kibi, yerləşməyə başlamışdır.

* * *

Bu istilahların başlıcalarilə tanış olmaq faydadan xali deyildir. Türkcə sərf və nəhv istilahlarına möhtac olduğumuz bu dövrdə şimalda qullanılan bu istilahları tanılmaqla bu təcrübənin nə dərəcəyə qədər müvəffəqiyyətli çıxdığını və dilimizdə bu növ istilahlar yapılarkən nümunə xidmətini görüb-görəməyəcəklərini kəsdirə biləriz.

1. Qazan-tatar sərflərində qullanılan başlıca istilahlar:

a) Səs bəhsi:

avaz ("səvt" yerində), *sözönü avaz* ("saitə"), *tartınqı* ("samitə"), *bamam* ("urğu").

b) Şəkliyyat:

isim, sifət, san ("ədəd"), *fel, qoşma* ("hüruf"), *almaş* ("zəmir"), *irdəmlik, yalqızlıq* ("ismi-xass"), *köməklik* ("ismi-cins"), *tob sifət* ("simai"), *yasama sifət* ("qiyasi").

sifət dərəcələri: *adi, çağıtdıru, artıqlıq, azəstu.*

san: *tob sanlar, dərəcə sanlar, bölüm sanları, çama sanları.*

fel türləri: *buyruqlar, xəbər felləri, tördəşlər* ("müştəqat"), *şərt felləri, məsdər, barlıq* ("müsbət"), *yoxluq* ("mənfi"), *bulaçıq fellər* ("müstəqil"), *ötkən zaman* ("mazi"), *hal felləri, yardım felləri, qoşma fellər.*

qalım babı ("lazım"), *ötüm babı* ("mütəəddi"), *əməldaş babı* ("müşarikə"), *qayıtım babı* ("məchul"), *yüklətü* ("təklif").

almaşlar ("zəmirlər"): *görgözü almaşları* ("işarət zəmirləri"), *ruş almaşları* ("tərz", "şəkil").

[60] Fitret. Serf-nehv. Taşkent, 1925.

[61] Şövqi Bikture. Tatarca sarıf ve nahıv. Simferopol, 1922.

sual-bilgilə və "təyin" *tutaş* ("rəbtiyyə").

söyləkeç ("mütəkəllim"), *əndəşləkeç* ("müxatib"), *qaib.*

əhvali-isim: *iyyəlik* ("mücərrəd"), *çönüş* ("məful minh"), *yönəliş* ("məful ileyh"), *tuşum* ("məful bih"), *vaxt-üzən* ("məful fih").

c) Nəhv:

iyyə ("mübtəda"), *hökm* ("xəbər"), *iyyərçin kisnəklər* ("əczai-mütəmmimə").

2. Qazax sərf və nəhv istilahları:

dəbəs ("daviş", "sövt"), *cəkəcə* ("müfrəd"), *kubçə* ("cəm"), *zat-isim* ("isim"), *sən-isim* ("sifət"), *etis* (fel)...

əhvali-isim: *ilk calğav, yaxud ilkinev* ("mücərrəd"), *bars calğav,* yaxud *baristav* ("məful ileyh").

tabis calğav, tabıstav ("məful bih")

catıs calğav, calıstav ("məful fih")

çənəs calğav, çənəstav ("məful ənh")

söyləm ("cümlə"), *bastavuç* ("mübtəda"), *yayandavuç* ("xəbər"), *tolaqtavuç* ("mütəmmim"), *tanaşlar* ("tənqit").

3. Özbək:

tavış ("sövt"), *buğum* ("heca").

ism, söpet ("sifət"), *san* ("ədəd"), *elmaş* ("zəmir"), *fel.*

öndev ("nida"), *fel türləmələri* ("fel şəkilləri"), *birlik* ("müfrəd"), *köplük* ("cəm"), *ötkən zaman, bolğusu* ("istiqbal"), *hazırğı* (hal).

4. Krım:

səs ("sövt"), *əzgi* ("ahəng"), *ecik* ("heca").

isim, sifət, almaş ("zəmir"), *fel, sayı adı* ("ismi-ədəd"), *qoşamat* ("ədat"), *adlavcı* ("mücərrəd"), *baylavcı* ("müzaf" və "müzaf ileyh"), *tamamlavcı* ("məful bih"), *öndəvci* ("məful ileyh"), *urunlavcı* ("məful fih"), *başlavcı* ("məful ənh").

almaş: 1) *şəxs,* 2) *görkəzü,* 3) *sifatlav,* 4) *bəlgiləv,* 5) *sorav* ("sual").

dinləvci ("müxatib"), *söyləvci* ("mütəkəllim"), *qaib.*

zaman: *ötkən* ("mazi"), *ötəyatqan* ("hal"), *ötəcək* ("müstəqbəl").

* * *

Oxuyucuya bəhs etdiyimiz sistem haqqında müxtəsər bir fikir verə bilmək üçün yalnız bəzi mühümcə istilahları zikr etməklə iktifa edək. Burada bu qədər misaldan da sərf mühərrirlərinin bu sözləri, dediyimiz kibi, başlıca iki prinsipə istinad edərək yaratdıqları meydandadır:

1) Sərf-nəhv kitablarında bəhs edilən hadisələrin xarakter və mahiyyətinə görə uydurulmuş təbirlər, məsələn, qazax sərfində *tabıs-tav, catıstav* ... kibi təbirlər bu qəbildəndir.

Tapmaq feli, "nəyi tapmaq?" sualına cavab olduğu bu felə rəbt olunan sözlər daima məful bih – **Винитель** halda bulunuyor. Zatən təbirin ruscası və **accusativous** şəklindəki latıncası da bu əsasa bina icad edilmişdir. Eyni surətlə "catıstav" sözü də "yatmaq" sözündən müştəqq olması etibarilə "nərədə yatmaq?" sualına bağlanan, yaxud cavab olan "məful fih" halının adı, təbiri ola bilər. Netəkim türk dili üçün yazılmış rusca və Avropa dillərində rusca **местный**, latınca **locatious** sözləri də bu əsasa bina işlədilir.

2) Əski ərəb istilahlarının tərcüməsindən meydana gələn təbirlərdir; məsələn, yenə qazaxçada "mübtəda" üçün qullanılan *bastavuç*, xəbər üçün işlədilən *bayandavuç* sözləri bu növdəndir. *Bastavuç*, yaxud *başlavuç* sözü ərəbcə "mübtəda" ("ibtida"dan) sözünün aşağı-yuxarı tərcüməsi olduğu kibi, *bayandavuç* "bəyanlavuç", "bəyanla-yıcı" da eyni surətlə "xəbər" sözünün (yenə ərəbcə "damar", fəqət qazax ədatilə) tərcüməsindən başqa bir şey deyildir.

* * *

Əcəba, azəri-türk sərf və nəhvində hankı təbirləri işlətməli? İstilah məsələsinin bugünkü ümumi vəziyyətini nəzəri-etibara alsaq, bu suala üç dürlü cavab verilə bilir:

1) Avropa istilahlarını almalı, 2) türkcədən istilahlar yapmalı, 3) əski ərəb istilahlarını mümkün olduğu qədər sadələşdirərək indilik buraxmalı.

Həman bütün fənlərdə qullanılan istilahlarımız olduqca böyük sürətlə avropalılaşdığı, digər tərəfdən, Avropa istilahlarının tamamilə sistemə alınmış, sabit və müəyyən olduğu nəzəri-etibara alınarsa, məmləkətimizdə bu fikrə tərəfdar olacaq sərfçi və dilçilərin mühümcə bir yekun təşkil edəcəyini təxmin etmək mümkündür.

Bununla bərabər, bu növ təşəbbüsün qarşısında bu gün daha böyük-böyük maneələr vardır ki, bunlardan başlıcası Avropa dilləri ilə dilimizin bünyəsi və xarakteri arasında böyük bir ayrılıq bulunduğundan bu dillərdə işlədilən istilahların doğrudan-doğruya və heyəti-ümumiyyəsilə bizim ehtiyacımızı dəf edəməyəcəyi nöqtəsidir. Avropa istilahlarını öz sərflərimizdə olduğu kibi qullanamadıqdan sonra (netəkim

məqaləmizin başında denildiyi kibi, Avropa türkoloqlarının özləri də bu fikirdədirlər) Avropa əsasında bir taqım yeni istilahlar uydurmaq lazım gəlir ki, böylə bir işə başlamaq və ən mühümü onun içindən çıxmaq bugünkü mədəni vəziyyətimizdə, Avropa dillərinə hələlik bu qədər yabançı olduğumuz bu dövrdə qabil deyildir. Sonra türk sərf və nəhvi üçün Avropa təbirləri işlətmək olduqca əcib bir şey olar.

Türkcədən istilahlar yapmaq meyli də çox qüvvətli bir cərəyan halında bulunsa da, şimdiyədək çıxan istilahları nəzəri-etibara alırsaq, yerli və həyəcanlı bir təmättidən ötəyə keçəməməkdədir.

Türkcədə, qazaxlarda və tatarlarda olduğu kibi, istilah yapa bilmək üçün dilimizin öz xüsusiyyətlərinə görə tərkib və tərtib olunmuş bir sərf və nəhvə ehtiyac vardır ki, böylə bir əsərdə hər şeydən əvvəl dilimizin iltisaqi mahiyyəti nəzəri-etibara alınacaq və buna görə sərf və nəhv planı yapılacaqdır.

Bu təqdirdə türk sərf və nəhvində başlıca şu bəhslər olacaqdır:

1) səs; 2) damar; 3) şəkilçi; 4) söz qrupu və cümlə; 5) məna.

Burada bütün bu şöbələri də ikinci dərəcədə şöbələrlə ayırmaq qabildir.

Rusiya Maarif Komissarlığının şəkli əsası qəbul etməsi və Rusiya Dövləti Elmi Şurasının tərtib etdiyi proqramların bu prinsip üzərinə qurulması bu xüsusda yeni sərf və nəhv üçün bütün məntiqi və qanuni meydanı açırsa da, müəllimlərimizin və məktəblərdə təlim və tədris ənənələrimizin həpicə bir zaman üçün qarışıqlıq və anarşiyə uğraması ehtimalı bu yolda qarşımıza çıxan maneələrin ən böyüyünü təşkil edir. Netəkim mühərririn "Yeni məktəb" məcmuəsinin 1925 təmmuz nüsxəsində yazdığı məqaləyə qarşı müəllimlərimizin bəzi fikirləri bu ehtiyatın nə qədər lüzumlu olduğunu göstərir.[62]

O halda bu gün üçün biricək imkan və yol şəkli prinsipi almaqla bərabər, əski ərəb istilahlarını sadələşdirərək və lüzumsuzlarını ataraq qullana durmaqdan ibarətdir. Netəkim 15 nisanla Bakı Maarif Evində bu məruzəni dinləmək üçün yığılan müəllim və sərfçilərimiz təqribən şu fikri təsvib etmişlərdir.

Yeni sərf və nəhvdə istilahlar sadə ərəbcə olaraq buraxılmalı, bununla bərabər, sərf və nəhvin yeni əsaslara istinad etməsi fəda edilməməli[dir]. Sərf və nəhvin sonunda ərəb, Avropa və qazax, tatar kibi

[62] Türk dili sərflərinin ümumi qüsurları. Yeni məktəb, təmmuz 1925. Burada iltisaqi və şəkli əsas alındıqda sərf və nəhvimizdə nə kibi şöbələrin buluna biləcəyi də göstərilmişdir.

xalqlar arasında işlədilən sərf və nəhv istilahlarının bir cədvəli bulunması münasibdir. Bu cədvəldən müəllimlər bütün bu istilahlarla tanış olaraq, ilərdə özləri üçün qəti bir yol, sabit və müəyyən bir fikir çıxara bilirlər. Eyni zamanda azəri türkcəsindən böylə istilahlar yapmaq təcrübəsini də bu cədvəldə əks etdirmək mümkündür.

Pək mühüm olan sərf və nəhv istilahları məsələsində bugünlük ata biləcəyimiz addım bundan ibarət kibi görünür.

"Maarif işçisi", №5, 1927, səh. 48-56.

AZƏRBAYCAN İMLA KONQRESİ

Oktyabr inqilabının onilliyini bayram edərkən yenə inqilabın qarşımıza açdığı geniş yollarda yürüyərək dil və imla məsələsində də çox mühüm bir mənzilə çatmaq üzrə bulunuyoruz. Yeni Əlifba Komitəsi və Azərbaycan Maarif Komissarlığının qərarı mövcibincə təqribən yanvar ayı içində Azərbaycan imla konqresi çağrılacaqdır.

Bu ilin baharında Şuralar İttifaqı Mərkəzi Əlifba Komitəsi yanındakı elmi şura tərəfindən Mərkəzi Komitənin builki növbəti işləri, qarşısında duran elmi vəzifələr təyin edilərkən başlıca diqqət Şuralar İttifaqı miqyasında bir imla konqresi çağırılmasına verilmişdi. Çünki yeni əlifbanın Şuralar İttifaqına girən həman bütün türk-tatar xalqları və Şimali Qafqaz ölkələri tərəfindən qəbul edilməsi ilə artıq bu əlifba ilə bütün şuralar miqyasında ədəbiyyat, mətbuat meydana gətirilməyə başlandığından yeni əlifba ilə bağlı olaraq qarşımıza çıxan məsələlərin ən mühümü, şübhəsiz ki, imla məsələsidir.

Bunun üçün imla məsələsi yalnız Azərbaycan Cümhuriyyəti qarşısında deyil, yeni əlifbanı qəbul eləmiş olan bütün ölkələrin mədəni yapıcılıq planında durur. Ayrı-ayrı türk-tatar cümhuriyyətlərində imla konqresləri keçirdikdən sonra yeni əlifbanın sistemləşdirilməsində yapıldığı kibi, bütün bu məhəllərdə qəbul edilmiş olan imla əsaslarını gözdən keçirib, ümumi sistem altına almaq lazım gəlir.

İmla məsələsi yalnız əlifba və yazı məsələsi deyildir, eyni zamanda dil məsələsidir. Çünki doğru yazma üçün doğru söyləmə əsaslarını meydana çıxarmaq lazım gələcəkdir. Bu da ədəbi dil məsələsidir.

"Maarif işçisi"nin keçən illərdəki nüsxələrində dilə iki dürlü baxış – obyektiv və normativ baxışlar haqqında olduqca müfəssəl surətdə fikrimizi bəyan eləmişdik. Burada bir-iki sözlə təkrar edəcək olsaq, dil bizi iki cəhətdən tədqiqə, üzərində çalışmağa məcbur eləyir: bir tərəfdən, çox qarışıq, bununla bərabər çox maraqlı ictimai bir hadisə olaraq, digər tərəfdən, çox nazik, çox zəruri ictimai kollektiv istehsal aləti olaraq. Birinci yanaşma, birinci tərəf yalnız lisaniyyata məxsus olduğu halda, ikinci tərəf mədəni həyatda iştirak eləyən bütün vətəndaşların vəzifəsi olaraq meydana çıxar. Çünki istehsal alətlərini yaxşılaşdırmaq, təzələtmək, ümumiləşdirmək yalnız alimlərin, yaxud münəvvər təbəqənin vəzifəsi və əlindən gələcək məsələ deyildir. İctimai həyat su üçün kanallar, şəhərlərdə küçələr, bütün məmləkət içində müntəzəm yollar yapılmasını, hər şeyin məmləkəti təşkil edən bütün qəza və rayonlarda bir şəkildə, bir tərzdə, vəlhasil, bir sistem altında olmasını icab etdirirsə, onun kibi dili bir sistem altına alıb, bütün məmləkət üçün istifadə edilə biləcək bir hala gətirməyən məmləkətlər daha ictimai alət və dövləti xidmət rolunu oynaya biləcək iqtidara malik deyillər deməkdir.

Türk-tatar cümhuriyyəti və ölkələrinin həman kaffəsində daha arxası gəlməyən dil qovğaları gedir. Əski ədəbi dilin təbii olan yerlərdə artıq işdən çıxması bir çox indiyə qədər öz yazı və ədəbiyyatı olmayan, məsələn, qırğız, qazax, tarançı, başqurd, qaraçay, balkar... türk-tatar xalqlarının oktyabr inqilabından sonra öz ədəbi yaradıcılığına qoyulması dil məsələsində qarşımıza yeni-yeni vəzifələr çıxarmışdır.

Azərbaycan şərtləri içində də dil məsələsi az qarışıq deyildir. Bir kərə azəri şivəsi, bu ləhcəyə İstanbuldan, yaxud cənubdan baxan yoldaşların zənn etdiyi kibi, tamamilə oğuz ləhcəsinin bir budağı deyildir. Təbir caizsə, azəri ləhcəsi yox, Azərbaycan ləhcəsi vardır. Səthi surətdə baxan adam zənn edə bilir ki, guya bundan bir çox əsrlər əvvəl azəri türkləri əski vətənlərindən qalxmışlar, varlarını-yoxlarını yığmış-yığdırmışlar və yolboyu danışa-danışa gəlmiş, bugünkü vətənlərinə, Azərbaycana yerləşmişlər və hələ də eyni türklər eyni dil ilə söyləşirlər. Həqiqət hal böylə deyildir.

Şübhəsiz, Azərbaycana türk xalqları birdən, bir zamanda bir tərəfdən gəlmədi, bəlkə, müxtəlif türk-tatar qəbilələrinin parçaları şərqdən, cənubdan və şimaldan Azərbaycan hüdudları içərisində yerləşdi. Bunun üçün də Azərbaycan türk ləhcəsi əsasi etibarilə cənub şivə qruppasına

girməklə bərabər, bu ləhcədə şimal şivə qruppalarının bir çox cizgilərinə təsadüf ediriz.

Bundan başqa, coğrafi və iqtisadi, bir dərəcəyə idari və tarixi səbəblərdən Azərbaycan ləhcəsi içində Gəncə, Bakı, Qazax... dürlü danışıq rayonları, yəni yarımşivələr hasil olmuşdur. Daha ilərıyə gedəcək olsaq, Azərbaycan türklərinin ədəbi dilində yenə "dar-məhəlli", "istanbulvari", "orta"namlarilə anladıla biləcək üç cərəyan tapırız.

İmla məsələsi bütün bu məsələlərlə sıxı-sıxıya bağlıdır. Azərbaycan imlasını təsis edə bilmək, imla məsələsində mümkün olan ümumilik və məntiqliyə gələ bilmək üçün bu dil təxalüflərinin sabit mərkəzini, qızıl cizgisini tapmalıdır. Ayrı sözlərlə deyəcək olsaq, bu kibi lisani şərtlər içində Azərbaycanda doğru-düz danışma necə olar? Bir sözün müxtəlif şəkillərindən hansı daha doğru və düzgündür? – kibi bir neçə mühüm və qarışıq suallara hər kəsi qandıra biləcək faktlar, misallar və dilimizin ana qanunları ilə təqviyə və təyid oluna biləcək tezlər, əsaslar ilərıyə sürməlidir.

Azəri ədəbiyyatının bilxassə son dövründə gərək vaxtı, gərəksə vaxtsız mətbuatda şahidi olduğumuz dil cəhətindən vaqe olan təblər, yerləşmə, konsolidasion bizi imla konqresinin bu xüsusda az-çox qəti dil əsasları tapa biləcəyinə ümidləniriz. Hər halda bu qəti əsaslar da qızğın münaqişələri keçmədən əldə edilə bilməyəcəkdir.

Bu məsələnin pərvəzsiz, yanlışsız həll edilməsində başqa mədəni xalqların bu kibi məsələlərdə tutduqları xətti-hərəkətlərindən xəbərdar olmaq zəruridir. Bunun üçün də, ümumiyyətlə, dil ilə imla arasındakı bağı tapıb çıxarmaq və dediyimiz kibi, başqa xalqların, bilxassə Avropa millətlərinin imla və dilləri arasında bu bağın nə surətdə saxlandığını bilmək çox faydalıdır. Bu araşdırma əsnasında, şübhəsiz, orası da görüləcəkdir ki, bir neçə Avropa xalqlarının düzgün və əsri imlası yoxdur. Bunda bəzi yoldaşlarda gördüyümüz kibi təəccüb ediləcək heç bir şey yoxdur.

Bu gün geniş çöllər içində özlərinə tamamilə yeni şəhərlər qurmaqda olan köçəbə qazaxlar, şübhəsiz, Vyana, Paris və Londona görə, daha səhi, daha məqul bir inşaat planı götürə biləcəklərdir. Biz də təbiətlə imlamızı ingilislərin yox, fransızların... imlalarından daha elmi, daha mədəni əsaslar üzərinə, heç şübhəsiz, qura bilərik.

Bu dərəcə sağlam və elmi, mədəni surətdə işləyə bilmək üçün seçəcəyimiz imla prinsiplərində çox ehtiyatlı və bəsirətli olmalıyız.

Avropa imlalarında işlənən məşhur beş prinsipdən hansı, daha doğrusu, hansıları bizim işimizə yarar? – məsələsini dilimizi, dilimizin xüsusiyyətlərini qayət ətraflı surətdə tədqiq edildikdən sonra həll eləməliyik.

1926-cı ildə olan türkoloji qurultayında əlifba və imla məsələləri münaqişə olunurkən bəzi prinsiplər üzərində durulmuş və qızğın münaqişələrdə olmuşdur. Yuxarıda zikr etdiyimiz beş prinsip şunlardır: 1) tarixi; 2) təxalüf; 3) iştiqaqi; 4) əcnəbi; 5) sövti.

Bizim əsas prinsipimiz yeni əlifbada sövti prinsipi ola gəldi. Ərəb əlifbasının ən böyük nöqsanı da burada idi. Dilimizin sövti xüsusiyyətlərini əks etdirməyən bir əlifbanın təsvirini görməmək və bunun yerini tutacaq əsri və mükəmməl bir əlifbada sövti prinsipi əsasi olaraq almamaq qabil deyil idi.

Əcnəbi sözləri yazmaq prinsipinə gəlincə, bunun da ölkəmiz kibi, ərəb-fars sözlərinin təsəllütündən hənuz çıxmamış, qurtulmamış olan ölkələrdə nəzəri-etibara alınması lazım gələcəkdir. Tarixi və təxalüf prinsiplərinin yeni əlifba ilə meydana gətiriləcək imlada lüzumu yoxdur.

İştiqaqi prinsipinə gələcək olursaq, imla konqresi bu prinsip üzərində durmağa məcbur olacaqdır. Çünki çox dəfə eşitdiyimiz kibi yazmaqdan ibarət olan sövti prinsipin imlada törətdiyi qarışıqlığı ancaq iştiqaqi, yaxud şəkli prinsipin tətbiqi ortadan qaldıracaqdır. İmla əsaslarımızı, bilxassə ilərdə bütün müəssisə və təşkilatlar üçün rəhbər ola biləcək imla lüğətlərimizi tərtib etdiyimiz zaman önümüzə çıxan şivə çatışmalarını, yəni bir sözün bir neçə şəkildə rast gəlməsində alınacaq xətti-hərəkəti bizə ancaq şəkli-iştiqaqi prinsip göstərə bilər.

Şəkli-iştiqaqi prinsip dilimizdən ayrı səsləri alıb, onlara qarşılıq hərf düzməklə iktifa etməyərək, bu səslərin türkcəmizin sözlərdə, cümlələrdə nə kibi şəkillər aldığını, yaxud bir sözün aldığı müxtəlif şəkillərdə hansının əsasi olduğunu araşdırmaqdır. Bu prinsipi müvəffəqiyyətlə, söylədiyimiz şəkildə tətbiq eləyə bilmək, ancaq dilimizin bünyəsini, tabe olduğu əsasi qanunlarını göz önündə tutmaqla qabildir.

Ərəb əlifbasında türkcəmizin nə tarixi, nə də iştiqaqi, sövti, şəkli xüsusiyyətləri əks etdirilməmişdi. Bu əlifba əsasında yüzlərcə illərdən bəri sərf olunan əməklər, bilxassə son zamanlarda islahçıların yapdıqları mütəəddid müşavirələr ancaq ayrı-ayrı söz qruppalarının yazılış əsaslarına aid bəzi xeyirxahanə nəsihət və tövsiyələrdən ileriyə keçə bilmədi.

Biz zənn ediyoruz ki, yeni əlifbaçılar sövti və iştiqaqi-şəkli prinsipləri əsas alaraq, olduqca əsri və mükəmməl, yəni dilimizin skeletinə uyğun və eyni zamanda müəyyən elmi-məntiqi sistem altına alınmış bir imla meydana çıxara bilərlər.

Konqredə münaqişə və müzakirə olunacaq məsələlərdən birisi də indiyə qədər, ümumiyyətlə, pək az əhəmiyyət verilən yeni imla və əlifbamızın məktəblərdə keçilməsi yollarıdır. Yeni əlifba və bunun üstündə qurulacaq olan yeni imla ərəb əlifba və imlasının yollarından yürüyəməz. Məktəblərimizdə bu yeni dövrün sürətlə və pedaqojinin son qayda və qanunlarına müvafiq olaraq yerləşməsi, aşılanması üçün tədqiqlərə, araşdırmalara başlamalı və bu məsələni, ümumiyyətlə, pedaqojinin bu sahəsində az-çox bişmiş olan müəllimlərimizin, maarifçilərimizin qarşısına çıxarmalıyız.

Yenə konqredə müzakirəsi lazım gələcək müzakirələrdən birisi istilahlarımızın imlası məsələsidir ki, bura bilxassə əvvəlcə ərəbcədən alınmış istilahların, indiki zamanda Avropadan yüzlərlə alınmaqda olan əcnəbi istilahlarının türk dili və tələffüzünə uyğun surətdə yazılması[nın] çarə və yolları mərkəzi mövqeni tutacaqdır. Qayəmiz əcnəbi istilahlarını dilimizə uydurub almaqdır. Lakin eyni zamanda beynəlmiləl mahiyyətdə olan elmi terminolojidən ayrılmamaq zərurətini unutmamalıyız. Bu iki az-çox bir-birinə ciddi ehtiyacların birləşdirilib bir ahəng altına gətirilməsi üçün çoxca əmək sərf etmək lazım gələcəkdir.

Nəhayət, konqre gərək imla və gərəksə istilah məsələlərimiz haqqında bəzi tədbirlər qeyd və təyin etmədən dağılmayacaqdır. Bu tədbirlərin bir qismi konqrenin verəcəyi prinsiplər üzərində Azərbaycan türk dili imla və istilahını konkret və müfəssəl surətdə işləyəcək təşkilatlara aid olsa, digər qismi də imla lüğəti, yeni əlifbada yazılan sərf kitablarına aid olacaqdır.

Azərbaycanda birinci dəfə toplanmaqda olan bu konqre ilə imla məsələsi daimi olaraq həll edilib qurtarmayacağına şübhə yoxdur. Dilin daimi surətdə inkişaf etməsi ilə yazı, imla ilə dil arasında daima bir açıqlıq, boşluq əmələ gəlir. Bu boşluğu doldurmaq üçün müəyyən fasilələrlə daimi surətdə imla və istilah konqrelərini təkrar etmək lazım olar. İlərdə maarif və mədəniyyətimiz gərəyi kibi ilərilədikdən, hər sahədə mütəxəssislər yetişdikdən sonra onlar istilah və imlalarını da öz təşkilatları içində həll edəcəklərdir. Avropada, məsələn,

Almaniyada indiyə qədər yalnız bu son onillik zaman içində ondan artıq imla konqreləri çağırılmışdır. Bundan başqa, təbiblər, mühəndislər, aqronomlar ... ayrı konqrelər tərtib eləyərək, öz istilah və imlalarını həll eləmişlərdir. Bizdən mədəniyyətcə, şübhəsiz, iləridə olan Ukrayna Cümhuriyyəti keçən 1926-cı ildə bütün Ukrayna miqyasında imla konferensiyası keçirdi.

Bütün bunları xatirdə tutaraq deyə bilərik ki, imla, istilah və əlifba konqrelərimizin sıx-sıx toplanması bəzilərinin zənn etdiyi mədəniyyətsizliyimizi, yaxud ərəbçilərin dediyi kibi, mövcud mədəniyyətimizi yıxdığımızı deyil, bəlkə, qəti surətdə mədəni inkişaf yoluna ayaq basdığımızı göstərən parlaq, aydın dəlillərdəndir.

"Maarif işçisi", № 10-11, 1927, səh. 60-66.

MİRZƏ FƏTƏLİ AXUNDOVDA AZƏRİ LƏHCƏSİ

(Bir neçə xüsusiyyətlər)

Mirzə Fətəli[nın] azəri ədəbiyyatında göstərdiyi əsli cizgilərdən birisi də onun əsərlərində işlətdiyi dildir. Bu dil, on doqquzuncu əsrin ortaları gözə alınacaq olursa, denilə bilir ki, bütün türk-tatar ədəbiyyatı üçün yenidir, yeni olduğu qədər də qiymətlidir.

Volqaboyu türkləri və bir dərəcəyə qədər krımlılar çıxarılacaq olursa, bu "yeni dil" özgə türk-tatar xalqlarında ancaq bin doqquz yüz beş sənəsi inqilabından sonra özünü göstərə bilmişdir.

Volqaboyu türklərində Qəyyum Nasiri şəxsiyyətində Axundovdan ancaq bir on il sonra, Krımda İsmail Qasprinskidə təbii daha az dərəcədə on doqquzuncu əsrin sonlarında görüliyor.

Türkiyədə bu kibi dil ilə heç bir mühərrir və yaxud şair olmamışdır – desək yanılmayız. Şünasi – Kamal, hətta Məhəmməd Əmin dilləri xalqa doğru getməklə bərabər, hənuz xalqın qulağına yetişməmişdir.

Mirzə Fətəlinin dili isə əsas etibarilə xalq ağzından alınmış və azəri ədəbi dilinin xalqa yaxınlaşmasına çox böyük təsir bağışlamışdır.

Mirzə Fətəli Axundovun dili imdiyə qədər heç bir nöqtədən təftiş və tədqiq olunmamışdır. Yalnız Karl Foy **(Karl Foy)** "Azərbaycan dili tədqiqi" **("Azerbayganische Studien")** namilə 1903-1904 sənə-

lərində Berlində nəşr elədiyi əsərinin ikinci qismində "Aldanmış kəvakib"in dilini bir dərəcəyə qədər tədqiq etmiş və bəzi bəsit nöqtələri göstərmişdir.

Eyni surətlə Lüsyen Buvc **(Lucian Bouvat)** "Yusif şahın tarixi" **("Histoire de Jousouf Chah")** namilə 1903 sənəsi "Jurnal Aziatik"də nəşr etdiyi tərcüməsində, professor Jan Deni **(Jan Deny)** "Türk sərfi" namilə 1922 sənəsində Parisdə nəşr etdiyi müfəssəl sərfində Mirzənin əsərlərindən sərfi və lisani nöqteyi-nəzərdən istifadə etməyə çalışmışdır.

Lazarev-Budaqovun **(Лазарев-Будагов)** **"Практическое руководство турецко-татарского Азербайджанского нарєчия"** namilə 1857-də, professor Kazım bəyin "Türk-tatar dilinin ümumi sərfi" namilə 1846-da nəşr elədikləri əsərləri Mirzə Fətəlinin pyeslərindən əvvəl nəşr olunmaq həsbilə, təbii, onun əsərlərini dil etibarilə tədqiq edə bilməmişlərdir. Bununla bərabər, Fətəlinin əsərlərində işlətdiyi dili anlamaq üçün bir neçə qiymətli qeydlər, sərfi və nəhvi xüsusiyyətlər vermişlərdir ki, bir çox tərəfdən Karl Foyun yuxarıda zikr etdiyimiz əsərində ileri sürdüyü nöqtələrdən daha müfəssəl və daha dərindi.

Azərbaycanda gənclik Fətəli Axundovun əsərlərindən, ümumiyyətlə, fikirlərindən çox ilhamlar aldığı halda, imdiyə qədər burada da onun dilini təhlil etmək təcrübəsi görünməyir.

Mühərririn, ədib və yaxud şairin dilinə iki nöqtədən baxmaq, yanaşmaq mümkündür: həyəcani və ifadəvi **(эмоциональное выразительн.)** və lisani, ləhcəvi **(диалектологически – лингвист.)**.

Biz mövzumuzu, yəni Mirzə Fətəlinin dilini tədqiq məsələsini iki ayrı parçaya böldük. Burada onun dilini yalnız lisani və ləhcəvi nöqteyi-nəzərdən alıb, həyəcani və ifadəvi nöqtədən yapdığımız tədqiqi yenə ayrı bir məqalə halında başqa bir yerdə nəşr etmək niyyətindəyiz.

İmdi qarşımızda duran məsələ Mirzə Fətəlidə onun əsərlərində əks edən azəri ləhcəsinə bir göz gəzdirmək və onun bəzi xüsusiyyətlərini qeyd eləməkdir.

Məqaləmizin qayəsi Mirzə Fətəlinin əsərlərindən azəri ləhcəsinin bəzi mühüm və canlı xüsusiyyətlərini öyrənmək mümkün olduğunu və binaən əleyh bu əsərlərin lisaniyyatçılar üçün də çox qiymətli bir mənbə xidmətini ifa edə biləcəyini göstərməkdir. İləridə vaxtımız və marağımız kəmalətə irişdiyi təqdirdə Mirzənin əsərlərinə aid tam

və mükəmməl bir sərfi taslağın da meydana gətirilməsi qabil olacaqdır. Bu növ addımlarla biz azəri ləhcəsinin inkişaf tarixini, tarixi sərfini meydana gətirməyə doğru ilərilәyiriz.

* * *

Təbii, heç bir mühərrir lisani və sərfi cəhətdən alındıqda özbaşına bir dil, hətta kiçik bir dil xüsusiyyəti belə yarada bilməz. Yalnız əsərində bu və yaxud bu xüsusiyyəti işlətməsilə öz ədəbi əqidəsini, ictimai meyllərini ortaya çıxarır. Fətəli Axundovda azəri ləhcəsi də, bir tərəfdən, azəri ləhcəsi üçün tarixi bir vəsiqə olsa, digər tərəfdən, mühərririn xarakteristiki üçün də kafi dərəcədə bir əsasdır.

Bizim bu məqalə üçün əsas aldığımız Mirzə Fətəlinin 1859-cu sənədən ərəb hürufatilə nəşr olunan bir müqəddimə və yeddi parça əsərdən, hekayə və pyesdən ibarət məcmuədir. Pyeslər və hekayələr burnlardır:

1) "Hekayəti-Molla İbrahimxəlil kimyagər";
2) "Hekayəti-Müsyö Jordan, həkimi-nəbatat və dərviş Məstəli şah, cadugüni-məşhur";
3) "Hekayəti-Xırs quldurbasan";
4) "Hekayəti-mərdi-xəsis" ("Hacı Qara");
5) "Sərgüzəşti-vəziri-xani-Sərab";
6) "Vükəlai-mürafiə" ("Mürafiə vəkillərinin hekayəti şəhri-Təbrizdə");
7) "Aldanmış kəvakib, hekayəti-Yusif şah".

Bütün bu parçalar ərəb əlifbasilə çap edildiyi üçün bu mətnlərə dayanaraq azəri dilinin samitələr sistemi haqqında qəti bir şey demək mümkün deyildir. Bu halda yalnız azəri ləhcəsinin samitələr sistemini bu parçalardan olduqca aydın və açıq görmək mümkündür.

1. Təmsil:

Mirzə Fətəli əsərlərində təmsil **(assimilation)** xüsusiyyətlərini xalq dilində olduğu kibi əks etdirmişdi: *durallar (durarlar), sallam (salaram), allatmak (aldatmak), ollak (olarak), olluk (oluruk), gəllәm (gəlirəm).*

Nə bilim,[63] *– deyibdir ki, Parijdə tamam kiçik qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzü açıq durallar (28). Mən təəhhüd edərəm ki,*

[63] Misalların sonundakı nömrələr yuxarıda bəhs etdiyimiz məcmuənin səhifə nömrələridir. Mühərririn imlası eynilə saxlanmışdır *(Əlbəttə, burada müəllif həmin məqaləsinin nəşr edildiyi əski yazı orfoqrafiyasını nəzərdə tutur – tərtibçi).*

onu Parijə aparıb Firəng dövləti ona örgədib yola salam (31). Məni allatmaq üçün bəhanədir (41). O vaxtadək biz də onun toy tədarükünə məşğul olluq (36). Gəllәm (182).

Bütün bu misallarda [lr] səslərinin [ll] səslərinə çevrildiyini, yəni [l] səsinin [r] səsini təmsil etdiyini görürüz.

Yalnız təmsil surətilə deyil, təhlil yolilə də [r] səsinin [l] səsinə, [s] səsinin [t] səsinə, [ş] səsinin [ç] səsinə təbəddül etdiyini görmək mümkündür: *saralıp (sararıb), isti (issi), çaş (şaş).*

On beş yaşında gül üzlü uşağın ah çəksin, qan tökürsün, saralıp sapa dönsün, incəlib ipə dönsün (38). Molla Salman papağını başından götürüb: Uf, nə istidir (19). Ağlınızı çaşırıb (4).

2. [Y] səsinin söz başında düşməsi:

Söz başında bulunan [y] səsinin oğuz-qıpçaq ləhcəsində düşməsi daha on birinci əsrdə Mahmud Kaşqari tərəfindən qeyd edilmişdir. Bu gün zamanımızda bu xüsusiyyəti saxlayan yeganə ləhcə azəri ləhcəsidir. Mirzə Fətəlinin əsərlərində bu xüsusiyyət də bir çox yerlərdə əks etdirilməkdədir: *On beş yaşında gül üzlü uşağın (38). O biri damda ilxıdan qayıdıb yatırlar (45). Ux, Allah, kərəminə şükür, bir az ürəyim dincəldi (39). İldə yüz əlli manata pul deməzdin (6). Üst tərəfi getdikcə uca qarlı dağlara müttəsil olurlar (8). Yainki mərrix ulduzuna hökm edəm (44).*

Bütün bu misalları gözdən keçirdiyimiz zaman *üz (yüz), ilxı (yılxı), ürək (yürək), il (yıl), uca (yuca), ulduz (yulduz, yıldız)* sözlərini görürüz ki, mötərizə içərisində göstərildiyi kibi, bu sözlərin həman cümləsi özgə ləhcələrdə [y] səsilə bulunur və azəri ləhcəsində bu [y] səsi düşmüşdür. Qazax ləhcəsində bu [y]nın yerinə [j], Volqaboyu və Şimali Qafqaz ləhcələrində [c] səsləri qaim olmuşdur, Osmanlı və özbəkdə [y] qalmışdır: *igit – yigit – cigit – jigit.*

Bu xüsusiyyət də bir neçə türk ləhcələrinin bir-birinə görə xüsusiyyətlərini göstərmək etibarilə olduqca mühümdür.

3. K – X – Q:

Yaxında olub-keçən Azərbaycan Birinci İmla Konferensiyasında da görüldüyü vəchlə, *uzak, balık, ayak...* kibi sözlərin axırında "k"-mı, "x"-mi, "q"-mi yazmalı məsələsi olduqca böyük münaqişələrə səbəb oldu və nəhayət, iştiqaqi prinsipə dayanılaraq, [k] səsi qəbul oldu.

Mirzə Fətəlidə bu xüsusda qərarsızlıq və qarışıqlıq görürüz. O bəzən "k", bəzən "q", bəzən də "x" yazır: *Əksirək aləmdə olmağına*

dəlil çokdur (4). *Ondan ötrü ki, sən çox yaxşı qatırçılığa layiqsən* (6). *Yox* olsun o ölkə ki, onda cadu-pitik olmıyə (39). Sözümə qulaq asmadılar (44). Gül üzlü *uşakımı* (43). Burun *qulaq* başa sədəqə (52).

Bəzən söz ortasında iki sait arasında rast gələn sağır samitə ki, həman cənub ləhcələrinin cümləsində sədalı samitəyə çevrilirlər ("k" isə, "g" olar), Mirzənin əsərlərində yenə də "qaf" – "k" olaraq yazıldığını görürüz.

4. Metathezis (səsin yer dəyişdirməsi):

Azəri ləhcəsində [r], [s] və bəzən [l] səsi sözdə yerini dəyişdirir: *Bir neçə vaxt bundan ilәri* (4). *Hansı qaravullar ilə məni dustak edəcək* (37). *A qız, tərpənmə, yerində dur görüm* (108).

Bu xüsusda əsərdə istənildiyi qədər misal olduğundan bu qədəri kifayət edər. Bu sözlərin əsli[nin] *ilәri, dutsak, təprənmə* olduğunu söyləməyə hacət yoxdur.

5. M – B:

Azəri ləhcəsində şimal ləhcələrinin təsiri kibi görünən xüsusiyyətlərdən birisi də cənub ləhcələrində [b] ilə başlayan bəzi sözlərin bu ləhcədə [m] ilə başlamasıdır:

Gecə atımı minib, Arazı o taya keçib (26). *Mənə lazım olar ki, səfərin fəvayidini müvafiq, vaqei-misl ilə sizə isbat edəm* (34).

Burada *mən, minmək, min, moncuk* kibi, *bən, binmək, bin, boncuq* olması lazım gələn sözləri xatırlada bilәriz. Halbuki bunlardan başqa sözlər azəri ləhcəsində də, ümumiyyətlə, cənub ləhcələrində olduğu kibi, [b] ilə başlar: *boyun, burun, buynuz, buz...*

6. Mənfi feli-hal siğəsinin birinci müfrəd şəxsi:

Burada Mirzə çox dəfə *mənəm, mənük, manak...* şəkillərini işlədir: *Qoymanam getsin* (37). *Səni qoymanuk bu tövr yaka keçəsən* (44). *Öz sözümi dəgişmənəm* (14).

Bəzən -rəm, -ruk, -rük şəkillərini işlədir: Biz bir zad bilmərük (3). *Ağzımızda söz söz danışıruk* (3).

7. Bəzi arxaizmlər:

Azəri ləhcəsində bulunub yer-yer işlədilən bəzi əski lisani xüsusiyyətlər, yarımsözlər, şəkillər, sözlər də Fətəlinin dilində inikas edir: *Başımı dışqaru çıxara bilmənəm* (89). *Pəri xanım tez Şölə xanıma saru işarə edər* (147).

Eyni surətlə *sovqat, qurşayız* (26, 28), *cadu-pitik* (39) sözləri bu qəbildəndir.

Vaxtilə məlum olduğu üzrə *ilәri, içəri* sözlərinin əski şəkli *ilgeri, içkeri* idi. Cənub ləhcəsində sözortası [k], [g] səslərinin düşməsilə bugünkü şəkil meydana gəldi. Necə ki, şimal ləhcələrində bu şəkil daha saxlanmaqdadır.

8. Sair xüsusiyyətlər:

Mirzə Fətəli Axundov yüz illiyi şərəfinə yazılan bir-iki sətirlik məqalədə bütün xüsusiyyətləri göstərmək və dilini bütün çərçivəsilə meydana çıxarmaq, əlbəttə, qabil ola bilməz. Bunun üçün müstəqil bir əsər planilə çalışmaq icab edər. Bu xüsusda son söz olaraq bunu da əlavə etməli:

Mirzə Fətəli məlumu olan bəzi ərəb sözlərini də xalq tələffüzündə olduğu kibi qeyd edir: *Bunun qollarını bərk dalısında bağlayın, muğayat olun ki qaçmasın* (92). *Səlavelik* (75) – *salam əleyk, əleyksalam* (75) – *əleykümüssalam. Heç meçit tikilməmiş kor əsasın dayadı, hələ qoy görək nə olur* (74).

Eyni surətlə *könül* sözünü Fətəli Axundov *kööl* şəklində yazır: *Şölə xanım bir kööldən min köölə ona aşiq və giriftar olub* (119).

Burada, yuxarıda qeyd etdiyimiz kibi, onun frazeologiyasına, yəni cümlə təşkilinə, üslubuna yanaşmadıq. Bunu ayrı bir məqaləmizdə tədqiq edəcəyiz. Bunun üçün onun yenə xalq dilindən götürülmüş *Darbadağın dağıdır* (53), *Saralıb sapa dönsün, incəlib ipə dönsün* (38) kibi qüvvətli ifadələri, yaxud *Firəng dili örgəndiyi üçün hər məclisdə məndən hörmətli idi. Bavücudi ki, firəng və türki dilindən başqa özgə dil bilməzdi* (34) kibi xalq dilindən uzaq, ağır və daha ziyadə farsi nəhvinə uyğun cümlələri üzərində də burada durmuruz.

Bu məqaləmizi gözdən keçirən oxuyucu: "Bunda Mirzə Fətəli Axundovun nə kibi məziyyəti var, bu gün bir neçə mühərrirlərimizin dilində bu xüsusiyyətləri tapmaq mümkündür," – fikrinə gələ bilər. Lakin bu fikir tarixi baxışdan məhrum, azəri ədəbi dilinin təkamülünü nəzəri-etibara almayan adamın fikridir. Müqəddiməmizdə də söylədiyimiz kibi, Fətəli Axundov bu xüsusiyyətləri əks etdirdiyi zaman həman bütün türk-tatar mühərrirlərinin önünə keçmiş və ədəbi dilimizdə yeni bir cığır açmış oldu. Ondan təqribən yarım əsr sonra gələn Qasprinski və müaqibləri həman bin doqquz yüz beş sənəsinə qədər bu dilin ədəbi mahiyyət və qiymətini münaqişə və hücum atəşi altında tutdular. Bu gün bir neçə şairlərimiz, ədib və mühərrirlərimiz bu kibi canlı dildə yarada bilirlərsə, bunda Fətəli Axundovun daha bir neçələrimiz üçün görükməyən qüvvətli və ciddi təsiri vardır.

Fətəli Axundovun bu surətlə xalq dilinə bağlanması, həman hər kəsi öz dilində danışdırması onun bu cəhətdən də misilsiz dramaturq və komediya yazıçısı olduğunu isbat edir. Digər tərəfdən, məlum olduğu üzrə, dildə və mündəricə, şəkildə "məhəlli rəng" **(coleur local)** məsələsi XIX əsr ədəbiyyatının zamanımıza qədər yaşayıb gələn qüvvətli və canlı şüarlarından birisidi.

Şəkildə gözəl, qüvvətli yazmaq, böyük ruhi təhlil istedadına malik dramaturqların işidir. Bunun üçün professor Falev (**Фалев**) Mirzəni "daha türk ədəbiyyatında misli yetişməyən Avropa ədəbi məktəbinin Şərqdəki müməssili" saymaqda haqlıdır.

"Maaif işçisi", № 3 (35), 1928, səh. 6-13.

PROFESSOR ALEKSANDR NİKOLAYEVİÇ SAMOYLOVİÇ

Professor A.N.Samoyloviçdən bəhs etməklə eyni zamanda son dövr türkolojisinin bəzi yekunlarını vermiş oluruz. Professor Samoyloviç, bir tərəfdən, nisbətən əski Radlov – Melioranski dövrünün mirasçısı olduğu kibi, digər tərəfdən, fəaliyyətinin kamal dövrünə ancaq oktyabr inqilabından sonra vardığından oktyabr dövrü türkolojisinin də müəyyən dərəcədə müməssilidir.

Professor Samoyloviçin fəaliyyətindən və bu fəaliyyətin səmərələrindən bəhs etmədən əvvəl bir neçə sözlə oxuyucunu onun bioqrafisi – tərcümeyi-halı ilə tanış etməliyiz.

A.N.Samoyloviç 1880-ci ildə Nijni Novqorod şəhərində orta dərəcə məktəb müəlliminin ailəsində anadan olmuşdur. 1899-cu ildə orta məktəbi gümüş medalyon ilə bitirmiş olan Samoyloviç eyni ildə o vaxtdakı Peterburq Darülfünunu Şərq dilləri fakültəsinə girmiş və burasını da altun medalyon ilə ərəb-fars-türk şöbəsindən ixtisas alaraq ikmal etmişdir.

1900 sənələrində ilk dəfə İstanbula getmiş və bu səyahət onun türkoloji elminə vəqfi-həyat etməsinə qəti surətdə təsir eləmişdir. İki il sonra, 1902-də professor Melioranskinin (**Мелиоранский**) təklif və tövsiyəsilə Kaspi dənizinin ötəsindəki türk xalqları, türkmən qəbilələri içərisinə səyahət etmiş və bu zaman da gənc Samoyloviç

birinci elmi addımı atmışdır ki, o vaxtda yığılan dil, ədəbiyyat və etnoqrafi materialları Samoyloviçin türkoloji elminə verdiyi birinci səmərələrdir. Bu tədqiqlərin türkmən xalqından başlaması heç də səbəbsiz deyildir. O vaxtda türkmən xalqı, onun dili, ədəbiyyatı və məişəti haqqında pək az şey bilinirdi.

Professor Samoyloviç gənc yaşında vəfat etmiş olan professor Melioranskinin tələbəsidir. Bununla bərabər, Radlovun rəhbərliyindən də faydalanmışdır.

Səyahətləri

Avropa və Şərq türkoloqlarının çoxları kabinet alimləridir. Kabinet alimlərinin türkolojidə uzaq yol yürümələri qabil deyildir. Çünki, bir tərəfdən, türk dili və ədəbiyyatına aid olan materiallar – əlyazmaları, vəsiqələr, müəssisələr dünyanın həman hər tərəfinə yayılmışdır, digər tərəfdən, dil kibi, ədəbiyyat və məişət kibi durmadan təkamül edən hadisələri canlı halında, yerində tədqiq edəməyən alim özgələrinin əsərləri, yığdıqları materiallardan tərkiblər yapmağa məcburdur. Əlbəttə, bu da mühüm, elmi bir işdir. Lakin çox dəfə bu tərkiblər çoxdan söylənilmiş, tapılmış olan həqiqətləri yenidən kəşf etməkdən ötəyə keçə bilməz.

Türkoloqlar içində Samoyloviç qədər türk-tatar aləmi içində ciddi və olduqca faydalı səyahətlər yapan iki zat vardır: professor Vamberi **(Vambery)** və akademik Radlov **(Radloff).** Bunlardan Vamberi Türkiyə və Orta Asiyanı dolaşmış, Radlov isə Sibir, Krım və Qazan türkləri arasında bulunmuşdur.

Professor Samoyloviç türk-tatar dünyasını ən çox gəzmiş olan bir türkoloqdur. Onun bu yoldakı birinci səyahəti, yuxarıda söylədiyimiz kibi, 1900 sənəsində İstanbuldan başlar, bundan sonra müxtəlif zamanlarda Türkmənistana, Özbəkistana, Krıma, Qazana, Bakıya, oyrat ölkəsinə, Başqırdıstana, Şimali Qafqaz türk-tatar xalqları arasına (qaraçay, balkar, kumuk, Stavropol türkmənləri) dəfələrlə səyahətlərdə bulunmuşdur.

Bu səyahətləri əsnasında bir neçə türk şivələrini əməli surətdə öyrəndiyi kibi, canlı dilə, əski və yeni ədəbiyyata, etnoqrafiyə aid bir çox materiallar toplamışdır.

İctimai xidmətləri

Professor Samoyloviçin yuxarıda bəhs etdiyimiz kabinet alimlərindən bir fərqi də yalnız nəzəri məsələlərlə məşğul olmayıb, maarif və mədəniyyət müəssisələrinin təşkilində, türk-tatar xalqlarının mədəni işlərində yaxından iştirak etməsindədir. Onun bu xüsusdakı fəaliyyətini iki qismə ayırmalıyız:

1) şərqiyyat və başqa elm və mədəniyyət müəssisələrindəki xidməti;

2) türk-tatar xalqlarının mədəni fəaliyyətlərində iştirakı.

Professorun birinci növ xidmətlərindən Leninqrad Canlı Şərq Dilləri İnstitutunda fəaliyyətini, yenə orada darülfünunda və Asiya, Rus muzelərindəki işlərini göstərə biliriz. Rus Muzesindəki zəngin Şərq şöbəsi öz mövcudiyyətini professor Samoyloviçə mədyun olduğu kibi, Asiya Muzesində də bir neçə qiymətli əlyazmaları onun tərəfindən tədqiq və təhlil edilmişdir. Eyni zamanda Canlı Şərq Dilləri İnstitutunun yenidən təşkil edilməsində professor Samoyloviç rəhbərlik rolunu oynamışdır.

Onun ictimai xidmətləri içində ən ziyadə gözə çarpanları, şübhəsiz, türk-tatar xalqları arasında olmuşdur. Professorun birinci səyahəti İstanbulla və birinci elmi tədqiqləri Türkmənistanla başlamış isə, türk-tatar xalqları arasında birinci xidməti Krımda görülmüşdür.

1912 sənəsində Krım-tatar müəllimlər kursunda türk dili və lisaniyyatı xüsusundakı dərsləri bu sahədə professor Samoyloviçin atdığı birinci addımdır. Bu zamandan sonra gərək Orta Asiya və gərəksə Volqaboyu və Azərbaycan ölkələrində bu yolda keçmiş on beş illik fəaliyyəti vardır.

Professor Samoyloviçin Azərbaycan Darülfununu Şərq fakültəsindəki dərsləri, Azərbaycan Birinci Ölkəşünaslar, Birinci Türkoloji və Birinci İmla qurultaylarında məruzəçilər və rəhbərlər arasında iştirak etməsi azərbaycanlı oxucularımızın xatirlərində olsa gərəkdir.

Bu növ xidmətləri arasına onun zaman-zaman türk-tatar məcmuələrində çıxan müəllimlər və türk dili, etnoqrafisi maraqlıları üçün faydalı məqalələrini də əlavə etməliyiz. Bundan başqa, bir neçə türk gənclərinin onun tədris rəhləsindən yetişdiyini də unutmamalıyız.

Əsərləri

Professor Samoyloviçin ayrı kitab, risalə və dürlü-dürlü məcmuələrdə məqalə şəklində nəşr olunan əsərlərinin ümumi sayı 222-yə baliğ olmaqdadır. Bütün bu əsərlər haqqında oxucuya lüzumi dərəcədə məlumat vermək qabil deyildir.

Samoyloviçin elmi fəaliyyətinə ümumi bir nəzər salınarsa, görülür ki, Rusiyada aşağı-yuxarı iki yüz sənədən bəri davam edən türkoloji elminə yekun vurmaq və bu iki yüz illik fəaliyyətin nəticəsində zaman ilə əskirmiş və nöqsan qalmış yerləri doldurmaq, təmir etmək vəzifəsini üzərinə almışdır. Onun dövr açan, gurultu çıxaran əsərləri yoxdur. Yuxarıdakı 222 əsər içindən 4-5-i çıxarılacaq olursa, qalanları türkolojinin bəzi acıyan nöqsanlarına, çox dəfə gözə çarpmayan, səthi surətdə baxıldıqda ufaq-təfək qüsurların düzəldilməsinə dair yazılan əsərlərdir. Bu əsərlərdə elmi fokuslar, yeni, lakin quru və mücərrəd nəzəriyyələr yoxdur. Onun əsərləri təhlili olmaqdan ziyadə, təsviri, yaxud yekun urucu əsərlərdir. Lakin mübaliğəsiz surətdə denilə bilir ki, Samoyloviçin bütün əsərləri elmi nöqteyi-nəzərdən faydalı əsərlərdir. Onun əsərlərini üçə ayırmaq mümkündür:

1. Əski türk-tatar ədəbiyyatına aid olan nəşriyyatıdır ki, bunların başında onun magistrlik əsəri olan türkmən ədəbiyyatına aid Əbdüssəttar qazı namında bir türkmən şairinə aid "Təkələrin uruş qissəsi" (**"Книга рассказов о битвах текинцев"**) namındakı kitabı durar. Bundan başqa, Babur şeirlərinin nəşri və daha bunun kibi bəzi tarixi vəsiqə və parçaların nəşri bu növ fəaliyyəti sırasına girər. Necə ki, Melioranskinin vəfatından sonra "Şeybaninamə"ni də professor Samoyloviç nəşr etmişdir.

2. Canlı türk şivələrinə və onların qarşılıqlı münasibətlərinə aid olan əsərləridir ki, bunların arasında bilxassə Krım-tatar və türk-Osmanlı ləhcələrinə aid iki sərfi ayrı yer tutmaqdadır. Hər ikisi də elmi məqsədlə yazılmış olmaqla bərabər, türk-tatar lisaniyyatına aid bir neçə məsələlər bu sərflərdə təhlil və tədqiq olunmuşdur. İkinci sərf birincisinə görə daha ziyadə mükəmməldir. Bu xüsusda öz zamanında fikrimizi müfəssəl surətdə yazmış olduğumuzdan burada daha ziyadə məlumat verməyi münasib görmürüz ("Yeni məktəb" məcmuəsi, 1926-cı il nüsxəsi, "Türk dili haqqında üç sərf").

Lisaniyyata aid əsərləri yanında türk ləhcələrinin akademik Radlov və Korş (**Корш**) tərəfindən yapılmış olan təsnifinə yapdığı əlavə və təshihləri havi olan və "Türk-tatar dillərinin təsnifinə bəzi əlavələr" (**"Некоторые дополнения к классификации турецких языков"**) namını daşıyan risaləsidir.

Professor Samoyloviçin özünün də sonradan tanıdığı kibi, bu təsnifdə bəzi etiraz olunacaq nöqtələr bulunmaqla bərabər, hər halda türk-tatar ləhcələrinin gərək əsrimizdə və gərəksə tarixi təkamülləri boyunca bir-birinə qarşı işğal etdikləri vəziyyəti, Radlov və Korşa görə daha aydın və toplu surətdə göstərməkdədir.

3. Yuxarıda göstərdiyimiz kibi, türkolojinin bəzi nöqsanlarını doldurmaq, bəzi şöbələrinin yekununu vermək üçün yazılan əsərləri professor Samoyloviçin fəaliyyətində ayrı bir yer tutmaqdadır. Onun kibi əsərləri içində bəzi səyahət hesabçıları Berezin (**Березин**), Radlov, Melioranski (**Мелиоранский**), Tomsen (**Томсен**) kibi ilərı gələn türkoloqlar haqqında yazdığı bioqrafilər və bilxassə "Sayı adları", "Türk-tatar xalqlarında həftə adları", "Türk-tatar xalqlarında heyvan təqvimi", "Orxon kitabələri haqqında bu günə qədər yapılan tədqiqlərin cədvəli", "Orta Asiyaya aid ədəbiyyat cədvəli"... kibi əksəriyyətlə türkoloqlar üçün çox faydalı əsərlər vardır.

Son zamanlarda Mir Əlişir Nəvai haqqında yapılan bəzi tədqiqatın yekunlarını verən müfəssəl bir məqaləsi akademinin bu böyük cığatay şairi haqqında nəşr etdiyi məcmuədə buraxıldığı kibi, cığatay dili sərfi də təb edilməkdədir.

Hər halda professor Samoyloviçin fəaliyyəti elmi və əməli cəhətlərdən olduqca faydalı və bərəkətli bir fəaliyyət ədd olunmalıdır.

Elmi qədəmi və karyerası

Professor Samoyloviç türk filolojisi magistri rütbəsinə malikdir. Bu rütbəni 1915 sənəsində almışdır. 1907 sənəsində privat-dosent, 1917-də dosent və 1918 sənəsində professor olmuşdur. Nəhayət, 1925-də Elmlər Akademisinə müxabir üzv (**член корреспондент**) olaraq seçilmişdir. Bu il yeni akademilər seçkisində akademi üzvlüyünə namizədliyi göstərilmişdir.

Professor Samoyloviçin birinci əsəri 1903 sənəsində nəşr olunmasına görə 1928-ci ildə onun elmi və tədrisi fəaliyyətinə 25 il dolmuşdur. Bu münasibətlə bir neçə türk-tatar cümhuriyyətlərində və Leninqradın bir neçə elmi müəssisələrində yubiley mərasimi düzəldilmiş və Samoyloviçə Şuralar İttifaqı Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Əməkdar elmi işçi ünvanı verilmişdir.

Nəticə

Elmi həyat və fəaliyyətinin ən mühüm qismi bilxassə oktyabr inqilabından sonra doğrudan-doğruya türk-tatar xalqlarına aid olan bir alimi müəllimlərimiz və maarif xadimlərimiz tanımalı, xüsusilə onun əsərlərindən lüzumi dərəcədə faydalanmalıdırlar. Professor Samoyloviç bu gün Şuralar İttifaqı içində bulunan türkoloq-lisançıların ağsaqqalı və şura şərqşünaslığının rəhbərlərindən birisi olduğundan onun fəaliyyəti və əsərləri ilə tanış olmayan bir adam bu sahədə iləriləyə bilməz.

Biz bu məqaləmiz münasibəti ilə də professora müvəffəqiyyətlər və eyni enerqiya ilə çalışmaq təmənna edirik.

Maarif işçisi, № 7-8, 1928, səh. 80-86.

LÜĞƏT VƏ ONUN TƏŞKİLİ

(Gənc Azərbaycan lüğətçilərinə bir neçə söz)

Lüğət və onun əhəmiyyəti

Əvvəldən bəri lüğət lisan tədqiqlərində və bilxassə elmi çərçivəsində lisaniyyat elmi təşkil etdikdən mühüm bir yer tuta gəlmişdir. Lisaniyyatın başlıca şöbələri olan sövtiyyat, şəkliyyat və nəhv həp lüğət tədqiqlərilə bağlıdır.

Son dövrün böyük fransız alimlərindən de Sössür (**De Saussure**) "Ümumi lisaniyyat dərsləri" (**Cours linguistique generale**) namilə 1922-də nəşr etdiyi əsərində pək doğru olaraq dünyada bulunan dilləri başlıca iki qismə ayırır: 1) sərfi (**grammatique**); 2) lüğəvi (**lexicologique**) (p.183).

Sərfi dillərin ən mükəmməl tipi hind-Avropa və sami ailələr olduğu kibi, lüğəvi dilləri də Çin kibi cizri dillərdə təmsil edilmiş saya biliriz.

